**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# DOXSAN ÜÇÜNCÜ KİTAB

## FEVRAL 2019 - MART 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının ölkəmizə rəsmi səfərə gəlmiş Gürcüstan Prezidenti ilə görüş və danışıqlarına, Azərbaycanın bir qrup mədəniyyət və incəsənət xadimləri ilə görüşlərinə dair materiallar, həmçinin Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında və «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında nitq və çıxışları verilmişdir.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir cilddə öz əksini tapır.

Kitabda dövlət başçısının Ağsu və Şamaxı rayonlarında baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı həmin rayonlara, Beyləqana və Sumqayıt şəhərinə səfərləri, bu səfərlər çərçivəsində bölgə ictimaiyyətinin nümayəndələri ilə görüşlərinə dair materiallar toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA BEYLƏQAN RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*13 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Gənclər və İdman naziri Azad Rəhimov Beyləqan Olimpiya İdman Kompleksində yaradılmış şərait barədə Azərbaycan Prezidentinə ətraflı məlumat verdi. Bildirildi ki, kompleksin tikintisinə 2018-ci ildə başlanılıb. Prezident İlham Əliyevin sərəncamları ilə Olimpiya İdman Kompleksinin tikintisinin davam etdirilməsinə ümumilikdə 17,5 milyon manat vəsait ayrılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin fevralında başa çatdırılıb. Kompleks müasirliyi ilə diqqəti cəlb edir. Bu, ölkəmizdə istifadəyə verilən sayca 45-ci Olimpiya İdman Kompleksidir. Ümumi ərazisi 2,6 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıbdır.*

*Diqqətə çatdırıldı ki, 820 tamaşaçı yeri olan universal idman salonunda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu*

*yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm rol oynayır. Beyləqan Olimpiya İdman Kompleksinin stolüstü tennis, bilyard, şərq döyüşü və trenajor zallarında idmançılar üçün hərtərəfli şərait yaradılıbdır. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Boks zalında məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait vardır. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub. Güləş zalı Beynəlxalq Güləş Federasiyasının standartlarına uyğun tikilib. Güləşçilərin məşqlərinin yüksək səviyyədə keçirilməsi üçün ən xırda incəliklər belə, nəzərə alınıb. Burada üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25, eni isə 12,5 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 162 nəfər izləyə biləcəkdir.*

*Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. 50 yerlik mehmanxanada idmançıların qalması və istirahəti üçün hər cür imkan vardır. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VİP otaqlar və 50 yerlik konfrans zalı da mövcuddur.*

*Beyləqan Olimpiya İdman Kompleksinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıbdır.*

*Beyləqan Olimpiya İdman Kompleksi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev idmançılar və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün Beyləqan rayonunda çox əlamətdar bir gündür. Beyləqanda Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Çox gözəl idman mərkəzidir. Burada idmanla məşğul olmaq üçün bütün şərait vardır – məşq zalları, cüdo, güləş, boks üzrə xüsusi məşq zalları, üzgüçülük hovuzu, böyük idman salonu, stadion. Bu mərkəzin həm xarici görünüşü, həm də daxili tərtibatı çox gözəldir. Burada 50 nəfərlik hotel də yerləşir. Beləliklə, Beyləqana gələn qonaqlar burada rahatlıqla qala bilərlər.

Mərkəzin yaradılması bizim idman siyasətimizin təzahürüdür, bu onu göstərir ki, doğrudan da Azərbaycan idman ölkəsidir. Biz çalışırıq bütün bölgələrdə, hər bir rayonda müasir idman kompleksləri tikilsin ki, uşaqlar, yeniyetmələr, gənclər idmanla məşğul olsunlar. Bu şəraiti biz yaradırıq. Deyə bilərəm ki, bu Olimpiya İdman Kompleksi ən yüksək dünya standartlarına cavab verir. Burada bizim gənc idmançılarımız məşq edəcək, yarışacaq və beləliklə, ölkəmizin idman şöhrətini yüksəklərə qaldıracaqlar.

Bütün bölgələrdə bu istiqamətdə işlər gedir. Bu il əlavə 2 Olimpiya İdman Mərkəzinin açılışı gözlənilir. Yəni Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini aparır. Bunun nəticəsində bizim idmançılarımız beynəlxalq yarışlarda, dünya, Avropa çempionatlarında, Olimpiya oyunlarında yüksək nəticələr qazanırlar.

Hər bir Azərbaycan vətəndaşı fəxr edir ki, idmançılarımız bu gün dünya miqyasında ən yüksək zirvədədirlər. Bunu Olimpiya oyunları da göstərdi. Keçən Yay Olimpiya oyunlarında medalların sayına görə bizim komandamız dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi bir qələbədir. Çünki biz bir çox inkişaf etmiş ölkələri qabaqlamışıq. Dünya və Avropa çempionatlarında da bizim idmançılarımız ən yüksək nəticələr göstərərək, bayrağımızı zirvələrə qaldırırlar.

Əlbəttə, idmanla məşğul olmaq üçün şərait olmalıdır ki, bu şərait də yaradılır. Bakı şəhərində ən mötəbər idman yarışları keçirilir – Avropa oyunları, İslam Həmrəyliyi oyunları, dünya çempionatları. Bölgələrdə bu şərait yaradılır ki, idmançılar, gənclər idmanla məşğul olsunlar. Əminəm ki, rayon sakinləri də bu imkanlardan istifadə edəcəklər. Hər bir vətəndaş idmanla məşğul olsa, daha sağlam olar. Çünki idman sağlamlığın rəmzidir. İdmançılar həm fiziki, həm də mənəvi cəhətdən sağlam olurlar. Bizim idmançılarımız yarışlarda da, məişətdə də yüksək nümunə göstərirlər. Biz idmançılarımızla haqlı olaraq fəxr edirik. Görkəmli idmançılarımız, olimpiya çempionlarımız, dünya çempionlarımız – onlardan biri bu gün burada iştirak edir – onlar bizim fəxrimizdirlər. Onlar gənclər üçün gözəl nümunə göstərirlər. Gənclər vətənpərvər, peşəkar, fiziki cəhətdən güclü olmalıdırlar.

Mən görürəm, Beyləqan idmançılarının medalları kifayət qədər çoxdur. Siz bu medalları yarışlarda qazanmısınız. Beyləqanda çox güclü güləş məktəbi

vardır. Bu ənənələr yaşayır və yaşayacaqdır. Əminəm ki, bundan sonra da Beyləqan ölkəmiz üçün gözəl idmançılar yetişdirəcəkdir. Biz isə çalışacağıq ki, bundan sonra da idmanın inkişafı ilə bağlı lazımi addımları ataq. Çünki idman Azərbaycanda dövlət siyasətidir. Bunu, demək olar ki, bütün beynəlxalq idman qurumları qeyd edir, yüksək qiymətləndirir və məhz buna görə Azərbaycanda çox böyük beynəlxalq yarışlar keçirilir. Beyləqan rayonunun inkişafına daim diqqət göstərilir, bu istiqamətdə işlər görülür, infrastruktur layihələri, sosial layihələr icra edilir. Misal üçün, indi Beyləqan rayonunda qazlaşdırılmanın səviyyəsi 97 faizdir. Yaxın zamanlarda bu, 100 faizə çatacaqdır. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl qaz təchizatı çox aşağı səviyyədə idi, bu çox böyük göstəricidir. Bu gün fəaliyyətə başlayacaq yeni yarımstansiya Beyləqan rayonunun elektrik enerjisi ilə təminatını yüksək dərəcədə yaxşılaşdıracaq və bu sahədə də heç bir problem olmayacaqdır. Bu gün biz yeni yolun açılışını qeyd etdik. Gələcəkdə bu istiqamətdə işlər aparılacaq ki, kənd yollarının təmiri, bərpası, tikintisi daha da geniş vüsət alsın. Bu günə qədər bir neçə layihə icra edilibdir. Bunlar daha da geniş miqyasda icra edilməlidir. 2016-cı ildə Beyləqan şəhərinin içməli su problemi öz həllini tapdı. İndi isə kanalizasiya sisteminin yenidən qurulması, təmizləyici qurğuların quraşdırılması prosesi gedir. Bütün əsas infrastruktur layihələri icra edilir.

Sahibkarlığa dəstək göstərilir, güzəştli şərtlərlə kreditlər verilir. Beyləqanda 3 aqropark yaradılıbdır.

Vətəndaşlar orada çalışırlar, işləyirlər. Kənd təsərrüfatı müasir səviyyədə inkişaf etdirilir. Mənim göstərişimlə Azərbaycanın rayonlarında ödənişli ictimai işlər yaradılıb. Bu il ən azı 30 min ictimai iş yaradılacaq. Həm Bakıda, böyük şəhərlərdə, həm də bütün rayonlarda, o cümlədən Beyləqan rayonunda yüzlərlə ödənişli ictimai iş yaradılıb ki, hələlik iş tapa bilməyən vətəndaşlar bu işlərə cəlb olunsunlar və maaş alsınlar.

Rayonun inkişafı ilə bağlı ardıcıl siyasət aparılır. Əlbəttə, sosial infrastruktur da burada çox böyük əhəmiyyət daşıyır. Bilirsiniz ki, Beyləqanda 140 çarpayılıq Mərkəzi Rayon Xəstəxanası, bir çox məktəblər tikilibdir. İndi mənə dedilər ki, Dünyamalılar kəndində yerləşən məktəb uyğunlaşdırılmış binadadır. O məktəbin tikintisi ilə bağlı göstəriş veriləcək. Gözəl Olimpiya Kompleksi yaradılıb, digər sosial obyektlər, Gənclər Mərkəzi fəaliyyət göstərir. Bir sözlə, rayonun inkişafı kompleks xarakter daşıyır və əminəm ki, Beyləqan rayonu bundan sonra da yüksək nəticələr göstərəcək və vətəndaşlar burada qurub yaradacaq, ümumi işimizə töhfə verəcəklər. Mən sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. İdmançılara yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

**S a h i b  N ə s i b o v** (*karate üzrə dünya çempionu*): Möhtərəm cənab Prezident, mən də Sizi Beyləqanın gənc idmançıları adından salamlayıram, rayonumuza xoş gəlmisiniz! Siz həmişə gənclərimizə,

idmançılarımıza dəstək olmusunuz. Bunun uğurlu nəticəsidir ki, Azərbaycan idmançıları beynəlxalq yarışlarda dövlətimizin bayrağını yüksək zirvələrə qaldırırlar. Artıq Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Cənab Prezident, Sizi əmin edirəm ki, bu gözəl kompleksi bizə hədiyyə etdiyiniz üçün biz var gücümüzlə, inşallah, Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında öz sözümüzü deyəcəyik. Cənab Prezident, Beyləqan idmançıları adından Sizə minnətdarlığımı bildirirəm ki, bizə belə gözəl kompleks hədiyyə etdiniz. Çox sevinirik. İnanın ki, sevincimizin həddi-hüdudu yoxdur. Allah Sizə yar olsun. Çox sağ olun, minnətdarıq.

**İlham Əliyev**: Sağ olun.

**Kamil Fərzəliyev** (*Yunan-Roma güləşi üzrə Əməkdar məşqçi*): Möhtərəm cənab Prezident, Sizə minnətdarlığımızı bildiririk.Mən Yunan-Roma güləşi üzrə Əməkdar məşqçiyəm. Böyük bir kompleksi bizə hədiyyə etdiyiniz üçün Sizə minnətdarlığımızı bildiririk. Bu kompleksdə dünya və Avropa çempionlarımız var, əminəm ki, inşallah, olimpiya çempionumuz da olacaq. Sizə bir daha minnətdarlığımızı bildiririk. Allah Sizi qorusun.

**İlham Əliyev:** Sağ olun. Ümid edirik ki, Olimpiya oyunlarında yaxşı nəticələr göstəriləcək.

**Kamil Fərzəliyev:** Allahın köməyi ilə. Mən Eldənizin adını çəkmək istərdim, fəxrimizdir.

**İlham Əliyev:** Bəli, gözəl idmançıdır.

**K a m i l  F ə r z ə l i y e v:** Nailiyyətlər qazanmış digər idmançılarımız da vardır. Bir daha minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v:** Sağ olun.

*Daha sonra Yunan-Roma güləşi üzrə dünya çempionu Eldəniz Əzizov idmançılara göstərdiyi qayğıya görə dövlət başçısına minnətdarlıq etdi.*

* * *

*Qeyd edək ki, kompleksin müasir standartlara cavab verən futbol meydançasında keçiriləcək yarışları tribunalardan 1900-ə qədər tamaşaçı izləyə biləcək. Burada mini-futbol meydançaları da idmançıların ixtiyarına verilib. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Həyətdə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, istirahət guşələri yaradılıbdır.*

## Tarix-Diyarşünaslıq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də əsaslı şəkildə yenidən qurulan Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yenidən qurulmadan sonra muzeydə yaradılmış şəraitlə tanışlıq zamanı dövlət başçısına məlumat verildi ki, bu mədəniyyət ocağı 1981-ci ildə yaradılıb. Muzeyin əvvəlki binası uzun illər istismar olunduğundan fiziki aşınmaya məruz qalmışdır. Bundan başqa,*

*muzeyin ekspozisiyası SSRİ dövrünün tərtibatı əsasında qurulmuşdu. Ötən il yenidən inşa edilmiş ikimərtəbəli binanın ümumi sahəsi 1050 kvadratmetrdir. Muzeydə ekspozisiya zalı, 2 xidməti otaq, 1 fond otağı, 60 yerlik konfrans zalı, 12 yerlik dəyirmi masa zalı, 1 texniki otaq vardır. Muzeydə həm ölkəmizin, həm də Beyləqanın tarixini əks etdirən eksponatlar toplanılıb. Bu eksponatlar turistlərdə böyük maraq doğuracaq, onların ölkəmizin tarixi ilə daha yaxından tanış olmalarına hərtərəfli imkan yaradacaqdır.*

*Bildirildi ki, burada 6087 adda eksponat mövcuddur. Muzeyin fondunda və kolleksiyasında ən qədim eksponat Son Tunc, İlk Dəmir dövrü və eramızdan əvvəl X–VII əsrlərə aiddir. Ekspozisiya zalında Beyləqanın qədim dövrdən bu günə qədər olan siyasi və ictimai tarixi, maddi-mədəniyyət nümunələri, mədəni-iqtisadi həyatı, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Beyləqan rayonuna səfərlərini əks etdirən fotolar və məlumatlar nümayiş etdirilir.*

*Şanlı tariximizin gənclərə dərindən öyrədilməsi və gələcək nəsillərə çatdırılması baxımından belə muzeylərin müstəsna əhəmiyyəti vardır. Belə muzeylər həm də Azərbaycan tarixinin zənginliyini nümayiş etdirir. Bu baxımdan son dövrlərdə Azərbaycanda yeni muzeylərin inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması işi geniş vüsət alıb. Belə layihələrin icrası ölkəmizin tarixinin müxtəlif dövrlərini araşdırmaq üçün müstəsna əhəmiyyətə malikdir.*

*Sonra Prezident İlham Əliyev muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşdü.*

*Rayon sakinləri dövlət başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev sakinlərlə söhbət etdi.*

**S a k i n l ə r:** Cənab Prezident, Sizin gəlişiniz bizi sevindirir. Xoş gəlmisiniz! Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**Y a ş l ı q a d ı n:** Xoş gəlmisən, mənim balam, başına dönüm. Bizdən Mehriban xanıma da çoxlu salam apar. Beyləqan torpağına xoş gəlmisən. Səndən çox-çox razıyıq. Allah o bir oğlunu min budaq eləsin. Azərbaycanın fəxri, Heydər oğlu, Beyləqan Sənin arxandadır. Beyləqan rayonu Sizinlə fəxr edir. Azərbaycanın fəxrisiniz.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm.

**R a f i q H a c ı y e v:** Hamıdan üzr istəyirəm, bağışlayın, oğlum Beyləqan rayonunda seçki məntəqəsinin fəal işçisidir, indi xəstədir, əməliyyat olunmalıdır.

**İ l h a m Ə l i y e v:** Mən kömək edərəm, adını və soyadını yazın.

**R a f i q H a c ı y e v:** Allah razı olsun. Hacıyev Tural Rafiq oğlu.

**S a k i n:** O gün olsun ki, tezliklə biz Dağlıq Qarabağda belə bir yığıncaq keçirək. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən Beyləqana 6-cı dəfədir ki, gəlirəm və hər bir səfərdə gözəl açılışlar, gözəl tədbirlər olur. Bu gün də belədir. Misal üçün, bu gün böyük Olimpiya İdman Kompleksinin açılışını etdik. Burada idmanla məşğul olmaq üçün gözəl şərait

yaradılıb. Yeni yarımstansiya işə düşür, yeni yolun açılışını etdik. Beyləqan rayonunun ümumi inkişafı ilə bağlı ardıcıl tədbirlər görülür. Qazlaşdırılma bir müddətdən sonra 100 faizə çatacaq, indi 97 faizdir. Şəhərin içməli su layihəsi icra olunubdur.

**Yaşlı qadın:** Çox sağ ol, ay mənim əziz balam. Səni bizə bəxş edən o kişiyə Allah rəhmət eləsin. Azərbaycanın gözəl oğlu, siyasətdə ən öndə duran balamız. Çox sağ ol. Sənin gəlişinə bütün nənələr qurban. Hər bir qüvvətli kişinin arxasında bir cəngavər qadın durur. Allah səni də, sənin arxanda dayanan Mehriban xanımı da qorusun. Hər ikinizə uğurlar arzulayıram.

**İlham Əliyev:** Çox sağ olun. Mən Sizi ürəkdən salamlayıram və Sizə xidmət etməyə gəlmişəm.

**Sakinlər:** Sağ olun. Abad yollarımız, qazımız, işığımız var, cənab Prezident. Allah Sizi də, Mehriban xanımı da qorusun. Beyləqan qadınları adından minnətdarlığımızı bildiririk.

**İlham Əliyev:** Sağ olun, soruşmaq istəyirəm, Beyləqan rayonunun inkişafı, vətəndaşların rifahının yaxşılaşdırılması üçün əlavə nə etmək lazımdır?

**Sakin:** Dünyamalılar kəndində yeni məktəbin tikilməsinə ehtiyac var, cənab Prezident.

**İlham Əliyev:** Bu il onu da həll edəcəyik. Məktəb tikiləcək. Mən artıq bunu dedim, bir daha demək istəyirəm, Dünyamalılar kəndində yeni məktəb tikiləcək, çünki həmin məktəbin vəziyyəti o qədər də yaxşı deyil. Yataqxanalarda yaşayan vətəndaşlar üçün

36 mənzilli yeni bina tikiləcək. Növbəti mərhələdə yeni kənd yolları da salınacaqdır.

**S a k i n l ə r:** İnşallah, çox sağ olun. Allah Sizdən razı olsun. Qazımız, işığımız, suyumuz, yolumuz var, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Beyləqanda 3 aqropark fəaliyyət göstərir və orada məhsuldarlıq yaxşıdır, pambıqçılığın ənənələri bərpa olunur. Ulu öndərin vaxtında burada çox bol pambıq yığılırdı, yavaş-yavaş o hədəfə yaxınlaşırıq.

**S a k i n:** Cənab Prezident, o vaxt Beyləqan 100 min tona yaxınlaşmışdı. 50 min ton üzüm, 87 min ton pambıq Beyləqanın axırıncı göstəricisi idi.

**İ l h a m Ə l i y e v:** Keçən il təqribən 22 min ton pambıq tədarük edilibdir. Ancaq əlbəttə ki, biz o səviyyəyə çatmamışıq, tədricən buna da, inşallah, çatarıq. Məşğulluqla da bağlı göstəriş vermişəm, yüzlərlə yeni ödənişli ictimai iş açılsın ki, hələlik iş tapa bilməyən vətəndaşlar ictimai işlərlə məşğul olsunlar.

**S a k i n:** Cənab Prezident, çox sağ olun. Siz minimum əməkhaqqını 130 manatdan 180 manata qaldırdınız. Pensiyamızı qaldırdınız. Həmçinin qaçqın və məcburi köçkünlərin, hərbçilərin mənzil-məişət şəraitləri yaxşılaşdırıldı. Kənd ilə şəhər arasında fərq aradan qalxır. Bu gün bütün Azərbaycan gördüyünüz böyük işlərə görə Sizə minnətdardır. Cənab Prezident, mən gənc ailəyəm, özüm Beyləqan Rayon Mədəniyyət Mərkəzində işləyirəm, müğənniyəm. Artıma görə ailəmiz çox şad oldu. Çox sağ olun, Allah Sizə ömür versin.

**S a k i n:** Vətəndaşlarla bir yerdə olmağınız, onlara arxalanmağınız, onlarla təmasda olmağınız, özünüzün dediyiniz kimi, onların arzu və təkliflərinə, istəklərinə vaxtında cavab verməyiniz bizi sevindirir. Siz həmişə verdiyiniz sözə əməl edirsiniz. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Mən verdiyim sözlərə həmişə əməl etmişəm.

**S a k i n:** Siz xalqın arxasındasınız, xalq Sizin arxanızdadır. Nənələr, analar gecə-gündüz dua edirlər ki, qara qüvvələr Sizdən uzaq olsun.

**İ l h a m Ə l i y e v:** Mən həmişə bu dəstəyə arxalanmışam, mənə güc verən Sizin mənə olan inamınızdır.

**S a k i n:** Yaxın vaxtlarda bayrağımız Xankəndidə dalğalansın. Amin.

**İ l h a m Ə l i y e v:** İnşallah!

**S a k i n:** Cənab Prezident, imkanım yoxdur, evim uçub, mənə kömək edin.

**İ l h a m Ə l i y e v:** Ev niyə uçub? Bina evidir, yoxsa?

**S a k i n:** Köhnə hökumət evidir, keçən əsrin 35–37-ci illərində tikilib.

**İ l h a m Ə l i y e v:** Biz onu həll edəcəyik, 36 mənzilli ev tikiləcək, bu gün sərəncam imzalanacaq, oradan sizə də ev veriləcəkdir. İcra başçısına da tapşırıram ki, nəzarət etsin.

**S a k i n:** Çox sağ olun, cənab Prezident.

*Sonra Prezident İlham Əliyev parkda yaradılmış şəraitlə tanış oldu.*

## Yenidən qurulmuş 110/35/10 kV-luq «Beyləqan-1» yarımstansiyasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 13-də Beyləqan rayonunda yenidən qurulmuş 110/35/10 kV-luq «Beyləqan-1» yarımstansiyasının açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb, bu sektorda mövcud çatışmazlıqların aradan qaldırılması, yeni yarımstansiyaların tikintisi diqqət mərkəzində saxlanılıbdır. Bu sırada Beyləqan rayonunda energetika sisteminin yenidən qurulması, əhalinin fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi prioritet məsələlərdən olub. İntensiv tikinti, yenidən qurulma və bərpa işləri nəticəsində rayonun kəndlərinin və ətraf ərazilərin elektrik təchizatının yaxşılaşdırılması, həmçinin kənd təsərrüfatı obyektlərinin elektrik enerjisinə artan tələbatının ödənilməsi üçün geniş imkanlar yaranıb. Bu illərdə rayonda xeyli hava xətləri çəkilib, kəndlərin elektrik şəbəkəsi özünüdaşıyan izolyasiyalı naqillərlə əvəzlənibdir. Hazırda bu işlər digər kəndlərdə davam etdirilir. Bununla mövcud elektrik şəbəkəsinin qoyuluş gücü artıb, texniki itkilər kəskin şəkildə azalıbdır.*

*Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.*

*«Azərişıq» ASC-nin sədri səlahiyyətlərini icra edən Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, Beyləqan Elektrik Şəbəkəsində 22480 abonent mövcuddur. Onlardan 20728-i əhali, 1752-si qeyri-əhali*

*kateqoriyasına aiddir. Rayonun elektrik enerjisi ilə təminatının və etibarlılığın artırılması məqsədilə istismarda olan avadanlığın texniki parametrlərini itirmiş və dispetçer əməliyyat çevrilmələrinin aparılması mümkün olmayan mövcud 110/35/10 kV-luq «Beyləqan-1» yarımstansiyası tam yenidən qurulub, hər biri 25 MVA gücünə malik 2 transformator quraşdırılaraq, 15 MVA yeni güc yaradılıbdır. Yarımstansiyada 35 kV-luq hava xəttinin tikintisi və şəbəkə ilə əlaqələndirilməsi, Beyləqan və Ağcabədi rayonlarının 35 kV-luq dairəvi elektrik təchizat sxemlərinin yaradılması bu rayonlarda elektrik enerjisinin dayanıqlılığına və etibarlılığına, 110 kV-luq 3 qovşaq yarımstansiyasının əlaqələndirilməsinə, eyni zamanda, yüklərin bir mənbədən digər mənbə üzərinə keçirilməsinə xidmət edəcəkdir. Yenidən qurulmuş yarımstansiya vasitəsilə Beyləqan şəhərində, Mayak və Yuxarı Aran qəsəbələrində yaşayan 28 min nəfər əhalinin eyni zamanda, şəhərdəki ictimai, sosial-mədəni, idman, səhiyyə obyektlərinin elektrik enerjisi ilə təchizatı həyata keçirilir. Həmçinin rayon ərazisində olan əkinçilik, pambıqçılıq və digər təsərrüfatların enerji təminatı tam ödəniləcək. Bildirildi ki, «Beyləqan-1» yarımstansiyasında müasirtipli idarəetmə mərkəzi, 35/10 kv-luq qapalı paylayıcı qurğular məsafədən dispetçer idarəetmə sisteminə qoşulub. Yarımstansiyanın inzibati binasında işçilər üçün iş otaqları, yardımçı və texniki otaqlar yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıqlar salınıbdır.*

**«N» saylı hərbi hissədə yaradılmış şəraitlə tanışlıq**

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevra-lın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş «N» saylı hərbi hissəsində yaradılmış şəraitlə tanış olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdilər. Azərbaycanın iqtisadi inkişafı Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Bu məsələyə vaxtında lazımi diqqət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsal yönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da gücləndirib. 2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında «Azərsilah» ASC-nin yaradılması ilə bağlı imzaladığı fərman da Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün*

*paytaxtda və bölgələrdə xidməti yaşayış binaları tikilibdir. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Bu nəticəyə isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olunub. İndiyə qədər ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur.*

*Dövlət başçısına məlumat verildi ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilibdir. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi üçün birmərtəbəli 4 xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla, 48 mənzilin tikintisi davam etdirilir. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də di-*

*gər tədbirlərin keçirilməsi üçün sıra meydanı da salınıbdır.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu. Yaylım atəşli reaktiv sistem «Smerç» kompleksi reaktiv mərmilər atmaqla, nüvə hücum vasitələrinə, cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə tank, motoatıcı, artilleriya və raket bölmələrinə, enmə meydançalarında helikopter bölmələrinə, mövqelərdə raket və hava hücumundan müdafiə bölmələrinə, idarəetmə məntəqələrinə tələfat vermək üçün təyin olunub. 122 millimetrlik yaylım atəşli reaktiv sistem BM-21 cəmləşmə rayonlarında düşmənin canlı qüvvə və döyüş texnikasını, atəş mövqeyində artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq üçün təyin edilib. 220 millimetrlik TOS-1A ağır odatan sistemi T-90 tankının şassisi üzərində quraşdırılan reaktiv qurğudur. O, idarə olunmayan reaktiv mərmilərin daşınması, saxlanılması, hədəfə tuşlanması və düşmənin tağım dayaq məntəqəsi tipli ərazi hədəflərini, həmlə edən bölük, artilleriya və minaatan batareyalarının atəş mövqelərini, marşda olan avtomobil kolonlarının məhv edilməsi üçün təyin olunub. 152 millimetrlik 2A36 topu düşmənin taktiki raket vasitələrini, uzaqvuran artilleriya bölmələrini məhv etmək və susdurmaq, düşmənin canlı qüvvəsini, atəş vasitələrini, marş zamanı döyüş texnikasını, cəmləşmə rayonlarını, müdafiə məntəqələrini məhv etmək və susdurmaq, düşmənin arxa cəbhəsini və*

*idarəetmə məntəqələrini tələfata uğratmaq üçün təyin edilib. 130 millimetrlik M46 topu düşmənin artilleriyasını, minaatanlarını, cəmləşmə rayonlarında yerləşən texnika və canlı qüvvəsini, arxa xidmət məntəqələrini və ordunun idarəetmə bölmələrini məhv etmək, səhra və uzunmüddətli müdafiə qurğularını dağıtmaq üçün təyin olunub. 120 millimetrlik «Nizə» minaatanı düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək üçün nəzərdə tutulub. Bu kompleks lazertuşlayıcı və avtomatik idarəetmə sistemi ilə yüksək dəqiqliklə qısa zamanda hədəfləri məhv etməyə qadirdir. «Nizə» döyüş maşını yolsuzluq şəraitində yüksək manevr imkanlarına malik olub, heyətin qorunmasını və təhlükəsizliyini təmin edir. Tank əleyhinə idarəolunan raket kompleksi «Xrizantema-S» sutkanın istənilən vaxtında, hava şəraitindən asılı olmayaraq, hərəkət edən və etməyən yerüstü və hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Tank əleyhinə raket kompleksi «Spike-LR» düşmənin 200 metrdən 4000 metrədək məsafədə hərəkət edən və hərəkətsiz tank və zirehli texnikasını, canlı qüvvəsini məhv etmək üçün təyin olunub. Kompleks yüngül çöl müdafiə qurğularına, binalara, alçaqdan uçan helikopterlərə də dəqiq atəş açmaq imkanı yaradır. Həmçinin kompleksdən kəşfiyyat xarakterli əməliyyatlarda da istifadə etmək mümkündür. «Spike-ER» qurğusu isə döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşan, 400 metrdən 8000 metrədək*

*gündüz, gecə və məhdud görmə şəraitlərində düşmən tanklarını, PDM, zirehli texnikasını, aşağı yüksəklikdə uçan hava hədəflərini məhv etmək üçün raket buraxıcı sistemdir. «Orbiter-2B» pilotsuz uçuş aparatı döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək üçün təyin olunub. Universal radiolokasiya kompleksi düşmənin atəş açan taktiki raketlərinin, reaktiv qurğularının, haubitsa və minaatanlarının kəşfiyyatını aparmağa və öz artilleriya bölmələrimizin atışına xidmət etmək üçün təyin edilib. R-010SC komanda-qərargah maşını əməliyyat idarəetmə səviyyələrində tətbiq olunmaqla, hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçün nəzərdə tutulub. R-010SC radioidarəetmə məntəqəsi isə analoq və rəqəmsal açıq, məxfi, sinxron tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüter vasitəsilə ötürülməsi və qəbulu üçün nəzərdə tutulub.*

*Şəxsi heyətə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə ərazidə xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş tibb məntəqəsi, qarovul məntəqəsi, yemək zalından, yeməkbişirmə, ərzaq və təsərrüfat otaqlarından, ərzaq və soyuducu anbarlardan ibarət yeməkxana binası inşa olunub. Ərazidə gündəlik 720 kiloqram paltar yumaq, qurutmaq və ütüləmək imkanına malik hamamxana-camaşırxana-qazanxana kompleksi yaradılıb. Hərbi hissədə avtomobil və xüsusi texnikanın yerləşdirilməsi üçün park da salınıbdır.*

*Prezident İlham Əliyev yeməkxanada yaradılmış şəraitlə də maraqlandı, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi. Bütün bunlar göstərir ki, orduda aparılmış islahatlar öz bəhrəsini verir. Döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Prezident İlham Əliyev təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərlər edir. Ali Baş Komandanın əsgərlərimizlə keçirdiyi görüşlər onları vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa hazır olmağa ruhlandırır. Bununla da güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilmiş torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Bunun nəticəsidir ki, qəhrəman hərbçilərimizin uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsi 2016-cı ildə azad olundu. Füzuli rayonu istiqamətində yerləşən və geniş ərazini nəzarətdə saxlamağa imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ələ keçirildi. Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Günnüt kəndinin 26 ildən sonra ordumuzun nəzarəti altına keçməsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad edildi, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Bu da göstərir ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücünün əsasında xalqına, dövlətinə sədaqət və vətən sevgisi durur.*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*18 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt şəhərinə səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdə görülən işlər haqqında dövlət başçısını məlumatlandırdı.*

*Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## SUMQAYIT ŞƏHƏRİNDƏ «SOCAR POLYMER»in YÜKSƏKSIXLIQLI POLİETİLEN ZAVODUNUN AÇILIŞINDA MÜƏSSİSƏNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞ

*18 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıt Kimya Sənaye Parkında «SOCAR Polymer» layihəsi çərçivəsində inşa edilmiş Yüksəksıxlıqlı Polietilen zavodunun açılışında iştirak etmişdir.*

*Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və «SOCAR Polymer» MMC-nin baş direktoru Fərid Cəfərov dövlət başçısına görülən işlərlə bağlı məlumat verdilər. Bildirildi ki, «SOCAR Polymer» layihəsi son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ilk belə layihədir. «SOCAR Polymer» şirkəti Azərbaycanda kimya sənayesinin inkişafını sürətləndirmək məqsədilə 2013-cü ildə təsis edilib. 2015-ci il oktyabrın 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə ən yüksək standartlara və müasir texnologiyalara əsaslanan «SOCAR Polymer» zavodlarının təməli qoyulub. 2018-ci il iyulun 18-də Azərbaycan Prezidenti İlham Əliyevin*

*və İtaliya Prezidenti Sercio Mattarellanın iştirakı ilə layihə çərçivəsində inşa olunmuş Polipropilen zavodunun açılışı olub. Artıq Yüksəksıxlıqlı Polietilen zavodu da istismara tam hazırdır. İlkin mərhələdə, «SOCAR Polymer» zavodları ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcək. SOCAR-ın yeni sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcəkdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, artıq Türkiyə, Rusiya, Belarus və Ukraynadan sifarişlər qəbul edilib. Zavodda «made in Azerbaijan» brendi ilə istehsal olunmuş polipropilen qatarla sifariş edən ölkələrə yola salınıbdır.*

*Qeyd edək ki, «SOCAR Polymer» Azərbaycanın neft-kimya sənayesində dövlət–özəl sektor tərəfdaşlığı üzrə yaradılmış ilk şirkətdir. Layihəni həyata keçirmək üçün İtaliyanın «Maire Tecnimont», Niderlandın «Fluor» şirkətləri və digər şirkətlər cəlb edilib. Layihə çərçivəsində milli mühəndis kadrlarının ixtisaslarının artırılması təmin olunacaq. Bu məqsədə çatmaq üçün vahid layihə idarəetmə qrupu yaradılıb. «Fluor» şirkəti milli mühəndis kadrları və digər işçilər üçün Amsterdamda, Milanda və Mumbayda ixtisas kursları təşkil edib. Bundan başqa, ekoloji və sosial təsirlərin minimuma endirilməsi, zərərli maddələrin və maye tullantılarının zərərsizləşdirilməsi diqqət mərkəzində saxlanılıb. Odur ki, beynəlxalq lisenziyalardan əldə edilmiş texnologiya əsasında*

*fəaliyyət göstərəcək bu zavodlar istehsal prosesi və məhsulun keyfiyyəti baxımından ən yüksək beynəlxalq standartlara cavab verəcəkdir.*

*Sonra Prezident İlham Əliyev zavodun idarəetmə mərkəzi ilə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin müxtəlif vaxtlarda Sumqayıta səfərlərinin əks olunduğu fotoguşə yaradılıb. Müəssisəyə cəlb olunmuş investisiyaların 60 faizi Rusiyanın «Qazprombank», qalan hissəsi isə müvafiq olaraq SOCAR, «Vitol», «Paşa Holdinq», «Gilan Holdinq» və «Azərsun Holdinq» tərəfindən təmin edilibdir. «Layihə maliyyələşdirilməsi» prinsipi əsasında 489 milyon dollar məbləğində əsas səhmdarın təminatı olmadan kredit alınıb. Bu prinsip əsasında maliyyələşdirilmə ölkə daxilində birinci dəfədir ki, həyata keçirilir. Ümumi investisiya xərcləri 816 milyon dollar təşkil edir. Zavodların istismarı dövründə 6,6 milyard dollar məbləğində gəlir proqnozlaşdırılır ki, bunun 30 faizi şirkətin xalis mənfəəti olacaqdır. Bundan başqa, «SOCAR Polymer» tərəfindən dövlət büdcəsinə istismar müddəti ərzində ümumilikdə 600 milyon dollar məbləğində vergilərin ödənilməsi nəzərdə tutulur. Bu, ölkənin ümumi daxili məhsulunun artmasına da kömək edəcək. İlkin qiymətləndirilmələrə görə, «SOCAR Polymer» zavodlarının fəaliyyəti Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 15 faiz, Abşeron iqtisadi regionunun ümumi daxili məhsulunun həcmini isə 14 faizdən çox artıracaqdır.*

*Prezident İlham Əliyev Yüksəksıxlıqlı Polietilen zavodunu işə saldı.*

*Zavodun tərkibində olan polimerizasiya, katalizatorun aktivləşdirilməsi əraziləri, orqanoleptik emal bölməsi, laboratoriya, qablaşdırma bölməsi, anbar və idarəetmə otağının fəaliyyətinə dair qısa film nümayiş olundu.*

*Sonra dövlət başçısı müəssisənin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən çox şadam ki, bu zavodda işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Mən sizi ürəkdən salamlayıram və zavodun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bir neçə il bundan əvvəl bu zavodun təməli qoyuldu. O vaxt burada heç nə yox idi. Vaxtilə burada fəaliyyət göstərmiş müəssisələr sıradan çıxmışdı və yarıdağılmış vəziyyətdə idi. Dövlət tərəfindən bu ərazi nəzarətə götürüldü, böyük təmizlik işləri aparıldı. Ümumiyyətlə, Sumqayıt Kimya Sənaye Parkının ərazisi 500 hektardan çoxdur və bu ərazidə bütün kommunikasiyalar, infrastruktur layihələri icra edildi ki, burada müasir sənaye mərkəzi yaradılsın. Biz buna nail ola bildik. Bu gün Sumqayıt Kimya Sənaye Parkında bir çox müəssisələr fəaliyyət göstərir və onların arasında «SOCAR Polymer»in, əlbəttə ki, xüsusi yeri vardır.

Keçən il Polipropilen zavodunun açılışı rəsmi qaydada qeyd olundu. Bu gün isə biz Yüksəksıxlıqlı Polietilen zavodunun açılışını qeyd edirik. Beləliklə, «SOCAR Polymer» tam gücü ilə işə başlayır. Bu çox əlamətdar hadisədir. Bu, ölkəmizin inkişafını göstərir və ölkəmizə xarici maliyyə qurumları tərəfindən olan inamın təzahürüdür. Çünki bildiyiniz kimi, bu

zavodun tikintisində xarici banklar fəal iştirak ediblər. Bu, bütövlükdə ölkəmizdə gedən sənayeləşmə siyasətinin gözəl nəticəsidir.

Siz, burada çalışan gənclər, yaxşı bilirsiniz ki, zavodun istehsal gücü 300 min ton olacaqdır. Bu bizim qeyri-neft ixracımızın 15 faiz artımı deməkdir. Bizim əsas məqsədimiz qeyri-neft ixracını artırmaq, ölkə iqtisadiyyatını şaxələndirmək, yeni iş yerləri açmaq və Azərbaycanda müasir texnologiyalı müəssisələrin yaradılmasına nail olmaqdır. Bununla paralel olaraq, belə böyük, texnoloji cəhətdən müasir zavodların fəaliyyəti gənclərin hazırlanmasına da xidmət göstərir. Siz gənclər təlim keçmisiniz, orta əməkhaqqı çox yüksəkdir. Siz buna layiqsiniz. Siz müasir sənaye müəssisəsində çalışacaqsınız və bu müəssisənin fəaliyyəti ölkəmizi gücləndirəcəkdir.

Yeni iş yerlərinin yaradılması prosesi burada təmin olunur, təxminən 500-dən çox yeni iş yeri açılır. Bu yaxınlarda Karbamid zavodunun açılışında iştirak edərkən məlumat verildi ki, orada da 500-dən çox iş yeri yaradılır. Yəni bu iki mühüm müəssisənin əhəmiyyəti çox böyükdür. İlk növbədə, bu iki müəssisəyə 1,6 milyard dollar sərmayə qoyulub. Çox böyük rəqəmdir, özü də nəzərə alsaq ki, bu sərmayə qeyri-neft sektoruna qoyulub. Digər tərəfdən, burada istehsal olunan məhsullar ixrac yönümlüdür və ölkəmizə valyuta gətirəcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, hazır məhsuldan valyuta qazanacağıq. Burada müasir texnologiyalar tətbiq olunur və Azərbaycanın texnoloji inkişafına bunun

müsbət təsiri vardır. 1000-dən çox iş yeri, gənclər üçün gözəl imkanlar yaradılır.

Yəni bir sözlə, belə böyük layihələrin icrasının çox böyük mənası, çoxşaxəli təsiri var və bir daha onu göstərir ki, Azərbaycan düzgün yoldadır. Biz bu layihələrə start verəndə, əlbəttə, təxmin edirdik ki, bu çox gözəl nəticələrə gətirib çıxaracaq. Bu gün biz bunun əyani şahidiyik. Bundan sonra da Azərbaycanın sənaye potensialı inkişaf edəcək. Sənayeləşmə öz gözəl nəticələrini verir. Keçən il qeyri-neft sektorunda sənaye istehsalı 9 faizdən çox, bu ilin birinci ayında isə 14 faizə yaxın artıbdır, o cümlədən bu zavodların fəaliyyətə başlaması nəticəsində. Əlbəttə, bundan sonra da qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, müasir zavodların, fabriklərin yaradılması prioritet olaraq qalacaqdır. Əminəm ki, belə müəssisələr gələcəkdə bizim sənaye imkanımızı yüksək dərəcədə artıracaq və ölkəmiz davamlı olaraq inkişaf yolu ilə gedəcəkdir.

Bu zavodun fəaliyyətə başlaması Sumqayıt şəhərinin ümumi inkişafına da böyük töhfədir. Sumqayıt bu gün nəinki Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Son illərdə Sumqayıtda bir çox müasir müəssisələr yaradılıb. Bu il Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin açılışı nəzərdə tutulur. Sumqayıtın sənaye, iqtisadi, sosial inkişafı daim diqqət mərkəzindədir. Sumqayıt bu gün yüksək ekoloji standartlara uyğun şəhərlərdən biridir. Biz bu sahəyə də çox böyük önəm veririk. Çünki bilirsiniz ki, sovet

vaxtında Sumqayıtda ekoloji vəziyyət o qədər də ürəkaçan deyildi. Sovet məkanında Sumqayıt bu baxımdan geridə qalmış şəhərlərdən biri idi. Bu da təbii idi, çünki o vaxt müasir təmizləyici qurğular mövcud deyildi və burada böyük kimya mərkəzi yaradılmışdı. Bu gün isə Sumqayıtın gözəl havası, ictimai yerləri var, istirahət üçün parklar yaradılıb, vaxtilə salınmış parklar abadlaşdırılıb, Sumqayıt bulvarı yaradılıb, özü də qısa müddət ərzində. Bu da çox gözəl hadisədir. Yəni şəhərin ümumi inkişafı ilə bağlı çox böyük tədbirlər görülür, infrastruktur layihələri icra edilir. Bu yaxınlarda 2 saylı şəhər xəstəxanasının təmiri ilə bağlı müvafiq sərəncam verilibdir. Bu xəstəxanada təxminən 200-ə yaxın çarpayı vardır. Ondan əvvəl biz 1 saylı xəstəxananın təmirini təmin etdik. Qazlaşdırılmanın səviyyəsi təxminən 100 faizdir. Yəni bir sözlə, belə zavodların fəaliyyətə başlaması şəhərin inkişafına da təkan verir.

Bu gün nəinki Sumqayıtın tarixində, ölkəmizin də tarixində çox əlamətdar bir gündür. Çünki hər bir ölkə belə gözəl müəssisələrlə fəxr edə bilər. Xüsusilə nəzərə alsaq ki, bu müəssisələrdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Azərbaycanın gənc nəsli müasir Azərbaycana xidmət edir. Sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sizə uğurlar arzulayıram.

*Sonra Yüksəksıxlıqlı Polietilen zavodunun ilk məhsulu xatirə olaraq Prezident İlham Əliyevə hədiyyə edildi.*

**Nigar Qarayeva** (*zavod işçisi*): Cənab Prezident, müəssisəmizə gəldiyiniz üçün Sizə təşəkkürü-

müzü bildiririk. Qeyd etmək istərdik ki, ümumiyyətlə, zavodun tikilməsinə başlanan zamandan, biz həmişə Sizin diqqət və qayğınızı hiss etmişik. Bunun bariz nümunəsi zavodun təməlqoyma mərasimində və onun açılışında Sizin iştirak etməyinizdir. Biz istərdik ki, zavodumuzun ilk məhsulunu xatirə olaraq Sizə təqdim edək. Qeyd etmək istərdik ki, zavodumuzda istehsal olunacaq bu qranullar yüksəksıxlıqlı polietilenin qara və təbii növləridir.

**İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm.

* * *

*Məlumat verildi ki, «SOCAR Polymer» zavodlarının inşaat işlərinin pik həddində burada 3500-ə yaxın işçi çalışıb. Personalın bilik və bacarıq səviyyəsini artırmaq məqsədilə ölkə daxilində və xaricdə təlim-hazırlıq kursları təşkil olunub. Bütün bunlar göstərir ki, sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin başlıca istiqamətlərindəndir. Bu baxımdan innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabliyyətli sənayenin tərəqqisinə təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının və məhəllələrin qurulması xüsusi əhəmiyyət kəsb edir. Artıq böyük infrastruktur işlərinin həyata keçirildiyi, 18 sahibkarlıq subyektinə rezident statusunun verildiyi Sumqayıt Kimya Sənaye Parkına 2,7 milyard dol-*

*lardan artıq investisiya yatırılıb və bu istiqamətdə mühüm tədbirlər davam etdirilir.*

## Dənizkənarı bulvarda yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Sumqayıtda dənizkənarı bulvarda yaradılmış şəraitlə tanış olmuşdur.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov bulvarda görülən işlər barədə məlumat verdi.*

*Dənizkənarı bulvarda Sumqayıt sakinləri dövlət başçısına yaxınlaşaraq, söhbət etdilər.*

**S a k i n l ə r:** Xoş gəlmisiniz bizim Sumqayıta! Siz bizim prezidentlər içərisində seçilən Prezidentimizsiniz. Biz sizinlə fəxr edirik. Allah Sizə cansağlığı versin, bizə bu gözəl şəraiti Siz yaratmısınız.

**İ l h a m Ə l i y e v:** Xoş gördük, çox sağ olun, necəsiniz?

**S a k i n:** Hörmətli Prezidentimiz, Sizin bu gəlişiniz Sumqayıt üçün, bizim üçün toy-bayramdır. Bunun iki böyük amili, bir nəticəsi vardır. O amilin biri odur ki, hörmətli Prezidentimiz, Ali Baş Komandanımız xalqın arasındadır. İkinci böyük amil ondan ibarətdir ki, ölkəmizin bütün əhalisi, bütün vətəndaşları Prezidentimizin ətrafındadır. Bunun nəticəsi nədir? Nəticə odur ki, xalqla Prezidentin böyük monolit birliyi vardır. Bəzən elə olur ki, öz ayaqqabısının ölçüsü qədər bir iş görə bilməyənlər bu qədər gözəlliyə, bu qədər inkişafa ağız büzürlər. Amma

onlar bu monolit birliyin qabağında dura bilməzlər, qəti dura bilməzlər.

**S a k i n:** Allah Sizi qorusun, cənab Prezident, xahiş edirik, bizim salamlarımızı analar anası, xanımlar xanımı Mehriban xanıma çatdırasınız.

**İ l h a m Ə l i y e v:** Mütləq çatdıraram.

**S a k i n:** Möhtərəm Prezidentimiz cənab İlham Əliyev, Siz gündən-günə gözəlləşən, abadlaşan, qocaldıqca cavanlaşan Sumqayıt şəhərinə çox xoş gəlmisiniz!

Cənab Prezident, mən 50 ildir Sumqayıtda yaşayıram, 85 yaşım vardır. Mən buraların dünənini yaxşı görmüşəm – qamışlıq, çirkab, şoran çöllər. Buraya heç kim gəlmək istəmirdi, amma bu gün gələn getmək istəmir.

**S a k i n:** Biz burada gözəl ev almışıq, gözəl ev tikdirmisiniz. Çox gözəl, yüksək səviyyədə.

**S a k i n:** Mənim ağlıma gəlməzdi ki, Sizin möcüzə adlandırdığınız Sumqayıt bulvarında mən nəvələrimlə, tay-tuşlarımla gəzim. Allah Sizi var eləsin. Bu yaşımda Sumqayıt bulvarında gəzməyimlə fəxr edirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**S a k i n:** Bir şəhid anası kimi, leytenant anası kimi, Sizə çox-çox təşəkkür edirəm ki, bütün şəhid ailələrinə yardım etdiniz, kömək etdiniz. Onların başının üstündə həmişə bir ata, oğul, qardaş kimi olasınız.

**İ l h a m Ə l i y e v:** Həmişə elə olacaq. Əmin ola bilərsiniz.

**S a k i n:** Mən zabitəm, Qarabağ döyüşlərində iştirak etmişəm, qaziyəm. Əvvəla, Sizə «Xoş gəlmisi-

niz!» – deyirik, Allah Sizi qorusun. Siz Azərbaycanın başının tacı olan şəhidlərin ailələrini qəbul etdiniz, o duyğulu anları biz indi də yaşayırıq. Bir daha sübut etdiniz ki, həmin yaşlı şəhid ailələrinin bir oğlusunuz, bu gün həddi-buluğa çatan şəhid övladlarına bir böyük qardaşsınız. Allah Sizdən razı olsun. Mən Sizi inandırıram ki, Azərbaycanın hər bir övladı o ərazilərin azad olunmasına canla-başla hazırdır. Vətəni uğrunda canından keçməyə, əlindən gələni etməyə hazırdır. Azərbaycan əsgəri 2016-cı ildə bunu bir daha sübut etdi. Biz hər zaman Sizin ətrafınızdayıq və inşallah, «İrəli!» əmrinizi gözləyirik.

**S a k i n:** Sumqayıt idmançıları Sizə həmişə dəstək olub və həmişə də dəstək olacaqlar.

**S a k i n:** Bulvarın salınması, bu evlərin tikilməsi üçün böyük minnətdarlığımı bildirirəm. Sizin səyiniz, göstərişləriniz nəticəsində belə gözəl bulvar yaradılıb, evlər tikilibdir. Çox sağ olun, Allah Sizə ömür versin.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Sizi bir tələbə kimi salamlayıram, bizim Sumqayıtımıza xoş gəlmisiniz! Tələbələrin təqaüdünü artırdığınıza görə Sizə çox təşəkkür edirəm. Tələbələr adından Sizdən bir xahişim də vardır. Sumqayıt Dövlət Universitetinin, şəhərdəki kolleclərin yataqxanalarındakı məcburi köçkünlərin köçürülməsini və bizim tələbələrin orada yerləşdirilməsi üçün göstəriş verməyinizi Sizdən xahiş edirəm.

**İ l h a m Ə l i y e v:** Biz bu məsələni də həll edəcəyik. Bu il bu məsələ həll olunmalıdır. Bilirsiniz ki, keçən il Sumqayıtdakı köçkünlər üçün 2000-dən çox

mənzilin tikintisi təmin edildi və mən o evlərin açılışında oldum. Sumqayıtda təqribən 14 min məcburi köçkün ailəsi məskunlaşıb və biz bütün bu ailələri tədricən yeni evlərə köçürəcəyik. Göstəriş verildi ki, bu il əlavə 2000 mənzildən ibarət şəhərciklər salınsın və bu məsələ bir neçə il ərzində həll olunacaq. Həm köçkünlər rahat evlərə köçəcəklər, həm də onların indi qaldıqları yataqxanalar təmir olunacaq və tələbələrə veriləcəkdir.

Bilirsiniz ki, son illər Sumqayıtın inkişafı ilə bağlı çox böyük işlər görülüb. Sumqayıt bu gün müasir sənaye mərkəzinə çevrilib və burada fəaliyyət göstərən müəssisələrdə minlərlə insan işlə təmin edilir. Elə bu gün səhər yeni müasir Polietilen zavodunun açılışını etdik. Bu zavod təqribən 500 iş yeri yaradan bir müəssisədir. Burada istehsal olunacaq məhsullar ixrac yönümlüdür və ölkə iqtisadiyyatına böyük töhfə verəcəkdir. Biz bu yaxınlarda Azot Gübrələri zavodunun da açılışını etdik. Orada da 500 nəfər işlə təmin olunub. Göstəriş vermişəm ki, ödənişli ictimai işlər də açılsın və 2000 iş yeri artıq açılıbdır. Əlavə təqribən 2000-ə yaxın ictimai iş yeri də açılacaq ki, hələlik iş tapa bilməyən vətəndaşlar orada işləyə bilsinlər.

Siz xatırlatdınız, mən demişəm ki, Sumqayıt bulvarı bir möcüzədir, Sumqayıt inkişaf baxımından paytaxt şəhərinə yaxın olmalıdır və bu gün biz bunu görürük. Düzdür, Bakı son illər çox gözəlləşib, abadlaşıb, ancaq Sumqayıt kimi gözəl şəhərdə insanların istirahəti üçün mütləq bulvar olmalı idi və biz 1 il, hətta 1 ildən tez bir vaxtda 4 kilometr uzunluğunda

bulvar yaratdıq. İndi bura Sumqayıtın əsas istirahət zonasıdır, görün nə qədər gözəlləşib. Siz də burada dəfələrlə olmusunuz, mən də dəfələrlə olmuşam. Əvvəlki mənzərə, əlbəttə ki, çox acınacaqlı idi. Amma bu gün yeni yollar salınır, yeni binalar tikilir, ictimai yerlər yaradılır. Yəni Sumqayıtın kompleks inkişafı daim diqqət mərkəzindədir. Bir tərəfdən, sənaye müəssisələrinin yaradılması – Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir – digər tərəfdən, bu gün Sumqayıtın ekoloji vəziyyəti görün nə qədər yaxşılaşıb. Sumqayıtın havası elə bil ki, kurort havasıdır. Əvvəlki illərdə olan toz-dumana, havanı çirkləndirən bəzi müəssisələrin fəaliyyətinə son qoyuldu. Bütün yeni müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Buna görə indi burada ekoloji durum çox yaxşıdır. 1000-ə yaxın evin dam örtüyü təzələnib və bu iş davam edir. Liftlər, həyətlər, yollar təmir olunub. Bu yaxınlarda 2 saylı xəstəxananın əsaslı təmiri haqqında sərəncam imzalandı. Bundan əvvəl 1 saylı xəstəxana əsaslı təmir edilib. Baxacaqlar, əgər 2 saylı xəstəxananın təmiri mümkündürsə, təmir olunacaq, mümkün deyilsə, sökülüb yenidən tikiləcəkdir. Qazlaşdırılma – burada qazla problem olmamalıdır, həll edilib. İçməli su, elektrik enerjisi ilə bağlı məsələlər həll olunub. Biz burada böyük bir elektrik stansiyası tikmişik ki, bu, Sumqayıtı tam təmin edir. Əlbəttə ki, iş yerlərinin yaradılması diqqət mərkəzindədir. Baxın, bu tikintilərdə nə qədər adam işləyir, yeni müəssisələrdə də nə qədər adam işləyəcək. Bütün bu işləri biz ona görə görürük ki,

vətəndaşlar daha da yaxşı yaşasınlar. İndi minimum əməkhaqqının, minimum pensiyanın, şəhid ailələrinin müavinətlərinin, təqaüdlərin qaldırılması – bütün bunlar nəyə görə mümkün olub? Ona görə ki, çox ciddi islahatlar aparılıb və bizə əlavə gəlir gəlir. Bu gəliri biz ilk növbədə hara yönəltməli idik? Məhz sosial məsələlərin həllinə. Bu siyasət davam etdiriləcək və əmək haqlarının, pensiyaların qaldırılması bundan sonra da nəzərdə tutulacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, uşaqlar daha da yaxşı böyüsünlər, vətənimizin layiqli övladları olsunlar, ölkəmiz daim qabağa getsin, inkişaf etsin, güclənsin.

**S a k i n:** Cənab Prezident, əsas sərəncam Sumqayıt şəhərinin 70 illiyinin keçirilməsi ilə bağlı idi.

**İ l h a m Ə l i y e v:** Bəli, onu da bu yaxınlarda imzalamışam.

**S a k i n:** İnşallah, onu Sizin iştirakınızla yüksək səviyyədə keçirərik.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, böyük tədbir, böyük bayram olacaq. O sərəncamın imzalanması da Sumqayıta göstərilən növbəti diqqətin əlamətidir.

**S a k i n:** Siz 23-cü dəfədir ki, Sumqayıta gəlirsiniz. Özü də hər gəlişiniz Sumqayıtın həyatında və sumqayıtlıların qəlbində silinməz iz qoyur, bizi ruhlandırır, sevindirir, bizə qanad verir. Biz ona görə Sizə minnətdarıq ki, Sumqayıt Sizin qayğınız və diqqətiniz nəticəsində belə inkişaf edir, çox sağ olun, var olun. Allah-taaladan bir arzumuz var ki, yüz yaşayasınız, sağlam olasınız. Sizə ailə səadəti arzulayırıq. Bir də onu demək istəyirəm ki, bu bulvarın tarixçəsi vardır. Sum-

qayıtın 25 illik yubileyində ulu öndər bizim indiki Dram Teatrında keçirilən təntənəli yığıncaqda gözəl bir çıxış etdi, sumqayıtlılara və Sumqayıta yüksək qiymət verdi. Dedi ki, arzu edirəm, dəniz qırağında, ləpədöyəndə, yəni sahildə gözəl bir bulvar salınsın ki, sumqayıtlıların istirahəti üçün yaxşı yerləri olsun. Siz gəldiniz, ulu öndərin bu arzularını yerinə yetirdiniz. Sağ olun, var olun, Allah ölkəmizə sabitlik, əmin-amanlıq, bolluq versin. Allah Sizi qorusun.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**S a k i n:** Cənab Prezident, biz Sizi həmişə dəstəkləmişik və dəstəkləyəcəyik. Allah Sizə cansağlığı versin, işinizi avand etsin. Hər sübh namazında Sizə dua edirəm. Siz bizə lazımsınız. Allah Sizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Böyük Britaniyaya səfərini və Baş Nazir xanım Tereza Mey ilə görüşünü məmnunluqla xatırlatdı. Prezident İlham Əliyev baronessa Emma Nikolsonun Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq əlaqələrinin inkişafındakı rolunu və verdiyi töhfələri yüksək qiymətləndirdi.*

*Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolson Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Meyin salamlarını dövlət başçısına çatdırdı.*

*Görüşdə «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının növbəti iclasının Bakıda keçirilməsinin önəmi vurğulandı, Azərbaycan ilə Böyük Britaniya arasında enerji*

*sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olundu.*

*Söhbət zamanı ölkələrimiz arasında səhiyyə, turizm, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulandı.*

*Dövlət başçısı Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri xanım Tereza Meyin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniyanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ
ƏLAHƏZRƏT ŞEYX SABAH
ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Küveyt arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 fevral 2019-cu il*

**KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ
ƏLAHƏZRƏT ŞEYX NƏVAF
ƏL-ƏHMƏD ƏL-CABİR
ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə təbriklərimi yetirir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 fevral 2019-cu il*

**KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-HƏMƏD ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Küveyt münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 fevral 2019-cu il*

## AVROPA KOMİSSİYASININ HƏRƏKƏTLİLİK VƏ NƏQLİYYAT ÜZRƏ BAŞ DİREKTORLUĞUNUN RƏHBƏRİ HENRİK HOLOLEY İLƏ GÖRÜŞ

*19 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Henrik Hololeyi qəbul etmişdir.*

*Henrik Hololey dövlət başçısını ötən Prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, bunu xalqın ölkədə sabitliyə və inkişafa göstərdiyi etimad kimi dəyərləndirdi. Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Henrik Hololey bu səfəri zamanı Azərbaycanın bölgələrində olduğunu və gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi, ölkəmizin turizm və digər sahələrdə böyük potensiala malik olduğunu vurğuladı. Qonaq Bakıda səmərəli görüşlər keçirdiklərini bildirərək, Heydər Əliyev Beynəlxalq Aeroportunun və Azərbaycanda mülki aviasiya sisteminin texniki təchizatının yüksək səviyyədə olduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda infrastrukturun yaradılması istiqamətində çox böyük layihələrin reallaşdığını vurğulayaraq, 6 beynəlxalq aeroportun, beynəlxalq standartlara cavab verən avtomagistral yolların, Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası və digər işlərin həyata keçirilməsi nəticəsində ölkəmizin mühüm beynəlxalq nəqliyyat qovşağına çevrildiyini bildirdi. Dövlət başçısı Azərbaycanın şimal–cənub, şərq–qərb, şimal–qərb istiqamətlərində nəqliyyat daşımaları sahəsində mühüm rol oynayacağını qeyd edərək, perspektivlər nəzərə alınmaqla, bu sahədə artıq konkret işlərin görüldüyünü diqqətə çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasının önəmi qeyd olundu, nəqliyyat sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏRARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ŞAMİL AYRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun böyük tərkibdə Azərbaycana səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə Türkiyənin bu gün dünyada bir-birinə ən yaxın ölkələr olduğunu vurğulayan Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində keçirilən görüşlərin və müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin dostluğumuzun daha da möhkəmlənməsi və işbirliyi üçün yeni sahələrin müəyyən edilməsi baxımından önəmli olduğunu ifadə etdi. Keçən il Rəcəb Tayyib Ərdoğanla həm Türkiyədə, həm Azərbaycanda, həm də beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırladan dövlət başçısı*

*Türkiyə Prezidentinin iştirakı ilə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Azərbaycan və Türkiyə əsgərlərinin təntənəli keçidini dostluq və qardaşlıq bayramı kimi dəyərləndirdi. Prezident İlham Əliyev ötən ilin ölkələrimiz üçün eyni zamanda, önəmli enerji layihələri olan TANAP-ın və STAR Neft Emalı zavodunun açılışı ilə də yadda qaldığını qeyd etdi.*

*Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım nümayəndə heyətini qəbul etdiyinə görə dövlət başçısına minnətdarlığını bildirərək, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Türkiyə–Azərbaycan əlaqələrinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edərək, xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük ehtiramla xatırlatdı. Qonaq qeyd etdi ki, Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb və sürətli inkişafa nail olubdur. O, rəhbərlik etdiyi Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## AVROPA KOMİSSİYASININ BÜDCƏ VƏ İNSAN RESURSLARI ÜZRƏ KOMİSSARI GÜNTER OTTİNGER İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger ilə görüşmüşdür.*

*Görüşdə «Cənub Qaz Dəhlizi»nin uğurlu icrasından məmnunluq ifadə edildi, bu baxımdan Məşvərət Şurasının toplantılarının önəmi vurğulandı.*

*Prezident İlham Əliyev bu layihənin icrasında Avropa İttifaqının fəal iştirakını və rolunu qeyd etdi, «Cənub Qaz Dəhlizi» layihəsinin uğurla həyata keçirildiyini bildirdi.*

*Günter Ottinger Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında iştirak etməkdən məmnunluğunu bildirdi, layihənin icrasında Azərbaycan tərəfindən peşəkar komandanın fəal çalışdığını vurğuladı. Qonaq bu layihənin uğurlu icrasında Azərbaycanın etibarlı tərəfdaş olduğunu qeyd etdi.*

*Dövlət başçısı Avropa Komissiyasının prezidenti Jan Klod Yunkerin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ FATİH DÖNMƏZ İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Türkiyə Respublikasının Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz ilə görüşmüşdür.*

*Fatih Dönməz görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*«Cənub Qaz Dəhlizi»nin əhəmiyyətini xüsusi qeyd edən Fatih Dönməz Türkiyənin bu layihənin ilk mərhələsindən Azərbaycanın yanında olduğunu vurğuladı. O, «Cənub Qaz Dəhlizi» layihəsinin icrasının uğurla davam etdirildiyini bildirdi. TANAP layihəsinin və STAR Neft Emalı zavodunun açıldığını xatırladan Fatih Dönməz belə layihələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev Türkiyənin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında yüksək səviyyədə iştirakına görə minnətdarlığını bildirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə imzalanmış bu layihənin*

*təməlinin TANAP ilə qoyulduğunu vurğulayan dövlət başçısı onun tarixi əhəmiyyətini qeyd edərək, TANAP-ın rəsmi açılışını xatırlatdı. Dövlət başçısı Türkiyə ilə birlikdə bu layihənin qısa müddətdə başa çatdırılmasının böyük nailiyyət olduğunu vurğuladı.*

*Türkiyə–Azərbaycan əməkdaşlığının bütün sahələrdə, o cümlədən enerji sahəsində də böyük nəticələrə gətirib çıxardığını qeyd edən Prezident İlham Əliyev məmnunluqla bildirdi ki, indiyədək 1 milyard kubmetr qaz yeni xətt vasitəsilə Türkiyəyə çatdırılıb. STAR Neft Emalı zavodunun fəaliyyətə başlamasının önəmini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, bir neçə milyard dollarlıq sərmayə bu gün artıq nəticə verir.*

*Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» layihəsinin başa çatdırılması üzrə işlərin uğurla davam etdirildiyini diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ SANDRA OUDKİRK İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk ilə görüşmüşdür.*

*Görüşdə Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında layihənin uğurlu icrası ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğuladı. Dövlət başçısı ötən il bir neçə mühüm layihənin icrasının başa çatdırıldığını qeyd edərək, bugünkü toplantıda yeni tərəflərin də təmsil olunduğunu bildirdi və bunun layihəyə artan marağın göstəricisi olduğunu nəzərə çatdırdı.*

*Dövlətimizin başçısı ABŞ Prezidenti Donald Trampın «Cənub Qaz Dəhlizi» layihəsinə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.*

*ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk 2018-ci ildə layihənin uğurlu icrası istiqamətində mühüm nailiyyətlərin əldə olunduğunu söylədi. O, ötən il bu la-*

*yihə çərçivəsində yeni xətlə Türkiyəyə ilk dəfə olaraq, 1 milyard kubmetr qazın çatdırıldığını vurğuladı.*

*Görüşdə bərpa olunan və alternativ enerji, eləcə də digər sahələrdə Azərbaycan ilə ABŞ arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

## İTALİYA RESPUBLİKASI İQTİSADİ İNKİŞAF NAZİRİNİN MÜAVİNİ ANDREA CİOFFİ İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də İtaliya Respublikası İqtisadi İnkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev İtaliyanın İqtisadi İnkişaf nazirinin müavini Andrea Cioffi ilə görüşdən məmnunluğunu bildirdi, səfərin məhsuldar olacağına əminliyini ifadə etdi. Azərbaycan–İtaliya əlaqələrinin yüksək səviyyədə olduğunu vurğulayan dövlət başçısı ölkələrimizin yaxşı tərəfdaş olduğunu vurğuladı. İtaliya şirkəti tərəfindən inşa olunmuş «SOCAR Polymer» zavodunun bir neçə gün əvvəl açılışında iştirakını xatırladan dövlət başçısı ötən il bu zavodun birinci mərhələsinin açılışının İtaliya Prezidenti Sercio Mattarella ilə birlikdə həyata keçirildiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev İtaliya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən neft-qaz, tikinti və iqtisadiyyatın digər sektorlarında da uğurla fəaliyyət göstərdiklərini və ölkəmizin onların fəaliyyətindən məmnun olduğunu bildirdi. Dövlət başçısı «Cənub Qaz Dəhlizi» layihəsinin icrası ilə bağlı ölkə-*

*lərimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu və bu layihənin dövlətləri və şirkətləri daha da sıx birləşdirdiyini qeyd etdi.*

*İtaliyanın İqtisadi İnkişaf nazirinin müavini Andrea Cioffi görüşə görə minnətdarlığını bildirdi. O, dövlət başçısı İlham Əliyev ilə görüşün bir çox məsələlərlə bağlı fikir mübadiləsi aparmaq üçün yaxşı imkan olduğunu nəzərə çatdırdı.*

*Andrea Cioffi Azərbaycan ilə münasibətlərin bütün sahələrdə, o cümlədən ticarət sahəsində də inkişaf etdiyini vurğuladı.*

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN BEŞİNCİ TOPLANTISINDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında iştirak etmişdir.*

*Tədbirdə «Cənub Qaz Dəhlizi»nin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak etdilər.*

*Əvvəlcə birgə foto çəkdirildi. Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, hörmətli dostlar!

Azərbaycana xoş gəlmisiniz, sizi görməyə çox şadam! «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının beşinci toplantısında iştirakınıza görə sizə təşəkkür edirəm.

Biz 2015-ci ildə bu mühüm prosesə start verdik və Azərbaycan belə bir əməkdaşlıq formatının təşəbbüskarı oldu. Bu təşəbbüs Avropa Komissiyası tərəfindən də dəstəkləndi və beləliklə, bu proses başlandı. Biz belə toplantıların və bu nəhəng layihənin irəli aparılması ilə bağlı görülməli işlərə dair geniş müzakirələrin faydasını artıq görürük. Mən Avropa Komissiyasına bu prosesdə fəal iştiraka görə təşəkkürümü bildirmək istəyirəm. Azərbaycan və Avropa Komissiyası bu Şuranın həmtəşkilatçılarıdır və bizim sıx əməkdaşlığımız yaxşı nəticələr verir. Böyük məmnuniyyətlə komissar Ottingeri salamlayıram. O, vaxtilə Avropa İttifaqının enerji məsələləri üzrə komissarı olub və Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə əməkdaşlığın möhkəmlənməsi və «Cənub Qaz Dəhlizi» layihəsinin irəliləməsində mühüm rol oynayıbdır. Bu həqiqətən də vahid komandanın işidir və ildən-ilə biz bunun nəticəsini görürük.

Mən Azərbaycanın təşəbbüskarı olduğu bütün enerji layihələrinin, xüsusilə də «Cənub Qaz Dəhlizi»nin reallaşdırılmasında göstərilən davamlı dəstəyə görə Amerika Birləşmiş Ştatlarının Hökumətinə minnətdarlığımı bildirirəm. Mən ABŞ və Böyük Britaniyanın yüksək səviyyəli nümayəndələrini salamlayıram. Əminəm ki, sizin töhfəniz sayəsində bu toplantının gözəl nəticələri olacaqdır. Mən «Cənub Qaz Dəhlizi» layihəsinin həyata keçirilməsində iştirak

edən qonşularımız Türkiyə və Gürcüstan, habelə Avropa ölkələrindən Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyadan olan nümayəndələri salamlayıram. Biz artıq bu layihənin reallaşdırılmasına məsul komandayıq.

Bildiyiniz kimi, Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Anlaşma Memorandumu imzalayıb. Bunun nəticəsində biz Azərbaycanın enerji resurslarının nəqlinin şaxələndirilməsi üçün müasir və yeni infrastruktur şəbəkəsi yaradacağıq və mən həmin dövlətlərin nümayəndələrini də burada salamlayıram. İllik toplantılarımızda iştirak edən qonaqlarımızın sayı artır. Mənə verilən məlumata görə, burada Macarıstan, Rumıniya, Serbiya, San-Marino və Türkmənistandan olan nümayəndələr iştirak edirlər və şadam ki, bu layihəyə maraq göstərən dövlətlərin sayı artmaqdadır.

Əlbəttə, burada şirkətləri də qeyd etmək lazımdır, çünki onların fəal iştirakı olmadan bu nəhəng layihəni reallaşdırmaq mümkünsüz olardı. Mən SOCAR və *bp* arasında olan sıx strateji tərəfdaşlığı xüsusi qeyd etmək istəyirəm. *bp* şirkəti bizim strateji tərəfdaşımız və investorumuzdur, Azərbaycanda 25 ildir ki, fəaliyyət göstərir. *bp* Azərbaycanda enerji layihələrinin icrası ilə bağlı böyük səylər göstərir və onun yatırdığı sərmayələr bizim tərəfimizdən yüksək qiymətləndirilir. Biz Azərbaycanda enerji sahəsinin inkişafı ilə bağlı bir sıra vacib layihələr üzərində çalışırıq. Beynəlxalq maliyyə qurumlarının güclü dəstəyi olmadan bizim

birgə səylərimiz faydalı olmazdı. Bu gün toplantımızda dünyanın aparıcı maliyyə qurumlarının – Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və Avropa İnvestisiya Bankının nümayəndələri iştirak edirlər. Fürsətdən istifadə edərək, bu layihə ilə bağlı maliyyə töhfəsinə və bizə olan etimada görə sizlərə təşəkkür edirəm. Bizim nə qədər böyük təşəbbüs və nəhəng layihəni həyata keçirdiyimizi təsvir etmək üçün zənnimcə, bu toplantıda iştirak edənlərin siyahısını səsləndirmək kifayət edər.

«Cənub Qaz Dəhlizi» ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsidir. O zaman Azərbaycan nəhəng «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu bizim beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığımızın başlanğıcı idi. O vaxt Azərbaycan öz təbii resurslarını beynəlxalq əməkdaşlıq üçün əlçatan etdi. İlk dəfə beynəlxalq sərmayələr Xəzər dənizinə yatırıldı və 1994-cü il əslində Azərbaycanın inkişafı baxımından da dönüş nöqtəsi oldu. Azərbaycan o zaman 3 il idi ki, gənc müstəqil dövlət idi və ölkədə iqtisadi vəziyyət çox çətin idi. Ölkəni xarici sərmayə üçün açaraq, biz milyardlarla dollarlıq sərmayə cəlb edə bildik. On minlərlə yeni iş yerləri açdıq, Azərbaycanın münbit sərmayə mühitinə malik dövlət olduğunu nümayiş etdirdik. Bunun nəticəsində neftdən gələn gəlirləri

iqtisadiyyatın şaxələndirilməsi və müasir infrastrukturun yaradılmasına yönəltdik. Bu gün isə biz artıq qeyri-neft sektorunun inkişafına diqqət yetiririk. Bu bizim üçün prioritetdir. Ancaq enerji sektoru bundan sonra da Azərbaycanın iqtisadiyyatının aparıcı sahəsi və regional əməkdaşlığın mühüm komponentlərindən biri olacaqdır.

1996-cı ildə «Şahdəniz» qaz yatağı ilə bağlı müqavilə imzalandı ki, həmin yataq «Cənub Qaz Dəhlizi»nin əsas resurs mənbəyidir. Ümidvaram ki, bu, yeganə mənbə olmayacaq, ancaq hazırda bu belədir. Bu, nəhəng bir qaz yatağıdır və təbii ehtiyatları artıq hasil və ixrac olunur. Bizim enerji sahəsinin xronologiyasına nəzər salsaq görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi. Bu baxımdan keçən əsrin 90-cı illərinin sonlarında Xəzər və Qara dənizləri birləşdirən Bakı–Supsa neft kəmərinin istifadəyə verilməsi enerji resurslarının nəqli və şaxələndirilməsi üçün vacib məsələ idi. Daha sonra 2006-cı ildə Bakı–Tbilisi–Ceyhan kəməri istifadəyə verildi. Bu, tarixi hadisə idi. Bu nəhəng layihə sayəsində şirkətlər daha çox sərmayə qoymaq və daha çox neft çıxarmaq imkanı əldə etdi. Biz isə ixracımızı mümkün qədər artırdıq və bu gün Bakı–Tbilisi–Ceyhan vasitəsilə digər ölkələrə də neft nəql edilir, Azərbaycan neft ehtiyatlarının nəqli baxımından vacib tranzit ölkədir və Azərbaycanın regiondakı rolu artmaqdadır. 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin açılışı oldu

və ilk dəfə olaraq, Azərbaycan beynəlxalq bazarlara təbii qaz nəql edən dövlətə çevrildi. Çünki o vaxta qədər biz təbii qazı idxal edirdik. Yəni biz əsas enerji layihəsi olan «Cənub Qaz Dəhlizi» istiqamətində davamlı olaraq irəliləmişik və bu gün bu layihənin icrası artıq reallıqdır. Xatırlayıram ki, 2012-ci ildə Azərbaycan və Türkiyə TANAP layihəsi ilə bağlı müqavilə imzaladı və bu, «Cənub Qaz Dəhlizi»nin başlanğıc nöqtəsi idi. Bir il sonra, 2013-cü ildə «Şahdəniz-2» layihəsi üzrə sərmayə qərarı qəbul edildi və elə həmin ildə Trans–Adriatik boru kəməri TANAP-ın davamı olaraq seçildi. Bütün bunlar onu nümayiş etdirir ki, biz tərəfdaşlarımızla sıx əməkdaşlıq edirik. Biz vahid komanda şəklində çalışmağımız nəticəsində uğurdan bəhs edə bilərik.

Ötən ilin fevral ayında sonuncu görüşümüzdən sonra iki mühüm tədbir keçirildi – biri Azərbaycanda, digəri isə Türkiyədə. May ayında «Cənub Qaz Dəhlizi»nin, iyunda isə TANAP-ın rəsmi açılışları baş tutdu. Bunlar «Şahdəniz» yatağının istismarı və «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi baxımından mühüm hadisələr idi. Bu gün biz bu nəhəng enerji layihəsinin yekunlaşdırılmasına yaxınıq. Onun 4 elementindən 3-ü artıq hazırdır və istifadə olunur. TANAP layihəsinin istifadəyə verilməsindən sonra 1 milyard kubmetr qazın Türkiyə bazarına ixracı bizi məmnun edir. Trans–Adriatik boru kəmərinin inşasında da böyük irəliləyiş vardır. Ötən ilin fevral ayında Şura qarşısında çıxışımda TAP-ın hazırlığının 67 faiz səviyyəsində olduğunu qeyd etmişdim. İndi

isə son göstəricilərə görə bu rəqəm 87 faizdir. Yəni 1 ildə biz böyük irəliləyişə nail olmuşuq, işlər uğurla gedir və ümidvaram ki, gələn il biz yeni nəticələr haqqında danışacağıq.

«Cənub Qaz Dəhlizi» enerji şaxələndirilməsi layihəsidir. Enerji resurslarının şaxələndirilməsi istehsalçı, istehlakçı və tranzit ölkələr üçün çox vacibdir. Hesab edirəm ki, biz burada yaxşı balans tapa bilmişik – yəni istehsalçı olan Azərbaycanla istehlakçı və tranzit ölkələr arasında. Maraqların balansı bu layihənin uğurunu şərtləndirir. Çünki bir-birimizin ehtiyac və narahatlıqlarını anlamağa çalışırıq. Çalışmışıq ki, bir-birimizi dəstəkləyək, zənnimcə, bu işdə uğurlu olmuşuq və belə toplantıların əhəmiyyəti olduqca böyükdür. Çünki biz il ərzində görülən işləri nəzərdən keçirir, gələcək addımlarımızı planlaşdırır və işimizin irəliləməsi məqsədilə il ərzində ikitərəfli və çoxtərəfli görüşlər, məsləhətləşmələr və konfranslar keçiririk. Bir daha qeyd edirəm ki, «Cənub Qaz Dəhlizi» enerji şaxələndirilməsi layihəsidir. Çünki o, həmçinin nəqliyyat marşrutlarını və mənbələri şaxələndirir. Azərbaycan Avropaya enerji resurslarının nəqli baxımından yeni mənbədir və təbii ki, yeni kəmərlər inşa etməklə, biz enerji marşrutlarını şaxələndiririk. Yəni bu, tam şaxələndirmədir, əslində bu, Avropanın enerji xəritəsini dəyişdirir və beləliklə, «Cənub Qaz Dəhlizi»nin əhəmiyyəti artır.

Əlbəttə, «Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi layihəsidir. Biz yaxşı anlayırıq ki, enerji təhlükəsizliyi olmadan milli təhlükəsizliyin təmin edilməsi

çətinləşir. Enerji təhlükəsizliyi hər bir dövlətin milli təhlükəsizliyinin ayrılmaz bir hissəsidir. O dövlətlər ki, xarici enerji mənbələrindən asılıdır, onlar əmin olmalıdırlar ki, bu marşrut dayanıqlı və uzunmüddətli olacaq. Onlar özlərinin gələcəyini və sənayenin inkişafını təmin etməlidirlər. Təbii sərvətlərlə zəngin olan istehsalçı dövlətlər isə etibarlı bazarlar olmadan öz məqsədlərinə çata bilməz. Beləliklə, bu, enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və geniş beynəlxalq əməkdaşlıq layihəsidir. Bu gün toplantının formatı nümayiş etdirir ki, biz çox geniş beynəlxalq əməkdaşlıq formatını yarada bilmişik. Maliyyə qurumları, şirkətlər və ölkələrin bir amalı vardır. Biz bu layihənin reallaşdırılmasına inanırıq və hesab edirik ki, hər birimiz üçün bu, uzunmüddətli uğur hekayəsi olacaqdır. Azərbaycanın qaz ehtiyatlarına gəldikdə, təsdiq edilmiş ehtiyatlarımız 2,6 trilyon kubmetrdir. Əlbəttə, «Şahdəniz» Azərbaycanın əsas qaz yatağıdır. Lakin hazırda istismar prosesində olan digər yataqlar da var və düşünürəm ki, tezliklə biz «Abşeron» yatağından yaxşı nəticələr əldə edəcəyik. Əminəm ki, ən yaxın gələcəkdə biz oradan qaz hasil etməyə başlayacağıq. Böyük qaz ehtiyatına malik «Ümid», «Babək» və digər yataqlar da çox ümidvericidir. Ona görə də mən əminəm ki, «Şahdəniz» «Cənub Qaz Dəhlizi» üçün yeganə resurs mənbəyi olmayacaq və yataqlarımızdan nə qədər çox qaz hasil edilsə, tərəfdaşlarımızı təchiz etmək və haqqında danışdığımız təchizat şəbəkəsini şaxələndirmək üçün daha çox potensial olacaqdır. Əlbəttə, enerji əməkdaşlığı layihələri

digər sahələrdəki əməkdaşlıqda da çox mühüm rol oynayır. Mən xüsusilə nəqliyyatı qeyd edərdim. Bu gün Azərbaycan Avrasiyanın nəqliyyat mərkəzinə çevrilir. Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri bizim ölkəmizin ərazisindən keçir. Biz müasir nəqliyyat infrastrukturuna böyük həcmdə investisiya yatırmışıq. Bakı dəniz limanı, Avropa ilə Asiyanı birləşdirən Bakı–Tbilisi–Qars dəmir yolu, magistral yollar, Xəzər Dəniz Gəmiçiliyi, hava limanları – bütün bunlar bizim neft və qaz satışından əldə etdiyimiz gəlirlər sayəsində mümkün olubdur. Beləliklə, biz gəlirləri əlavə gəlir gətirəcək və ümumi işə xidmət edəcək sektorlara yönəltmişik. Çünki nəqliyyat layihələri, eləcə də enerji layihələri ölkələri birləşdirir. Ölkələr əlaqəli, qarşılıqlı şəkildə bir-birindən asılı olur və hər kəs mənfəət əldə edir. Ona görə də biz enerji təhlükəsizliyi layihələrinin faydasını digər sahələrdə görürük.

Azərbaycanın uğurlu enerji inkişafı bizə özümüzü dünyaya etibarlı ölkə, etibarlı tərəfdaş, xarici investisiyaları 100 faiz qoruyan ölkə kimi təqdim etməyə imkan verib. Bizim enerji şirkətləri ilə bütün müqavilələrimiz parlament tərəfindən ratifikasiya olunur və qüvvəyə minir. Bu səbəbdən də investorlar 100 faiz əmin olurlar ki, bu müqavilələrdə bir söz belə, dəyişdirilməyəcəkdir. Bu, etimad yaradır. Bu həmçinin bizə digər sektorlara milyardlarla investisiya cəlb etməyə imkan verib. Azərbaycana yatırılmış investisiyaların ümumi həcmi 250 milyard dollara yaxındır. Bunun yarısı xarici investisiyalardır. Bu bizə

iqtisadiyyatımızı şaxələndirməyə, islahatları uğurla həyata keçirməyə, yaxşı biznes mühiti yaratmağa imkan verib. Dünya Bankının sonuncu «Doing Business» hesabatına əsasən, Azərbaycan 25-ci yerdədir. Beləliklə, biz möhtəşəm uğur qazanmışıq və biznes mühiti nöqteyi-nəzərindən 10 ən islahatçı ölkədən biriyik.

Enerji resursları və gəlirlərindən düzgün istifadə sayəsində biz infrastruktura, sosial infrastruktura böyük həcmdə investisiya yatırmağa, əhalinin yaşayış səviyyəsini qaldırmağa nail olmuşuq. Ona görə də bu layihə bizim üçün, əminəm ki, hamımız üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

Şadam ki, bu gün biz uğurlar, nəticələr barədə danışa bilirik və sözsüz ki, bu gün biz gələcək planlar barədə də danışacağıq.

Sizə uğurlar arzulayıram. Bizimlə birgə olduğunuza görə təşəkkür edirəm.

* * *

**P ə r v i z  Ş a h b a z o v** (*Azərbaycan Respublikasının Energetika naziri*): Cənab Prezident, icazə verin, Məşvərət Şurasının üzvləri adından Sizə bizim prioritetlərimiz və vəzifələrimizə bir daha diqqət çəkən əhatəli çıxışınıza görə dərin minnətdarlığımızı ifadə edim. Məşvərət Şurasının iclaslarında Sizin daimi iştirakınız və davamlı dəstəyiniz bu qurum yarananda onun işinə istiqamət verib. İnanıram ki, Sizin rəhbərliyinizlə Məşvərət Şurasının hazırkı iclası həm də «Cənub Qaz Dəhlizi» layihəsi ilə bağlı mühüm

məsələlərin müzakirə olunacağı forum kimi xidmət edəcək.

Cənab Prezident, icazə verin, iştirakınıza və çıxışınıza görə bir daha Sizə minnətdarlığımı bildirim və çıxış etmək üçün sözü Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı cənab Günter Ottingerə verim.

**Komissar Günter Ottingerin çıxışı**

Zati-aliləri hörmətli Prezident Əliyev!

Hörmətli nazir Şahbazov, nazirlər, həmkarlar, xanımlar və cənablar!

2019-cu il bizim «Cənub Qaz Dəhlizi» layihəsinin qalan hissələrinin maliyyələşməsi baxımından əhəmiyyətli il olacaq. Mən ötən ilin mayında baş tutmuş ilk qaz mərasimindən sonra Bakıda keçirilən neft-qaz konfransında Avropa İttifaqı adından iştirak etmək şərəfinə nail olmuşam. Azərbaycan qazı TANAP vasitəsilə artıq buradan Türkiyəyə nəql edilir. Biz Azərbaycan qazının yaxın gələcəkdə – ümidvarıq ki, gələn il – Avropa İttifaqına çatmasını səbirsizliklə gözləyirik. Avropa İttifaqı «Cənub Qaz Dəhlizi» layihəsinin mümkün qədər tez tamamlanması üçün əlindən gələni edəcəkdir.

Bu dəhliz strateji əhəmiyyətə malikdir, çünki o, təkcə təchizat marşrutlarının deyil, həm də təchizat mənbələrinin şaxələndirilməsinə imkan verəcəkdir. Təchizat mənbələri deyəndə «Şimal axını-2» və ya «Türk axını», yeni mənbələr deyəndə isə «Cənub Qaz

Dəhlizi» – Azərbaycan və Avropa İttifaqı nəzərdə tutulur. Gələcəkdə təchizat səviyyəsinin təhlükəsizliyini əhəmiyyətli dərəcədə inkişaf etdirmək üçün hər iki element bərabər şəkildə vacibdir. Bu gün biz təkcə geriyə baxmaq istəmirik, biz gələcəyə baxmalıyıq. «Cənub Qaz Dəhlizi» təkcə Avropanın enerji şaxələndirilməsi üçün xüsusi əhəmiyyət kəsb etmir. O həm də dəhliz boyunca yerləşən ölkələrdə və onların hüdudlarından kənarda dinamik proseslərə start verib. Söhbət təkcə qazdan deyil, daha böyük məsələlərdən – qonşuluq və tərəfdaşlıqdan gedir. Bu, Məşvərət Şurasının beşinci toplantısıdır. Fürsətdən istifadə edərək, mən 2014-cü ildə həmkarım, vitse-prezident Şefçoviçlə birgə Şuranı təsis etdiyinə görə Prezident Əliyevə və bu illər ərzində hər il keçirilən tədbirə ev sahibliyi etməklə, Azərbaycanın nümayiş etdirdiyi möhtəşəm qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istərdim. Mən səmimi-qəlbdən inanıram ki, Məşvərət Şurası bu layihənin inkişaf etdirilməsində mühüm rol oynayıb. O, çağırışlarla birlikdə məşğul olunmanı təmin etmək üçün bütün tərəfləri bir araya gətirib. Bugünkü uğur həm də layihədə iştirak edən, onun tikintisinə maliyyə vəsaiti ayıran şirkətlərin, eləcə də maliyyə institutları – Avropa İnvestisiya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və başqalarının peşəkarlığı sayəsində mümkün olub. Biz tezliklə deyə biləcəyik ki, 3500 kilometr uzunluğunda kəmər rekord zaman kəsiyində, müxtəlif ölkələrdən keçməklə və smetada nəzərdə tutulandan az vəsait sərf olunmaqla çəkilib. Belə iddialı infrastruktur layihələri çox deyil. Bu, tarixi layihədir.

«Cənub Qaz Dəhlizi» sayəsində – lakin təkcə bunun sayəsində deyil – Azərbaycan Avropa İttifaqı üçün əsas strateji tərəfdaşdır. Bu il biz «Şərq Tərəfdaşlığı»nın 10 illiyini qeyd edirik. Azərbaycan hələ də bir sıra iqtisadi çətinliklərin öhdəsindən gəlməyə çalışan «Şərq Tərəfdaşlığı» regionunda öz inkişafı ilə mayak rolunu oynayan, inkişaf etməkdə olan, orta gəlir səviyyəli, güclü artım tempinə malik ölkədir və çağırışların öhdəsindən inamla gəlir. Azərbaycan, həmçinin öz iqtisadiyyatının şaxələndirilməsi ilə fəal şəkildə məşğul olur. Bu, açıq-aşkar sizin əməkdaşlığı genişləndirə biləcəyiniz sahədir.

Həqiqətən, ötən ilin iyulunda Azərbaycan birgə tərəfdaşlıq prioritetlərini irəli sürüb, onlar artıq ratifikasiya olunub və 2018-ci ilin oktyabrında qüvvəyə minibdir. Hazırda Avropa İttifaqı Avropa qonşuluq aləti çərçivəsində prioritetlərin birgə həyata keçirilməsini dəstəkləmək üçün maliyyə mexanizmi hazırlayır. «Tərəfdaşlıq prioritetləri» həm də mühüm enerji fəslini əhatə edən, hazırda haqqında danışıqlar apardığımız genişləndirilmiş razılaşmanın gələcək icrası üçün zəmin yaratmağa kömək edəcəkdir. Biz artıq bu danışıqlarda əhəmiyyətli irəliləyişə nail olmuşuq. Bu həftə Məşvərət Şurasına paralel olaraq, səmərəli ticarət danışıqları aparılır. Azərbaycan enerjini istehsal və ixrac edən mühüm ölkədir. Avropa İttifaqı bunu yaxşı bilir. SOCAR «Cənub Qaz Dəhlizi» kontekstində təkcə öz müasir texnologiyasını və «nou-hau»sunu təklif etmir, eyni zamanda, «Cənub Qaz Dəhlizi»ndə və onun hüdudlarından kənarda – həm

Avropa İttifaqında, Qərbi Balkan ölkələrində, həm də bizim tərəfdaşımız olan Türkiyədə çox vacib bir sərmayədardır. Onun biznes modeli neft və qazın hüdudlarını aşaraq, hazırda emal fəaliyyəti və neft-kimya sənayesinədək genişlənir. Ona görə də Azərbaycan ortaya böyük enerji təcrübəsi qoyur ki, Avropa İttifaqı bundan yalnız faydalana bilər.

Biz başa düşürük ki, enerji məsələsi bu gözəl ölkə üçün xüsusilə həssas məsələdir və öz narahatlıqlarımızı və sizin narahatlıqlarınızı nəzərə almağa hazırıq. Lakin biz həm də yeni tərəfdaşlıq razılaşması kontekstində Avropa İttifaqının normativ-hüquqi bazasına hörmət etməliyik. Mən eşitməyə məmnunam ki, dünənki enerji danışıqları mahiyyət etibarilə irəliləyişə imkan verdi. Enerji sahəsində irəliləyiş hər iki tərəfə, həmçinin qalan digər sahələrdə danışıqları yekunlaşdırmağa imkan verməlidir. Bu bizə əhəmiyyətli hissəsi ticarət üzrə aparılan danışıqları tamamlamaq və 2019-cu ilin sonlarına yaxın komissiyamızın səlahiyyət müddətinə kömək etmək imkanını verəcəkdir.

Avropa İttifaqı və Azərbaycan arasında yeni saziş üzrə danışıqlara dair yanaşmanın «Cənub Qaz Dəhlizi» layihəsinə dair yanaşmaya bənzər olması, əməkdaşlıq və qarşılıqlı etimad ruhunda aparılması mühüm əhəmiyyət kəsb edir. Mən əminəm ki, biz hər iki tərəfi qalibə çevirən zəruri kompromisləri tapa biləcəyik və güclü tərəfdaşlar arasında bu belə də olmalıdır. Azərbaycanın enerjidən savayı, çox mühüm geosiyasi rolu da var və ölkənin yerləşdiyi məkan ona

nəinki beynəlxalq enerji qovşağı kimi, həmçinin mühüm nəqliyyat qovşağı kimi də fəaliyyət göstərmək imkanı verir. Azərbaycan öz limanlarına və dəmir yolu şəbəkələrinə sərmayə yatırır. Azərbaycan Avropa İttifaqına, Mərkəzi Asiyaya və Çinə çıxış əldə etmək üçün mühüm bir yol açır. Məşvərət Şurası müxtəlif ölkələri və təşkilatları öz işinə cəlb edən nadir çoxtərəfli bir platformadır. Təşkilatçılar arasında maraqların vaxtaşırı dəyişə bilməsinə baxmayaraq, onların hamısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasına ehtiyac duyur və ümumi həllər naminə çalışır. Hesab edirəm ki, «Cənub Qaz Dəhlizi» layihəsinin tamamilə işlək vəziyyətdə olmasına baxmayaraq, belə uğurlu regional əməkdaşlıq formatını tərk etməzdən öncə düşünmək lazımdır. Məşvərət Şurası, yəni biz hamımız çevik dəyişən enerji aləmində vacib müzakirə forumunu təşkil etməyə davam edə bilərik. Biz hamımız enerji keçidinin çoxsaylı çağırışları ilə üz-üzə qalmışıq. Avropa İttifaqı Azərbaycan kimi, Paris İqlim Sazişinə qoşulub və burada səbəb bütün Avropa üçün təmiz enerji mənbələrinin qəbul edilməsidir. Beləliklə, Avropa İttifaqı nəinki özünün 2030-cu ilə qədər enerji və iqlim hədəflərinə çatmaq üçün töhfə verir və təmiz enerjiyə keçid dönəmində rəhbərlik nümayiş etdirir, eyni zamanda, yeni enerji sistemlərimizin gələcəkdə necə fəaliyyət göstərəcəyinə dair dəyişiklikliyə hazır olmaq üzərində çalışır. Fakt etibarilə Avropa İttifaqı artıq 2030-cu ildən sonrakı dönəmə nəzər yetirir.

Ötən ilin noyabr ayında komissiya müasir, rəqabətədavamlı və iqlimə münasibətdə neytral olan iqtisadiyyat üzrə özünün uzunmüddətli strategiyasını dərc edib. Uzunmüddətli baxış 2050-ci ilə qədər iqtisadiyyatımızın necə dekarbonizasiya edilməsi üçün müxtəlif ssenariləri nəzərdən keçirir, bu da iqlim dəyişikliyinə qarşı səmərəli mübarizə aparmaq istədiyiniz təqdirdə zəruridir. Təmiz enerjiyə keçid kontekstində qaz gələcək illər və onilliklər ərzində mühüm əhəmiyyət kəsb edən keçid enerjisi olaraq qalacaq. Avropa İttifaqında biz orta və uzunmüddətli perspektivdə qaza tələbatımızın vaxt getdikcə, demək olar ki, sabit qalacağını gözləyirik. Çünki bizim yerli resurslarımız gözləndiyindən daha tez tükənir. Məsələn, Niderlandı götürək. Tədricən baş verən dekarbonizasiya üçün yeni və innovativ konsepsiyalar tələb olunacaq. Nəqliyyat və istilik təchizatı sektorları üçün elektrofikasiyanın artacağı gözlənilir. Lakin biz daha ənənəvi enerji mənbələrinin hidrogen, yaşıl qaz, yeni enerji mənbələrinə konvertasiyanı müşahidə etməkdəyik və bu da bizə mövcud enerji infrastrukturlarına arxalanmağa davam etmək imkanını yarada bilər. Biz nəinki Paris İqlim Sazişi üzrə üzərimizə götürdüyümüz öhdəlikləri yerinə yetirmək üçün qanunlarımızı dəyişirik, hətta Avropa İnvestisiya Bankı kimi, Avropa maliyyə institutları bu transformativ dəyişikliyin önündə gedir.

Biz Azərbaycanın enerji resurslarından başqa sahələrdə də bu təşkilatlarla əməkdaşlıq etmək marağında olduğunu anlayırıq. Kənd təsərrüfatı məhsullarının

emalına, «ağıllı» şəhərlərə, su idarəetməsinə, yol, dəniz və dəmir yolu dəhlizlərinə, habelə ölkənin rəqəmsal infrastrukturuna sərmayə yatırmaqla, Azərbaycan iqtisadiyyatının gələcək şaxələndirilməsi ilə bağlı böyük imkanlar mövcuddur. Avropa İttifaqı enerji məsələlərində, məsələn, neft və qaz üzrə əmək-daşlığa sadiq olduğu qədər Azərbaycanın şaxələndirmə planlarını da dəstəkləyir. Biz öz tərəf-daşımız və qonşu ölkələrimiz üçün enerji daşıyıcıları üzrə etibarlı enerji tərəfdaşı olmağa hazırıq. Bu tərəfdaşlığa görə sizə təşəkkür edirik. Burada çox eti-barlı komandamız vardır. Gəlin birlikdə işləməyə davam edək. Mən bu gün məhsuldar müzakirələr və fikir mübadilələrinin aparılmasını səbirsizliklə gözlə-yirəm. Avropa İttifaqı burada olmaqdan şaddır. Sağ olun.

## AVROPA İNVESTİSİYA BANKININ VİTSE-PREZİDENTİ VAZİL HUDAK İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası toplantılarının təşkilinin yaxşı ənənəyə çevrildiyini vurğulayaraq, bu mühüm tədbirlərdə planlaşdırılan hədəflərə nail olunduğunu qeyd etdi.*

*Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak «Cənub Qaz Dəhlizi» layihəsinin uğurlu icrasında Məşvərət Şurasının toplantılarının önəmini vurğuladı. O, Avropa İttifaqının əsas maliyyə strukturu olan bu bankın «Cənub Qaz Dəhlizi» layihəsinə maliyyə dəstəyi göstərməsinin əhəmiyyətini qeyd etdi. Regionda Azərbaycanın iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat layihələrinə toxunan Vazil Hudak Avropa İnvestisiya Bankının bu kimi nəqliyyat və digər layihələrin də maliyyələşdirilməsində maraqlı olduğunu ifadə etdi.*

*Layihəyə verdiyi dəstəyə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, bu, bankın bölgədə maliyyələşdirdiyi ən böyük layihələrdən biri-*

*dir. «Cənub Qaz Dəhlizi»nin dayanıqlı layihə olduğunu xatırladan Prezident İlham Əliyev bu kreditlərin Avropa İnvestisiya Bankının və Avropa İttifaqının layihəyə dəstəyini nümayiş etdirdiyini bildirdi.*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBON İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 20-də Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşmüşdür.*

*Görüşdə dövlət başçısı «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı kimi vacib tədbirdə iştirakına görə Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembona təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Dünya Bankının «Cənub Qaz Dəhlizi» layihəsinə və Azərbaycanın reallaşdırdığı digər layihələrə verdiyi davamlı dəstəyə görə minnətdarlığını ifadə etdi. Bu əməkdaşlığı yüksək qiymətləndirən Azərbaycan Prezidenti Dünya Bankı ilə işbirliyinin uzunmüddətli və məhsuldar olduğunu söylədi.*

*«Cənub Qaz Dəhlizi» layihəsinin icrasının uğurla davam etdirilməsindən məmnunluğunu ifadə edən dövlət başçısı ötən il layihənin icrasında mühüm irəliləyişlərin olduğunu və bunun bu il də davam etdirildiyini diqqətə çatdırdı.*

*Davosda Dünya Bankının baş icraçı direktoru Kristalina Georgiyeva ilə görüşünü xatırladan dövlət başçısı həmin görüşdə gələcək əməkdaşlıq haqqında geniş müzakirələrin aparıldığını bildirdi.*

*Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktoru xanım Kristalina Georgiyevanın salamlarını dövlət başçısına çatdırdı. O, Prezident İlham Əliyevin «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısında dərin məzmunlu nitqində mühüm məsələlərə toxunduğunu vurğuladı. Xanım Mersi Tembon Dünya Bankının baş icraçı direktorunun Davosda Prezident İlham Əliyev ilə görüşdən dərin təəssüratla ayrıldığını bildirdi. Mersi Tembon Azərbaycan ilə Dünya Bankı arasında aparılan müzakirələrdə əksini tapan məsələlərin həyata keçirilməsi istiqamətində ardıcıl tədbirlərin reallaşdırıldığını vurğuladı.*

*Prezident İlham Əliyev xanım Kristalina Georgiyevanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dünya Bankının baş icraçı direktoruna çatdırmağı xahiş etdi.*

**BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Bruney-Darüssalam arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bruney xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 fevral 2019-cu il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*21 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## SOVET İTTİFAQI QƏHRƏMANI, GENERAL-LEYTENANT RUSLAN AUŞEV İLƏ GÖRÜŞ

*21 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də MDB ölkələri Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri üzrə Komitənin və «Döyüş Qardaşlığı» Beynəlxalq Veteranlar Təşkilatı Ali Şurasının üzvü, Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Ruslan Auşevi qəbul etmişdir.*

*Görüşdə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasının 30-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirin əhəmiyyətinə toxunuldu.*

*Ruslan Auşev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ilə görüşlərindən məmnunluqla danışdı və ulu öndərin xatirəsini daim yad etdiyini bildirdi.*

*Prezident İlham Əliyev Ruslan Auşevin Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi və onun ulu öndərin xatirəsi ilə bağlı dediyi xoş sözlərə görə təşəkkürünü bildirdi.*

*Ruslan Auşev Bakıda gördüyü inkişaf proseslərinin tədbir iştirakçılarında xoş təəssürat yaratdığını vurğuladı, onların bu tədbirdə iştirak etmək üçün böyük məmnuniyyətlə Bakıya gəldiklərini qeyd etdi.*

## İQTİSADİ VƏ SOSİAL MƏSƏLƏLƏRLƏ BAĞLI RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*25 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti yanında fevralın 25-də iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilmişdir.*

*Prezidenti İlham Əliyev müşavirədə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

İlin birinci ayının sosial-iqtisadi göstəriciləri deməyə əsas verir ki, aparılan islahatlar öz gözəl nəticələrini verir. 2018-ci il dərin iqtisadi islahatlar ili olmuşdur, xüsusilə Prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilmişdir. 2017-ci il isə iqtisadi sabitləşmə ili idi. Biz 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atmışıq. Bu bizə imkan verdi ki, 2018-ci ildə çox ciddi islahatlara başlayaq və islahatlar özünü göstərir. Əgər bu ilin yanvar ayının yekunlarına nəzər salsaq görərik ki, iqtisadi artım, yəni ümumi daxili məhsulun artımı təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində bu, ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə

Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcəkdir.

Son illər ərzində apardığımız uğurlu sənayeləşmə siyasəti öz nəticələrini göstərir. Bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalı təxminən 14 faiz artıbdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir, bəlkə də birincisidir və onu göstərir ki, sənaye istehsalı sahəsində aparılan işlər, qəbul edilmiş qərarlar bu gün real nəticələrə gətirib çıxarır.

İqtisadi, makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi 1 ildən çoxdur ki, sabit olaraq qalır, inflyasiya ən aşağı səviyyədədir. Yəni bütün bunlar görülmüş işlər nəticəsində mümkün olub və bir daha onu göstərir ki, sosial və iqtisadi islahatlara alternativ yoxdur. 2019-cu ilin sonrakı aylarında da çox ciddi islahatlar aparılacaq və dərinləşdiriləcək ki, ölkəmizin hər bir sahəsində inkişaf, tərəqqi olsun, vətəndaşlar daha da yaxşı yaşasınlar.

Yanvar ayında Davos Dünya İqtisadi Forumu çərçivəsində apardığım danışıqlar, görüşlər bir daha təsdiqləyir ki, ölkə iqtisadiyyatına böyük biznes tərəfindən göstərilən maraq xeyli artmaqdadır. Azərbaycan ilə əməkdaşlıq etmək, investisiya qoymaq istəyən şirkətlərin sayı artır və növbəti illər üçün xarici sərmayəni qeyri-neft sektoruna cəlbetmə məsələləri prioritet təşkil edəcəkdir. Eyni zamanda, Davosda aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə də görüşlərim göstərdi ki, Azərbaycanda aparılan islahatlara çox böyük maraq var və bu islahatlara çox yüksək qiymət verilir.

Biz dünyanın aparıcı beynəlxalq maliyyə qurumları – Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı ilə çox səmərəli, işgüzar əməkdaşlıq aparırıq. Dünyanın bu aparıcı maliyyə qurumlarının yüksəkvəzifəli nümayəndələri bu yaxınlarda Bakıda keçirilmiş «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının toplantısında iştirak etmişlər və əminəm ki, bizim bu qurumlarla əməkdaşlığımız gələcəkdə də çox uğurlu olacaqdır.

Yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramı qəbul edildi, üçüncü proqrama yekun vuruldu. Üçüncü proqram artıqlaması ilə icra edilib, qarşımızda duran bütün vəzifələr icra olunubdur. Beləliklə, son 5 il ərzində, xüsusilə bölgələrdə və Bakı şəhərində böyük infrastruktur layihələri icra edilibdir. 5 ilə hesablanan dördüncü proqram bizə imkan verəcək ki, bu günə qədər görə bilmədiyimiz işləri, layihələri yerinə yetirək və bu gün icra olunan layihələri başa çatdıraq.

Aparılan ciddi iqtisadi islahatlar, şəffaflıqla bağlı görülən işlər büdcə daxilolmalarına da müsbət təsir göstəribdir. Bildirməliyəm ki, artıq ilin birinci ayında daxilolmalar kəskin artıbdır. Vergi orqanları plandan əlavə, 80 milyon manatdan çox, gömrük orqanları isə plandan əlavə, 20 milyon manatdan çox vəsait toplayıblar və ümumi daxilolmalar təkcə bir ay ərzində 105 milyon manat artıbdır. Bu nəyi göstərir? Onu göstərir ki, bu sahədə aparılan islahatlar, şəffaflıqla bağlı atılan addımlar öz nəticəsini verir. Bu gün

islahatların dərinləşməsi üçün çox gözəl şərait yaradılıbdır.

Onu da bildirməliyəm ki, bu ilin birinci ayında Dövlət Neft Fondunun gəlirləri də əhəmiyyətli dərəcədə artıb. Yəni maliyyə vəziyyətimiz yaxşılaşır, sabit olaraq qalır və bu, əlbəttə, bizə imkan verir ki, əlavə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəldək. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Demişəm ki, biz əlavə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq. Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır.

Hələ keçən ilin dekabr ayında hərbçilər üçün inşa edilmiş yeni binanın açılışı zamanı bildirmişdim ki, şəhid ailələrinin sosial məsələləri öz həllini tapacaq. Bildiyiniz kimi, Prezident seçkilərindən sonra imzaladığım ilk fərman şəhidlərin vərəsələrinə veriləcək 11000 manat ödənişlə bağlı idi. Siyahılar dəqiqləşdirilirdi və ilkin təhlil göstərmişdir ki, təqribən 9500 şəhid ailəsinə ödəmələr veriləcəkdir. Ancaq sonra dəqiqləşmə aparıldı. Dekabr ayında mən bildirdim ki, dəqiqləşmə nəticəsində bu rəqəm artacaq və artdı da. Hazırda 12200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11000 manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaqdır. Bununla paralel olaraq, şəhid ailələri ilə görüşdə onlar məsələ qaldırdılar ki, müavinətlər də

artsın. Dərhal fərman imzalandı və bu müavinət 242 manatdan 300 manata qaldırıldı. Maddi imkanlarımız artdıqca, daim bu məsələ diqqət mərkəzində olacaqdır. Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinət də bu yaxınlarda artırılıb, 220 manatdan 300 manata qaldırılıbdır. Bu da ədalətli yanaşmadır. Bir sözlə, bütün bu məsələlərlə bağlı biz ardıcıl olaraq öz siyasətimizi aparırıq. Maddi imkanlarımız artdıqca bu məsələləri həll edirik.

Məcburi köçkünlərlə bağlı bu il çox geniş inşaat proqramları icra ediləcək. Əgər keçən il 5900 köçkün ailəsi üçün mənzillər, evlər tikilmişdirsə, bu il 6000-dən 7000-ə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə təmin ediləcək. Müvafiq göstərişlər verilib, həm bölgələrdə, həm də Bakı və Sumqayıt şəhərində bu proqram icra ediləcəkdir.

Şəhid ailələri üçün bu il 800 mənzil alınıb onlara veriləcəkdir. Keçən il 626 mənzil verilmişdir. Yəni 2 il ərzində 1400-dən çox mənzil şəhid ailələrinə veriləcək. Bu günə qədər mənzil almayan bütün şəhid ailələri əminəm ki, növbəti illər ərzində, yaxın gələcəkdə mənzillərlə təmin ediləcəklər. Onu da bildirməliyəm ki, bu günə qədər 6500-dən çox şəhid ailəsi dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilibdir.

Bu il biz minimum əməkhaqqını əhəmiyyətli dərəcədə artırdıq – 38 faiz. Bu, böyük artımdır, 130 manatdan 180 manata qalxıbdır. Bu, 600 min insanı əhatə edir. Ancaq o da həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı

təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Gələcəkdə minimum əmək haqları və pensiyalar ardıcıl olaraq artırılacaqdır.

Minimum pensiyalarla bağlı çox ciddi qərar qəbul edildi. Minimum pensiyaların məbləği də təxminən 38 faiz, bir qədər çox artıb – 116 manatdan 160 manata qədər. Bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir. Ancaq onu da bilməliyik ki, bu, son hədd deyil. Əlbəttə, əmək haqlarının, pensiyaların artırılması gündəlikdə duran əsas məsələlərdən biridir. Minimum pensiyanın artırılması 223 min insanın pensiya təminatını yaxşılaşdıracaqdır.

Uzun illər ərzində vətəndaşları narahat edən problemlərdən biri də vaxtilə tikilmiş və hansısa səbəblərə görə rəsmi olaraq qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi idi. Biz bu məsələyə də son qoyduq. İmzaladığım fərman əsasında artıq bu məsələ həll olunmuş hesab edilməlidir. Yaxın gələcəkdə müvafiq dövlət orqanları bütün sənədləşmə işlərini apararaq, məsələnin həllini təmin edəcəkdir. 400 çoxmənzilli binada təxminən 60 minə yaxın ailə yaşayır. O vətəndaşların ailə tərkibləri təqribən toplam 300–400 min arasıdır. Bu da çox ciddi addım idi, bunu da həll etdik. Tələbələrin təqaüdləri artırıldı. Təqribən 100 minə yaxın tələbənin təqaüdü artırıldı. Bu da çox ciddi sosial addımdır. Gələcəkdə yenə də artım nəzərdə tutulur.

Vətəndaşları narahat edən məsələlərdən biri də problemli kreditlərlə bağlıdır. Bu məsələ artıq neçə vaxtdır ki, müzakirə olunur. Hökumət üzvlərinə müvafiq göstərişlər verilmişdir. Keçən ildən başlayaraq, çox fəal iş aparılır, təkliflər paketi hazırlanır. Bilirəm ki, Milli Məclisdə də bu məsələ müzakirə olunur. Müxtəlif təkliflər səsləndirilir. Əlbəttə, biz istəyirdik ki, bu məsələ ciddi ictimai diskussiyalara da səbəb olsun və buna nail olduq. Ancaq deyə bilərəm ki, bu məsələ ilə son mərhələdə işçi qrupu çox ciddi məşğuldur. 2 aydan çoxdur ki, təkliflər üzərində iş aparılır. Bu o qədər də sadə məsələ deyil. Biz bu məsələni həll etməklə, əsas vəzifəni vətəndaşların rifah halının yaxşılaşdırılmasında, onların maliyyə yükünün azaldılmasında görürük. Bu ilk növbədə, ciddi sosial təşəbbüs kimi qəbul edilməlidir. Deyə bilərəm ki, bir neçə ay ərzində aparılan çox ciddi müzakirələr artıq nəticəyə gəlməyə şərait yaradır. Ümid edirəm ki, biz bu təhlilin son mərhələsindəyik və yaxın gələcəkdə bu məsələ də öz həllini tapacaq. Azərbaycan bu məsələnin həlli ilə bağlı çox ciddi nümunə və öz liderliyini göstərəcək. Çünki biz bilirik ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmiş, ancaq icra edilməmişdir. Yəni burada xoş niyyətin olması əsas şərt deyil. Burada düzgün təhlilin aparılması və vətəndaşlar üçün ən məqbul variantın seçilməsidir. Əlbəttə, bizim buna maliyyə imkanlarımızın çatması məsələsi də ön plandadır. Bu gün sadəcə olaraq, anons vermək istəyirəm ki, bu məsələ artıq yekunlaşmaq üzrədir.

Bir məsələni də qeyd etmək istəyirəm. Artıq bir neçə aydır ki, ciddi sosial paket üzərində iş aparılır. Bu sosial paketin ilk təzahürləri haqqında mən artıq bildirdim, minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması, digər ödənişlərin verilməsi böyük sosial paketin tərkib hissəsidir. Eyni zamanda, sosial müavinətlərlə bağlı olan məsələ də öz həllini tapacaq. Sosial müavinətlər çox əhəmiyyətli dərəcədə artırılacaq.Yəni bütün bunlar – bu çox böyük proqram 500 mindən çox əhalini əhatə edəcək. Əgər sadaladığım bütün bu təşəbbüsləri təhlil etsək, o cümlədən problemli kreditlərdən əziyyət çəkən vətəndaşların da sayını müəyyən etsək, təqribən 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq.

Bu çox ciddi sosial paketdir. Bir daha demək istəyirəm ki, bu paketin reallaşması ilk növbədə, bizim güclü siyasi iradəmizə söykənir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim maliyyə imkanlarımız buna şərait yaradır. Maliyyə imkanlarımızı biz əldə etmişik, biz yaratmışıq. Məhz aparılan islahatlar nəticəsində bizim gəlirlərimiz, büdcə gəlirlərimiz artır, artacaq və artmalıdır. Bir daha vurğulamaq istəyirəm ki, bizim iqtisadi inkişafımız sosial məsələlərin həlli ilə nə qədər bağlıdır. Bu da təbiidir. Bizdə güclü iradə, güclü sosial siyasət vardır. Eyni zamanda, elan edilmiş və icra edilən ciddi iqtisadi və sosial islahatlar

bizə imkan verir ki, əlavə maliyyə resurslarını məhz vətəndaşların rifah halının yaxşılaşmasına yönəldək. Əminəm ki, 2019-cu il bütövlükdə ölkəmiz üçün uğurlu il olacaqdır. Azərbaycan 2019-cu ildə uğurlar və inkişaf yolu ilə gedəcəkdir.

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ XANIM KERSTİ KALYULAYDA**

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2019-cu il*

**DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB DANİLO MEDİNAYA**

Hörmətli cənab Prezident!

Dominikan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 fevral 2019-cu il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin paytaxtı Dəkkə şəhərində yaşayış binasında baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Banqladeş xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2019-cu il*

## XOCALI SOYQIRIMININ 27-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR BAKIDA ÜMUMXALQ YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri fevralın 26-da bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak etmişlər.*

*Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.*

*Ön sırada Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının – xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəl-*

*xalq səviyyədə siyasi və hüquqi qiymət vermək barədə çağırışlar, soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında «Dünya Xocalı soyqırımını tanımalıdır!», «Xocalıya ədalət!», «Xocalını unutmayın!», «Rədd olsun erməni faşizmi!», «Xocalı – XX əsrin soyqırımı», «Cinayətkarlar cəzasız qalmayacaqlar!», «Xocalı soyqırımı – 27 il», «Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir», «Xocalı – sözün bitdiyi yer», «Viran edilən Xocalı yenidən dirçələcək» və s. şüarlar nümayiş etdirilirdi. Bircə gecədə yerlə yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.*

*Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.*

* * *

*Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında Fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.*

*Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.*

*Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş Nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva abidənin önünə tər güllər qoydular.*

*Dövlət və hökumət rəsmiləri, Milli Məclisin üzvləri, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.*

*Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edirdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Rusiyadan gələn nümayəndə heyəti ilə görüşüb söhbət etdilər.*

*Heyətə Rusiya Federasiyası Dövlət Dumasının Beynəlxalq Əlaqələr üzrə Komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının Təhlükəsizlik və Korrupsiya Əleyhinə Komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin Ailə, Qadın və Uşaq Məsələləri üzrə Komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının Dövlət Əhəmiyyətli Tikinti və*

*Qanunvericilik üzrə Komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfyonov və Aleksey Juravlyov, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, «Azərbaycanın dostları» qrupunun əlaqələndiricisi, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, «Milli müdafiə» jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin Sosiologiya və Politologiya fakültəsinin dekanı Aleksandr Şatilov daxildirlər.*

*Sonra Prezident İlham Əliyev Rusiyanın «Rossiya-24» telekanalına müsahibə verdi.*

* * *

*Tarixi faktlar göstərir ki, əzəli Azərbaycan torpaqlarında – indiki Ermənistanda, Dağlıq Qarabağ bölgəsində və onun ətrafındakı 7 rayonda yaşayan azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalaraq, doğma yurdlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. «Böyük Ermənistan» xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı terror və soyqırımı həyata keçirməklə, etnik təmizləmə siyasəti aparıblar. Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə –*

*1905–1906-cı, 1918–1920-ci, 1948–1953-cü və 1988–1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar.*

*SSRİ-nin süqutundan dərhal sonra isə yenicə yaranmış Ermənistan Respublikasının ilk addımları dövlət səviyyəsində zor tətbiqi və Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə etməkdən ibarət oldu. Bütün bunların nəticəsində Azərbaycan Respublikası ərazilərinin təqribən beşdəbiri işğal edildi, zəbt olunmuş torpaqlarda və Ermənistanın öz ərazisində 1 milyondan artıq köklü azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Bu təcavüz zamanı mülki azərbaycanlı əhaliyə qarşı çoxsaylı müharibə, insanlıq əleyhinə cinayətlər, o cümlədən soyqırımı aktları törədildi. Bu cinayətlərə görə məsuliyyəti məhz təcavüzkar tərəf olan Ermənistan Respublikası daşıyır.*

*Müharibənin gedişinin ən faciəvi səhifəsi Xocalı şəhərinin işğalı oldu. Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən bu şəhərdə müharibədən əvvəl 7000 insan yaşayırdı. 1991-ci ilin oktyabrından şəhər Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə mühasirəyə alındı. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə kütləvi artilleriya zərbələrinin ardınca Ermənistan silahlı qüvvələri keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını işğal etdi. İşğalçılar Xocalını darmadağın edərək, xüsusi amansızlıqla onun dinc əhalisinin soyqırımını törətdilər.*

*Bu müdhiş soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla öldürülüb, 1275 insan əsir və girov götürülərək, işgən-*

*cələrə məruz qalıb. Onlardan 150 nəfərin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil. Qırğın zamanı 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Həmçinin 8 ailə tamamilə məhv edilib, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itiribdir. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə – azərbaycanlı olduqlarına görə amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst ediliblər. Ermənistan silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar Azərbaycan dövlətinə və vətəndaşlarına 170 milyon ABŞ dollarından artıq ziyan vurulub. Ermənistan tərəfindən Azərbaycan Respublikasına qarşı başlanan müharibənin səbəbləri və naticələrinin ümumi qiymətləndirilməsi, Xocalıdakı faciəvi hadisələrin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, Azərbaycanın bu şəhərində törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olubdur. Xocalıda mülki insanların məqsədyönlü qırğını sadəcə, azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər «soyqırımı» anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən belə də tanınmalıdır.*

*Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş müharibə, insanlıq əleyhinə cinayətlər və Xocalı soyqırımı insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyası, Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya, Mülki və Siyasi Hüquqlar haqqında*

*Beynəlxalq Pakt, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı Konvensiya, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın ciddi şəkildə pozulmasıdır.*

*Xocalı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilibdir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış «Xocalıya ədalət!» beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində aparılan işlər sayəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub, biliblər ki, ermənilər öz sərsəm ideyalarını həyata keçirmək naminə heç nədən, hətta uşaqları belə, qətlə yetirməkdən çəkinmirlər. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament*

*İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək, qətiyyətlə pisləyiblər. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli Qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qətlə yetirilməsinin «müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər» olduğunu müəyyən edib.*

*Hər il olduğu kimi, bu il də Heydər Əliyev Fondunun dəstəyi ilə dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı qurbanlarının xatirəsini anma mərasimləri keçirilib. Bu aksiyaların iştirakçılarına Fond tərəfindən hazırlanmış, Qarabağın və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixindən bəhs edən materiallar, bukletlər, fotoalbomlar və kitablar paylanılıb. Aksiyalar çərçivəsində ermənilərin vəhşiliklərindən bəhs edən sənədli filmlər nümayiş etdirilib, rəsm sərgiləri təşkil olunubdur. Qardaş Türkiyədə, ABŞ-da, Almaniyada, Avstriyada, Belçikada, Gürcüstanda, Hollandiyada və digər ölkələrdə keçirilən mitinqlər, anım tədbirləri, konfranslar, sərgilər, müsabiqələr ictimaiyyət arasında böyük əks-səda doğurubdur.*

*Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda növbəti ümumxalq yürüşü dünya ictimaiyyətinə bir mesajdır ki, Azərbaycan öz torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək, ərazi bütövlüyünü bərpa edəcəkdir. Hər kəsə aydın olmalıdır ki, Xocalı soyqırımını törədənlərin cəzasız qalması, münaqişənin nizama salınmaması nəinki Cənubi Qafqaz regionunda, həm də bütün dünyada sülh və sabitlik üçün təhlükə törədir. Bunu 2016-cı il aprel ayının əvvəllərində cəbhə xəttində baş vermiş hadisələr bir daha sübut etdi. Ermənistan silahlı qüvvələri növbəti təxribatlara əl ataraq, cəbhə xətti boyunca yerləşən yaşayış məntəqələrini güclü atəşə tutdu. Azərbaycan Silahlı Qüvvələri dinc sakinlərin təhlükəsizliyini təmin etmək üçün cavab tədbirləri görməyə məcbur oldu. Genişmiqyaslı hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının bir hissəsini işğalçılardan təmizlədi. Xalqımızın, dövlətimizin, ordumuzun mübarizə əzminin yenilməzliyini təsdiq edən 2016-cı ilin aprel döyüşləri və ötən ilin mayında Naxçıvan əməliyyatı sübut etdi ki, torpaqlarımız yağı düşməndən azad ediləcək, şəhidlərimizin qanı yerdə qalmayacaqdır.*

* * *

*Bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət etdi. Abidənin önünə tər çiçəklər qoyuldu, şəhidlərin ruhuna dualar oxundu.*

## «ROSSİYA-24» TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*26 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilmiş ümumxalq yürüşündə iştirak edən «Rossiya-24» telekanalının müxbirinə müsahibə vermişdir.*

**M ü x b i r: Azərbaycan xalqının dərdinə şərikik. Həlak olanların ailələrinə, doğmalarına başsağlığı veririk. Bu gün Siz insanlara, Azərbaycan sakinlərinə, bu dərdi bölüşənlərə hansı sözlərlə müraciət edirsiniz?**

**İ l h a m Ə l i y e v:** Çox sağ olun ki, gəlmisiniz. Azərbaycan xalqının tarixindəki bu faciəli hadisəyə münasibətinizi bildirirsiniz. Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilmiş soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir. Yalnız Azərbaycan millətinə mənsub olduqlarına görə günahsız insanlar – qocalar, qadınlar və uşaqlar həlak olmuş, zərər çəkmişlər. Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, həmişə xatırlayacaqdır. Bu bizim yaddaşımızda həmişəlik qalacaqdır. Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın, heç vaxt heç bir xalqa qarşı belə dəhşətli soyqırımı hadisəsi, milli əlamətə görə qırğın

törədilməsin. Azərbaycan dövləti, xalqı həlak olanların xatirəsini əziz tutur, yad edir və onların xatirəsi bizim üçün müqəddəsdir. Həmin faciəli gecədə xilas olanlar həmişə bizim üçün fiziki zədələr, mənəvi yaralar alan, həmin qətliamı yaşayan insanlar kimi qalacaqlar. Biz bu adamların aqibətini yüngülləşdirmək üçün əlimizdən gələni edirik, dövlət onlara kömək edir və edəcək. Bir daha demək istəyirəm, biz hamımız çalışmalıyıq ki, belə faciələr bəşəriyyət tarixində bir daha olmasın.

**M ü x b i r:** Çox sağ olun, cənab Prezident. Dərdinizə şərikik.

**İ l h a m Ə l i y ev:** Çox sağ olun.

## GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİNİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*27 fevral 2019-cu il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin fevralın 27-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Gürcüstan Prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan Prezidenti Salome Zurabişvilini qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Gürcüstan Prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev və Prezident Salome Zurabişvili Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Gürcüstan Prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Gürcüstanın və Azərbaycanın Dövlət himnləri səsləndirildi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Salome Zurabişviliyə, Gürcüstanın nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Salome Zurabişvilinin qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

# GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin fevralın 27-də rəsmi qarşılanma mərasimindən sonra təkbətək görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli xanım Prezident, mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz!

İlk növbədə, bu yaxınlarda Prezident seçkilərində qazandığınız qələbə münasibətilə Sizi təbrik edirəm, Sizə uğurlar arzulayıram.

Əminəm ki, Sizin səfəriniz Gürcüstan–Azərbaycan dostluq əlaqələrinin inkişafı üçün çox önəmli addım olacaqdır. Düşünürəm ki, aparacağımız müzakirələr Gürcüstan və Azərbaycanın bir-birinə çox yaxın ölkələr olduğunu və birgə apardığımız işlərin böyük nəticələr verəcəyini bir daha təsdiqləyəcəkdir

Biz bütün sahələrdə uğurlu əməkdaşlıq edirik və bu əməkdaşlıq gündən-günə dərinləşir. Siyasət, iqtisadiyyat, mədəniyyət, nəqliyyat, energetika sahələrində çox gözəl nəticələr vardır. Əslində elə bir sahə tapmaq çətindir ki, biz o sahədə əməkdaşlıq etməyək. Əlbəttə,

gələcək əməkdaşlıqla bağlı bizim çox aydın fikirlərimiz vardır. Əminəm ki, səfər zamanı biz gələcək əməkdaşlıq istiqamətlərini də müzakirə edəcəyik. Bir daha xoş gəlmisiniz!

**Salome Zurabişvili:** Təşəkkür edirəm, cənab Prezident.

Şadam ki, regiona ilk səfərimi bizim dostumuz olan qardaş ölkəyə edirəm. Mən Azərbaycana dost ölkənin Prezidenti kimi səfərə gəlmişəm. Gürcüstanın bütün prezidentləri Azərbaycanın dostu olub və mən də bu ənənəni davam etdirirəm. Bizim münasibətlərimizin alternativi yoxdur və perspektivli əlaqələrimiz vardır.

Bizim region üçün və dünya üçün yeni perspektivlər açılır. Bu baxımdan əlaqələrimizi dərinləşdirmək daha da böyük əhəmiyyət kəsb edir. Əminəm ki, biz perspektivlərlə bağlı yeni təşəbbüsləri müzakirə edəcəyik.

Bizi qəbul etdiyiniz üçün bir daha təşəkkür edirəm.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*27 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin fevralın 27-də təkbətək görüş başa çatdıqdan sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli xanım Prezident, hörmətli qonaqlar, sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Mən xanım Salome Zurabişvilini Prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik etdim. Çox şadam ki, qısa müddətdən sonra xanım Prezident Azərbaycana səfər edir. Bu çox gözəl göstəricidir.

Bu gün biz artıq təkbətək görüşdə bir çox məsələləri, o cümlədən regional problemləri, bizim ikitərəfli və çoxtərəfli əməkdaşlığımızı müzakirə etdik. Bir daha gördük ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür. Əminəm ki, bu səfər Gürcüstan–Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli addım olacaqdır. Biz bu günə qədər bir çox məsələləri birlikdə həll etmişik. Gürcüstan və Azərbaycan yaxın dost, qardaş ölkələrdir. Biz əsrlərboyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün də uğurla inkişaf

edirik. Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni biz çox uğurlu əməkdaşlıq formatı yarada bilmişik. Əminəm ki, növbəti illərdə bütün sahələr üzrə əməkdaşlıq daha da dərinləşəcək və genişlənəcəkdir. Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq. Biz bu gün artıq həm xarici siyasət məsələlərini, həm də regiondakı vəziyyəti, bizim nəqliyyat, enerji layihələrinin icrasını müzakirə etdik. Əlbəttə, indi bu məsələləri geniş tərkibdə, daha geniş formada müzakirə edəcəyik. Əminəm ki, bu səfərin nəticələri çox müsbət olacaq və bizim əməkdaşlığımıza yeni töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Salome Zurabişvili:** Cənab Prezident, təşəkkür edirəm. Şadam ki, Azərbaycana gəlmişəm. Bu mənim regiona birinci səfərimdir. Qonşu və dost ölkə Azərbaycanda olmaqdan məmnunluq duyuram. Əməkdaşlığımız bizim üçün çox əhəmiyyətlidir. İlk növbədə, bizi böyük tarix, ənənələr birləşdirir. Biz 100 il əvvəl birlikdə müasir dövlət qurmağa başladıq, müstəqilliyimizi bərpa etdik. Vaxtilə bizim kiçik federasiyamız da var idi. Sonra müstəqilliyimizi birlikdə itirdik, ağır illərdən keçdik, yaşadıq. Bunlar bizim dövlət quruculuğumuza təsir etdi. Biz öz müstəqilliyimizi yenidən birlikdə bərpa etdik. Son illər eyni faciələri yaşadıq. Bu gün də biz ölkə üçün

ərazi işğalının nə demək olduğunu anlayırıq. Ərazi bütövlüyümüz hələ də bərpa olunmayıb. İşğal məsələsi bizim üçün hələ də açıq yara kimi qalır. Bu bir tərəfdən, bizim inkişafımıza mane olur, digər tərəfdən, biz bunlara, bu faciələrə baxmayaraq, dövlətimizi, iqtisadiyyatımızı gücləndirməyə nail olmuşuq. Bizim yolumuz müstəqillik yoludur və belə də davam edəcəyik. Bunlar böyük uğurlardır.

Şadam ki, buradayam. Çünki bizim həm keçmiş, həm də gələcək haqqında çox söhbətlərimiz vardır. Bizim regionumuz çox böyük perspektivlərə malikdir.

# GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*27 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti xanım Salome Zurabişvili fevralın 27-də geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, xanım Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz!

Sizi bu yaxınlarda Prezident seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik edirəm. Çox şadam ki, seçkilərdən qısa müddətdən sonra Siz Azərbaycana səfər edirsiniz. Bu onu göstərir ki, Siz ölkələrimizin əlaqələrinə çox böyük önəm verirsiniz. Biz də Azərbaycan–Gürcüstan əlaqələrinin inkişafına böyük əhəmiyyət veririk. Çox şadıq ki, bu əlaqələr uğurla, sürətlə inkişaf edir. Bugünkü səfər və apar-

dığımız müzakirələr, danışıqlar bir daha təsdiqləyir ki, bizim əlaqələrimizin çox gözəl gələcəyi vardır.

Xalqlarımız əsrlərboyu bir-birinin yanında, bir yerdə olmuşdur. Biz həmişə dostluq, qardaşlıq şəraitində yaşamışıq. Bu gün də dostluq və qardaşlıq əlaqələrimiz bizim dövlətlərarası əlaqələrimiz üçün əsas amildir. Biz dövlətlərarası əlaqələri bu möhkəm təməl üzərində qururuq. Bu gün Gürcüstan və Azərbaycan bütün sahələrdə çox uğurla əməkdaşlıq edir.

Bizim siyasi əlaqələrimiz yüksək səviyyədədir, müntəzəm olaraq yüksək səviyyəli görüşlər keçirilir, məsləhətləşmələr aparılır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi daim dəstəkləyirik. Gürcüstan və Azərbaycan bütün beynəlxalq təşkilatlarda ərazi bütövlüyü məsələləri ilə bağlı daim həmrəylik göstərir və bir-birini dəstəkləyir.

Əlbəttə, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Bu gün bu məsələlər də geniş müzakirə olundu. Bildirməliyəm ki, bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə bir qədər nəzər salsaq görərik ki, hələ keçən əsrin 90-cı illərinin sonlarında Bakı–Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə, Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları biz, yəni 3 ölkə – Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik. Bu gün bu layihələr bizim iqtisadi

inkişafımızı yüksək dərəcədə artırır. Bu marşrut üzrə bu gün «Cənub Qaz Dəhlizi» layihəsi uğurla icra edilir. Bu, bölgədə ən böyük infrastruktur layihəsidir. «Cənub Qaz Dəhlizi»nin reallaşmasına az vaxt qalıb. Keçən il bu layihənin icrası ilə bağlı çox önəmli il oldu. Keçən il «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı mərasimi oldu və onun əsas hissəsini təşkil edən TANAP layihəsi də istifadəyə verildi. Artıq TANAP xətti ilə qazın nəqli təmin edilir. Bu layihələr ölkələrimiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır, geniş mənada əməkdaşlığı dərinləşdirir. Əgər layihələrin əvvəlində 3 ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı xeyli genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilirlər. Biz bu gün nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət göstəririk və bu da danışıqların mövzusu oldu. Bu layihələr də ölkələrimizə çox böyük fayda gətirir. İlyarım bundan əvvəl Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı nəticəsində indi ölkələrimizin ərazisindən keçən yüklərin həcmi artıb və artacaqdır. Biz hələ bu layihənin icrasının birinci mərhələsindəyik, ancaq artıq bunun faydasını görürük və artan yükdaşımalar deməyə əsas verir ki, biz düzgün yoldayıq. Bakı–Tbilisi–Qars dəmir yolunun açılışından sonra Azərbaycan öz qonşuları ilə, Xəzərin şərq hissəsində yerləşən ölkələrlə çox fəal danışıqlar apardı, razılığa gəlindi. Əminəm ki, bu razılıq əsasında indi yükdaşımalar yüksək dərəcədə artacaqdır. Bu bizim ümumi layihəmizdir. Bu yeni dəhliz imkan verəcək ki, qitələr birləşsin. Yenə də burada Azərbaycan, Gürcüstan və Türkiyə – ənənəvi üçtərəfli

əməkdaşlıq formatı əsas rol oynadı, indi isə əməkdaşlıq edən ölkələrin sayı artır.

Bu gün başqa məsələlərlə, o cümlədən humanitar, mədəniyyət, təhsil və turizm sahələrində əməkdaşlıqla bağlı geniş fikir mübadiləsi aparıldı. Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafı üçün çox önəmli rol oynayırlar. Gürcüstan və Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Bu bizim böyük sərvətimizdir. Ölkələrimizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər. Bu, ölkələrimizin bugünkü və gələcək inkişafı üçün çox önəmli amildir.

Şadam ki, xanım Prezident Azərbaycanın şimal-qərb bölgəsinə səfər edəcək, orada yerli vətəndaşlarla görüşəcək, o cümlədən gürcü əsilli vətəndaşlarla. Bu onlar üçün də çox mühüm hadisə olacaq. Əminəm ki, orada yaşayan digər xalqların nümayəndələri də buna çox sevinəcəklər. Eyni zamanda, ölkəmizin gözəl guşəsi ilə tanışlıq Sizdə xoş təəssürat yaradacaqdır.

Bir sözlə, deyə bilərəm ki, bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə güclü siyasi iradə vardır. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik. Əminəm ki, xalqlarımızın, dövlətlərimizin çox gözəl gələcəyi vardır. Bugünkü rəsmi səfər bizim əlaqələrimiz üçün çox böyük əhəmiyyət daşıyır.

Bir daha, hörmətli xanım Prezident, Sizi səmimiyyətlə salamlayıram.

**Gürcüstan Prezidenti Salome Zurabişvilinin bəyanatı**

Təşəkkür edirəm, cənab Prezident.

Sizin bütün fikirlərinizlə razıyam. Sizin fikirləriniz mənə çox yaxındır. Biz həqiqətən, hər bir sahə üzrə fikir mübadiləsi apardıq. Biz coğrafi cəhətdən də yaxın qonşularıq, tarix də bizi birləşdirir, bir yerdə tarixi yol keçmişik. Bilirik ki, dövlət quruculuğu nə deməkdir, nə tələb edir. Bütün bunlar bizi birləşdirir. Çünki bütün faciələri birlikdə yaşadıq və yenə də irəliləyişə, inkişafa, mədəniyyət sahəsində tərəqqiyə nail ola bildik. Hər bir məsələdə çox yaxınlıq və dostluq hiss edirəm.

Biz ötən əsrin sonu və bu əsrin əvvəlində birlikdə enerji sahəsində həqiqətən, çox irimiqyaslı layihələr həyata keçirdik, bütün dünyaya göstərdik ki, bu region mərkəzi regiondur, bu dəhliz sabit dəhlizdir və bu regiona böyük investisiyalar qoymaq olar. İndi qarşımızda duran əsas məqsəd daha böyükmiqyaslı layihələri gündəmə gətirməkdir.

Nəqliyyat dəhlizi çox vacibdir və bizim əməkdaşlığımızın təməl daşıdır. Nəqliyyat sahəsi bugünkü dünyada böyük potensiala malikdir, həmçinin dünya üçün çox əhəmiyyətlidir. Asiyanın, Çinin və Avropanın birləşdirilməsi çox mühüm məsələdir və biz bu yolla gedirik. Bu, ən qısa yoldur, lakin biz hələ bu

yolun imkanlarını tam inkişaf etdirməmişik və bu bizdən asılıdır. Siz Azərbaycan tərəfinin hansı işləri gördüyü barədə məlumat verdiniz, Xəzər dənizi ilə bağlı əldə olunmuş razılaşmaları qeyd etdiniz. Bu dənizdə nəqliyyat tam inkişaf etdirilməlidir. Avropa İttifaqının dəstəyi ilə biz Qara dənizdəki imkanlar üzərində işləyirik. Rumıniya, Bolqarıstan və Gürcüstan limanları arasında əlaqələri və logistikanı Avropa İttifaqının dəstəyi ilə inkişaf etdirmək istəyirik, bu istiqamətdə də ümumi investisiyaları cəlb etməyə hazırıq. Biz Azərbaycanla birlikdə bu imkanlardan sona qədər istifadə etməliyik. Bizim Çinlə, eyni zamanda, Avropa İttifaqı ilə azad ticarət sazişimiz vardır.

Cənab Prezidenti Batumi Konfransına dəvət etdim. Bu bizim Avropa İttifaqı ilə tərəfdaşlığımızın 10 illiyinə həsr olunmuş konfrans olacaqdır. Yəqin ki, nəqliyyat məsələsi burada əsas mövzu olacaq və biz birgə baxışlarımızı nümayiş etdirə bilərik. Cənab Prezident təklif etdi ki, bizim nümayəndələrimiz Çində də təqdimat keçirsinlər. Bunlar bugünkü potensialımızın reallığa çevrilməsi və perspektivlərimiz üçün çox vacibdir. Əminəm ki, bu nəinki perspektivdir, bu bizim sabahımız üçün əhəmiyyətlidir.

Lakin əlaqələrimiz bununla məhdudlaşmır. Biz insan əlaqələrinə, mədəniyyətə, təhsilə böyük əhəmiyyət veririk və bu sahələr inkişaf etdirilməlidir. Bu sahələrdə əlaqələr hələ tam lazımi səviyyədə deyildir. Hər iki tərəf bu məsələlərdə öz səylərini daha da

fəallaşdırmalıdır. Biz istərdik ki, insani münasibətlər hər iki tərəfdən daha da fəallaşsın. Bu bizim qərarlardan asılı olacaq. Biz istəyirik ki, Gürcüstanda Azərbaycan Mədəniyyəti Günləri keçirilsin və Batumidə bu, artıq planlaşdırılıb. Biz buna mütəmadi forma verməliyik və müxtəlif sahələrdəki əlaqələrimiz mədəniyyət sahəsində də fəallaşmalıdır. Biz Gürcüstanın tolerantlığını UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil etmək istərdik. Lakin bu, Qafqazda bizim ümumi dəyərimizdir. Biz buna Qafqaz xarakteri verə bilərik və bu, regionumuzdan dünyaya çox mühüm mesaj olacaq. Dünyanın bu dəyərlərə ehtiyacı vardır.

Bu gün turizmin inkişafı haqqında da fikir mübadiləsi apardıq. Turizm sahəsi də inkişaf etdirilməlidir. Bu məkan turistlər üçün tam açıq olmalıdır. Biz dostluğumuza əsaslanaraq, belə qərara gəldik ki, Delimitasiya Komissiyasına öz işlərini yeniləmək və bu çalışmaları sona çatdırmaq üçün tapşırıq verək. Sərhəd də bizi birləşdirən amildir. Ümid edirəm ki, bu məsələ bizim dostluq əlaqələrimiz əsasında həll olunacaqdır.

Bütün bu sahələrdə əməkdaşlığa və səmimi qəbula görə cənab Prezidentə təşəkkür edirəm. İnanıram ki, bu, yeni, daha sıx əlaqələrimizin başlanğıcıdır. Mən bu arzu və ümidlə çıxışımı bitirmək istərdim. Sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*27 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin şərəfinə fevralın 27-də rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları rəsmi ziyafətdə çıxış etdilər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanım Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, xanım Prezident, Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» – deyirəm.

Azərbaycan və Gürcüstan xalqları əsrlərboyu dostluq və mehriban qonşuluq şəraitində yaşamışlar. Müstəqillik qazandıqdan sonra ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın iradəsinə uyğun olaraq, strateji tərəfdaşlıq xarakteri almışdır. Azərbaycan ilə Gürcüstan arasındakı siyasi, iqtisadi və humanitar əlaqələr ən yüksək səviyyədədir. Gürcüstanın Prezidenti vəzifəsinə seçildikdən sonra xanım Salome

Zurabişvilinin xarici ölkələrə ilk səfərləri sırasında Azərbaycana rəsmi səfəri ölkələrimiz arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir.

Azərbaycan Gürcüstanın əsas ticarət tərəfdaşlarından və Gürcüstanda əsas investorlardan biridir. Azərbaycan şirkətləri Gürcüstan büdcəsinə ən çox vergi ödəyən şirkətlər sırasındadır. Birgə həyata keçirdiyimiz irimiqyaslı enerji layihələri – Bakı–Tbilisi–Ceyhan, Bakı–Supsa neft kəmərləri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri enerji resurslarımızın nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması baxımından çox əhəmiyyətli hadisələrdir. Bu gün icra etdiyimiz irimiqyaslı transmilli «Cənub Qaz Dəhlizi» layihəsi ölkələrimiz üçün böyük əhəmiyyət daşıyır. Hazırda uğurla icra edilən bu layihənin 4 elementindən 3-ü – «Şahdəniz-2», «Cənubi Qafqaz» kəməri və TANAP layihələri başa çatdırılıbdır. Əlbəttə ki, enerji əməkdaşlığı layihələri digər sahələrdəki əlaqələrimizdə də çox mühüm rol oynayır.

Mən xüsusilə nəqliyyat sahəsindəki əməkdaşlığımızı qeyd etmək istərdim. 2017-ci ildə açılışını etdiyimiz Bakı–Tbilisi–Qars dəmir yolu tarixi əhəmiyyətə malikdir. Qitələri birləşdirən bu dəmir yolu Azərbaycanın və Gürcüstanın tranzit potensialını böyük dərəcədə genişləndirir. Bu gün artıq Bakı–Tbilisi–Qars dəmir yolu ilə göndərilən yüklərin həcmində artım hiss olunmaqdadır.

*Ölkələrimizin beynəlxalq təşkilatlarda da sıx əməkdaşlıq etdiyini bildirən Prezident İlham Əliyev Azərbay-*

*can ilə Gürcüstanın hər zaman bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini vurğulayaraq dedi:*

– Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü, ölkəmizin Dağlıq Qarabağ regionunun və ətraf 7 rayonunun hərbi işğal altında saxlanılması regional sülh və təhlükəsizliyə ciddi təhdiddir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası və Baş Məclisi, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, NATO, Avropa Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qətnamə və qərarlarda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, münaqişənin məhz bu prinsiplər əsasında həllinə qəti dəstək ifadə olunubdur. Keçən il Azərbaycan və Avropa İttifaqı arasında paraflanmış «Tərəfdaşlıq prioritetləri» sənədində də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı dəstəklənibdir. Bu gün ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın inkişafı üçün digər – turizm, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, elm, təhsil, mədəniyyət sahələrində də yaxşı imkan və perspektivlər mövcuddur.

Hörmətli xanım Prezident, Sizi Azərbaycanda bir daha salamlayıram, Sizə cansağlığı, işlərinizdə uğurlar, ölkənizə və xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

## Gürcüstan Prezidenti Salome Zurabişvilinin çıxışı

Cənab Prezident!

Hörmətli qonaqlar!

İcazə verin, səmimi qəbulunuz və qonaqpərvərliyiniz üçün Sizə minnətdarlığımı bildirim. Sizin belə qəbulunuz bizim millətlərə xas olan qonaqpərvərliyin sübutudur. Bu, Qafqaz mədəniyyətinin əlaməti və dəyişməz ənənəsidir.

Bugünkü səfər bir daha Gürcüstan ilə Azərbaycan arasında mövcud olan mehriban qonşuluq və dostluq münasibətlərini nümayiş etdirir.

Azərbaycanın böyük tarixi şəxsiyyətini – Əli bəy Hüseynzadəni xatırlatmaq istərdim. O, Azərbaycanın «Türkləşmə, islamlaşma və avropalaşma» adlı dirçəliş proqramının müəllifidir.

Biz gürcülər üçün isə belə qəhrəman İlya Çavçavadzedir. O, «Vətən, dil, din» kəlamını bizim milli şüarımıza çevirərək, avropalaşma ideyasını təbliğ edirdi. Gürcülər və azərbaycanlılar azadlığa və dövlət quruculuğuna gedən yolu birlikdə keçiblər. Bu yol bu gün artıq bizim ümumi məqsədlərimizi müəyyən edir.

Münaqişələr və ərazi bütövlüyünün pozulması hər iki ölkənin faciəsidir. Bu gün biz öz suverenliyimizin və ərazi bütövlüyümüzün tanınması və bərpası üçün BMT-dən UNESKO-ya qədər beynəlxalq təşkilatlarda birlikdə mübarizə aparırıq. Bu faciələrə baxmayaraq, biz müasir dövlətlər qurmağa, iqtisadiyyatı inkişaf etdirməyə və böyük layihələri icra etməyə nail olduq.

*Gürcüstan Prezidenti hazırda Azərbaycan, Gürcüstan və Türkiyənin böyük regional layihələrin uğurla reallaşdırılması üçün birgə səylərini davam etdirdiklərini bildirərək dedi:*

– Bizim ölkələrimiz Asiya və Avropanı, Çini və Qərbi, Xəzər dənizini və Qara dənizi bir-birinə birləşdirən yollar üzərində yerləşir. Bu nəqliyyat dəhlizlərinə maraq gündən-günə artmaqdadır. Bu yolların maksimal dərəcədə yüklənməsi və lazımi dərəcədə əhəmiyyət kəsb etməsi üçün bizim regionda sabitliyin və sülhün qorunub saxlanılması olduqca vacib məsələdir. Hamımıza daha çox investisiya, tərəfdaş, turist, bazarlar lazımdır, bütün bunların hamısı isə bizim sabitliyimizdən asılıdır.

*Prezident Salome Zurabişvili Azərbaycan ilə Gürcüstanın mədəniyyət və sənaye sahələrində də sıx əməkdaşlıq etdiyini bildirdi:*

– Unutmayaq ki, neft sənayesinin tarixi bizim regionun əmin-amanlıq tarixidir. Onu yeni üslubda oxumaq və dünya üçün təqdim etmək millətlərimizə ancaq xeyir gətirəcək və yalnız münaqişələr prizmasında görünən regionumuz haqqında səhv təsəvvürləri dəyişəcəkdir.

Mədəniyyət və iqtisadiyyat sahələrində çoxlu layihələr mövcuddur, onlar ölkələrimizi, xalqlarımızı, gənclərimizi daha yaxın edə bilər. Sizin ölkənizin ənənəvi əl işləri sənətkarlarını, rəssamları, bəstəkarları, yazıçıları tanıtmaq, aktual məsələlər haqqında forumlar keçirmək lazımdır. Məsələn, ətraf mühitin qorunması barədə. Çünki Qafqazın bioloji cəhətdən şaxələnmiş

flora və faunasını qorumaq məhz bizim öhdəmizə düşür. Bunun üçün həm beynəlxalq təşkilatlarda, həm də dünya konfranslarında fəal olmalıyıq. Gənclərin bu istiqamətdə məsuliyyətini artırmaq, yeni yanaşmaları tətbiq etmək çox səmərəli birləşdirici amilə çevrilə bilər.

*Gürcüstan Prezidenti bildirdi ki, ölkələrimizdə yaşayan etnik gürcülər və azərbaycanlılar bizi daha da yaxın edirlər. Prezident Salome Zurabişvili ölkələrimizin bundan sonra da qarşıda duran vəzifələrin həlli üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayaraq dedi:*

– Arzu edirəm ki, birgə səylərimizlə, böyük və yaxud kiçik ərazili qonşularımızın müsbət yanaşmaları ilə ölkələrimizin ərazi bütövlüyünə nail olaq. Mədəniyyətlərin və sivilizasiyaların ən maraqlı yol kəsişməsində yerləşən regionumuzda sülhün və sabitliyin möhkəmləndirilməsi əsas şərtdir. Dünya qarşısında bu nadirliyi qorumaq bizim borcumuzdur.

## MƏRKƏZÇİ DEMOKRAT İNTERNASİONALININ PREZİDENTİ ANDRES PASTRANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrananın başçılıq etdiyi, bu qurumun baş katibi Antonio Lopez-İsturiz və Asiya və Sakit okean regionu üzrə baş əlaqələndiricisi Sezar Rosellonun daxil olduğu nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev səfərin və aparılan müzakirələrin ölkəmizlə bu təsisat arasında əməkdaşlıq və dialoqun inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Mərkəzçi Demokratlar İnternasionalının prezidenti Andres Pastrana rəhbərlik etdiyi təşkilatın gündəliyində duran məsələlər və həyata keçirilən tədbirlər barədə məlumat verdi. O, səfər çərçivəsində məcburi köçkünlərlə görüşdüklərini və Azərbaycan hökuməti tərəfindən onların həyat şəraitinin yaxşılaşdırılması üçün görülən sosial təyinatlı işlərin nümunəvi olduğunu bildirdi.*

*Prezident İlham Əliyev qaçqın və məcburi köçkünlərin problemlərinin daim diqqət mərkəzində saxlanıldığını qeyd edərək, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin doğurduğu fəsadlar və münaqişənin həlli prosesi barədə danışdı.*

*Görüşdə, həmçinin Mərkəzçi Demokratlar İnternasionalı ilə Azərbaycan, xüsusilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*1 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 1-də bir qrup mədəniyyət və incəsənət xadimləri ilə görüşmüşlər.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Əziz dostlar, mən sizi səmimiyyətlə salamlayıram. Bu gün Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı sizinlə danışmaq istərdim. Mənim ölkəmizin görkəmli mədəniyyət xadimləri ilə bir çox görüşlərim olub, həm fərdi qaydada, həm də müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında. Bu gün isə biz daha geniş formatda görüşürük. Hesab edirəm ki, buna ehtiyac vardır. Çünki ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il Prezident seçkilərindən sonra verilmişdir. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılırdı və bu ilin

əvvəlindən genişmiqyaslı islahatlara start verildi. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac vardır. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır.

İqtisadi sahədə apardığımız islahatlar gözəl nəticələr verir. Bu ilin birinci ayının göstəriciləri bunu deməyə əsas verir. İqtisadiyyatımız, demək olar ki, tamamilə bərpa edilib. Əminəm ki, bu il iqtisadi inkişaf baxımından çox ciddi nəticələr olacaqdır. Bilirsiniz, dünyada baş vermiş çox dərin maliyyə və iqtisadi böhran bizim ölkəmizdən də yan keçmədi və 2015-ci ildən sonra, demək olar ki, bütün ölkələrdə iqtisadi tənəzzül müşahidə olunurdu. İlk növbədə, iqtisadiyyatı neft-qaz sektoru ilə bağlı olan ölkələrdə bu tənəzzül özünü daha çox büruzə verdi. Təsəvvür edin ki, qısa müddət ərzində ölkənin gəlirləri təxminən 4 dəfə aşağı düşür. Bu nə deməkdir? O deməkdir ki, biz öz xərclərimizi 4 dəfə azaltmalı idik, çox qısa bir müddət ərzində çox ciddi addımlar atmalı idik, heç bir ölkə buna hazır deyildi, o cümlədən də biz. Biz bunu etiraf edirik və əlbəttə, bu böhranlı vəziyyət ölkəmizə böyük zərbə vurdu. O vaxt bizim əsas məqsədimiz vətəndaşların sosial müdafiəsini gücləndirmək və bu iqtisadi böhrandan az itkilərlə çıxmaq idi. Hesab edirəm ki, biz buna nail ola bildik. 2017-ci il iqtisadi sabitləşmə ili oldu. Keçən il biz artıq iqtisadi inkişafa qədəm qoyduq. Bu il isə inkişaf daha da böyük ölçülərlə özünü göstərir.

İqtisadi islahatlar imkan verdi ki, sosial sahədə çox ciddi addımlar atılsın. Bu ilin əvvəlindən keçən il ərzində hazırlanmış sosial layihələr icra edilməyə başlandı. Azərbaycan vətəndaşları bunu yaxşı bilirlər. Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir. Sosial müavinətlərin orta hesabla 100 faiz artırılması təxminən 600 min insanı əhatə edir. Çoxmənzilli binaların sənədləşdirilməsi təxminən 350–400 min insanı əhatə edir. Şəhid ailələrinin problemlərinin həlli, müavinətlərin artırılması və ödənişlərin verilməsi minlərlə insanı əhatə edir. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırır. Digər sosial yönümlü addımlar, dünən imzaladığım fərman 800 min insanı əhatə edir və deyə bilərəm ki, bu fərmanın dünyada analoqu yoxdur. Fərmanı oxuyan, onu təhlil edən hər bir vətəndaş bunu görə bilər. Bu çox ciddi bir sosial təşəbbüsdür. Dövlət bir daha göstərdi ki, öz vətəndaşının yanındadır. Bizim iqtisadi imkanlarımız yarandıqca, ilk növbədə, problemli kreditlər məsələsini həll etməyə qərar verdik və bunu bacardıq. Onu da bildirməliyəm ki, ciddi devalvasiyadan əziyyət çəkən ölkələrin sayı kifayət qədər çoxdur və bizdən də dərin devalvasiyaya uğramış ölkələr vardır. Ancaq heç bir ölkədə bu dərəcədə sosial yönümlü, vətəndaşın marağını güdən addım olmamışdır. Bu sosial paket təqribən 3 milyona yaxın insanı əhatə edir və bir daha bizim niyyətimizi göstərir.

Digər sahələrdə də islahatlar aparılır və aparılmalıdır. Təhsil sahəsində aparılan islahatların nəticəsində müəllim peşəsini seçən abituriyentlərin sayı kəskin artıb. Cəmiyyətdə müəllim peşəsinə ənənəvi hörmət qayıdır. Təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, 3200-dən çox məktəbin tikilməsi, əlbəttə ki, böyük dəyişikliklərə gətirib çıxardı.

Səhiyyə sahəsində çox ciddi islahatlar aparılır. Qərar qəbul olunub və ümid edirəm ki, biz gələn ildən icbari tibbi sığorta sisteminə keçəcəyik. Biz bir neçə şəhərdə pilot layihələri icra etdik və bu layihələr çox müsbət nəticə verir. Həm vətəndaşlar razıdırlar, həm də tibbi xidmət yüksək səviyyədə göstərilir. Deyə bilərəm ki, bu şəhərlərdə səhiyyə sahəsində şəffaflıq tam təmin edilib. Beynəlxalq maliyyə qurumları, ilk növbədə, Dünya Bankı – bu yaxınlarda onların nümayəndələri ilə mənim görüşüm olubdur – bunu çox yüksək qiymətləndirirlər. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı bunun faydasını görəcək. Bu çox ciddi islahatdır, sadə məsələ deyil, bəzi ölkələr illər boyu bu islahata doğru gedib, amma əldə edə bilməyiblər. Biz isə nisbətən qısa müddət ərzində bütün lazımi sənədləri hazırladıq və səhiyyə sahəsində çox ciddi dönüş gözlənilir. Çünki keçən dövrdə bütün şəhərlərimizdə müasir xəstəxanalar, Diaqnostika mərkəzləri tikilib, yəni infrastruktur mövcuddur.

Digər sahələrdə, məsələn, məhkəmə-hüquq sahəsində islahatlara çox ciddi ehtiyac var və müvafiq göstərişlər verilibdir. Şəhərsalma sahəsində – Bakı şəhərində xaotik tikinti prosesi artıq sona çatır. Şəhər-

salma və Arxitektura Komitəsi qarşısında çox ciddi vəzifə qoyulub ki, buna son qoyulsun. Əlbəttə, biz imkan verə bilmərik ki, inşaat sektorunda durğunluq yaransın. İnşaat iqtisadiyyatın təkanverici sektorlarından biridir, on minlərlə iş yeri yaradan sahədir. Ancaq Bakının bundan sonrakı şəhərsalma qaydaları baş plan əsasında olmalıdır və şəhərimizin gözəl siması daha da gözəlləşdirilməlidir. Şəhər nəqliyyatı, şəhər təsərrüfatı ilə bağlı islahatlar aparılır. Hesab edirəm ki, biz bu islahatların aparılmasında uğurlar əldə edəcəyik.

O ki qaldı mədəniyyət sahəsinə, bu gün istərdim ki, sizinlə bu məsələlərlə bağlı fikir mübadiləsi aparım və bundan sonra görüləcək işlər haqqında danışaq. Çünki əvvəlki illərdə bir çox işlər görülüb. Mən Prezident kimi, həmişə çalışmışam ki, bu sahəyə öz diqqətimi göstərim. Hesab edirəm ki, görülmüş işlər qiymətləndirilməlidir. Bizim əsas teatrlarımız – Milli Dram Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Musiqili Teatr əsaslı təmir olunub. Bölgələrdə teatr binaları tikilib və əsaslı təmir edilib, yeni teatrlar yaradılıbdır. Muzeylərimiz, Bakı şəhərinin muzeyləri, demək olar ki, tam şəkildə əsaslı təmir edilib – Tarix Muzeyi, Nizami adına Ədəbiyyat Muzeyi, Muzey Mərkəzi. İncəsənət Muzeyinin 2 binası və Xalça Muzeyi tikilibdir. Müasir İncəsənət Muzeyi fəaliyyətə başlayıb, digər muzeylər, mən indi hamısını xatırlada bilmərəm. Hər bir şəhərdə Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyətə başlayıbdır.

Dini abidələr əsaslı şəkildə təmir edilib. Bakıda və bölgələrdə yüzlərlə məscid əsaslı şəkildə bərpa olunubdur. Onların sırasında böyük mənəvi əhəmiyyət daşıyan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidləri, Gəncədəki İmamzadə dini-tarixi kompleks, Azərbaycanın ən qədim məscidi – 743-cü ildə tikilmiş Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edilib, Heydər Məscidi tikilibdir. Yəni bunlar bizim milli irsimizdir.

Digər sahələrə gəldikdə isə, yadımdadır, elə ilk qərarlarımdan biri də o idi ki, Azərbaycan klassiklərinin əsərlərini latın qrafikası ilə çap etdirək. Çünki bir qədər anlaşılmayan vəziyyət yaranmışdı. Biz tam olaraq latın qrafikasına keçmişdik və təhsil latın qrafikası ilə aparılırdı. Ancaq bizim bütün klassiklərimizin kitabları vaxtilə kiril qrafikası ilə çap olunmuşdu. Ona görə şagirdlər, tələbələr onları oxuya bilmirdilər. Baxmayaraq ki, o vaxt bizim maddi vəziyyətimiz çox məhdud idi, 2004-cü ildə biz bu qərara gəldik və qısa müddət ərzində bunu etdik. Nəinki Azərbaycan klassiklərinin, hətta dünya ədəbiyyatı klassiklərinin də kitabları latın qrafikası ilə çap olundu.

Kinoteatrların yaradılması, özəl kinoteatrların fəaliyyətə başlaması sevindirici haldır. Nizami Kino Mərkəzi əsaslı şəkildə təmir edilib. Görkəmli mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək üçün abidələr qoyulub. Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və digər görkəmli mədəniyyət xadimlərimizin xatirəsi əbədiləşdirilib. Görülən bütün işləri yada salmaq çətindir. Bizim iki konservatoriya-

mızdan biri əsaslı şəkildə təmir edilib, o biri isə yenidən tikilibdir.

İndiyədək bu sahədə görülən işlər bundan ibarətdir. Bundan sonra hansı işlər görülməlidir, bunu siz deməlisiniz. Çünki mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün. Biz bu məsələlərlə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq. Əlbəttə, sadəcə olaraq, mədəniyyət ob-yektlərinin tikintisi, təmiri bizim məqsədimizi tam ifadə edə bilməz. Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq. Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz.

Mən bir ay bundan əvvəl gənclərlə görüşdə dedim ki, bizim gənc nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün əsas amil bizim mədəniyyətimiz, incəsənətimiz, ədəbiyyatımız, ana dilimiz, milli təfəkkürümüzdür. Ona görə bu və istənilən digər məsələ ilə bağlı mən sizinlə danışmaq istərdim. Hesab edirəm, mən giriş sözümü yekunlaşdırmalıyam ki, sizə daha çox imkan yaradım və siz öz sözünüzü deyəsiniz.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra mədəniyyət və incəsənət xadimləri çıxış etdilər.*

**A n a r R z a y e v** (*Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı*): Hörmətli cənab Prezident!

Hörmətli Birinci vitse-prezident Mehriban xanım!

Əziz dostlar!

Cənab Prezident, mən ilk növbədə, Sizə təşəkkür etmək istəyirəm ki, iş qrafikinizin gərgin olmasına baxmayaraq, bizə vaxt ayırmısınız və bizimlə görüşürsünüz. Başqa yaradıcılıq təşkilatları kimi, Yazıçılar Birliyi də Sizin daim qayğınızı və diqqətinizi hiss edir. 50 nəfər yaşlı, 20 nəfər cavan yazıçıya Prezident təqaüdünün təyin olunması, 5 il bundan qabaq 80 illiyimizin geniş qeyd edilməsi, Yazıçılar Birliyinin binasının təmiri, klassiklərimizin və müasir yazıçılarımızın yubileyləri bu qəbildən olan işlərdir. Siz bu ili Nəsiminin yubileyi ilə bağlı olaraq «Nəsimi ili» elan etmisiniz. Bu il Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, İsmayıl Şıxlının yubileyləri haqqında Sizin sərəncamlarınız vardır. Yeri gəlmişkən istərdim ki, Cəlil Məmmədquluzadənin yubileyi ilində onun məzarı da səliqəyə salınsın və Bakıda heykəli ucaldılsın. Çünki Nizami Muzeyinin eyvanında bizim yazıçıların və şairlərin – Füzulinin, Mirzə Fətəlinin, Natəvanın, Cəfər Cabbarlının heykəlləri var, o cümlədən Mirzə Cəlilin də. Amma bizim çox böyük yazıçımız Cəlil Məmmədquluzadənin Bakıda ayrıca heykəli yoxdur. Naxçıvanda heykəltəraş Mirqasımov Mirzə Cəlilin çox

gözəl heykəlini yaradıb, onun bənzərini Bakıda da ucaltmaq olar.

Dekabr ayında Siz məni qəbul etdiniz və mən Yazıçılar Birliyinin bir çox təkliflərini, xahişlərini Sizə yetirdim. Çox məmnunam ki, Sizin göstərişlərinizlə bunların böyük qismi artıq həyata keçib. Bizim Şüvəlandakı Yaradıcılıq evimizi vaxtilə qaçqın və köçkünlərə vermişik, artıq 30 ilə yaxındır orada yaşayırlar. İndi Sizin sərəncamınızla onlar yeni mənzillərə köçürülür və o bina təmir olunacaqdır. Sizin tapşırığınızla Bakı Şəhər İcra Hakimiyyəti Heydər Məscidinin yanında bir sahə ayırdı, orada biz yazıçılar üçün 16 mərtəbəli bina tikiləcək, kooperativ ev. Bununla da bizim yazıçıların mənzil məsələsi, demək olar ki, həll ediləcəkdir.

Daha böyük və şad xəbər odur ki, bir neçə il bundan qabaq Sizin təşəbbüsünüzlə bəstəkarların, rəssamların və yazıçıların Yaradıcılıq evi tikilməsi haqqında məsələ qaldırılmışdı. Mən bir daha bunu Sizdən xahiş etdim və Siz tapşırıq verdiniz. Mən gedib o yeri görmüşəm. Şabran rayonunda çox səfalı bir yerdir, meşənin içində. Amma böyük bir tala vardır. Ona görə deyirəm ki, orada ağac da qırılmayacaq, bulaq var, gözəl bir yerdir. Dünən mən Şabran Rayon İcra Hakimiyyətinin başçısı ilə telefonla danışdım, dedi ki, layihə artıq hazırdır. Bəstəkarlar, rəssamlar, yazıçılar üçün 3 bina, bir də ümumi bina tikiləcək ki, orada konfrans zalı, poliklinika və dükanlar olacaqdır. Torpaq və yol işləri qurtarıb. Martda tikinti işləri başlanacaqdır. Mən Sizə həm

Yazıçılar Birliyi adından, həm də icazələri ilə bizim Rəssamlar və Bəstəkarlar ittifaqlarının adından təşəkkürümü bildirmək istəyirəm ki, belə bir nadir şəhərcik yaranacaqdır.

Bir təklifimi də vermək istərdim. İstərdim ki, bu şəhərcik ulu öndərin şərəfinə Heydərabad adlansın. Çünki bu həm Heydər Əliyevin Azərbaycan mədəniyyətinə sevgisinin, qayğısının rəmzi olar, həm də Azərbaycanın coğrafi xəritəsində ulu öndərin adı ilə daha bir məskən ola bilər.

Mənim bir neçə təklifim də vardır. İstəyirəm onları da bu gün fürsət var ikən Sizə çatdırım. Ədəbiyyatımızın xaricdə təbliği ilə bağlı məsələ qaldırmaq istəyirəm. Bilirsiniz, ispanların Servantes Mərkəzi var, o, bütün dünyada ispan ədəbiyyatını təbliğ edir. Almanların Höte Mərkəzi var, o da bütün dünyada alman ədəbiyyatını təbliğ edir. Türklərin Yunus Əmrə Mərkəzi var, o da həmin işi görür. Biz də belə bir Füzuli Mərkəzi yaratsaydıq, ən azı böyük şəhərlərdə – Moskvada, İstanbulda, Tehranda, Avropa şəhərlərinin birində həm klassik və müasir Azərbaycan ədəbiyyatını, həm də Azərbaycan ədəbiyyatı vasitəsilə xalqımızın tarixini, bu gününü və siyasətini təbliğ edərdik.

Nəhayət, son təklifim odur ki, cənab Prezident, mən çox istərdim heç olmasa ildə bir dəfə Sizinlə bu formatda görüşək. Bir də əgər mümkündürsə, Mehriban xanımın yanında ziyalıların Məşvərət Şurasını yaradaq ki, ara-sıra biz orada toplaşaq, ictimai-siyasi, mədəni hadisələr haqqında söhbətlər edək. Mən bu

təkliflərimi yazılı şəkildə Sizə təqdim edirəm, bir hissəsi həyata keçsə, çox şad olaram, hamısı keçsə isə daha da şad olaram. Çox sağ olun.

**F i r ə n g i z Ə l i z a d ə** (*Bəstəkarlar İttifaqının sədri, Xalq artisti*): Möhtərəm cənab Prezident!

Əziz və hörmətli Birinci vitse-prezident Mehriban xanım!

Hörmətli həmkarlar!

Mən də bəstəkarlar və musiqişünaslar adından Sizə dərin minnətdarlığımı bildirirəm ki, vaxt tapıb bizimlə görüşdünüz. Amma zənn edirəm ki, hər halda, bizim qədər Sizə minnətdar olan insanlar yoxdur. Ona görə ki, ilk növbədə, Siz bizə binamızı qaytardınız, unudulmaz açılışı oldu. Biz bunu heç vaxt unutmayacağıq. Çox gözəl bir mərasim idi. Sizin və ailənizin çox böyük diqqəti, dəstəyi ilə bu mərasimi həyata keçirdik. Doğrudan da uzun illər yurdsuz-yuvasız qalan Bəstəkarlar İttifaqı, nəhayət, öz evinə qayıtdı.

Bundan başqa, Anar müəllimin dediyi kimi, artıq 10 ildir ki, bəstəkarlarımız və musiqişünaslarımız təqaüd alırlar. Bu da 85 illik tariximizdə ilk dəfə olan bir hadisədir, az məbləğ də deyil. Bizim bəstəkarlarımız və musiqişünaslarımız onlarla kitab və yeni əsərlər yazıblar və bu təqaüd onlara maddi tərəfdən çox böyük dəstəkdir. Çox təşəkkür edirik, bu çox gözəl bir haldır. Bundan əlavə, təbii ki, fəxri adlara, evlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Amma yenə də ehtiyaclar var, möhtərəm cənab Prezident. Burada bir adı çəkmək istəyirəm,

bağışlayın, bəlkə yeri deyil, amma bizim 90 yaşında bir bəstəkarımız var, Yaşar İmanov, Abxaziyadan qaçqındır. Artıq ailəsində 3 nəsil musiqiçilər böyüyüb. Onun evi yoxdur. O çox istərdi ki, 90 yaşında evi olsun. Mümkündürsə, bu məsələni həll edərdiniz. Biz çox minnətdar olarıq.

Təbii ki, gənc bəstəkarların da evə ehtiyacları vardır. Bu sahədə çox böyük işlər görülür. Amma bilirsiniz, gənc bəstəkarlar ailə qururlar və kirayədə qalmaq onlar üçün bir az çətin olur. Yeni tikilən o evlərdə bizə də imkan daxilində 5-6 mənzil versəniz, çox xoşbəxt olarıq.

Biz çox fəxr edirik ki, son illər islahatlar aparılır. Bu, musiqiyə də aiddir. Mən burada Heydər Əliyev Fondunun işini xüsusi vurğulamaq istəyirəm. Biz həmişə bu Fondun sadiq köməkçiləri olmuşuq və çox gözəl, böyük, mən deyərdim ki, vacib layihələrdə yaxından iştirak etmişik, məsələn, Azərbaycan və rus dillərində Muğam Ensiklopediyasının yaradılmasında. Rus dilində ensiklopediya bu dildə oxuyan 150 milyon insana, o cümlədən musiqisevərlərə, muğamsevərlərə təqdim olunan böyük elmi işdir. Bundan başqa, «Üzeyir dünyası» bizi çox sevindirən böyük bir layihədir. «Üzeyir dünyası», «Fikrət zirvəsi». Burada mən bir məsələyə də toxunmaq istəyirəm, möhtərəm cənab Prezident. Televiziya kanallarında balans bir az pozulub. İstərdim ki, bu proses tənzimlənsin. Mən 2007-ci ildə bütün kanallara bəstəkarlar və musiqişünaslar adından məktublar göndərdim ki, televiziya kanallarında bədii şuralar bərpa olunsun. Ona görə ki, vaxtilə bu

şuralar olub, qadağa qoymaq məqsədilə yox, tənzimləmək, bu balansı saxlamaq üçün. Amma bu bədii şuraların tərkibi də çox vacib bir məsələdir. Yəni o tərkibdə kimlər olmalıdır, onların zövqü, savadı, səviyyəsi doğrudan da bu prosesi aparmağa yetərlidirmi? Bax, bunlar çox böyük məsələlərdir.

Biz yenə də vurğulamaq istəyərdik ki, Azərbaycan musiqisi təkcə mahnılardan ibarət deyil. Biz çox böyük fəxr hissi ilə deməliyik və vurğulamalıyıq ki, bütün Şərqdə, bütün islam dünyasında nadir bəstəkarlıq məktəbi Azərbaycanda yaradılıb. Bu haradan gəlir? İlk növbədə, dahi bəstəkarlarımız Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və onların ənənələrini bu gün də davam etdirən bəstəkarlardan. Bu, nadir bir məktəbdir və onu həmişə dəstəkləmək, ona kömək etmək lazımdır. Ona görə ki, Avropada musiqi tarixi XIII əsrdən başlanıb, bizdə isə XX əsrdən. Bu yeddi əsrlik boşluğu doldurmaq bizə o qədər də asan olmur. Belə dahi insanlar və ulu öndərimiz Heydər Əliyevin dəstəyi, çox böyük diqqəti, bizim bəstəkarlarla şəxsi dostluğu – bunlar hamısı bizim üçün çox böyük dayaq idi. Biz fəxr edirik ki, bizim müəllimlərimiz həmişə Heydər Əliyevin yanında olub, birlikdə gözəl layihələr hazırlanıbdır.

Mən istərdim ki, bir problemi də Sizin diqqətinizə çatdırım. Son illər nədənsə bizim bəstəkarlarımızın əsərləri alınmır. Burada çox böyük maliyyə problemi yaranır. Ona görə ki, bizim Bəstəkarlar İttifaqında 11 bölmə fəaliyyət göstərir və bu bölmələrdə bütün

janrlara aid olan əsərlər dinlənilir, seçilir. Biz istərdik ki, bu əsərlər alınsın. Ona görə ki, bu həm bəstəkarlara və musiqişünaslara ruh verər, həm də Sizin dəstəyinizin bir təzahürü olar. Bundan başqa, istərdik ki, sifarişlər də olsun. Sizin sərəncamlarınız bizim bəstəkarları və musiqişünasları çox gözəl istiqamətləndirir. Yəni hansı mövzulara daha böyük diqqət yetirmək lazımdır. Bu baxımdan, bizim Mədəniyyət Nazirliyi yeni əsərlər sifariş etsəydi, daha uyğun olardı və bu əsərlər daha müntəzəm meydana gələrdi.

Yada salmaq istəyirəm ki, Bəstəkarlar İttifaqı bütün beynəlxalq musiqi festivallarının təşkilində yaxından iştirak edir. Biz fəxr edirik ki, «Muğam aləmi» festivalı artıq 5 dəfə keçirilib. Biz bu festivalda çox fəal iştirak edirik. Çox yüksək səviyyədə simpoziumlar keçirilir. Amma Bəstəkarlar İttifaqının özünün də gözəl Şəki festivalı, «İpək yolu» festivalı vardır. Təəssüflər olsun ki, son illər biz bu festivalı keçirmək üçün heç bir maliyyə dəstəyi ala bilmirik. Bu il artıq 10-cu yubiley festivalı keçiriləcək və çox istərdik ki, burada bir az bizə dəstək versinlər. Son festivalda Mədəniyyət naziri də iştirak etdi. Gördü ki, orada çox yüksək səviyyədə, UNESKO səviyyəsində simpozium keçirildi. Çox gözəl keçdi və UNESKO-nun saytında da bu barədə çox qiymətli sözlər söylənildi. Biz istərdik ki, bu proses davam etsin və Sizin dəstəyinizə ehtiyacımız vardır.

Nəhayət, «Nəsimi ili» bizi çox sevindirdi. Ona görə ki, necə deyərlər, bizim bəstəkarlarımızın qələmi

həmişə əllərindədir, həmişə yazıb-yaradırlar. Bizim xalqımızın sevinci də, problemləri də bəstəkarların əsərlərində əks olunur. Mən inanıram ki, bəstəkarlar və musiqişünaslar həmişə yüksək səviyyədə, yəni Sizin dəstəyinizə layiq olan əsərlər yaradacaqlar. Diqqətinizə görə təşəkkür edirəm. İstərdim ki, bizim bəstəkarlarımızın və musiqişünaslarımızın dərin minnətdarlığını bir daha Sizə çatdırım. Sağ olun.

**A r i f B a b a y e v** (*Xalq artisti, professor*): Hörmətli Prezident!

Hörmətli Mehriban xanım!

Əziz həmkarlar, hamınızı salamlayıram!

Mən öz fikrimi qısa şəkildə deyəcəyəm. Mən müsabiqələr haqqında danışmaq istəyirəm. Bizim növbəti muğam müsabiqəmiz bu yaxınlarda başlanacaq. Həddindən çox insan zəng edir, soruşur, maraqlanır, deyir ki, mən o müsabiqədə iştirak etmək istəyirəm. Doğrudan da çox böyük bir layihədir. Sağ olsun bu layihəni quran Mehriban xanım. Çünki muğam müsabiqələrinin keçirilməsi bizim sənət adamlarının inkişafına çox böyük təkandır. Yəni cavanların arayaərsəyə gəlməsi, onların püxtələşib xanəndə kimi formalaşması böyük işdir. Məsələn, bu yaxınlarda Ağdamda möhtəşəm bir bina tikildi. Açılışında cənab Prezident, Mehriban xanım da iştirak etdilər. Yəni bununla demək istəyirəm ki, çox sağ olun, cənab Prezident, Mehriban xanım. Siz milli mədəniyyətimizin inkişafına doğrudan da böyük qiymət verirsiniz. Bu yaxınlarda – gərək mən bunu deyim – onurğa sütunumda bir problem var idi, sağ olsun Mehriban xanım, onun

köməyi ilə bu problem aradan qaldırıldı. İndi şükür Allaha ki, ayaq üstəyəm. Buna görə də Sizə təşəkkürümü bildirirəm.

Cənab Prezident, camaatın Sizə çoxlu xeyir-duası, alqışları vardır. Mən bir sənət adamı kimi, bir ağsaqqal kimi, Sizə «Çox sağ olun!» – deyirəm. Bu yeni fərmanlar camaatı çox sevindirdi. Bunu alqışlayırlar. Doğrudan da bu, böyük işdir.

Uşaqlar musiqi məktəblərində formalaşırlar. Xalq və bəstəkar mahnılarını onlara balaca vaxtlarından öyrətmək lazımdır. Onların not bilmələri daha yaxşıdır. Bir xanəndə kimi, biz bunu görürük. Mən hazırda Milli Konservatoriyada kafedra müdiriyəm. Bizim peşəkar, çox gözəl müəllim yoldaşlarımız var, birgə çalışırıq və yaxşı xanəndələri ortaya çıxarırıq.

Mən Sizə təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun.

**Zeynəb Xanlarova** (*Azərbaycanın və SSRİ-nin Xalq artisti, Milli Məclisin üzvü*): Mən də bir-iki kəlmə söz demək istəyirəm. Görürəm ki, bəzi çıxışlar xahişlərdən ibarətdir. Mənim xahişim yoxdur. Mən ancaq danışa bilərəm. Ataların bir sözü var: «Görünən dağa nə bələdçi?!»

Azərbaycanımız çox gözəlləşib, çox böyük inkişaf vardır. Biz əvvəlki dövrləri də görmüşük, gələn turistləri də görmüşük. Hələ indiyə qədər Azərbaycana belə turist axını olmayıb. Hamı nəyə görə gəlir? Ancaq Azərbaycanımızın gözəlliyinə. Neçə prezident görmüşəm. Mən bunu dəfələrlə demişəm, yenə də təkrar edirəm – elə prezidentlərimiz, elə başçılarımız

olub ki, heç bizim kəndlərimizi, rayonlarımızı belə, tanımırdılar.

Bizim əziz Prezidentimiz, əzizimiz Mehriban xanım rayonları, kəndləri qarış-qarış gəzirlər. Mən onlara indi rayon deyə bilmərəm, mən onlara şəhər deyirəm. Mən nə qədər ölkə gəzmişəm, nə qədər konsert vermişəm. Maşınların kuzalarını birləşdirib, üstünə xalçalar döşəyirdilər, biz də onların üstündə stadionlarda yorulmadan konsertlər verirdik. İndi, maşallah, hər bir rayonda elə böyük Mədəniyyət sarayları yaradılıb ki, sanki Heydər Əliyev Mərkəzidir. Gözəl hotellər, mərkəzlər tikilibdir. Vallah, bunu görməmək korluqdur. Ancaq kor adamlar bunları görə bilməz.

Mən Prezidentimizə uzun ömür arzulayıram. Çünki o, Azərbaycanı bu qədər inkişaf etdirib, bu qədər gözəlləşdiribdir. Mən hər il xaricdə oluram. O qədər gözəl sözlər deyirlər. Fəxr edirəm ki, mənim Azərbaycanım belə inkişafdadır. Mən heç bir xahişdən ötrü gəlməmişəm. Xahiş edirəm, çıxış edənlər də bu gözəlliklərdən danışsınlar. Xahiş lazım olanda, onsuz da elə bir adam yoxdur ki, Prezident onunla ayrıca görüşməsin, onu ayrıca eşitməsin. Xahiş edirəm, burada olanlardan, Azərbaycanımızın gözəlliklərindən, inkişafından danışaq.

Mən bunu dəfələrlə demişəm ki, ölməz Heydər müəllimimiz vardır. İnanın, mən onun yoxluğuna inanmıram. Mən elə bilirəm ki, Heydər müəllim hələ də yaşayır. Siz nə qədər yaşayırsınızsa, Heydər müəllim də həmişə yaşayacaq. Azərbaycan nə qədər varsa, həmişə Heydər müəllim də var, Sizinlə birlikdə həmişə yaşayır.

Mehriban xanım, Sizə, mənim əziz Prezidentim, Sizə cansağlığı arzulayıram. Bəlkə də mən natiq deyiləm. Mən 70 ildir səhnədəyəm, indiyədək fonoqramla oxumamışam. Hətta Amerikada qollarımdan tutub deyiblər ki, görəsən bu, canlı oxuyur, yoxsa fonoqramla? Ömrüm nə qədər var, mən canlı oxuyacağam. Danışmağa çox sözüm vardır. Muğam olsa, mahnı olsa, mən burada çox oxuyaram, qolumdan tutub çıxarmasanız səhnədən. Ancaq inanın, ürəyimdə Azərbaycanın gözəlliyi haqqında o qədər sözlər var ki, yoldaşlardan xahiş edirəm, xahişlərinizi saxlayın, Azərbaycanımızın gözəlliyindən, inkişafından danışın. Çox xahiş edirəm sizdən. Sağ olun.

**Hacı İsmayılov** (*Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini*): Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Mən bizim dünya şöhrətli müğənnimizlə tamamilə şərikəm ki, Azərbaycanın gözəllikləri bu gün göz oxşayır. Amma o gözəlliklərlə yanaşı, biz dayana bilmərik, biz qabağa getməliyik, inkişaf etməliyik hər barədə – həm mədəniyyətimiz, həm iqtisadiyyatımız. Mən fürsətdən istifadə edərək, möhtərəm Prezidentimizə ürəkdən təşəkkür edirəm. Nəinki mədəniyyət xadimləri, bütün Azərbaycan xalqı Sizi çox istəyir, Sizə böyük ehtiramları, böyük inamları vardır. Mədəniyyət işçiləri, hamımız sevinirik ki, bizim belə Prezidentimiz vardır. Dünya şöhrətli, gözəl, böyük siyasəti olan, Azərbaycanın xoşbəxtliyini təmin edə bilən bir insan

bizim möhtərəm Prezidentimizdir, dövlətimizin başçısıdır.

Əlbəttə ki, müstəqil Azərbaycan Respublikası bu gün sürətli inkişaf yolundadır. Bu gözəlliyi hamımız görürük. Onu da qeyd edim ki, bu inkişaf başqa sahələrlə yanaşı, eyni zamanda, mədəniyyətimizin və incəsənətimizin də inkişafına kömək edir. Sözsüz ki, bu inkişaf, canlanma, cənab Prezident, Sizin mədəniyyətə, xüsusilə də teatr sənətinə qayğı və diqqətiniz sayəsində mümkün olubdur. Ulu öndər Heydər Əliyev teatrı və aktyor sənətini həmişə yüksək qiymətləndirib, ona böyük dəyər veribdir. O deyərdi ki, teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada işləyənlər fədakardırlar, fədaidirlər. Mən həmişə teatra yaxın və bağlı olmuşam. Bu, ötəri hiss deyil. Bu mənim içimdən gələn bir məhəbbətdir. Ümummilli liderin mədəniyyətə qayğısı, diqqəti bu gün məhz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev tərəfindən davam etdirilir. Əlbəttə, o gözəlliklər deyirsiniz, inanın, mən Azərbaycanda olan teatr binalarını, təmir olunmuş teatr binalarını, o səhnələri, o gözəllikləri görəndə deyirəm, İlahi, nə yaxşı ki, biz bu gözəl dövlətin vətəndaşlarıyıq. Əlbəttə, vətəndaş olmaq üçün gərək vətəni sevəsən, dövlətinə qulluq edəsən, millətinə xidmət edəsən. Bu gün buraya yığışan insanların, Azərbaycanın görkəmli incəsənət, mədəniyyət xadimlərinin sözsüz ki, bu işdə böyük fəaliyyəti, böyük zəhməti olub. Mən onların hamısına ürəkdən təşəkkür edirəm. Burada məndən yaşlı, məndən titullu insanlar vardır. Amma çox sevinirəm ki, bu gün hamımız bir yerdəyik. Hamımız

bir yerdə Azərbaycan mədəniyyətinin təntənəsi uğrunda nələrisə deyirik, nələrisə istəyirik. Əlbəttə, sənət adamlarına verilən fəxri adlar, Prezidentin fərdi təqaüdü, mükafatlar, onların mənzillə təmin olunması – inanın, cənab Prezident, Siz o qədər böyük işlər görmüsünüz ki, hamımızın qəlbində Sizə böyük ehtiram, böyük məhəbbət vardır. Biz Sizi çox istəyirik. Həmişə Sizin yanınızda olmuşuq. İnanın, son Prezident seçkilərində mədəniyyət işçiləri Sizi çox böyük coşqu ilə dəstəklədilər. Həmin gecə Sizin parka gəlişiniz, oradakı görüşlər, o şadlıq, o bayram mənim heç yadımdan çıxmır. Azərbaycan xalqı bütövlükdə sevinirdi ki, bizim belə Prezidentimiz vardır. Sizin mədəniyyətə, teatr sənətinə olan münasibətiniz bizi çox sevindirir.

Onu da deyim ki, 50 ilə yaxın işlədiyim Azərbaycan Akademik Milli Dram Teatrı bu illər ərzində böyük uğurlar qazanıb. Uğurlarımız da onda olub ki, biz elə saydığımız yerdə qalmamışıq. Bizim teatrda əvvəllər böyük səhnə və kiçik səhnə olub, indi artıq böyük səhnədən başqa 4 səhnəmiz vardır. Bu gün, martın 1-də bizim toplaşmağımız çox əlamətdardır. Çünki 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz martın 1-də Azərbaycanda 10 mart – Milli Teatr Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Artıq 6 ildir ki, biz bu günü bayram edirik, buna görə Sizə ürəkdən təşəkkür edirik. Bu, milli teatra verilən dəyər və qiymətdir.

Akademik Milli Dram Teatrının böyük bir arzusu vardır. Əvvəla deyim ki, kollektivimiz Sizi həmişə arzulayır, həmişə istəyir. Çünki bu adət bizə ulu öndər tərəfindən miras qalıbdır. O həmişə teatra gələndə tamaşadan sonra aktyorlarla, rejissorlarla söhbət edərdi. İndi də bu istək var, həmişə bizim işçilər tərəfindən səsləndirilir. Mən istəyirəm onu şəkili Mustafa kimi deyim: Sa qurban olum, ay Allah, noolar, elə et bizim möhtərəm Prezidentimiz bir dəfə bizim Akademik Milli Dram Teatrına təşrif gətirsin, biz o günü bayram edək.

Əlbəttə, bu gün Azərbaycan teatr xadimlərinin gördüyü çox işlər vardır. Yəni bir çatışmayan, daha doğrusu, arzuolunan odur ki, Azərbaycanda gənc dramaturqlara və gənc rejissorlara çox böyük ehtiyac vardır. Biz də, bizim direktorumuz Azərpaşa müəllim də bu barədə fikirləşdik. Keçən il bizim İttifaqda 5 yaradıcılıq laboratoriyası açılıb. Gənc rejissorların, aktyorların, eksperimental rejissorların, tənqidçilərin və gənc dramaturqların laboratoriyası artıq fəaliyyət göstərir. Burada 43 nəfər təhsil alır və mən inanıram ki, onların Azərbaycan mədəniyyətinə böyük töhfələri olacaqdır. Çünki bunlar hamısı gəncliyə aiddir və gənclər mütləq bu sənətə gəlməlidirlər. Bizlərin çoxu yaşlaşır.

Mən bir cəhəti də qeyd edim ki, Azərbaycanda tamaşaçı problemi vardır. Ancaq bu bizim teatra aid deyil. Maşallah, bizim teatrda həmişə tamaşaçılar olur, yəqin ki, bizim teatrı çox istəyirlər. Amma bizim teatrda uşaq tamaşaları da vardır. Mən mətbuatda oxumuşam, tənqid edirlər ki, Akademik Milli Dram

Teatrına uşaq tamaşaları hazırlamaq yaraşmaz. Axı bugünkü uşaq sabah böyüyəcək, sabah teatrın əsas tamaşaçısına çevriləcəkdir. Biz onlardan necə əl çəkə bilərik? Burada əyləşən mədəniyyət xadimlərinin hər birindən soruşsanız ki, sən mədəniyyətə, teatra, başqa sənətə hansı yaşından başlamısan, hamı deyəcək ki, məktəb illərindən. Məktəblilərlə teatrların münasibəti, ünsiyyəti qurulmalıdır. Özü də bu, ya yazılı, ya şifahi şəkildə olmalıdır ki, məktəblilər mütləq teatra gəlsinlər. Çünki onlar bizim gələcək tamaşaçılarımızdır.

Bir-iki kəlmə də çox paradoksal bir məsələ barədə danışmaq istərdim. Dövlət tərəfindən maliyyələşən ittifaqlar və təşkilatlar 18 faiz vergi ödəyir. Amma dövlət tərəfindən maliyyələşməyən Teatr Xadimləri İttifaqı da 18 faiz vergi ödəyir. Burada qəribə uyğunsuzluq var, yəqin ki, bunu düzəltmək olsaydı, bizim daha çox imkanlarımız olardı. Çünki Teatr Xadimləri İttifaqının üzvlərdən yığdığı pulların hamısı o üzvlərin xəstəliyinə, yaşlı olmağına, xeyrinə-şərinə istifadə olunur. Yəni teatr xadimləri özləri özlərini dolandırırlar. Mən Mədəniyyət Nazirliyinə ürəkdən təşəkkür edirəm. 3 ildir ki, onlar bizə maddi yardım edirlər. Çox sağ olsun Əbülfəs müəllim. Ürəkdən təşəkkür edirik.

Deyiləsi sözüm çoxdur. Mən bunu da qeyd edim ki, Azərbaycan Teatr Xadimləri İttifaqı dünyada tanınmış təşkilatın – UNESKO-nun beynəlxalq teatr institutunun və Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının üzvüdür. Buraya MDB, Baltikyanı ölkələr və Gürcüstan daxildir. Bu forumda Azər-

baycanı 5 gənc dramaturq, 6 teatr rəssamı, 3 tənqidçi təmsil edib və iki tamaşa oynanılıb. Hazırda isə Mədəniyyət Nazirliyinin bilavasitə təşəbbüsü, maddi köməyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Moskvadakı Şukin adına teatr məktəbində bizim 10 gənc teatr təhsili alır, həm aktyor, həm də rejissor kimi. Mən inanıram ki, onlar qayıdandan sonra bizim mədəniyyətimizə öz töhfələrini verəcək və özlərinin yeni teatr düşüncələrini gətirəcəklər.

İcazənizlə, çıxışımı müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndərin tarixi sözləri ilə bitirim. O deyirdi ki, yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə inkişaf edəcək, həmişə yaşayacaqdır. Mədəniyyət bəşəriyyətin topladığı gözəl nümunələrlə xalqları zənginləşdirir. Azərbaycan mədəniyyəti o zənginliyə öz payını verib və əminəm ki, bundan sonra da verəcəkdir.

Diqqətinizə görə çox sağ olun.

**Fərhad Bədəlbəyli** (*Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti*): Hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım!

Bu görüşə görə dərin minnətdarlığımı bildirmək istərdim. Burada əyləşənlərin hamısı, bütün yaradıcılıq ittifaqları Sizi bir il bundan qabaq filarmoniyada dəstəkləyiblər. Mən bacım Zeynəblə razı ola bilmərəm. Nəyə görə, Zeynəb? Firəngiz xanım da, Anar da böyük ittifaqların sədrləridir. Onların min dərdi vardır. Onlar özləri üçün heç bir şey xahiş etmirlər. Camaatın dərdi

var, onlara qulaq asmaq lazımdır. 90 illiyini qeyd edən bəstəkarımız 1991-ci ildə Abxaziyadan heç nəsiz gəlmişdi. Mən onu işə qəbul etdim. Bütün ailə Azərbaycan üçün işləyir. Ona görə mən Firəngiz xanımı alqışlayıram və dəstəkləyirəm.

2021-ci ildə Bakı Musiqi Akademiyasının 100 illiyi tamam olacaq. Onun məzunları buradadırlar, dünya şöhrətli ifaçılar – Xuraman, Fidan, Firəngiz xanım, maestro Rauf. Yəni bizim nəticələrimiz çox böyükdür. Bəstəkarlar məktəbi, vokal məktəbi. İndi bizim məzunlarımız «Bolşoy Teatr»da, La-Skalada ən möhtəşəm səhnələrdə konsertlərlə çıxış edirlər. Mən çox şadam ki, Üzeyir bəyin ənənələri davam etdirilir. Bu ənənələrin çox böyük bünövrəsi var, cənab Prezident, bu, musiqi məktəbləridir. Əgər musiqi məktəbləri, bu gözəl musiqi təhsili sistemi olmasaydı, bizim uğurlarımız da olmazdı. Bunu mütləq və mütləq saxlamaq lazımdır. Nəbadə musiqi məktəblərini ixtisara salmaq, xüsusilə rayonlarda azaltmaq olmaz. Biz rayonları nəyə görə diqqət mərkəzində saxlayırıq? Şəkidə Firəngiz xanım öz festivalını keçirir. Qəbələ festivalına görə sağ olsun Mehriban xanım, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu. Bu festivala 10 il ərzində ən möhtəşəm orkestrlər, solistlər gəliblər. İnsanlar indi özləri ailə üzvləri ilə konsertlərə gəlir. Mühit dəyişir. Rayonlarımızda musiqi məktəbləri çox vacibdir. Ona görə çox xahiş edirəm, biz nəbadə onlara toxunaq.

Mən ikinci məsələyə toxunmaq istərdim. Məncə, artıq ölkəmizdə klassik musiqi alətləri kolleksiyasının yaradılmasının vaxtı gəlib çatıbdır. Cənab Prezident,

bu, bütün dünyada böyük bir bazardır. Sizə misal gətirim. Qvarneri del Cezu skripkasının 2010-cu ildə 2 milyon dollar qiyməti var idi. Bu gün onun qiyməti 4 milyon dollardır. Yəni bunu biz investisiya şəklində ala bilərik. Burada bizim ən istedadlı cavan skripkaçılar oturublar. Elvin Qəniyev ayın 7-də maestro Rauf Abdullayevlə filarmoniyada çıxış edəcək. Onun Qvarneri skripkası var, ona kirayə veriblər. Rusiyada, misal üçün, 60 milyon dollarlıq kolleksiya alıblar. Yenə də deyirəm, bu investisiyadır. Bu o demək deyil ki, biz aldıq və qaldı. Vaxt ötdükcə, onun qiyməti qalxır. Əgər mümkünsə, xahiş edirəm, bu kolleksiya məsələsinə baxasınız, cənab Prezident. Mən çox danışmaq istərdim, amma bu iki məsələyə toxundum.

Cənab Prezident, doğrudan da biz Sizi dəstəklədik və sözün düzü, biz Sizi çox sevirik. Sizin ailənizi sevirik. Maşallah, Sizin qızınız Leylanı hamı çox istəyir. Mən bir neçə dəfə «Xocalıya ədalət!» kampaniyasında iştirak etmişəm. Bir qarabağlı kimi deyim ki, bu çox təsirlidir. O kampaniya bütün dünyada aparılır. Sağ olsun Leyla xanım, ona dərin təşəkkürümü bildirirəm. Qarabağ icmasının üzvü kimi, burada Elçin və bizim ağsaqqalımız əyləşib. Biz bir arzu ilə yaşayırıq – bu yol Şuşaya aparan yoldur. İnanırıq ki, biz gec-tez orada olmalıyıq. Şuşasız yaşaya bilmərik. Sağ olun.

**Elbay Qasımzadə** (*Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri*): Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Bu gün buraya Azərbaycanın ən görkəmli sənət adamlarını topladığınız üçün hamımızın adından Sizə dərin minnətdarlığımı bildirirəm. Son illərdə Azərbaycanda memarlıq və şəhərsalma sahəsində çox böyük işlər görülüb – şəhərlərimizin abadlığı, yeni-yeni memarlıq əsərlərinin yaranması, tarixi irsimizin qorunub saxlanılması, memarlıq abidələrinin bərpası. Bu işlərdə Heydər Əliyev Fondunun səyləri və zəhməti ölçüyəgəlməzdir. Bizim Mədəniyyət Nazirliyinin abidələrə olan diqqəti, Sizin sərəncamınızla nazirliyin tərkibində yaranmış Dövlət Xidməti – bunlar hamısı, əlbəttə ki, tarixi irsimizin qorunub saxlanılması üçün çox böyük zəmindir. Bunu təkcə biz yox, beynəlxalq peşəkar qurumlar da görür. Ötən ilin mart ayında Siz Beynəlxalq Memarlar İttifaqının rəhbərliyini qəbul edərkən bu yüksək qiymətləri onların özlərindən eşitdiniz. Onlar bunu söylədilər və inanın ki, o görüşdən sonra Sizin memarlıq, memarlıq sənəti haqqında yüksək peşəkarlıq səviyyəsində verdiyiniz məlumat onlara çox böyük təəssürat bəxş etdi. Bunun sayəsindədir ki, Azərbaycan memarlığı bu gün dünyada tanınır. Beynəlxalq Memarlar İttifaqının 134 üzvü vardır. Yalnız 25 nəfər Şuranın üzvüdür və onlardan biri də Azərbaycan təmsilçisidir. Bu həqiqətən, böyük nailiyyətdir. Bu nailiyyətə biz Sizin səyləriniz nəticəsində gəlib çıxmışıq.

Bu il iyun ayının 7-dən 11-nə qədər Bakıda tarixi şəhərlər və turizm mövzusunda beynəlxalq forum keçiriləcək. Bu forum Sizin dəstəyinizlə keçirilir. Əlbəttə, biz xoşbəxt olarıq ki, o forumun açılışında hər

ikiniz iştirak edəsiniz, imkanınız, vaxtınız olsa. Bu forumdan sonra ayın 11-də Beynəlxalq Memarlar İttifaqının Baş Assambleyası keçiriləcək. Bu assambleyanın təşkil olunması üçün, adətən, müsabiqə keçirilir. Bu dəfə Beynəlxalq Memarlar İttifaqının rəhbərliyi qərara gəldi ki, bunu Bakıda müsabiqəsiz keçirsin. Bizim Şuranın növbəti iclasında bəzi üzvlər məsələ qaldırdılar ki, niyə müsabiqəsiz olur, niyə Azərbaycanda olmalıdır? Yəni gəlin müsabiqə elan edək, kim qalib gələrsə, bunu keçirək. Sizin artıq tanıdığınız Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonier dedi ki, mən sizə bir sual verəcəyəm, əgər mənə cavab verə bilsəniz, mən bu mövzunu davam etdirərəm. Soruşdu ki, neçə illərdir hamınız Beynəlxalq Memarlar İttifaqının rəhbərliyindəsiniz və üzvüsünüz. Mənə deyin görüm, Azərbaycandan başqa, hansı ölkədə Beynəlxalq Memarlar İttifaqının rəhbərliyini cənab Prezident qəbul edib?! O dəqiqə mübahisə aradan qaldırıldı.

Biz bu gün tədbirə çox ciddi şəkildə hazırlaşırıq. Tədbiri biz Bakı Media Mərkəzi ilə birgə hazırlayırıq. Bilirsiniz ki, bu tədbirdən sonra iyul ayında Bakıda UNESKO-nun Tarixi İrs Komitəsinin sessiyası keçiriləcək. Əlbəttə ki, bunların hamısı Sizin bu ixtisasa, bu sənətə göstərdiyiniz qayğı və diqqətin nəticəsidir. Mən də heç bir xahişlə müraciət etməyəcəyəm. Mənim sadəcə, bir-iki təklifim vardır. Bu gün Bakının mərkəzi hissəsində çox böyük abadlıq işləri aparılır, mərkəzində tarixi binalar bərpa olunur, təmir edilir. Siz də çıxışınızda çox gözəl vurğuladınız ki, son

vaxtlar şəhərsalma problemlərinə çox böyük diqqət yetirilir. Çünki Siz çox gözəl bilirsiniz ki, şəhərsalma dövlətin sosial proqramının əsasını təşkil edən bir amildir. Bizim şəhərimizin tarixi mərkəzinin sərhədləri müəyyənləşməyib. Bakının tarixi mərkəzi vardır. Mütləq bunun sərhədləri müəyyənləşməlidir. Bu gün Bakının tarixi mərkəzi dörd inzibati rayonun arasında bölünüb. Səbail, Yasamal, Nəsimi və Nərimanov rayonları. Nə qədər bunlara mərkəzdən rəhbərlik olunsa da, aydın məsələdir ki, 4 rəhbərin, 4 komandanın hərəsinin bu işə baxışı müxtəlifdir. Mən təklif edirəm o sərhədlər müəyyənləşsin və Bakının tarixi mərkəzi əsasında xüsusi ərazi vahidi yaransın. Mərkəzi rayon – bu təcrübə başqa paytaxtlarda var, Moskvada da vardır. Bunu etsək, orada tətbiq olunan qanunlar, normalar, əlbəttə, başqa yerlərdən fərqlənəcək. Yeni Yasamalla Bakının tarixi mərkəzində tələblər eyni ola bilməz. Bu təbiidir. Onda Sizin istədiyinizə, Bakının tarixi mərkəzinin qorunub saxlanılmasına biz mütləq nail ola bilərik. İkinci məsələ. Burada yaradıcı ittifaqların rəhbərləri oturublar, məncə bu məsələ onlara da çox yaxındır. Bu gün yaradıcılıq ittifaqlarının fəaliyyəti Azərbaycan Respublikasının «Qeyri-hökumət təşkilatları haqqında» Qanunu ilə tənzimlənir. Məncə bu, üzr istəyirəm, bir qədər ədalətsizdir. Çünki biz, yaradıcı ittifaqlar, dövlətin siyasətini dəstəkləyərək, yaradıcılıqla, quruculuqla məşğuluq. Amma həmin qanun çərçivəsində bir çox təşkilatlar var ki, onlar əks-fəaliyyətlə məşğuldurlar. Mən bilirəm ki, 4 il bundan

öncə Milli Məclisdə «Yaradıcılıq birlikləri haqqında» Qanunun hazırlanması başlanılmışdı. Mən müəyyən qədər orada iştirak etmişəm, məsləhətlərimi vermişəm. Sonra o qanunun hazırlanması dayandı. Düşünürəm ki, bu gün elə bir qanunun qəbul olunması həm yaradıcılıq ittifaqlarının statusunu qaldırar, həm də onlardan olan fayda başqa ictimai təşkilatlardan fərqlənər və hamı görər ki, yaradıcı kimdir, dağıdıcı kim. Məncə bunu bərpa etmək lazımdır.

Sonuncu, bəlkə də xahişdir, demişdim ki, etməyəcəyəm. Amma bu elə bir xahişdir ki, mən bilirəm, Sizin ürəyinizcə olacaq. Bakının müasir dövrdə, yəni XX əsrdə memarlıq simasının formalaşmasının iki banisi olub – Sadıq Dadaşov və Mikayıl Hüseynov. Bakıda Zivər bəyin heykəli var, amma bu iki nəfərin heykəli yoxdur. İcazənizlə, biz onun layihəsini hazırlayarıq. Biz Ömər müəllimlə bir yerdə bu layihə üzərində bir müddət işləmişik, onu təqdim edək. Xahiş edirəm, bu iki böyük şəxsiyyətə Bakıda mütləq abidə qoyulsun. Çox sağ olun. Sizə uğurlar, cansağlığı arzu edirəm.

**A f a q  B ə ş i r q ı z ı** (*Xalq artisti*): Canım Prezidentim, mənim Sizə danışmamağım qeyri-mümkündür. Canım Prezidentim, çünki Sizi mən seçmişəm. Mən Sizə səs vermişəm. Mən Sizi dəstəkləyirəm.

Canım Mehriban xanım, bu gün mənim burada oturmağımın səbəbkarı göydə Allah, yerdə Sizsiniz. Mənim səhhətimə göstərdiyiniz o qayğıya görə Sizə minnətdaram, ömürboyu da minnətdar olacağam.

Burada əyləşən bütün incəsənət xadimləri sənətə öz canlarını qoyublar və bu sənətin inkişafında çox böyük rolları olubdur. Lakin biz bununla kifayətlənməməliyik. Biz Sizin sərəncamlarınızdan sui-istifadə edənlərə qarşı çox böyük bir inqilab etməliyik. İki açıq cəbhəsi olan ovuc boyda Azərbaycanı Siz necə qoruyursunuz? Bu dövlətçiliyi necə qoruyursunuz? Hər birimizi necə qoruyursunuz? Siz necə əziyyətlər çəkirsiniz? Bunu biz hamımız başa düşməliyik. Sizin əməyinizi qiymətləndirmək bu balaca məclislərdə deyil, geniş meydanlarda olmalıdır, bizim müsahibələrimizdə olmalıdır. Bu hadisəni başa düşməyən və bu hadisədən sui-istifadə edən ortabab xalqı, bəlkə də deyim Sizə ki, sadə bir xalqı qızışdıran, vətənin bu vəziyyətində öz şəxsi ambisiyaları üçün istifadə edən şəxslərə bizim dilimiz çox uzun olmalıdır. Çünki hər bir xalqı mədəniyyəti ilə tanıyırlar. Hər bir tikilini təzədən bərpa etmək olar, hər bir dağıntını təzədən qurmaq olar, amma mədəniyyət çat verərsə, bu çox böyük bir bəladır. Burada oturanlar bilirlər ki, bizə, bizim mədəniyyətimizə çox böyük qayğı vardır. Bəlkə də biz yeganə xalqıq fikirləşirik ki, problemlərimiz olanda Prezidentimizə, Mehriban xanıma deyəcəyik və onlar bizi bu bəladan, bu problemdən qurtaracaqlar. Bəlkə də bizim içimizdə bunu təsdiq edənlər vardır. Çox problemləri biz onların vasitəsilə həll etmişik. Amma bu, təkcə şəxsi ambisiya üçün olmamalıdır. Bizdən sonra yeni nəsil yetişir, yeni, cavan nəsil gəlir. Bəli, çox gözəl Mədəniyyət nazirlərimiz olub. Mənim yaşım o vaxta çatmayıb, amma biz onlarla indiki kimi ünsiyyət

qura bilməmişik. İndiki kimi deyə bilməmişik ki, cənab nazir, filankəs ağır vəziyyətdə xəstəxanadadır, özəl xəstəxanadır, onun pulu ödənməlidir, o oradan çıxmalıdır. Bilirsiniz, bütün bunlar hamısı həyat hadisələridir. Bunun hamısını biz çılpaqlığı ilə deməliyik, boynumuza almalıyıq. Nə üçün? Çünki bizim həyat devizimiz, yəni aktyorların, incəsənət xadimlərinin əsas həyat devizi təbii, düzgün olmaqdır. Biz yalanlardan uzaq olmalıyıq.

Cənab Prezident, teatr başqa sahələrə nisbətən bir az çətin vəziyyətdədir. Yəni Mehriban xanımın qayğısı ilə bizim musiqiçilərimiz, Allaha şükür olsun, muğam festivalı, hamısı, maşallah, təmin olunublar. Çox sevinirəm. Bizim özümüzün də Sizin verdiyiniz xüsusi mükafatınız, Allah ulu öndərə qəni-qəni rəhmət etsin, xüsusi təqaüdünüz vardır. Amma biz tək deyilik. Biz özümüzdən sonrakıları da fikirləşməliyik. Cənab Prezident, mənim işlədiyim Musiqili Teatr – şəhərin mərkəzində yerləşən, öz sənəti, öz tarixi, öz sənətkarları olan bir teatr üçüncü kateqoriyadadır. Mən bir faktı diqqətinizə çatdırmaq istəyirəm. Aktyor səhər tezdən kirayə qaldığı Müşfiqabaddan iki övladı və yoldaşı ilə çayını, çörəyini götürür gəlir Konservatoriyanın qabağında dayanır. Uşaqların biri dərsə gedir, ikinci uşağı ikinci növbəyə hazırlayırlar. Orada onu yedirdir, özü isə məşqə gedir. Axşam yenə də həmin o ailə qayıdır Müşfiqabada. Sizə demək istəyirəm ki, bəli, Afaq Bəşirqızına ev, mükafat, fəxri ad verilib. Çox sağ olun. Amma Afaq Bəşirqızı tək deyil. Afaq Bəşirqızı

özündən sonrakıları fikirləşməlidir. Sizə olan xahişlər buna görədir, ümumi xalq üçündür.

Canım Prezidentim, çox xahiş edirəm, imkansız aktyorların maaşı və bir də evlə təmin olunması məsələsinə diqqət yetirilsin. Aktyorlarımızın mənzil şəraiti və sosial vəziyyəti ağırdır, bilirsiniz ki, maaşlarımız azdır. Başa düşürük, indi bizim Sizdən heç nə tələb etməyə ixtiyarımız yoxdur. Çünki biz müharibə şəraitində yaşayan bir ölkəyik. Bunun hamısını bilirik və başa düşürük. Amma çox xahiş edirik, teatr sahəsinin, Teatr Xadimləri İttifaqının inkişafı ilə bağlı yeni konsepsiya hazırlanmalı, yeni işlər görülməlidir. Çünki teatr xadimlərinin Teatr Xadimləri İttifaqına həqiqətən də çox böyük ehtiyacları vardır.

Qarşıdan gələn Novruz bayramınız mübarək olsun. Uğurlu, xeyirli olsun. Gün o gün olsun ki, Allah qoysa, Qarabağda görüşək, sevinək və dərindən bir sevinc ahı çəkib deyək ki, çox şükürlər olsun, İlahi, alnımız qeyrətlə açıldı. Çox sağ olun.

**Mehriban Zəki** (*Xalq artisti*): Hörmətli cənab Prezident!

Hörmətli Birinci vitse-prezident Mehriban xanım!

Mən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Hər zaman mədəniyyətimizə, incəsənətimizə qayğınız olub və bugünkü görüşümüz bunun bariz nümunəsidir.

Mədəniyyət, bədii yaradıcılıq nümunələri hər zaman arxetiplərimizdən qaynaqlanmalı, tariximizə, köklərimizə söykənməli və bu günümüzlə aktuallaşmalıdır. Mənim uşaq vaxtı gördüyüm ilk filmlərdən biri «Nəsimi» filmi idi. Bəlkə də həmin film – 6-7 ya-

şım olardı – məni sənətə bağladı, Nəsimi poeziyasına sevgimi artırdı. O vaxtdan mən, 6-7 yaşlı uşaq Nəsiminin qəzəllərini əzbərləməyə başladım. Həmin o sevgim illər boyu daha da artdı, artıq yarım əsr keçib. Keçən ilin sentyabr ayında Heydər Əliyev Fondunun və şəxsən Leyla xanımın təşəbbüsü ilə Nəsimi festivalı keçirildi. Bakıda, Moskvada bu tədbirdə fəal şəkildə iştirak etdim. Cənab Prezident, bu il Sizin sərəncamınızla elan edilən «Nəsimi ili» ilə bağlı təşkil olunan bütün tədbirlərdə fəal şəkildə iştirak edəcəyəm. Həm Bakıda, həm bölgələrdə öz təşəbbüsümlə tədbirlər təşkil edəcəyəm, xaricdə də tədbirlərdə iştirak edəcəyəm. Mən niyə Nəsimidən danışdım? Çünki mədəniyyətdə və dövlətçilikdə kino çox böyük rol oynayır, çox böyük maarifləndirmə vasitəsidir. Mən bu gün teatr və kino aktrisasıyam. İki universitetdə müəllim işləyirəm və tələbələrim var ki, çox istedadlıdırlar. Çox istedadlı gənc nəslimiz yetişir.

Teatr barədə danışdılar. Mən daha çox diqqətinizi kinoya yönəltmək istəyirəm. Mənim gəncliyimdə kinostudiyanın həyatində, onun divarları arasında çox fəal yaradıcı proseslər baş verirdi. Son illərə qədər bu proses davam edirdi. Müasir dövrdə, müstəqillik dövrümüzdə artıq çəkilmiş filmlər, mənim də çəkildiyim «Nabat», «Yarımçıq xatirələr», «Dolu», «Axınla aşağı» filmləri və adlarını unutduğum bir çox filmlər vardır. Bir çox filmlər «A» kateqoriyalı festivallarda iştirak edib, müəyyən nailiyyətlər qazanıb. Təəssüf edirəm ki, son 2 ildə dövlət sektorunda

filmlərimizin inkişafı, çəkilməsi nədənsə avazıyıb. Kinostudiyamızın divarları soyuyub. Ona görə, cənab Prezident, mənim uşaqlıq arzum olan kinostudiyada coşqun həyat, sənət eşqi davam etsin deyə, diqqətinizi bir daha oraya yönəltmək istərdim. Təşəkkür edirəm.

**Şəfiqə Məmmədova** (*Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti*): Möhtərəm cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

Vaxtınızı almaq istəmirəm. Mən bəlkə də protokoldan kənar danışacağam, ona görə çox qısa sözüm olacaq. İlk növbədə, dərin təşəkkürümü bildirirəm ki, bu görüşü təşkil etmisiniz, bizə diqqət yetirmisiniz. Hər şeyə görə minnətdaram. Burada bir neçə ittifaqların sədri çıxış etdi, çox gözəl təkliflər, xahişlər oldu. Amma mən istərdim ki, Kinematoqrafçılar İttifaqının aqibətini bu gün Sizə çatdırım. Artıq 6 ildir ki, təsis olunmuş Respublika Kinematoqrafçılar İttifaqı binasızdır. Azacıq da olsa bizə dəstək verilən o büdcədən ilboyu biz kirayə pulu veririk. Fəaliyyətimizə uyğun olmayan yerdə yerləşirik. Düzdür, ağlamırıq. Məktublar yazmışam, lakin çatmayıb. Bunu mən dəqiq deyirəm. Görürsünüz, burada nə qədər kinematoqrafçılar əyləşiblər, mən buna görə çox sevinirəm. Bu İttifaq 6 ildir fəaliyyət göstərməsinə baxmayaraq, çox böyük işlər görüb, onun artıq 400-ə yaxın üzvü vardır. Ümumiyyətlə, İttifaqın aqibəti belə olub, həmişə binasız olub. Rəssamlar, Bəstəkarlar, Teatr Xadimləri, Yazıçılar ittifaqları Xəqani küçəsində düzülüb. Amma kinematoqrafçıların ordusu çox

böyükdür. Onların içində operatorlar, istehsalın bütün növünə aid rəssamlar, sexlərin işçiləri, operatorlar, rejissorlar, ssenaristlər vardır. Kinematoqrafiya elə böyük sahədir ki, mən say naminə çox xahişlər edə bilərdim. Çünki İttifaq doğrudan da cavan olmasına baxmayaraq, çox işlər görüb. Amma artıq bu mümkünsüzdür, ilboyu büdcədən bizə verilən vəsaitin çox hissəsi kirayəyə gedir. Ona görə mən Sizdən xahiş edirəm, bizə elə bir məkan verilsin ki, Kinematoqrafçılar İttifaqına layiq olsun. Kinematoqrafçılar İttifaqının istər İdarə Heyəti, istər çoxsaylı üzvləri Sizə çox əmindirlər. Təşəkkür edirəm.

**Aleksandr Şarovski** (*Azərbaycan Dövlət Rus Dram Teatrının baş rejissoru, Xalq artisti*): 10-11 il əvvəlin gözəl may günü mənim və Rus Dram Teatrının bütün kollektivinin yaddaşında həmişəlik qalıb. O vaxt Siz və Mehriban xanım gəldiniz və bütün aparatlarla, əsl teatra xas olan hər şeylə təchiz olunmuş yeni binanın açılışını etdiniz. Sizə deməliyəm ki, həmin vaxtdan teatrın yeni həyatı başlandı. Dövlət sifarişi ilə biz bu günədək hər mövsümdə 7-8 tamaşa hazırlayırdıq və indi də hazırlayırıq. Biz çoxlu qastrollara gedirik, kollektivləri qəbul edirik, Moskva teatrları bizdə qastrolda olub. Biz də xarici ölkələrə və şəhərlərə qastrollara gedirik. Sizin şəxsən gördüyünüz xeyirxah işlərin sayı-hesabı yoxdur. Bunlar həm mükafatlar, həm məvaciblərin daim artırılması, həm sosial layihələr və qanunlar, həm də nəhayətsiz və çox gözəl, daim davam edən tikinti işləridir. Bütün qonaqlarımız şəhərimizin

gözəlliyinə valeh olur və heç bir yerdə bunun şahidi olmadıqlarını deyirlər.

Yeganə olaraq, burada böyük müğənnimiz də söylədi ki, xahişlə müraciət etmək olmaz. Lakin icazə verin, hər halda, kiçik bir xahişlə Sizə müraciət edim. Məsələ bundadır ki, teatr 100 illik yubileyi ərəfəsindədir və o vaxt bizim teatrın açılışı zamanı Siz də dediniz ki, Azərbaycanda rus teatrı həmişəlikdir. Siz keçmiş İttifaq respublikalarında rus teatrlarının əksəriyyətinin necə acınacaqlı vəziyyətdə olduğunu və bizim bu fonda özümüzü necə yaxşı hiss etdiyimizi bilməlisiniz. Lakin məsələ bundadır ki, həmin respublikalarda Rus Dram teatrları akademikdir, bizdə isə yox. Çox istərdik ki, biz də bu qürurverici adı daşıyaq və Sizinlə birlikdə sevinək. Çox sağ olun.

**Tahir İmanov** (*Əməkdar artist*): Cənab Prezident!

Çox hörmətli Mehriban xanım!

İlk növbədə, təşəkkürümüzü bildiririk ki, bizi, «Bakılı oğlanlar» (ŞHK) bu gözəl tədbirə dəvət etmisiniz. Bir daha fürsətdən istifadə edib hamımızın adından təşəkkürümü bildirirəm ki, ŞHK-nun ən çətin illərində bizə dəstək olmusunuz. Məhz Sizin sayənizdə ŞHK komandası ən yüksək zirvələrə qalxıb, əsrin çempionu adını qazanıbdır. Biz bu gün də ŞHK-nu yaşadırıq, təbii ki, teatrımızın çərçivəsində. Mən heç vaxt özüm üçün xahiş etməmişəm. Bu gün də xahiş etməyəcəyəm. Ancaq nəzərinizə çatdırmaq istəyirəm ki, bu son illərdə bizə qoyulan qadağalara baxmayaraq, biz aktiv fəaliyyətimizi davam etdiririk. Bunun nəticəsi kimi, Leyla

xanımın köməyi ilə biz Rusiyada çox böyük film təqdim etdik. Nəinki Rusiyada, MDB-nin 9 ölkəsində bu film yayım hüququ aldı. Hazırda ikinci film üzərində işləyirik. İkinci dünya müharibəsi qəhrəmanı, milliyyətcə azərbaycanlı olan Əhmədiyyə Cəbrayılov haqqında film üzərində işləyirik. Daha dəqiq desəm, Rusiya Prodüserlər Gildiyasının prezidenti Renat Davletyarovun, həmçinin Rusiya Kino Fondu adlı bir qurum var, onların razılığını almışıq. Hörmətli səfirimiz Polad Bülbüloğlu bu barədə Rusiya Mədəniyyət Nazirliyinə məktub yazıb, onlardan da müsbət cavab almışıq. Hətta Rusiyanın «Rossiya-1» kanalı bu filmin 4 seriyasında maraqlıdır ki, film orada da işıq üzü görsün. Bildiyiniz kimi, 2020-ci ildə bütün bəşəriyyət faşizm üzərində Qələbənin 75 illik yubileyini qeyd edəcək. O cümlədən də biz – Azərbaycan Respublikası. Ona görə Sizdən xahiş edirəm ki, bizə bu işdə yardımçı olasınız. Bir neçə biznesmenə, tanınmış iş adamlarına müraciət etmişik, amma hamı bir nəfər kimi deyir ki, qadağalarınız olmasaydı kömək edərdik. Sizdən xahiş edirik ki, bizə bu işdə yardımçı olasınız. Əgər imkan olarsa, başqa bir görüşdə biz bu barədə daha ətraflı məlumat verə bilərik. O cümlədən Sizdən teatrımızın aparıcı aktyorları Bəhram Bağırzadə və Cabir İmanov üçün fəxri ad xahiş edirəm. Çünki biz heç bir dövlət qurumunun balansında deyilik. Ona görə bu sistemi bilmirik, bu sistem necə həyata keçirilir, məktublar necə yazılır. Fürsətdən istifadə edib, Sizdən xahiş edirəm.

Sonuncu xahişim də odur ki, bu il mənim babam bəstəkar Süleyman Ələsgərovun 95 illiyi qeyd olundu. 90

illikdə də ailəmiz adından cəhd göstərib Sizə məktub yazdıq, amma bilirik ki, o məktublar Sizə çatmadı. Sağ olun ki, 80 illik yubileyində Siz onun adını əbədiləşdirdiniz, məktəbə adı verildi. İmkan varsa, Süleyman Ələsgərovun adına bir küçə də versəniz, biz çox şad olardıq. Bir daha fürsətdən istifadə edib, cənab Prezident, Sizə, hörmətli Mehriban xanım, Sizə təşəkkürümüzü bildiririk.

**Bəhram Bağırzadə** (*Əməkdar artist*): Cənab Prezident!

Hörmətli Mehriban xanım!

Mən üzr istəyirəm, bu gün səmimi çıxışıma görə. Heç vaxt Sizin qarşınızda çıxış etməmişəm.

**İlham Əliyev:** Biz çoxdan görüşməmişik, sizin klubla, ona görə də nə qədər istəyirsiniz danışın.

**Bəhram Bağırzadə:** Ürəyimi boşaltmaq istəyirəm. Bu fürsət olmayacaq.

**İlham Əliyev:** Olacaq. Bundan sonra da olacaq.

**Bəhram Bağırzadə:** İnşallah. İlk növbədə, mən ağsaqqallarımızdan və ağbirçəklərimizdən üzr istəyirəm. Rəhmətlik atam mənə həmişə deyərdi ki, ağsaqqallar, ağbirçəklər olan yerdə danışma, sus, qulaq as, söz verilsə, onda danışarsan. Ona görə hamınızdan dəfələrlə üzr istəyirəm. Hətta zalın 60 faizi mənim müəllimlərimdir, mənə vaxtilə dərs deyiblər. Hamınıza minnətdaram. Sizə də, cənab Prezident, öz minnətdarlığımı bildirirəm. Siz də, Mehriban xanım da mənə efir vasitəsilə hər zaman dərs demisiniz. Bu gün mən problemlər haqqında danışmaq istəmirəm. O demək deyil ki, mənim problemlərim olmayıb. Müəyyən həyat

məqamlarında problemlər olub, onları, şükür Allaha, Siz həll etmisiniz, istər 1995-ci ildə, istərsə də 2000-ci ildə. Özünüzün də xəbəriniz olmayıb, amma ətrafınızda olan insanlar mənim bütün problemlərimi həll ediblər. Ona görə mən Sizə dərin təşəkkürümü bildirirəm. Fürsət olmamışdı, bu gün xalqımın qarşısında bunu edirəm. Bir tərəfdən də, bilirsiniz, mənim «İnstaqram» və «Feysbuk» səhifələrimdə yarım milyona qədər izləyicim vardır. Onlar mənə sual verəcəklər ki, Allah-taala sənə fürsət yaratdı, cənab Prezidentə bu xahişi etdin? Elbay müəllim demişkən, xahiş yox, bir təklif kimi, Azərbaycan Respublikasının vətəndaşı kimi, Bakı şəhərinin sakini kimi çox istərdim ki, Bakı şəhərində Hacı Zeynalabdin Tağıyevin heykəli ucaldılsın. Bunu nəinki mən, bunu milyonlarla insan istəyir. Çünki onun çox böyük işləri olub Azərbaycanda, Bakıda. İnanın mənə ki, 10 milyonluq xalq həmişə dua edəcək Sizə, əgər bu yaxınlarda Hacı Zeynalabdin Tağıyevin heykəli ucaldılsa. Kukla Teatrının önündə bir bağ var, mən onu orada faytonda görürəm, Hacı Zeynalabdin Tağıyev faytonda oturub və Siz hər dəfə səhərlər işə gedəndə görəcəksiniz və sevinəcəksiniz ki, məhz Sizin vaxtınızda o heykəl ucaldılıb. Çox sağ olun, təşəkkür edirəm Sizə.

**Tahir Salahov** (*Azərbaycanın və SSRİ-nin Xalq rəssamı*): Möhtərəm Prezident!

Çox hörmətli Birinci vitse-prezident!

Bu gün Azərbaycanın yüksək mədəniyyət ulduzları arasında olduğuma görə çox həyəcanlıyam. Bu gün mənim üçün tarixi bir gündür, odur ki, çox xoş-

bəxtəm. Şadam ki, noyabrın 29-da Moskvada məni telefon zəngi yuxudan oyatdı və mən İlham Heydər oğlunun səsini eşitdim. İlham Heydər oğlu məni yubiley münasibətilə təbrik etdi. Soruşdum ki, bəs nə üçün belə erkən, məgər işdəsiniz? O isə mənə cavab verdi: Tahir müəllim, mən birinci olmaq istədim. Mən bu təbrikə görə Sizə çox minnətdaram. Bu bizə – yaradıcı mədəniyyət xadimlərinə böyük stimul verir. Odur ki, Sizin mükafat barədə xəbəriniz – Siz ilk dəfə 1-ci dərəcəli «Əmək» ordeni ilə təltifetmə barədə sərəncam verdiniz – böyük xoşbəxtlikdir və mənim yaradıcı əməyimə böyük hörmətdir. Mehriban xanım, təbrikinizə və aldığım hədiyyələrə görə çox sağ olun, çox minnətdaram.

Mən demək istəyirəm ki, Sizin Ekspo Mərkəzində sərgimə gəlməyiniz də məni xoşbəxt etdi. Mən bəlkə də ilk dəfə hansısa qanunları pozdum. Hər halda, Ekspo Mərkəzində öz işlərimi göstərmək istəyirdim. Tamaşaçılar ilə ünsiyyətin yeni formalarını tapmaq, öz yaradıcılığını nümayiş etdirmək üçün hansısa yeni cəhətlər tapmaq lazımdır.

Siz ailəvi gəldiniz. Leyla xanım yaradıcılıqla məşğul olur və Azərbaycan mədəniyyətinin, təsviri sənətinin inkişafında müəyyən yer tutur. Bu da böyük xoşbəxtlikdir. Düşünürəm ki, bu gün və qarşıdan gələn görüşdə biz mədəniyyətimizin, bütün növlərin və janrların məqsəd və vəzifələrini uzun illər öncədən müəyyən etməli, planlaşdırmalıyıq.

Çünki əsərin ərsəyə gəlməsi vaxt tələb edir. Siz də bilirsiniz ki, vaxt sürətlə ötüb keçir. Odur ki, əgər

Prezident seçkiləri gedirsə, mədəniyyətimizin inkişafını da dərhal Prezidentlə birlikdə uzun illər üçün planlaşdırmalıyıq. Gələcəkdə mədəniyyətimizin simasını müəyyən edəcək möhtəşəm əsərləri bu illər ərzində, 5-6 ildə yaratmaq üçün bizi hansı tarixlər, hansı hadisələr, hansı işlər narahat edir.

Mən demək istəyirəm ki, Heydər Əlirza oğlu mədəni həyatımızda fəal iştirak edirdi, özü də təkcə bizim deyil, bütün Sovet İttifaqının mədəni həyatında. O bununla çox məqsədyönlü şəkildə məşğul olurdu. O dövrdə Heydər Əliyev Sovet İttifaqında 19 istiqaməti idarə edirdi və bütün İttifaq mədəniyyətinin simasını müəyyənləşdirirdi. Yaradıcılıq ittifaqlarına və yaradıcılıq növlərinə dair bir çox qərarlar verilmişdi. Tretyakov Qalereyasının və keçmiş Sovet İttifaqının bir çox müəssisələrinin təmirinə külli miqdarda vəsait xərclənmişdi. Ulu öndər burada, Azərbaycanda da bunu edirdi və bu işlər yüksək səviyyədə görülürdü.

Bizim İncəsənət Universitetimiz, Rəssamlıq Akademiyamız vardır. Bu illər ərzində həmin təhsil ocaqlarını çoxlu sayda gənc rəssam bitirib. İncəsənət Universiteti ildə 60 məzun, Rəssamlıq Akademiyası isə 150 məzun buraxır.

Onlar istedadlı, bacarıqlı gənclərdir, çox böyük təşəbbüsləri vardır. Mən nə arzu edə bilərəm? Qoy onların əməyindən bütün Azərbaycan faydalansın. Baş memar vəzifələri ilə bərabər, baş rəssam vəzifələrini də təsis etmək lazımdır. Təkcə mərkəzdə – Bakıda və böyük şəhərlərdə deyil, regionlarda da. Bu çox gözəl olardı. Heydər Əlirza oğlu həmişə arxitektura ilə

təsviri sənətin sintezindən danışırdı. Məncə, təkcə eksteryerdə deyil, interyerdə də arxitektura ilə təsviri sənətin vəhdəti çox gözəl olardı və rəssamın əməyini qiymətləndirməyə imkan verərdi. Mən təklif və xahiş edirəm ki, hər il, yaxud 2 ildən bir respublika sərgiləri keçirilsin. Təkcə Bakıda deyil, Azərbaycanın bütün regionlarında təsviri sənət və memarlıq festivalları və baxışları, fərdi sərgilər, bir çox digər sərgilər təşkil olunsun. Mən beynəlxalq səviyyəli rəssamların və münsiflər heyətinin iştirakı ilə beynəlxalq bienale keçirilməsini də təklif edirəm. Bilirsiniz, bu, musiqi mədəniyyətində olduğu kimi – Qəbələdə keçirilən festivallar kimi, təsviri sənətimizin, mədəniyyətimizin nüfuzunu yüksəldərdi.

Mən dəvətə görə təşəkkür edirəm. Mən bu gün dostlar arasındayam. Burada oturan hər bir şəxs mənim üçün respublikanın mədəniyyəti ilə ürəkdən məşğul olan və tarixi töhfə vermək istəyən insanlardır. Çox sağ olun.

**Xuraman Qasımova** (*Xalq artisti*): Cənab Prezident, çox üzr istəyirəm, mən özüm çıxış etmək istədim. Çünki mən bilirəm, möhtərəm Prezidentimiz, sevimli Mehriban xanım, burada əyləşən insanların ürəyi o qədər doludur, hər kəs Sizin olduğunuz məclisdə iki kəlmə də olsa çıxış etmək istəyir. Çünki Siz bizim hər birimiz üçün o qədər gözəl işlər görmüsünüz, daşıdığımız fəxri adlar, aldığımız təzə mənzillər, bunları sadalamaq çox vaxt aparar.

Cənab Prezident, Siz Fidan xanımı bu yaxınlarda ən yüksək mükafatla – «İstiqlal» ordeni ilə təltif

etdiniz, bu ordeni ona şəxsən Siz verdiniz. Biz çox fəxr edirik, çünki Sizin ailəniz, başda ulu öndərimiz olmaqla, bizim ailəmizin həyatında böyük rol oynayıbdır. Biz bunu heç zaman unutmuruq.

Bu gün mən susa  bilməzdim. Bizim bircə arzumuz vardır. Vaxt elə keçir ki, bilmirəm, Siz bizim ikimizi bir də səhnədə nə vaxtsa görəcəksiniz, ya yox. Çünki özünüz demisiniz ki, çox nadir hallarda teatra gedirsiniz.

Demək istəyirəm ki, möhtəşəm Heydər Əliyev Fondu var və bizim evimizdə Sizin ailənizə həsr olunmuş kiçik bir fondumuz vardır. Mən Sizdən bir az qeyri-adi xahiş etmək istəyirəm. İstəyirəm ki, Siz nə vaxtsa ailənizlə birgə bizim qonağımız olasınız, çünki bunu möhtərəm Prezidentimiz Heydər Əliyev demişdi. O demişdi ki, Allah qoysa, təzə mənzilinizi alın, təmirinizi edin və mən sizə qonaq gələcəyəm. Biz Sizi hər zaman gözləyirik, bizim Sizə həsr olunmuş, Sizə göstərəcəyimiz xüsusi arxivimiz vardır. Dinlədiyinizə görə çox sağ olun.

## YEKUN NİTQİ

Əziz dostlar, bilirəm ki, söz almaq istəyənlər kifayət qədər çoxdur. Mən təklif edərdim belə görüşlər müntəzəm olaraq keçirilsin ki, biz bütün məsələləri əhatə edə bilək. Bugünkü görüş bir daha onu göstərir ki, bunun çox böyük faydası vardır. Çünki burada qaldırılan məsələlər doğrudan da vacibdir və hesab edirəm ki, bu məsələlərin həlli bir çox mətləblərə aydınlıq gətirə bilər. Mən artıq Mədəniyyət nazirinə

göstəriş vermişəm, Prezident Administrasiyasına da göstəriş verirəm ki, burada səsləndirilən bütün təkliflər təhlil olunsun, bir proqram halına salınsın və biz bu məsələləri ardıcıl olaraq həll edə bilək.

Bəzi məsələlərlə bağlı mən elə bu gün öz fikrimi xronoloji ardıcıllıqla bildirmək istərdim. Yazıçılar üçün Yaradıcılıq evinin bərpası prosesinə start verilib. Anar müəllim bu barədə öz fikrini söylədi və bildirdi ki, biz görüş əsnasında bu məsələni həll etdik. Orada məskunlaşmış köçkünlərə yeni evlər, yeni mənzillər verilir. Həmin bina əsaslı şəkildə təmir olunacaq və yazıçıların ixtiyarına veriləcəkdir. Şabran rayonunda da Müasir Yaradıcılıq Mərkəzi yaradılır.

Digər təkliflərə, abidələrlə bağlı olan təkliflərə də mütləq baxılacaq. Cəlil Məmmədquluzadənin abidəsi ilə bağlı təklifləri mən qəbul edirəm, dəstəkləyirəm. Yazıçılar üçün tikiləcək evlə bağlı müvafiq göstəriş verildi, torpaq sahəsi ayrıldı və bu ev tikiləcək. Bununla bərabər, hesab edirəm ki, dövlət tərəfindən görkəmli mədəniyyət xadimləri, gənc istedadlar üçün yeni yaşayış binası tikilməlidir. Bakı Şəhər İcra Hakimiyyətinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Dövlət Əmlak Komitəsinə müvafiq göstərişlər veriləcək. Onlar indi mənim göstərişlərimi eşidirlər. Qısa müddət ərzində torpaq sahəsi ayrılsın və biz görkəmli xadimlərə gözəl ev tikək, onları mənzillərlə təmin edək.

Mən Bəstəkarlar İttifaqı tərəfindən qaldırılmış təklifləri də qəbul edirəm. Yaşar İmanovun mənzil probleminin həlli ilə bağlı bu gün Bakı Şəhər İcra

Hakimiyyətinə göstəriş veriləcək. Əgər mən bunu əvvəldən bilsəydim, çoxdan bu məsələ həll olunardı. Siz bilirsiniz ki, son illər ərzində yüzlərlə görkəmli mədəniyyət xadimi dövlət tərəfindən mənzillərlə təmin olunub. Deyə bilərəm ki, bu məsələ ilə bağlı mənə daxil olan müraciətlərin mütləq əksəriyyəti öz həllini tapıb və bundan sonra da biz bunu edəcəyik. Hesab edirəm ki, dövlət bu məsuliyyəti öz üzərinə götürməlidir. Mən bilmirəm başqa ölkələrdə bu məsələ necə həll olunur. Amma bildiyimə görə, Azərbaycan bu sahədə də liderlik nümunəsi göstərir. Xalq qarşısında, dövlət qarşısında xidmətlər göstərmiş, xalqın sevgisini qazanmış mədəniyyət xadimləri dövlət tərəfindən mütləq dəstəklənməlidir. Bu görüşün məqsədlərindən biri də ondan ibarətdir ki, mən sizdən təkliflər eşidim və bu təkliflər nəticəsində biz düzgün qərar qəbul edək.

Televiziya kanallarında bədii şuraların yaradılması çoxdan gündəmdə olan məsələdir, ancaq əfsuslar olsun ki, öz həllini tapmır. Mən hesab edirəm ki, Azərbaycan Dövlət Televiziyası – AzTV bu sahədə birinci olmalıdır. Digər telekanallara da tövsiyə olunur ki, bədii şuralar yaradılsın. Ancaq Firəngiz xanım tamamilə haqlıdır deyəndə ki, baxır o bədii şuralarda kimlər təmsil olunacaq. Ona görə yəqin ki, burada yaradıcı insanların təklifləri nəzərə alınmalıdır. Mədəniyyət Nazirliyi, Prezident Administrasiyası, ittifaqlar təkliflər versinlər. Çünki televiziyalarda gedən proqramlarla bağlı müxtəlif fikirlər, müxtəlif yanaşmalar var, bəzilərinin xoşuna gəlir, bəzilərinin xoşuna gəlmir. Bir çox

hallarda özəl telekanallar reklam uğrunda mübarizə aparırlar, buna görə daha baxımlı verilişləri təqdim etməyə çalışırlar və bəzi hallarda orada səviyyə də bir qədər aşağı düşür. Biz bu məsələyə kompleks şəkildə yanaşmalıyıq. Ancaq mütləq bu sahədə vahid bir yanaşma olmalıdır.

Festivallara gəldikdə deməliyəm ki, Şəki festivalının dövlət tərəfindən dəstəklənməsi ilə bağlı, hesab edirəm, heç bir problem ola bilməz. Bu elə məsələdir ki, çox asanlıqla öz həllini tapa bilər. İndi Mədəniyyət naziri qeyd edir və biz bu məsələni də həll edərik.

Muğam mərkəzlərinin yaradılması – Arif müəllim qeyd etdi – geniş vüsət alıb. Sonuncu mərkəz Ağdam şəhərində yaradılıb. Biz onun açılışını birlikdə qeyd etmişik. Ondan əvvəl digər şəhərlərdə açılıbdır. Muğam müsabiqələrinin çox böyük əhəmiyyəti vardır. Muğam bizim milli sərvətimizdir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bizim musiqi mədəniyyətimizin xüsusi çəkisi vardır. Təsadüfi deyil ki, canlı yayımda göstərilən muğam müsabiqələri çox böyük auditoriya yığır. Biz də baxırıq, bilirəm ki, vətəndaşların mütləq əksəriyyəti baxır. Muğam sənətinin həm ölkə daxilində, həm də xaricdə inkişafında Heydər Əliyev Fondunun, Mehriban xanımın rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan muğamının UNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına salınması tarixi nailiyyətdir. Biz beynəlxalq muğam müsabiqələri, festivalları keçirmişik. Bu sənət bir neçə ölkədə yaşayır, ancaq Azərbaycan muğamının UNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni

irsi kimi qəbul edilməsi böyük nailiyyətdir. Onu da bildirməliyəm ki, UNESKO-nun müxtəlif siyahılarına Azərbaycan xalqının 13 Qeyri-maddi mədəni irs nümunəsi salınıbdır.

Zeynəb xanımın həmişə olduğu kimi, parlaq çıxışını mən alqışlayıram. Zeynəb xanım xalqımızın sevimlisi, böyük şəxsiyyət, böyük sənətkar, böyük ictimai xadimdir. Azərbaycanda elə adam tapılmaz ki, Zeynəb xanımı sevməsin. Bizim ailəmiz Zeynəb xanımla sıx bağlıdır. Xatırlayıram ki, atamın ən ağır günlərində – o vaxt ki, o, vəzifədən çıxmışdı, pensiyada idi, səhhətində problemlər var idi, müəyyən mənada təcrid vəziyyətində idi – Zeynəb xanım bizim evimizə baş çəkdi, onda mən də orada idim, ona mənəvi dayaq oldu. O vaxt atam üçün bu, xüsusi əhəmiyyət daşıyırdı. Zeynəb xanım da başa düşürdü ki, o zaman Heydər Əliyev sovet məkanında arzuolunmaz şəxs kimi qəbul olunurdu. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi də ədalətsizliyə yol vermişdi. Zeynəb xanımın bu cəsarətli və vicdanlı addımı həmişə bizim ürəyimizdə, bizim xatirəmizdədir.

Burada teatrlarla bağlı bir neçə təklif səsləndirildi. Mən aparıcı teatrların adlarını çəkdim və giriş sözümdə dedim ki, ilk növbədə, biz teatrların təmiri ilə məşğul olduq – Akademik Dövlət Dram Teatrının, Rus Dram Teatrının, Musiqili Teatrın, Gənc Tamaşaçılar Teatrının, Kukla Teatrının. Hesab edirəm ki, burada fərq qoymaq olmaz. Teatr işçilərinin əmək haqları ilə bağlı təkliflər hazırlansın və əmək haqları

əhəmiyyətli dərəcədə artırılsın. Biz bunu mütləq etməliyik. Əlbəttə, dəvətə görə, Hacı müəllim, təşəkkür edirəm. Mən məmnuniyyətlə gələrəm və sizinlə birlikdə gözəl tamaşalara baxmağa məmnun olaram.

Vergilərlə bağlı burada bir fikir səsləndirildi. Bu gərək araşdırılsın və baxılsın ki, nə etmək olar. Bununla paralel olaraq, hesab edirəm ki, bizim aparıcı teatrlarımıza dövlət tərəfindən maddi dəstək də göstərilməlidir. Göstəriş veriləcək. Düşünürəm ki, özəl sektor da teatrlara sponsorluq etməlidir. Mən bu gün özəl sektora da çağırış edirəm ki, bu məsələ ilə bağlı onlar da öz dəstəklərini göstərsinlər. Amma ilk olaraq, dövlət bu məsələni öz üzərinə götürəcək. Görüşümüzün yekunu olaraq, qəbul ediləcək qərarlarda bu öz əksini tapmalıdır.

Musiqi alətləri ilə bağlı səsləndirilən fikirləri də mən dəstəkləyirəm. Biz son illər ərzində musiqi alətlərinin alınması ilə bağlı bəzi işləri görmüşük, o cümlədən Fərhad müəllimin təklifləri əsasında. Ancaq biz böyük dəyər kəsb edən, o cümlədən tanınmış ustaların əsəri olan musiqi alətlərinin alınmasına mütləq baxmalıyıq. Bu sahəyə qoyulan investisiyalar həm sərmayə kimi qalacaq, həm də bizim musiqi sənətimizin inkişafında mühüm rol oynayacaqdır.

Mən memarlıqla bağlı səsləndirilən təklifləri də bəyənirəm. Hesab edirəm ki, Bakı Şəhər İcra Hakimiyyəti və Memarlar İttifaqı birlikdə Elbay müəllimin səsləndirdiyi təklifi təhlil etsin, çünki siz tamamilə haqlısınız. Elə bil ki, Bakının mərkəzi bir neçə rayonda cəmləşir. Mən bilmirəm, bu nə üçün belə olub, tarixən

də belə olubdur. Burada çox böyük məntiq vardır. Əgər şəhərin mərkəzinin hüdudları dəqiq müəyyən olunarsa, vahid idarəetmə sistemi də yaradıla bilər. Necə ki, misal üçün, mənim qərarımla bulvarı, İçərişəhəri ayrı-ayrı inzibati vahid kimi yaratdıq. Məhz buna görə həm bulvarda, həm də İçərişəhərdə indi səliqə-sahman, qayda-qanun və gözəl ab-hava vardır. Ona görə mən Bakının mərkəzi rayonunun yaradılması təklifini prinsipcə dəstəkləyirəm. Gərək biz bunu təhlil edək, incələyək ki, hansı addımlar atılmalıdır. Ona görə bu göstəriş də verilir.

Əlbəttə ki, biz Bakının tarixi binalarının bərpası ilə bağlı çox həssas iş aparmalıyıq. Mən həmişə demişəm ki, təmir zamanı binaların tarixi görkəmi saxlanılmalıdır. Bu, əsas prinsip olmalıdır. Son illərdə şəhərimizin əsas tarixi binaları köklü şəkildə bərpa olunub və onların tarixi siması qorunubdur. Görkəmli memarların şərəfinə abidələrin ucaldılması məsələsinə də Mədəniyyət Nazirliyi ilə birlikdə baxın və təklif verin.

Aktyorların maaşları və teatrların kateqoriyalara bölünməsi məsələsini Afaq xanım səsləndirdi, mən də öz fikrimi bildirdim. Kinofilmlərin çəkilişi ilə bağlı təkliflər səsləndirildi. Hesab edirəm ki, son 1-2 il ərzində buna kifayət qədər fikir verilməyibdir. Biz gərək bu boşluğu dolduraq. Yəni dövlət xətti ilə, dövlət sifarişi ilə kinofilmlərin çəkilişi prosesi bərpa olunmalıdır. Düzdür, bu ilin dövlət büdcəsində bu, nəzərdə tutulmayıb. Mən bilirəm ki, Əbülfəs Qarayev çox çalışırdı ki, bu, nəzərə alınsın, ancaq hansısa səbəblər üzündən nəzərdə tutulmayıb. Ona görə bunun yolu odur ki, bu

il üçün Prezidentin ehtiyat fondundan kifayət qədər vəsait ayrılsın. İndi siz təkliflərinizi verin. Gələn ilin və ondan sonrakı illərin dövlət büdcəsində dövlət xətti ilə kinofilmlərin çəkilişi mütləq bərpa edilməlidir.

Kinematoqrafçılar İttifaqının binası barədə Əbülfəs Qarayev mənə dedi ki, sizin binanız vardır.

**Ə b ü l f ə s  Q a r a y e v:** Kirayədir.

**İ l h a m  Ə l i y e v:** Onda təklif olunur ki, Bakı şəhərinin mərkəzində gözəl bina seçilsin. Bakı Şəhər İcra Hakimiyyətinə, Əmlak Məsələləri Komitəsinə, Mədəniyyət Nazirliyinə göstəriş verilir. Şəfiqə xanım, siz özünüz də bu məsələ ilə bağlı təkliflər verin. Əlbəttə, biz bunu etməliyik, çünki Kinematoqrafçılar İttifaqının müstəqil binası olmalıdır və şəraiti də yaxşı olmalıdır.

Rus Dram Teatrının akademik teatra çevrilməsi məsələsində mən heç bir problem görmürəm. Bu gün tapşırıq verərəm ki, bu məsələ həll olunsun və digər teatrların da səviyyəsini qaldırmaq üçün mütləq addımlar atılmalıdır. Prinsipcə, həm maaşlar, həm də status artacaq. Mən dedim ki, teatr işçilərinin maaşlarının qaldırılması məsələsi tezliklə öz həllini tapmalıdır. Siz qeyd etdiniz ki, 11 il keçməsinə baxmayaraq, sanki bu lap yaxınlarda olub. Yəqin ki, təmirə ehtiyac vardır. Əgər zərurət yaranarsa, deyərsiniz. Prinsipcə, bizim teatrlarımızda təmir işləri artıq 10 il bundan əvvəl görülmüşdü. Əgər təmirə ehtiyac varsa, mənə məlumat verin, biz bu məsələni həll edə bilək.

Tahir İmanovun sözlərini də şərh etmək istərdim. Mən Əbülfəs Qarayevdən soruşdum ki, kim qadağa

qoyub sizə? Sizə heç kim qadağa qoya bilməz. Əgər qadağanı kim qoyubsa, de, biz bu qadağanı aradan götürək.

**T a h i r İ m a n o v:** Özəl telekanallar qoyub qadağanı.

**İ l h a m Ə l i y e v:** Özəl telekanallar? Hesab edirəm ki, onlar səhv ediblər. Onlara da məsləhət görürəm, tövsiyə edirəm ki, əgər doğrudan da bu qadağa varsa, tamamilə götürülməlidir. Hesab edirəm ki, bütün televiziya kanalları sizin kimi istedadlı insanlar üçün açıq olmalıdır.

**T a h i r İ m a n o v:** Təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Mən şadam ki, sən bu məsələni qaldırmısan. Çünki görünür burada hansısa anlaşılmazlıq olub. Yəni dövlət xətti ilə sizə heç bir qadağa qoyula bilməz. Mən sizi artıq 20 ildən çoxdur ki, tanıyıram. Əvvəlki illərdə yaxşı təmaslarımız olubdur. Bu gün də sizin fəaliyyətinizi izləyirəm. Gördüyünüz işlərlə bağlı mənə müntəzəm olaraq məlumat verilir. Şadam ki, siz öz fəaliyyət dairənizi genişləndirirsiniz. Siz çox istedadlı insanlarsınız və Azərbaycan xalqı sizi çox sevir.

**T a h i r İ m a n o v:** Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Qaldı Süleyman Ələsgərovun adının əbədiləşdirilməsi ilə bağlı məsələyə, bu gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş verirəm ki, Süleyman Ələsgərovun adına küçə verilsin. Siz də şəhər icra hakimiyyətinin başçısı ilə əlaqə saxlayın, küçənin seçilməsində sizin ailəniz mütləq iştirak etməlidir.

**T a h i r İ m a n o v:** Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Mən Bəhramın təklifini də bəyənirəm. Hacı Zeynalabdin Tağıyev böyük insan, böyük xeyriyyəçi olub. Azərbaycan xalqı qarşısında çox böyük əməyi olan bir şəxsiyyətdir. Təqribən 20 il bundan əvvəl Pir Həsən ziyarətgahı mənim tapşırığımla abadlaşdırılıbdır. Hacı Zeynalabdin Tağıyevin xeyirxah fəaliyyəti bizim ailəmizdə də özünü göstərmişdir. O vaxt mənim babam Əziz Əliyev Tağıyevə məktub yazaraq, xahiş etmişdi ki, həkim peşəsinə yiyələnmək üçün ona pul versin. Hacı Zeynalabdin, əlbəttə ki, onu tanımırdı, tanıya da bilməzdi. Tək o məktuba görə babama pul göndərir. O pulla da Əziz Əliyev gedib Sankt-Peterburqda Hərbi-Tibbi Akademiyaya daxil olur, həkim olur, ondan sonra da onun həyatında yeni dövr başlanır. Hacı Zeynalabdin Tağıyevin minlərlə, bəlkə də on minlərlə insana köməyi dəyib və mənim Prezident kimi, addımlarımdan biri də o idi ki, onun evi əsaslı şəkildə təmir olunsun. Orada Tarix Muzeyi yerləşir. Amma mən o binaya məhz onun evi kimi baxırdım və biz bunu etdik. Onun şərəfinə abidənin ucaldılması düzgün qərardır. Bəhram, əgər sən də burada fəal iştirak etsən, çox yaxşı olar. Təkliflər hazırlayın. Ümumiyyətlə, mən sənin fəaliyyətini izləyirəm. Sən şəhərimizin inkişafı, tarixi mirasımızın qorunması ilə bağlı çox fədakar, çox böyük iş aparırsan. Mən izləyirəm, təqdir edirəm və sənə bu işdə yeni uğurlar arzulayıram.

Mən Tahir müəllimin həm baş rəssam vəzifəsinin təsis edilməsi, həm də Bakıda bienalenin keçirilməsi

təkliflərini də dəstəkləyirəm. Mənə məlumat verildi ki, bu il bienale keçiriləcək. Bu da çox gözəl təklifdir.

Xuraman xanımın da dəvətini məmnuniyyətlə qəbul edirəm. Demək olar ki, burada qaldırılan əsas məsələlərə mən öz münasibətimi bildirdim.

Əziz dostlar, bir daha demək istəyirəm ki, belə səmimi və açıq söhbət bir çox məsələlərin həlli üçün gözəl imkanlar yaradır. Mən təklif edirəm, belə görüşlər bu və ya digər formatda müntəzəm olaraq keçirilsin ki, bizim bu sahədə görəcəyimiz işlər daha düzgün aparılsın, daha sistemli xarakter alsın, bu gün bizim yaradıcı ictimaiyyətimizi narahat edən problemlərin hamısı həll olunsun.

Sizə təşəkkür edirəm, yeni uğurlar arzulayıram və sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

**A n a r:** Cənab Prezident, bağışlayın. Mən birinci danışdığım üçün bu cəsarəti üzərimə götürüb son sözü də demək istəyirəm, hamının adından Sizə təşəkkür edirəm. Bizi çox diqqətlə dinlədiniz, təklifləri qəbul etdiniz və operativ cavab verdiniz. Çox sağ olun. Sizə də, Mehriban xanıma da təşəkkür edirəm.

## VENESUELA-BOLİVAR RESPUBLİKASININ, RUANDA RESPUBLİKASININ VƏ TAİLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*3 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Venesuela-Bolivar Respublikasının, Ruanda Respublikasının və Tailand Krallığının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul etmişdir.*

*Venesuela-Bolivar Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran, Ruanda Respublikasının Fövqəladə və Səlahiyyətli səfiri Vilyams Nkurunziza və Tailand Krallığının Fövqəladə və Səlahiyyətli səfiri Phantipha İamsudha Ekarohit etimadnamələrini Prezident İlham Əliyevə təqdim etdilər.*

## «BAKI–2019: ULDUZLAR FİNALI» QARŞILAŞMASINA BAXIŞ

*3 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və qızı Leyla Əliyeva martın 3-də Bakının UEFA Avropa Liqasının 2018–2019-cu il mövsümünün final matçına ev sahibliyi etməsi ilə əlaqədar ölkəmizdə təşkil olunan silsilə tədbirlər çərçivəsində paytaxtın mərkəzində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında keçirilən «Bakı–2019: Ulduzlar Finalı» adlı qarşılaşmaya baxmışlar.*

*«Bakı–2019: Ulduzlar Finalı»nda «Qərb Ulduzları» və «Şərq Ulduzları» komandaları qarşılaşdılar. Oyunda məşhur futbolçular Yeju Dudek, Maykl Essien, Anderson Luis de Souza, Hamit Altıntop, Nihat Kəhvəci, Andrey Arşavin, Revaz Arveladze, eləcə də yerli veteran futbolçulardan Nazim Süleymanov və UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununun səfiri Vəli Qasımov iştirak etdilər. Bundan başqa, Regionlar Liqasından Şöhrət Rəhimov, azarkeşlər arasında keçirilmiş müsabiqə əsasında seçilən Zaman Zahirzadə, Məhəmməd Tanrıverdiyev və Avropa Liqasının finalına həsr olunmuş «İntellektual Kubok»un qalibi olan İTV komandasının kapitanı Tural Dadaşov da meydana çıxdılar.*

*Əvvəlcə Prezident İlham Əliyev oyunda iştirak edən futbolçularla görüşdü.*

*UEFA Avropa Liqasının kuboku Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim edildi.*

*Daha sonra oyun başlandı.*

*Gərgin idman mübarizəsi şəraitində keçən görüş «Qərb Ulduzları» komandasının 11:10 hesablı qələbəsi ilə başa çatdı.*

*Sonra Prezident İlham Əliyev oyunu izləyən gənc azarkeşlərlə görüşdü, xatirə şəkilləri çəkdirdi.*

* * *

*2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi futbol üzrə UEFA Avropa Liqasının 2018–2019-cu il mövsümünün final oyununun 2019-cu il mayın 29-da Bakı Olimpiya stadionunda keçirilməsi haqqında qərar qəbul edib. UEFA Avropa Liqasının final qarşılaşmasının Bakıda keçirilməsi ilə əlaqədar Azərbaycan paytaxtında silsilə tədbirlər təşkil olunur. Belə ki, UEFA Avropa Liqasının zəngin irsinin təbliği məqsədilə Bakıda dekabrın 22-dən yanvarın 7-dək «UEFA Avropa Liqası Muzeyi» fəaliyyət göstərib. Fevralın 28-də isə UEFA Avropa Liqasının final oyununa ümumi oturacaqlar üçün bilet satışının qeydiyyatına başlanılıb. Bilet satışının bu mərhələsində həlledici görüş üçün nəzərdə tutulmuş 64000 biletdən 37500-ü ümumi satışa buraxılıbdır.*

*Bu mötəbər futbol turnirinin kubok səyahətinə martın 9-da Cenevrədə start veriləcək. Martın 22–23-də Sevilya, martın 29–30-da Berlin, aprelin 5–6-da London, aprelin 12-də Milan, aprelin 20-də Moskva, mayın 10-da Parisdə olacaq kubok mayın 16-da rəsmi qaydada Bakıya gətiriləcəkdir.*

*UEFA Avropa Liqasının final matçının Bakı Olimpiya stadionunda keçirilməsi ilə bağlı qərar son illər sürətlə inkişaf edən Azərbaycan idmanının qazandığı növbəti uğurdur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət idman siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilməsi nəticəsində bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Son illərdə bir neçə mötəbər beynəlxalq idman yarışına – birinci Avropa, IV İslam Həmrəyliyi oyunlarına, «Formula-1» yarışına, 42-ci Ümumdünya Şahmat Olimpiadasına yüksək səviyyədə ev sahibliyi etməsi Azərbaycanın idman ölkəsi olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, bu gün ən mötəbər idman qurumları nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verir. Belə ki, UEFA Avropa Liqasının final oyunu ilə yanaşı, 2020-ci ildə futbol üzrə Avropa çempionatının qrup mərhələsinin 3, dörddəbir final mərhələsinin 1 oyununun, bu il iyunun 20–28-də Avropa Gənclərinin Yay Olimpiya Festivalının Bakıda keçirilməsi barədə qərarlar bunun bariz göstəricisidir. İdmançılarımızın Olimpiada, dünya və Avropa, eyni zamanda, digər beynəlxalq idman tədbirlərində qazandıqları medalların sayının ilbəil artması dövlət səviyyəsində idman sahəsinə göstərilən diqqətin nəticəsidir. Təqdirəlayiq haldır ki, uşaqlar və gənclər arasında idmana böyük maraq vardır. Bütün bunlar digər sahələr kimi, Azərbaycan idmanının da inkişafının ən parlaq dövrünü yaşadığını nümayiş etdirir.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Səudiyyə Ərəbistanı Krallığının Baş İnvestisiya Qurumunun sədri, Səudiyyə Ərəbistanı–Azərbaycan hökumətlərarası birgə Komissiyasının həmsədri İbrahim bin Əbdülrəhman əl-Ömərin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İbrahim bin Əbdülrəhman əl-Ömər İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Al Səudun salamlarını və ən xoş arzularını dövlət başçısına çatdırdı. O, ölkəmizə səfərindən məmnunluq hissi keçirdiyini qeyd edərək, Azərbaycanda gördükləri inkişaf proseslərinin, mədəniyyət və arxitektura nümunələrinin, xüsusilə Heydər Əliyev Mərkəzinin gözəlliyinin nümayəndə heyəti üzvlərində dərin təəssürat yaratdığını söylədi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı Azərbaycanda gedən böyük quruculuq işlərinin, ən müasir infrastrukturun yaradılmasının iqtisadiyyatın bütün sahələrinə, o cümlədən turizmin inkişafına böyük təkan verdiyini vurğuladı.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq əlaqələrinin genişləndiyi, ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi, İbrahim bin Əbdülrəhman əl-Ömərin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu, hökumətlərarası birgə Komissiyanın əməkdaşlığın inkişafı işinə töhfə verdiyi qeyd edildi.*

*Söhbət zamanı, həmçinin bildirildi ki, Səudiyyə Ərəbistanı Azərbaycanla əməkdaşlığı genişləndirməkdə və ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymaqda maraqlıdır. Məmnunluq ifadə olundu ki, 1 il ərzində Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı dəfələrlə artıbdır.*

*Görüşdə ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, energetika, investisiya, bərpa olunan enerji mənbələrinin yaradılması, turizm və turizm infrastrukturu, sənaye, kənd təsərrüfatı, neft-qaz, alternativ enerji, nəqliyyat və digər istiqamətlərdə əlaqələrimizin inkişaf perspektivləri müzakirə edildi, ticarət dövriyyəsinin artırılmasının və bunun üçün logistik və nəqliyyat imkanlarının araşdırılmasının vacibliyi qeyd olundu. Dövlət başçısı İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman Al Səudun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına və vəliəhdə çatdırmağı xahiş etdi.*

## ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ MARK ŞNAYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Mark Şnayer dinlər və mədəniyyətlərarası dialoqun təşviqi və müxtəlif dini və etnik icmaların sülh şəraitində birgə yaşaması baxımından Azərbaycanın nümunəvi dövlət olduğunu və dünyada bu işə öz töhfəsini verdiyini bildirdi.*

*Dövlət başçısı qeyd etdi ki, multikulturalizm və müxtəlif etnik və dini icmaların Azərbaycanda dinc yanaşı yaşamalarının təmin edilməsi dövlət siyasətidir və eyni zamanda, xalqımızın əsrlərboyu yaşatdığı həyat tərzidir.*

*Söhbət zamanı dinlər, mədəniyyətlər və sivilizasiyalararası dialoqun möhkəmlənməsi və dünyada təşviq edilməsi işində Azərbaycanda böyük önəm daşıyan beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Görüşdə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyi qeyd olundu və ABŞ Etnik Anlaşma Fondunun bu işə töhfə verdiyi vurğulandı.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Miroslav Layçak ilə Davosdakı qısa görüşünü məmnunluqla xatırladaraq, onun ölkəmizə bu səfərinin regionda vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Miroslav Layçak Slovakiyanın ATƏT-ə sədrliyi dövründə müəyyən edilmiş prioritetlər barədə dövlət başçısına məlumat verərək, bu sırada münaqişələrin qarşısının alınmasının və vasitəçiliyin mühüm yer tutduğunu diqqətə çatdırdı, bu dövrdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə töhfə vermək əzmində olduqlarını vurğuladı. Miroslav Layçak münaqişə ilə bağlı vəziyyətlə yerindəcə tanış olmaq və fikir mübadiləsi aparmaq üçün bu səfərin yaxşı fürsət yaratdığını bildirdi.*

*Ölkəmizin ATƏT-ə üzvlüyə böyük önəm verdiyini söyləyən dövlət başçısı Azərbaycanın həm bu təşkilat çərçivəsində, həm də təşkilata üzv olan dövlətlərlə fəal iş apardığını və səmərəli tərəfdaşlıq əlaqələri qurduğunu bildirdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq, Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırdı. Dövlət başçısı qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların belə qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir. İşğal nəticəsində 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini qeyd edən dövlətimizin başçısı Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirdi. Danışıqlar prosesində müəyyən dinamikanın müşahidə olunduğunu, Xarici İşlər nazirləri səviyyəsində 4 dəfə görüşün keçirildiyini və Azərbaycan Prezidenti ilə Ermənistanın Baş Naziri arasında 3 dəfə söhbətin aparıldığını qeyd edən dövlət başçısı Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və*

*Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirdi. Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd etdi.*

*Görüşdə, həmçinin ATƏT-in gündəliyində duran məsələlərə, Azərbaycan və Slovakiya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF BANKININ PREZİDENTİ SUMA ÇAKRABARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uzun illər çox uğurlu əməkdaşlığın davam etdiyini bildirərək, ümumi dəyəri 3,5 milyard dollardan artıq olan layihələrin həyata keçirilməsini bu bankın Azərbaycana yaxşı tərəfdaş münasibətinin nümayişi kimi dəyərləndirdi və bütün bunlara görə Suma Çakrabartiyə təşəkkürünü ifadə etdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Suma Çakrabarti dünyada neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycana səfər etdiyini xatırladaraq, ölkə iqtisadiyyatının bərpa olunaraq, inkişafa qədəm qoyması münasibətilə təbriklərini çatdırdı. O, son illər ərzində Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində bir sıra sahələrdə, o cümlədən sərhəd və gömrük xidmətlərində şəffaflığın və səmərəliliyin artırıldığını, vergi sistemində dəyişikliklərin edildiyini, «ASAN*

*xidmət» sisteminin əhatə dairəsinin genişləndirildiyini və digər istiqamətlərdə böyük uğurların qazanıldığını qeyd etdi. Suma Çakrabarti Dünya Bankının «Doing Business–2019» hesabatında Azərbaycanın 25-ci yerə yüksəlməsinin önəmini vurğulayaraq, bunu əldə edilmiş böyük uğur kimi dəyərləndirdi.*

*Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin maliyyələşdirilməsinin ölkəmizdə müasir infrastrukturun yaradılması işinə böyük kömək göstərdiyini qeyd etdi və bildirdi ki, özəl sektorun bu maliyyə vəsaitindən yararlanması və müsbət istiqamətdə inkişafı Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda həyata keçirdiyi strategiyanın uğurlu olduğunu göstərir. Azərbaycanda genişmiqyaslı islahatların həyata keçirildiyini qeyd edən Prezident İlham Əliyev bu islahatların və eləcə də idarəçilikdə yeni yanaşma nəticəsində biznesin daha da inkişafı üçün əlverişli şəraitin yarandığını və büdcə gəlirlərinin artdığını diqqətə çatdırdı, ötən il, eləcə də bu ilin yanvar–fevral aylarında gəlirlərin plandan artıq daxil olduğunu bildirdi. Dövlət başçısı hazırda Azərbaycanda gömrük və vergi sistemlərinin birgə sıx fəaliyyət göstərdiklərini və bunun nəticəsində bu orqanlarda maksimum şəffaflığın təmin edilməsi istiqamətində səmərəli nəticələrin əldə edildiyini nəzərə çatdırdı və qeyd etdi ki, bütün bu islahatlar və şəffaflığın təmin edilməsi əhali tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın düşünülmüş və düzgün inkişaf yolu ilə irəlilədiyini vurğulayan dövlət başçısı ölkəmizin bu*

*sahələrdə islahatların birinci hissəsinin başlanğıcında olduğunu, bu il və qarşıdakı illərdə də bütün bunların uğurlu nəticələr verəcəyinə əminliyini ifadə etdi.*

*Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanla yeni sahələrdə əməkdaşlıqda maraqlı olduğu qeyd edildi və qeyri-neft sektorunun inkişafı, şəhərdaxili nəqliyyat, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## ATƏT-in PARLAMENT ASSAMBLEYASI YANINDA İTALİYA NÜMAYƏNDƏ HEYƏTİNİN SƏDRİ PAOLO QRİMOLDİ İLƏ GÖRÜŞ

*5 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in Parlament Assambleyası yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələrin mövcud olduğunu qeyd edərək, yüksək səviyyədə həyata keçirilən səfərlərin önəmini vurğuladı. İtaliya Prezidentinin keçən il Azərbaycana, özünün isə İtaliyaya bir neçə dəfə səfər etdiyini xatırladan dövlət başçısı İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan və İtaliya prezidentlərinin İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük sənaye müəssisəsinin açılışının qeyd edildiyini bildirdi və ölkələrimiz arasında sənaye, enerji, mədəniyyət və digər sahələrdə yaxşı əməkdaşlıq formatının olduğunu nəzərə çatdırdı.*

*Səfər zamanı Bakı haqqında təəssüratları barədə xoş sözlərini çatdıran Paolo Qrimoldi ölkələrimizi*

*bir-birinə bağlayan sıx əlaqələrin mövcud olduğunu bildirdi. Enerji sahəsində Azərbaycan ilə İtaliya arasında bir sıra razılaşmaların olduğunu qeyd edən qonaq Azərbaycan qazını İtaliyaya çatdıracaq TAP boru kəməri üzrə işlərin uğurla davam etdirildiyini məmnunluqla vurğuladı. Paolo Qrimoldi iqtisadi sahədə əməkdaşlığımızın inkişafı ilə yanaşı, ikitərəfli münasibətlərimizin siyasi əlaqələrlə də şərtləndiyini diqqətə çatdırdı və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi.*

*Görüşdə, həmçinin ölkələrimiz arasında mədəniyyət, turizm, idman və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MUSTAFA ŞENTOPUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Türkiyə Böyük Millət Məclisinin Sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik etdi və onun bu statusda ilk səfərini Azərbaycana etməsinin məmnunluq doğurduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan və Türkiyə arasında ilk yüksək səviyyəli səfərlərin qarşılıqlı şəkildə həyata keçirilməsi adət-ənənə xarakteri daşıyır və bu, iki ölkənin qardaşlığının və dostluğunun bariz nümunəsidir. Dövlət başçısı bu baxımdan keçən il Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilmiş paradda Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə birgə yürüşünü xatırlatdı. Azərbaycan ilə Türkiyə arasında tərəfdaşlığın bu gün yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini söyləyən Prezident İlham Əliyev ölkələrimizin üçtərəfli və dördtərəfli regional formatlarda da əməkdaşlığını vurğuladı. Dövlət başçısı Azərbaycan və Türkiyənin birgə səylərlə həyata keçirdiyi önəmli regional təşəbbüsləri, o cümlədən ar-*

*tıq istismara verilmiş TANAP, STAR Neft Emalı zavodu kimi irimiqyaslı layihələri qeyd etdi.*

*Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Türkiyənin bütün məsələlərdə bir-birini dəstəklədiyini, beynəlxalq təşkilatlarda, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində sıx əməkdaşlıq etdiyini nəzərə çatdırdı.Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən şərəf duyduğunu bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Mustafa Şentop Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın iki ölkənin olmadığını diqqətə çatdıraraq, əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi, TANAP, TAP və STAR Neft Emalı zavodu kimi irimiqyaslı layihələrin ölkələrimizi daha da yaxınlaşdırdığını vurğuladı. Mustafa Şentop Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin daim Azərbaycanın yanında olduğunu, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini bildirdi. O bu il Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısına ev sahibliyi edəcəyini bildirərək, ölkələrimizin Türk Şurası, TÜRKPA, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və digər təsisatlarda uğurla əməkdaşlıq etdiyini vurğuladı.*

*Dövlət başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQININ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Toivo Klaar Avropa İttifaqının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə müsbət töhfə verməkdə çox maraqlı olduğunu ifadə etdi.*

*Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirdi. Dövlət başçısı qeyd etdi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik*

*Şurasının müvafiq qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz. Azərbaycanın münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəf olduğunu söyləyən Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu vurğuladı. Dövlət başçısı Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək, beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini diqqətə çatdırdı.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı və ölkəmizin «Şərq Tərəfdaşlığı» Proqramında iştirakına dair geniş fikir mübadiləsi aparıldı.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi – bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Milli varlığımızın ifadəsi olan zəngin mədəni və mənəvi irsimizin, ana dilimizin, adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanılmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial və siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq, ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında millliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq, son 100 ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və

nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olaraq, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz – Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 mart 2019-cu il*

**SENEQAL RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB MAKİ SALLA**

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Seneqal arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Seneqal xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2019-cu il*

# AĞSU RAYONUNDA ZƏLZƏLƏNİN NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI İLƏ BAĞLI GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*7 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fevralın 5-i və 6-da baş vermiş zəlzələnin törətdiyi fəsadların aradan qaldırılması ilə bağlı verdiyi sərəncam və tapşırıqların icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün martın 6-da Ağsu rayonuna səfərə gəlmişdir.*

*Qeyd edək ki, fevralın 5-i və 6-da episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdir. Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilibdir.*

*Hadisənin səhəri günü dövlət başçısı zəlzələ zonasına gələrək, sakinlərlə görüşdü, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirdi. Prezident İlham Əliyev dərhal əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstəriş-*

*lərini verdi. Elə həmin gün dövlət başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ilkin olaraq 2 milyon manat ayrılması haqqında sərəncam imzaladı. Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanıldı.*

*Dövlət başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən tikilməkdə olan evlərə baxış keçirdi. Prezident İlham Əliyev Xasayev küçəsinin sakini Gülarə Hökmrəvanın ailəsi üçün tikilməkdə olan yeni evdə inşaatçılarla söhbət etdi.*

**İlham Əliyev:** Salam. Yerli işçi qüvvəsidir?

**Kəmaləddin Heydərov** (*Fövqəladə Hallar naziri*): Bəli, onların hamısı buralıdır.

**İlham Əliyev:** İşlər necə gedir?

**Fəhlələr:** Çox sağ olun. İşlər yaxşı gedir.

**İlham Əliyev:** Hələ iş çox olacaq, evlər gərək bərpa edilsin. Sizə uğurlar olsun. Sağ olun.

**Fəhlələr:** Sağ olun, Allah Sizdən razı olsun!

*Sonra Prezident İlham Əliyev ev sahibinin oğlu Tahir Hökmrəvanla söhbət etdi.*

**Tahir Hökmrəvan:** Xoş gəlmisiniz! Sizin gəlişinizi gözləyirdik. Əmin idik ki, gələcəksiniz.

**İlham Əliyev:** Əlbəttə.

**Tahir Hökmrəvan:** Həmişə bizim yanımızdasınız. Bizə, xalqımıza göstərdiyiniz qayğıya görə minnətdarıq. Öz adımdan, xəstə anam var, onun adından təşəkkürümü bildirirəm. Sizə, ailənizə uzun ömür

arzulayıram. Allah Sizi qorusun, başımızın üstündən əskik etməsin. Var olun.

**İlham Əliyev:** Çox sağ olun. Ananıza da salam söyləyin. Tezliklə sağalsın. Bir aydan sonra ev hazır olacaq. İnşallah, bərabər yaşayacaqsınız. Allah şəfa versin.

**Tahir Hökmrəvan:** Minnətdarıq, çox sağ olun. Allah Sizi var eləsin.

**İlham Əliyev:** Evin tikintisi ilə bağlı hər hansı iradınız varmı?

**Tahir Hökmrəvan:** Xeyr, hər şey qaydasındadır, çox sağ olun.

**İlham Əliyev:** Yerində yeni möhkəm ev tikilir, heç bir zəlzələ buna təsir edə bilməz.

**Tahir Hökmrəvan:** İnşallah, çox sağ olun.

**İlham Əliyev:** Zəlzələ zamanı siz evdə idiniz?

**Tahir Hökmrəvan:** Bəli, evdə idim.

**İlham Əliyev:** İndi harada yaşayırsınız?

**Tahir Hökmrəvan:** Burada bir bina evi var, oradayıq. Uşaqları aparmışıq oraya.

**İlham Əliyev:** Söz verirlər ki, bir aydan sonra evin tikintisini başa çatdıracaqlar.

**Kəmaləddin Heydərov**: Bu ev bir aydan sonra hazır olacaq, bəlkə də tez.

**Tahir Hökmrəvan:** İnşallah. Minnətdarıq.

*Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlət başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verdi.*

**Kəmaləddin Heydərov:** Yaradılmış komissiyalar tərəfindən əhalinin müraciətlərinə əsasən, indiyə-

dək Şamaxıda 4893, Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Şamaxıda 1111, Ağsuda 265, İsmayıllıda 262 evin bərpa-gücləndirilməsinə ehtiyac vardır. Şamaxıda 1800, Ağsuda 1022, İsmayıllıda isə 354 evin təmirə ehtiyacı vardır. Bütövlükdə bu rayonlarda 88 ev sökülməyə hazırlanıb, 65 ev sökülüb və sökülməyə başlanılıb, həmçinin 38 evin tikintisi aparılır. Ümumiyyətlə, 491 ev qəzalı vəziyyətdədir.

**İlham Əliyev:** Yəni hansılar ki, yenidən tikiləcək.

**Kəmaləddin Heydərov:** Bəli. Bunlar artıq sökülüb tikiləcək, 1665 ev bərpa olunacaqdır.

**İlham Əliyev:** Bəs qalan müraciətlər?

**Kəmaləddin Heydərov:** İndiyə qədər 7296 müraciət olub, onlardan 7264-nə baxılıb. 16 komissiya işləyir.

**İlham Əliyev:** Hələ komissiyaların işi davam edir?

**Kəmaləddin Heydərov:** Bəli, komissiyalar işləri davam etdirir, çünki şikayətçilər bəzən evlərin bərpalıq deyil, qəzalı olduğunu deyirlər.

**İlham Əliyev:** Komissiya bu işlərə obyektiv baxsın.

**Kəmaləddin Heydərov:** Artıq Şamaxıda 22, İsmayıllıda 10, Ağsuda isə 6 fərdi evin tikintisinə başlanılıbdır.

**İlham Əliyev:** Bunlar kəndlər üzrə evlərin layihələridir?

**Kəmaləddin Heydərov:** Bəli, kəndlər üzrə dörd, üç və ikiotaqlı evlərin layihələridir.

**İlham Əliyev:** Yeni evlərin sahəsi əvvəlkilərdən daha böyükdür?

**Kəmaləddin Heydərov:** Əlbəttə, əvvəlki evlərdən daha böyükdür və 9 bal gücündə zəlzələyə hesablanıbdır.

*Prezident İlham Əliyev tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi. Sonra dövlət başçısı Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün inşa edilən yeni evdə görülən işlərlə tanış oldu. Məlumat verildi ki, dağılmış evin yerində tikilən yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaqdır. Dövlət başçısı ev sahibi Həcər Zamanova ilə söhbət etdi.*

**Həcər Zamanova:** Xoş gəlmisiniz!

**İlham Əliyev:** Xoş gördük. Necəsiniz?

**Həcər Zamanova:** Sağ olun, Allahdan Sizə cansağlığı arzulayıram.

**İlham Əliyev:** Çox sağ olun. İşlər necə gedir?

**Həcər Zamanova:** Hər şey yaxşıdır. Mən Sizin yolunuzu gözləyirdim. Şükür Allaha ki, bu mənə qismət oldu.

**İlham Əliyev:** Əlbəttə, mən mütləq gəlməli idim. Gəlmişəm ki, görüm işlər necə gedir.

**Həcər Zamanova:** Çox şükür. Televizorda görəndə, deyirdim, ay Allah, kaş Prezidentlə görüşə biləydim.

**İlham Əliyev:** Evin tikintisi necə gedir, razısınız?

**Həcər Zamanova:** Razıyam. Yerlə göyün arası qədər razıyam.

**İlham Əliyev:** Ev tamam dağılmışdı?

**Kəmaləddin Heydərov:** Bəli.

**Həcər Zamanova:** Allah-taala Sizi Azərbaycanın üstündən əskik etməsin. Siz ki bizə belə qayğı göstərirsiniz, Allah həmişə bayrağımızı uca etsin.

**İlham Əliyev:** Çox sağ olun. Ev nə vaxt hazır olacaq?

**Kəmaləddin Heydərov:** Maksimum bir aya.

**İlham Əliyev:** İndi siz harada yerləşmisiniz?

**Həcər Zamanova:** Biz kirayə ev tutmuşuq. Müvəqqəti orada yerləşmişik.

**İlham Əliyev:** Bir aydan sonra, inşallah, köçəcəksiniz yeni, gözəl evə.

**Həcər Zamanova:** İnşallah. Allah kölgənizi üstümüzdən əskik etməsin.

**İlham Əliyev:** Çox sağ olun.

**Həcər Zamanova:** Ağsuda hamı bilir, seyid qızıyam, Quran oxuyuram, namaz qılıram. And olsun o bir Allaha, Sizin rəhmətlik atanız dünyadan köçəndən həmişə ona dua oxuyur, salavat çevirirəm. Deyirəm, ay Allah, o gəlməsəydi, Azərbaycanda bir dənə də olsun cavan qalmazdı. Gəldi, müharibəni dayandırdı. Allah-taala ona qəni-qəni rəhmət eləsin. Allah Sizi, oğlunuzu saxlasın.

**İlham Əliyev:** Sağ olun. Ağsu, Şamaxı, İsmayıllı rayonlarında zəlzələ nəticəsində dağılmış bütün evlər artıq sökülüb və yenidən tikiləcək, o cümlədən sizin eviniz. Yəni qəzalı vəziyyətdə olan evlər. İndi məlumat verildi, yüzlərlə ev tikiləcəkdir.

**Həcər Zamanova:** Sizə təşəkkür edirəm. Allah Sizə kömək olsun.

**İ l h a m Ə l i y e v:** Zəlzələdən ziyan çəkmiş bir dənə də təmirsiz ev qalmayacaq. Təmiri mümkün olmayan evlər isə yenidən tikiləcəkdir.

**H ə c ə r Z a m a n o v a:** Allahın köməyi ilə, Sizin sayənizdə. Mənim Sizdən bir xahişim də vardır. Nəvəmin 29 yaşı var, atası da, anası da rəhmətə gedib, onu mən saxlamışam. İndi onun gözünün biri tamam tutulub, birində də 3 faiz görmə qalıb. Xəstəxanaya aparıb gətirirəm, ona donor gözü lazımdır. Mənim ona gücüm çatmır.

**İ l h a m Ə l i y e v:** Onu mən tapşıraram Heydər Əliyev Fonduna.

**H ə c ə r Z a m a n o v a:** Həkimlər deyirlər ki, bunu təcili etmək lazımdır.

**İ l h a m Ə l i y e v:** O buradadır, yoxsa Bakıda?

**H ə c ə r Z a m a n o v a:** Burada idi, evimiz uçandan sonra Bakıda olan qızımın yanına göndərmişəm.

**İ l h a m Ə l i y e v:** Onun əlaqə telefonunu, adını, soyadını verin.

**H ə c ə r Z a m a n o v a:** Zamanov Murad Adil oğlu.

**İ l h a m Ə l i y e v:** Siz narahat olmayın. Lazım olarsa, biz onu xaricə də göndərərik. Bizə minlərlə belə müraciətlər olur.

**H ə c ə r Z a m a n o v a:** Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Tezliklə ev tikiləcək. Burada rahat yaşayacaqsınız.

**H ə c ə r Z a m a n o v a:** Sağ olun, təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

* * *

*Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

*Daha sonra dövlət başçısı burada rayon sakinləri ilə görüşdü, onların məktublarını qəbul etdi.*

**S a k i n l ə r:** Salam, cənab Prezident. Eşq olsun İlham Əliyevə! Xoş gəlmisiniz! Cənab Prezident, ağsulular Sizinlə fəxr edirlər. Allah ömrünüzü uzun eləsin! Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Salam, çox sağ olun. Mən gəlmişəm sizinlə görüşüm. Bütün məktublara baxılacaq.

**S a k i n l ə r:** Sağ olun. Allah razı olsun.

**İ l h a m Ə l i y e v:** Ağsuda baş vermiş zəlzələ ilə əlaqədar müvafiq göstərişlər verilib. Dağılmış evlərin yerində artıq bu gün yeniləri tikilir. Bütün dağılmış evlər qısa müddət ərzində yenidən tikiləcək, qəzalı evlər əsaslı şəkildə təmir olunacaqdır. Mən bu gün gəlmişəm ki, işlərə özüm nəzarət edim, müvafiq göstərişlər verim və sizinlə görüşüm. Burada mənə verilən məktubların hər birinə baxılacaq. Narahat olmayın, zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mən gəlmişəm ki, problemləri həll edim. Mənim işim sizə xidmət etməkdir. Mən öz vəzifəmi bunda görürəm. Prezident kimi, həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaqdır.

**S a k i n l ə r:** Sağ olun. Allah Sizə cansağlığı versin. Allah işinizi avand eləsin. Sizə minnətdarıq.

## ŞAMAXI RAYONUNA SƏFƏR

*7 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 7-də zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı görülən işlərlə tanışlıq məqsədilə Şamaxı rayonuna səfərə gəlmişlər.*

*Bu il fevralın 5-i və 6-da baş vermiş zəlzələlər nəticəsində İsmayıllı və Ağsu rayonları ilə yanaşı, Şamaxı rayonunda da fərdi evlərə, sosial və infrastruktur obyektlərinə ziyan dəyib. İndiyədək Şamaxıda 4893 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244 ev kəskin qəzalıdır. Onlardan da 96-sı şəhər, 35-i qəsəbələr, 113-ü isə kəndlər üzrədir. Hazırda şəhər üzrə kəskin qəzalı hesab edilmiş evlərdən 6-sı inşa olunur. Rayonda ümumilikdə 1111 evin bərpasına və gücləndirilməsinə ehtiyac vardır ki, onlardan da 561-i şəhərdə, 87-si qəsəbələrdə, 463-ü isə kəndlərdədir. Şamaxıda təbii fəlakətlə bağlı şəhər üzrə 866, qəsəbələr üzrə 123, kəndlər üzrə 811 olmaqla, ümumilikdə 1800 evin təmirə ehtiyacı vardır.*

*Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, görülən tədbirlər nəticəsində artıq zəlzələnin fəsadları aradan qaldırılır. Bu məsələdə dövlət başçısının imzaladığı müvafiq sərəncam və Prezidentin ehtiyat fondundan ayrılmış vəsait xüsusi əhəmiyyətə malikdir.*

*Onu da qeyd edək ki, Heydər Əliyev Fondunun «Regional İnkişaf» İctimai Birliyinin nümayəndələri də zəlzələdən dərhal sonra təbii fəlakətdən zərərçəkmiş ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq, sakinlərin müraciətlərini qeydə alıblar. Toplanılmış məlumatlar Fondun rəhbərliyinə məruzə edilibdir.*

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə şəhərin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus yeni inşa olunmuş evə gəldilər. Bu ev zəlzələ zamanı qəzalı vəziyyətə düşmüşdü.*

**Saray nənə:** Xoş gəlmisiniz, gələn ayaqlarınız var olsun!

**İlham Əliyev:** Necəsiniz?

**Saray nənə:** Sağ olun, qadan alım. Mehriban xanıma canım qurban.

**Mehriban Əliyeva**: Salam. Çox şadam.

**Saray nənə:** Nəvəli-nəticəli olasan, ay qızım. Mənim qədər nəvə-nəticə görəsən.

**Mehriban Əliyeva:** Çox sağ olun, Allah sizə uzun ömür versin.

**Saray nənə:** Elə bil ki, Siz gəlişinizlə məni götürüb dağın başına qoymusunuz, qeyrətli balam. Çox sağ olun, çox var olun. Bizim üçün hər şey etmisiniz.

**Mehriban Əliyeva:** Necə ola bilərdi ki, gəlməyək?!

**Saray nənə:** Bilirdim ki, gələcəksiniz. Gələn ayaqlarınıza canım qurban, gəldiniz də, hər cür şəraiti yarat-

dınız da. Bir ana kimi, mənim hər bir sözümü yerinə yetirdiniz.

**Mehriban Əliyeva:** Mənə sizdən o qədər danışıblar ki, gözləyirdim, nə zaman gəlib sizinlə tanış olacağam.

**Saray nənə:** Sağ olun ki, gəlmisiniz, mən də Sizi gözləyirdim. Mən Sizi çox istəyirəm.

**İlham Əliyev:** Bir ay keçdi, yenə görüşürük. Bir aydan da sonra artıq sizin üçün gözəl ev hazır olacaqdır.

**Saray nənə:** Sağ olun, Sizin sayənizdə.

**İlham Əliyev:** Zəlzələdən sonra birinci tikilmiş ev sizin evinizdir.

**Saray nənə:** Sağ olun, elədir. Allah-taala ömrünüzü uzun eləsin, bizim üçün çox iş gördünüz.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva evdə yaradılmış şəraitlə tanış oldular.*

**İlham Əliyev:** İndi şərait necədir?

**Sevda Həsənova:** Çox sağ olun. Sizinlə qürur duyuruq. Sağ olun ki, Azərbaycan xalqının arxasında durmusunuz.

**İlham Əliyev:** Evin ölçüləri əvvəlkindən daha böyükdür?

**Kəmaləddin Heydərov:** Bəli, çox böyükdür, 131 kvadratmetrdir.

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva daha sonra Saray nənə və ailə üzvləri ilə birlikdə çay süfrəsi arxasında söhbət etdilər.*

**Saray nənə:** Siz də balalarımsınız, özü də qeyrətli, namuslu. Mənim başımı çox uca etdiniz.

**İlham Əliyev:** Siz buna layiqsiniz. Bütün Azərbaycan sizi tanıyır və sevir.

**S a r a y n ə n ə:** Şükür Allaha, mən də qeyrətli qadın olmuşam. Üzüm bağlarında məftil çəkmişəm.

**İ l h a m Ə l i y e v:** Bir aya bu bina tikildi. O birilər də tikiləcək. Həm burada, həm Ağsuda, həm İsmayıllıda qəzalı, uçulan bütün binalar yenidən tikiləcəkdir. Dünən Ağsuda idim, orada da vətəndaşlarla görüşdüm, onlara da dedim ki, siyahı tutulub, qəzalı evlərin hamısı dövlət tərəfindən tikiləcəkdir.

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ailə üzvlərinin istək və xahişlərini dinlədilər. Dövlət başçısı bu məsələlərlə bağlı müvafiq tapşırıqlarını verdi.*

**S e v d a H ə s ə n o v a:** Allah köməyiniz olsun. Sizdən yer-göy qədər razıyıq. Biz Sizinlə qürur duyuruq, çox sağ olun, var olun.

**İ l h a m Ə l i y e v:** Zəlzələ təbii fəlakətdir. Bu, əvvəllər də olub. Bir neçə il bundan əvvəl Zaqatalada, Balakən bölgəsində də olubdur. Orada da 3000-dən çox ev yenidən tikildi. Burada da indi 1000-dən çox ev yenidən tikiləcək, bərpa olunacaqdır. Xoşbəxtlikdən heç kim həlak olmayıb, hamı sağ-salamatdır. Şamaxı, Ağsu, İsmayıllı rayonlarında zəlzələdən ziyan çəkmiş qalan evlər də tikiləcək, bərpa olunacaqdır. Vətəndaşlar bunu bilir. Onu da deməliyəm ki, ancaq Azərbaycanda bu işlər bu qədər qısa müddət ərzində görülür. Hər yerdə zəlzələ, daşqın olur. İnkişaf etmiş ölkələrdə dövlət, ümumiyyətlə, kömək etmir, bütün evlər sığortalıdır, vətəndaş sığortanı ödəyir, zəlzələ olandan sonra sığorta şirkətinə müraciət edir. Onlar baxırlar, təhlil aparırlar. Aylarla vaxt

keçir, sonra da ona sığorta pulu verilir, gedir özü tikir. Amma Azərbaycanda necədir? Zəlzələdən bir gün sonra komissiya –Fövqəladə Hallar Nazirliyi, icra hakimiyyəti gəldi. Bu bir daha göstərir ki, Azərbaycan dövləti öz vətəndaşının yanında, onun arxasındadır. Ağır vəziyyətə düşən vətəndaş hər zaman bilməlidir ki, dövlət ona kömək edəcəkdir. Görülən işlər budur. Bu, birinci evdir. Hələ minlərlə ev tikiləcəkdir.

**S a r a y n ə n ə:** Gələn ayaqlarınız var olsun. Gördüyünüz işlərə görə çox sağ olun.

* * *

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Salman Mümtaz küçəsinin sakinləri ilə söhbət etdilər, onları narahat edən məsələləri dinlədilər.*

**İ l h a m Ə l i y e v:** Salam, xoş gördük.

**S a k i n l ə r:** Salam, xoş gəlmisiniz! Allah Sizi qorusun. Bizə şərəf verdiniz. Çox sağ olun, Allah razı olsun.

**S a k i n:** Sizə məktubum vardır.

**İ l h a m Ə l i y e v:** Baxaram.

**S a k i n:** Bizim də evimiz sökülür, yenisi tikilir.

**İ l h a m Ə l i y e v:** Uçulub? Mən mütləq baxacağam. Evlərlə bağlı narahat olmayın. Bütün evlər bərpa olunacaqdır.

**S a k i n:** Sağ olun ki, Azərbaycanı belə tikirsiniz, qurursunuz. Allah işinizi avand etsin, Sizi ölkəmizdən əskik etməsin.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Vahid Şıxıyevin inşası davam edən evinə də baxdılar.*

**İlham Əliyev:** Sizin evinizdir?

**Vahid Şıxıyev:** Xoş gəlmisiniz, cənab Prezident! Bəli.

**İlham Əliyev:** Görürsünüz, necə qısa müddət ərzində tikilir.

**Vahid Şıxıyev:** Sökülüb, yerində təzəsi inşa olunur. Allah Sizə cansağlığı versin, başımızın üzərindən əskik etməsin, cənab Prezident.

**İlham Əliyev:** Daha da gözəl ev olacaqdır.

**Vahid Şıxıyev:** Bəli, nəvələrimin, ailəmin adından Sizə dərin təşəkkürümü bildirirəm. Allah Sizi Azərbaycan xalqına çox görməsin. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz vardır.

**İlham Əliyev:** Çox sağ olun. Evin tikintisi təxminən nə vaxt başa çatacaq?

**Kəmaləddin Heydərov:** Təxminən bir aya, ay yarıma.

**İlham Əliyev:** Bir aya. İndi siz harada yaşayırsınız?

**Vahid Şıxıyev:** Biz yaxın qohumun evində yaşayırıq. Sağ olsun qohum-əqrəba.

**İlham Əliyev:** Bir az gözləyin, maksimum bir aya tikiləcək.

**Vahid Şıxıyev:** Allah köməyiniz olsun.

**İlham Əliyev:** Saray nənənin evini də görürsünüz.

**Vahid Şıxıyev:** Allah Sizdən razı olsun.

* * *

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Teymur Əliyarbəyov küçəsində Elmira Həsənovaya məxsus yeni yaşayış evində də yaradılmış şəraitlə tanış oldular.*

**Elmira Həsənova:** Salam, xoş gəlmisiniz!

**Mehriban Əliyeva:** Salam, sizinlə telefonla danışmışdıq.

**İlham Əliyev:** Şərait necədir?

**Elmira Həsənova:** Çox sağ olun, hər şey əladır.

**Elmira Həsənovanın qızı**: Mehriban xanım, mən həmişə Sizi görmək istəyirdim.

**Mehriban Əliyeva:** Eləmi, mən də səni.

**Elmira Həsənova:** Allah Sizi əskik etməsin.

**İlham Əliyev:** Çox sağ olun.

* * *

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva rayonun mərkəzində Heydər Əliyev Mədəniyyət və istirahət parkında ucaldılmış ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

*Zəlzələ zamanı şəhərin Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurovun evi də qəzalı vəziyyətə düşmüşdü. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva həmin yerdə yeni inşa edilmiş evdə yaradılmış şəraitlə maraqlandılar.*

**Vüqar Teyfurov:** Xoş gəlmisiniz, cənab Prezident!

**İlham Əliyev**: Salam, xoş gördük.

**Mehriban Əliyeva:** Xoş gördük.

**İlham Əliyev:** Ev hazırdır?

**Vüqar Teyfurov:** Allah köməyiniz olsun, tam hazırdır. Ailəmiz adından təşəkkür edirik. Çox sağ olun, Allah Sizi var eləsin. Çiçəklənən Azərbaycan naminə Allah Sizə ömür versin, tikin, yaradın.

**İlham Əliyev:** Çox sağ olun.

*Dövlət başçısı və xanımı evdə yaradılmış şəraitlə tanış oldular.*

**İlham Əliyev:** Pianino da vardır. Sən ifa edir-sən?

**Vüqar Teyfurov:** Bəli, cənab Prezident, mən musiqiçiyəm. Əgər istəsəniz Sizin üçün musiqi də ifa edə bilərəm.

**İlham Əliyev:** Olar, buyur.

*Dövlət başçısı və xanımı Vüqar Teyfurovun ifasını dinlədilər.*

**İlham Əliyev:** «Ana» və «Xalq Heydər söyləyəcək» mahnılarını çox gözəl ifa etdin. Özü də belə improvizasiya ilə.

**Vüqar Teyfurov:** Təşəkkür edirəm.

* * *

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Şamaxı sakinləri ilə görüşdülər.*

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident!

**Sakin:** Cənab Prezident, bu uşağın adı da İlham Əliyevdir. Sizi görməkdən ötrü gəlib.

**Sakin:** Sizi salamlayıram. Xoş gəlmisiniz!

**İlham Əliyev:** Sağ olun.

**Sakin:** Uşağımın köməyə ehtiyacı vardır.

**İlham Əliyev:** Mən sizə kömək edərəm.

**Sakin:** Fəxr edirik ki, Sizin kimi Prezidentimiz vardır.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən də sizinlə fəxr edirəm. Narahat olmayın, bütün məktublara baxılacaq.

**S a k i n:** Cənab Prezident, Sizə minnətdarıq. Mənim də kreditlə bağlı problemim vardı. Bu məsələnin həlli ilə bağlı verdiyiniz fərmana görə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Nə qədər götürmüşdün?

**S a k i n:** 5000 dollar götürmüşdüm. Hətta mənə kompensasiya da çatacaqdır.

**İ l h a m  Ə l i y e v:** Sənə pul da qaytaracaqlar.

**S a k i n l ə r:** Allah Sizi var eləsin. Allah Sizi bu xalqın üstündən əskik etməsin.

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, sizi salamlayıram. Şamaxıda baş vermiş zəlzələ nəticəsində dağılmış bütün evlər yenidən tikiləcək, bərpa ediləcəkdir. Bilirsiniz ki, zəlzələdən dərhal sonra mən Şamaxıya gəldim, vəziyyətlə tanış oldum. Dərhal göstəriş verdim ki, evlər qısa müddət ərzində bərpa edilsin, tikilsin. Bu gün artıq biz ilk evlərin, o cümlədən Saray nənənin evinin açılışını etdik. Bir neçə başqa ev də tikilib. İndi çoxmənzilli yeni binanın təməli qoyulacaqdır. Şamaxı, Ağsu, İsmayıllı rayonlarında minlərlə ev tikiləcək və yenidən bərpa ediləcəkdir. Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır. Bizim sosial siyasətimiz güclü siyasətdir və zəlzələdən ziyan çəkmiş bütün evlər dövlət vəsaiti hesabına tikiləcək və bərpa ediləcəkdir.

Mənə dünən Ağsu rayonunda, eləcə də bu gün Şamaxı rayonunda məktublar verilib. Bütün məktublara baxılacaq. Burada müxtəlif təkliflər, müxtəlif şikayətlər, xahişlər vardır. Məhkəmə işləri, evlə, işsizliklə, sosial ədalətsizliklə bağlı məktublar vardır. Hər bir məktuba

diqqətlə baxılacaq. Xahiş edirəm, məktubları mənim köməkçilərimə çatdırın. Mən özüm bunlara baxacağam və lazımi göstərişlər veriləcəkdir. Azərbaycan dövləti öz sosial siyasətini aparmaqda israrlıdır. Vətəndaşları narahat edən bütün məsələlər öz həllini tapacaq. Mən gəlmişəm sizdən bunu eşidim. Bu dəstəyə görə, bu hörmətə görə sizə təşəkkür edirəm, sizi bağrıma basıram. Əmin ola bilərsiniz ki, bütün məsələlər həll olunacaqdır.

**A ğ s a q q a l:** Cənab Prezident, xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**A ğ s a q q a l:** Siz bütün Azərbaycan xalqının arxası, dayağısınız. Biz şamaxılılar Sizi çox istəyirik.

**İ l h a m Ə l i y e v:** Mən də sizi çox istəyirəm.

**A ğ s a q q a l:** Çox sağ olun. Allah Sizə ömür versin.

**İ l h a m Ə l i y e v:** İndi də bu ərazidə gözəl çoxmənzilli ev tikiləcək.

**A ğ s a q q a l:** Gəlib baxmışam, çox iş görmüsünüz.

**İ l h a m Ə l i y e v:** Sözünüz var mənə?

**A ğ s a q q a l:** Mənim sözüm odur ki, sovet hökuməti 70 il çalışdı şəhərlə kənd arasındakı fərqi aradan qaldırsın. Lakin bunu bacarmadı. Amma Prezident İlham Əliyev cənabları 15 il müddətində bu fərqi götürdü. Bax, Şamaxının başı Dəmirçi, ayağı Quşçu kəndidir.

**İ l h a m Ə l i y e v:** Dəmirçiyə də yol çəkdik.

**A ğ s a q q a l:** Hər ikisinə asfalt yol çəkilib.

**İ l h a m Ə l i y e v:** Lahıca qədər.

**A ğ s a q q a l:** Əgər oraya maşın gedirsə, Şamaxının elə bir kəndi yoxdur ki, ora maşın işləməsin. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Düzdür, sağ olun.

**A ğ s a q q a l:** Qaz yaxşı, işıq yaxşı, su yaxşı, dolanırıq. Allah ömür versin.

**İ l h a m Ə l i y e v:** Çalışıram hər şey edim ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. Yol, qaz, işıq, su, iş yerləri. İndi şikayətlər verildi, onlara da baxılacaq. Zəlzələdən ziyan dəymiş evlər yenidən tikiləcək. Cəmi bir ay keçib, artıq bir neçə ev hazırdır, bir neçə evin tikintisi gedir. İndi çoxmənzilli binanın təməli qoyulur. Dağılmış, uçulmuş bütün evlər yenidən tikiləcək. Bəlkə də əvvəlki evlərdən 100 dəfə daha yaxşı olacaqdır.

**A ğ s a q q a l:** Bir söz deyim, Mehriban xanım bizə bir neçə avtobus göndərib. Gecə-gündüz işləyir. İndi Şamaxının bütün kəndlərinə avtobus gedir. Allah işinizi avand eləsin.

**İ l h a m Ə l i y e v:** Çox sağ ol, ağsaqqal.

* * *

*Dövlət başçısı və xanımı zəlzələdən zərərçəkmiş ailələr üçün tikiləcək yeni yaşayış binasının təməlini qoydular. Məlumat verildi ki, 20 Yanvar küçəsində tikilən 44 mənzildən ibarət dördmərtəbəli bina bütün zəruri infrastrukturla təchiz ediləcək, burada birotaqlı 4, ikiotaqlı 32 və üçotaqlı 8 mənzil olacaqdır.*

*Prezident İlham Əliyev gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğu işə salındı.*

*Daha sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı» çərçivəsində Şamaxının Şəhriyar qəsəbəsində yeni inşa olunmuş 4 saylı Körpələr evi-uşaq bağçasının açılışında iştirak etdilər.*

*Dövlət başçısı və xanımı Körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Körpələr evi-uşaq bağçasında yaradılmış şəraitlə tanışlıq zamanı məlumat verildi ki, 100 yerlik bu müəssisədə balacalar üçün hərtərəfli şərait vardır. Şamaxı şəhər 4 və 5 saylı Körpələr evi-uşaq bağçaları ötən əsrin 30–40-cı illərində inşa edilmişdir və istismar müddətini başa vurmuş uyğunlaşdırılmış binalarda fəaliyyət göstərirdi. Körpələr evi-uşaq bağçasının tikintisi qısa müddətdə başa çatdırılıb, ikimərtəbəli binada yataq, yemək, istirahət, tibb otaqları, mətbəx və yeməkxana yaradılıbdır.*

*Bağçanın ərazisində abadlıq-quruculuq işləri aparılıb, uşaqların əyləncəsi üçün meydança tikilibdir.*

*Qeyd edək ki, Heydər Əliyev Fondunun «Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı» çərçivəsində respublikanın 60 şəhər və rayonunda ümumilikdə 13625 uşaq-yerlik 123 Körpələr evi-uşaq bağçasının inşası nəzərdə tutulub və onlardan 80-i artıq istifadəyə verilibdir.*

## RUSİYA YƏHUDİ KONQRESİNİN PREZİDENTİ YURİ KANNERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kannerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Rusiya Yəhudi Konqresinin prezidenti Yuri Kanner səfər çərçivəsində Quba şəhərinə getdiklərini, Azərbaycanın regionlarında inkişaf proseslərinin şahidi olduqlarını, ölkəmizdə bütün xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin firavan yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğuladı və bunu yüksək qiymətləndirdi.*

*Azərbaycanda ayrı-ayrı xalqların və dini icmaların əsrlərboyu bir ailə kimi yaşadıqlarını nəzərə çatdıran Prezident İlham Əliyev ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, o cümlədən yəhudilərin əmin-amanlıq içərisində yaşamaları üçün lazımi şəraitin mövcud olduğunu bildirdi. Dövlət başçısı Azərbaycanda sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun möhkəmləndirilməsi ilə bağlı mühüm beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyətini qeyd etdi.*

## HİNDİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BAVİTLUNQ VANLALVAVNA İLƏ GÖRÜŞ

*11 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Bavitlunq Vanlalvavnanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Bavitlunq Vanlalvavna Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Bavitlunq Vanlalvavna etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və turizm sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

*Səfir Bavitlunq Vanlalvavna diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirdi.*

**EFİOPİYA FEDERATİV DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ XANIM SAHLE-VORK ZEVDEYƏ**

Hörmətli xanım Prezident!

«Efiopiya hava yolları»na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Efiopiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2019-cu il*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENYATTAYA**

Hörmətli cənab Prezident!

«Efiopiya hava yolları»na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Keniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2019-cu il*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüzün ildönümü münasibətilə Sizə və Sizin simanızda bütün həmməzhəblərinizə öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər eyni zamanda, dinlər və mədəniyyətlər arasında dialoq və tolerantlıq mühitinin təşviqi üçün bariz nümunədir. İnanıram ki, əməkdaşlıq zəminində addımlarımız bundan sonra da dünyada sülhün və əmin-amanlığın, qarşılıqlı anlaşma və həmrəyliyin bərqərar olmasına xidmət edəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, ali missiyanızda uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2019-cu il*

# ABŞ-ın AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ÖRL LİTZENBERQER İLƏ GÖRÜŞ

*12 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Örl Litzenberqerin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Örl Litzenberqer Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Örl Litzenberqer etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Örl Litzenberqer Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə etdi və fəaliyyəti müddətində iki ölkə arasında əlaqələrin daha da inkişafı məqsədilə səylərini əsirgəməyəcəyini vurğuladı.*

*Prezident İlham Əliyev Örl Litzenberqeri ölkəmizə səfir təyin olunması münasibətilə təbrik etdi və onun səfir kimi fəaliyyəti dövründə Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin daha da genişlənəcəyinə və inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev və səfir Örl Litzenberqer Azərbaycan–ABŞ əlaqələrinin yüksək səviyyədə olması və uğurlu inkişafından məmnunluq ifadə etdilər.*

*Səfir Azərbaycanın Əfqanıstanda həyata keçirilən sülhməramlı əməliyyata canlı qüvvə ilə töhfəsini və həmçinin bu əməliyyat əsnasında göstərdiyi logistik və nəqliyyat dəstəyinin ABŞ Hökuməti tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi.*

*Söhbət zamanı siyasi əlaqələr, enerji təhlükəsizliyi, ticarət, demokratik inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparıldı, humanitar sahədə, o cümlədən insanlar arasında əlaqələrin inkişafının əhəmiyyəti vurğulandı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər müzakirə edildi, Prezident İlham Əliyev Azərbaycanın münaqişənin həllinə dair beynəlxalq hüququn norma və prinsiplərinə və ədalətə əsaslanan mövqeyini diqqətə çatdırdı. Dövlət başçısı bildirdi ki, Azərbaycan tərəfi ATƏT-in Minsk qrupunun həmsədrlərinin son bəyanatı, o cümlədən danışıqlar formatının dəyişdirilməməsi ilə bağlı fikirlərini müsbət qarşılayır.*

*Görüşdə, həmçinin Azərbaycan–ABŞ ikitərəfli münasibətlərin gələcək inkişafı və daha çox sahələri əhatə etməsinin önəmi barədə fikir mübadiləsi aparıldı.*

## BMT İNKİŞAF PROQRAMI RƏHBƏRİNİN MÜAVİNİ MİRYANA EQQERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də BMT İnkişaf Proqramı rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Büronun direktoru xanım Miryana Eqqerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı BMT İnkişaf Proqramının ölkəmizdə 20 ildən artıq bir dövrdə uğurla fəaliyyət göstərdiyini qeyd edərək, xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində bu Proqramın və BMT-nin digər ixtisaslaşmış təsisatlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini vurğuladı.*

*Xanım Miryana Eqqer Azərbaycanın yüksək göstəricili orta gəlirli ölkələr sırasında olduğunu qeyd edərək, BMT İnkişaf Proqramının Azərbaycanla əməkdaşlıqdan məmnun olduğunu bildirdi. O, BMT İnkişaf Proqramının iqtisadi şaxələndirmə, xırda və orta sahibkarlığın inkişafı və Azərbaycan üçün prioritet olan digər sahələrdə ölkəmizlə uzunmüddətli tərəfdaşlığa hazır olduğunu diqqətə çatdırdı.*

*Görüşdə ölkəmizin beynəlxalq humanitar layihələrə verdiyi töhfənin əhəmiyyəti qeyd olundu, bu sahədə Azərbaycan və BMT İnkişaf Proqramı arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ VƏ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*13 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də VII Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, sabiq dövlət və hökumət başçılarını, mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edərək, ölkəmizə Novruz bayramı ərəfəsində gəlmələrindən və Azərbaycan xalqı tərəfindən onlara göstərilən qonaqpərvərlikdən dərin məmnunluq hissi keçirdiklərini bildirdi. Xanım Vayra Vike-Freyberqa dövlət başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyi qiyməti yüksək dəyərləndirdi. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinin genişləndiyini vurğulayan Vayra Vike-Freyberqa mərkəzin İdarə Heyətinə yeni üzvlərin daxil olduğunu və martın 14–16-da keçiriləcək VII Qlobal Bakı Forumunun işində 50 ölkədən 500-dən artıq nüma-*

*yəndənin iştirak edəcəyini vurğuladı. Xanım Vayra Vike-Freyberqa bildirdi ki, «Dünyanın yeni xarici siyasəti» mövzusunda təşkil olunacaq bu forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcəkdir.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzin inkişafından məmnunluğunu bildirən dövlət başçısı mərkəzin coğrafi əhatə dairəsinin genişlənməsinin, Bakı Forumunun ardınca dünyanın müxtəlif ölkələrində tədbirlərin keçirilməsinin önəmini qeyd etdi və bunu Nizami Gəncəvi Mərkəzinin artan nüfuzunun göstəricisi kimi dəyərləndirdi. Eyni zamanda, Prezident İlham Əliyev Qlobal Bakı Forumunun dünyada mühüm beynəlxalq platformaya çevrildiyini, forum çərçivəsində qlobal əhəmiyyət daşıyan məsələlər ətrafında müzakirələrin aparılmasının əhəmiyyətini qeyd etdi. Dövlət başçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin işinə bundan sonra da ölkəmizin dəstək verəcəyini vurğuladı.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin mərkəzin fəaliyyətinə verdiyi dəstəyə görə qurumun İdarə Heyəti adından Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.*

## XARİCİ İŞLƏR ÜZRƏ ÇİN XALQ İNSTİTUTUNUN PREZİDENTİ VU HAYLONQ İLƏ GÖRÜŞ

*13 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti, Çin Xalq Respublikası Xarici İşlər nazirinin xüsusi köməkçisi Vu Haylonqu qəbul etmişdir.*

*Görüşdə Bakıda keçiriləcək VII Qlobal Forumun əhəmiyyətinə toxunuldu, bu tədbirin beynəlxalq əməkdaşlığın gücləndirilməsi işinə töhfə verdiyi vurğulandı.*

*Qəbula görə minnətdarlığını bildirən Vu Haylonq Azərbaycana səfərindən və bu tədbirdə iştirakından məmnunluğunu ifadə etdi. O, Çin ilə Azərbaycan arasında dostluq münasibətlərinin mövcud olduğunu qeyd etdi.*

*Dövlət başçısı Azərbaycan–Çin əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini və əməkdaşlığımızın yeni mərhələyə qədəm qoyduğunu bildirdi. Çinə rəsmi səfərlərini xatırladan Prezident İlham Əliyev orada Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər zamanı iqtisadiyyat, ticarət, infrastruktur, nəqliyyat və digər sahələrdə əlaqələrimizin inkişaf perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını qeyd etdi.*

**İRLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ**

Hörmətli cənab Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 mart 2019-cu il*

## VII QLOBAL BAKI FORUMUNDA İŞTİRAK

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Bakıda Prezidentin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumunun açılışı mərasimində iştirak etmişdir.*

*Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. «Dünyanın yeni xarici siyasəti» mövzusunda keçirilən foruma hazırda fəaliyyətdə olan 5 Prezident, 1 Baş Nazir, 2 Baş Nazirin müavini, 42 sabiq dövlət başçısı və Baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıblar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzular arasında «Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu», «Davamlı inkişaf çağırışları», «Təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı», «Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu» və digərləri vardır.*

**İsmail Serageldin** (*VII Qlobal Bakı Forumu və Nizami Gəncəvi Beynəlxalq Mərkəzin həmsədri*): Zati-aliləri, xanımlar və cənablar!

Mənim adım İsmail Serageldindir. Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzin həmsədriyəm. Artıq dünyanın aparıcı tədbirləri sırasında öz yerini tutmuş VII Qlobal Bakı Forumunda sizi salamlamaqdan məmnunam.

Bu tədbirə bir çox mütəxəssislər və təcrübəli şəxslər toplanıblar.

Builki forumun mövzusu sanki dünyanın tektonik hərəkətinə bənzər bir mövzudur.

Nəticə olaraq insanların taleyində bir axın var ki, onları ən aşağı səviyyədən ən yüksəyə qaldıra bilər. Bu fürsəti qaçırsanız həyatda uğursuzluqlara düçar olacaqsınız.

Hazırda durğun dənizin üzərindəyik. Lazımi anda bu fürsətdən istifadə etməliyik, yoxsa uğur bizdən yan keçəcək. Biz bu fürsəti qaçırmamalıyıq, çünki buraya açıq zehin və sağlam iradə ilə gəlmişik.

Növbəti günlərdəki müzakirələrə başlamazdan əvvəl qürur hissi ilə sözü bu günün ilk natiqi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzin himayədarı, ev sahibi zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vermək istəyirəm.

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz xanımlar və cənablar!

Əziz qonaqlar!

Əziz dostlar!

Azərbaycana xoş gəlmisiniz! Sizin hamınızı görməyimə çox şadam. Bu mühüm beynəlxalq tədbirdə bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edirəm. Mən ilk növbədə, Nizami Mərkəzinin qlobal beynəlxalq instituta çevrilməsinə verdikləri əhəmiyyətli töhfəyə görə dünən görüş keçirdiyim Nizami Gəncəvi Beynəlxalq Mərkəzin həmsədrləri – xanım Vike-Freyberqaya, cənab Serageldinə və İdarə Heyətinin üzvlərinə təşəkkürümü bildirmək istərdim.

Bu gün Qlobal Bakı Forumu qlobal gündəlikdə duran aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biridir. Əvvəlki forumların mövzuları qlobal məsələlərin bugünkü gündəliyini əks etdirir. Düşünürəm ki, bu, xarici siyasətlə bağlı məsələlərlə – bu, yeni xarici siyasət adlandırılır – məşğul olmaq üçün çox yaxşı seçimdir. Çünki son forumdan sonra, xüsusilə ölkələr arasında münasibətlərdə, dünyada təhlükəsizlik və proqnozlaşdırıla bilmə ilə bağlı məsələlərdə çox şey dəyişibdir. Mən çox şadam ki, forumun çoxsaylı iştirakçısı vardır. Forumda 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. Qonaqlarımızın arasında 5 hazırkı Prezident, 1 hazırkı Baş Nazir, 2 Baş Nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli

siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər vardır.

Bu gün bu zalda böyük intellektual potensial vardır, bu da əslində forumun əhəmiyyətini əks etdirir. Qlobal gündəlikdə çox sayda beynəlxalq tədbir, konfrans vardır. Lakin keyfiyyət iştirakçıların siyahısına, onların təcrübəsinə və intellektual potensialına görə ölçülür. Bu səbəbdən, mən düşünürəm ki, Qlobal Bakı Forumun dünya xəritəsində nadir yeri vardır. Əminəm ki, qarşıdakı günlərdə müzakirə olunacaq məsələlər beynəlxalq münasibətlərin gələcəyi, dünyanın gələcəyi ilə bağlı qərar verənlərin diqqətini cəlb edəcəkdir.

Azərbaycanın xarici siyasəti barədə danışarkən, mən deyərdim ki, o çox dəyişməyib. Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərindən biridir. Ona görə də Azərbaycan sonuncu forumdan bəri xarici siyasət istiqamətləri ilə bağlı təşəbbüslərini davam etdirib. Düşünürəm ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq. Əlbəttə ki, istənilən ölkə, o cümlədən Azərbaycan üçün qonşularla münasibətlərin

qurulması əsas prioritetdir. Bu mənada, sonuncu forumdan bəri bizim əlaqələrimiz güclənib. Biz qonşularımızla qarşılıqlı maraqlara, qarşılıqlı hörmətə əsaslanan çox məhsuldar işçi münasibətləri qurmuşuq. Bu, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və investisiya sahələrində daha çox körpü qurmağa kömək edir. Bu səbəbdən, bizim qonşu ölkələrlə ənənəvi əlaqələrimiz regional təhlükəsizliyi təmin edir.

Regional təhlükəsizlikdən söhbət açarkən biz, əlbəttə ki, Ermənistanla Azərbaycan arasındakı münaqişədən danışmalıyıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edir. Bu işğal nəticəsində Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ və ölkəmizin digər 7 rayonu işğal altındadır, 1 milyondan çox qaçqın və məcburi köçkün işğaldan əziyyət çəkir. Xalqımız etnik təmizləməyə məruz qalıb. İşğal olunmuş ərazilərdəki bütün tarixi abidələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və bu, işğal olunmuş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərmiş ATƏT-in hesabatında öz əksini tapıbdır. Azərbaycan torpaqlarının işğalı beynəlxalq hüququn, əsas beynəlxalq təşkilatların müvafiq qətnamələrinin və qərarlarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib və onlar Ermənistan tərəfindən yerinə yetirilmir. BMT Baş Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, «Qoşulmama Hərəkatı» və digər təşkilatlar oxşar qətnamə və qərarlar qəbul ediblər.

Onlar beynəlxalq hüquqa, ədalətə əsaslanır və münaqişənin sülh yolu ilə həlli üçün hüquqi baza yaradır. Status-kvo qəbuledilməzdir. Danışıqları təşkil etmək üçün mandata sahib olan ATƏT-in Minsk qrupu ölkələrinin prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və biz bunu tam dəstəkləyirik. Status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlamalı, qaçqın və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmalıdır.

Ermənistan hökuməti danışıqların formatını dəyişmək üçün cəhdlər edib və biz hələ də bu cəhdləri görürük. Bu tamamilə qəbuledilməz və qeyri-effektivdir. Biz bunu danışıqlar prosesini əngəlləmək cəhdi hesab edirik. Belə düşünən tək biz deyilik. Şadıq ki, beynəlxalq təşkilatlar bu fikri paylaşır. Bir qədər əvvəl ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yaydılar və faktiki olaraq, Ermənistana açıq mesaj göndərdilər ki, onların danışıqlar formatını dəyişdirmək cəhdləri qəbuledilməzdir. Ondan bir neçə gün əvvəl Avropa İttifaqının yüksəkrütbəli rəsmiləri eyni bəyanatla çıxış etdilər. Danışıqlar formatı uzun illər ərzində işlənib hazırlanıb və onu dəyişmək üçün birtərəfli qaydada edilən istənilən cəhd danışıqlar prosesini əngəlləmək cəhdi kimi qiymətləndirilir və bütün məsuliyyət bunu etməyə çalışan tərəfin üzərinə düşür. Bu səbəbdən, birincisi, danışıqlar formatı dəyişdirilə bilməz və ikincisi, danışıqlar nəticə yönümlü olmalıdır, sadəcə, danışıqlar xatirinə olmamalıdır. Azərbaycan bu prosesi davam etdirməyə hazırdır və danışıqların nəticəsi olaraq, bizim

ərazi bütövlüyümüz bərpa edilməlidir. Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə arasındakı balans BMT-nin Nizamnaməsində, Helsinki Yekun Aktında çox aydın şəkildə izah olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Ona görə də münaqişə beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Bizim xarici siyasət prioritetlərimiz, həmçinin beynəlxalq təşkilatlarla əlaqələri əhatə edir. Biz müxtəlif beynəlxalq təşkilatlar arasında körpü yaradan müxtəlif təşəbbüslərdə fəal şəkildə iştirak edirik. İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan az sayda ölkələrdən biri olaraq, biz bu 2 təşkilat arasında daha çox tərəfdaşlıq qurmaq üçün bu imkandan istifadə edirik. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında islam həmrəyliyinin gücləndirilməsi, bəzi üzv ölkələr arasında gərginliyin azaldılmasında mühüm rol oynayır. Biz səylərimizin nümayişi olaraq 2 il bundan əvvəl IV İslam Həmrəyliyi oyunlarını uğurla keçirdik. Ondan 2 il əvvəl Azərbaycan birinci Avropa oyunlarını keçirən ölkə oldu. Təsəvvür edirsinizmi, biz 2 il ərzində eyni şəhərdə həm Avropa oyunlarını, həm də İslam Həmrəyliyi oyunlarını keçirdik. Bu əslində bizim beynəlxalq arenadakı rolumuzu, ölkələri və sivilizasiyaları yaxınlaşdırmaq istiqamətində səylərimizi əks etdirir. Biz Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıqla bağlı bəyannamələr və razılaşmalar

imzalamışıq və qəbul etmişik. Bu, üzv ölkələrin üçdəbiridir və həmçinin bizim Avropa ölkələri ilə fəal əməkdaşlığımızı nümayiş etdirir. Biz ötən il Avropa İttifaqı ilə əməkdaşlığımızın əsas sahələrini əhatə edən, tərəfdaşlıq prioritetləri adlanan çox mühüm bir sənədi parafladıq. Bu sənəddə xüsusilə Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı məqam aydın əksini tapıb. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına tam dəstək ifadə olunur. Ona görə də Ermənistanla münaqişəyə gəlincə, bir daha deməliyəm ki, bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin həllini bu prinsiplər əsasında görür. Münaqişənin həllinin yeganə yolu Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Azərbaycan müxtəlif ölkələrlə yaxın əməkdaşlıq imkanından istifadə edərək, «Bakı prosesi»nə start verdi. Ötən il biz «Bakı prosesi»nin 10-cu ildönümünü qeyd etdik. Bu bizim İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin Mədəniyyət nazirlərini birgə toplantıya dəvət etməyimizlə başlandı. Bu çox uğurlu oldu və beləliklə, növbəti il biz daha bir görüş keçirdik və sonra BMT tərəfindən dəstəklənən bu format «Bakı prosesi» adlandırıldı. Bu, 100-dən çox ölkəni əhatə edən həmin iki böyük beynəlxalq təşkilat arasında qarşılıqlı əlaqə və müzakirələrin yeganə formatıdır.

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri vardır. Əsrlərboyu Azərbaycan müxtəlif dinlərin və etnik qrupların

nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT Sivilizasiyalar Alyansının Forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Azərbaycan nisbətən gənc müstəqil ölkədir. Lakin biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Bunun sübutu olaraq, mən bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı vardır. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi, biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz həmçinin qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda iştirak edirik. Bu yaxınlarda biz Əfqanıstanda təhlükəsizliyi təmin edən hərbçilərimizin sayını artırdıq. Biz həmçinin koalisiya qüvvələrini çox mühüm nəqliyyat və

logistika dəstəyi ilə təmin edirik. Azərbaycanın üzv olduğu Şimal paylaşdırma şəbəkəsi çox etibarlı təchizat marşrutudur. Bu həm də müasir infrastruktura, xüsusilə nəqliyyata investisiyaların yatırılması sayəsində mümkün olubdur. Sonuncu Qlobal Forumdan sonra keçən dövrdə biz Xəzər dənizinin Azərbaycan sahilində böyük Beynəlxalq Dəniz Ticarət Limanının açılışını etdik. Bu dəniz limanı böyük həcmdə – ilkin mərhələdə 15 milyon tondan 25 milyon tonadək yükləri nəql etmək qabiliyyətinə malikdir və ölkələri yaxınlaşdırmaq baxımından çox mühüm rol oynayır.

Xarici siyasətdən danışarkən, əlbəttə, bizim bu siyasətin mahiyyətinə ehtiyacımız vardır. Xarici siyasətimiz, siyasi səylərimiz olmadan Azərbaycanın artıq sahib olduğu güclü nəqliyyat əlaqələrini qurmaq mümkün olmazdı. Bizim ölkəmizi regional nəqliyyat mərkəzinə çevirməklə bağlı bir neçə il bundan əvvəlki hədəflərimiz artıq öz nəticələrini verir. Azərbaycan Şərq–Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. 2017-ci ildə biz Gürcüstandan keçməklə, Azərbaycan və Türkiyə arasında dəmir yolu xəttinin açılışını etməklə, Avropa dəmir yolu ilə Asiya dəmir yolunu birləşdirdik. Ötən il açılışını etdiyimiz dəniz limanı bu nəqliyyat şəbəkəsinin daha bir elementidir. Biz artıq Asiya ölkələrindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik. Bu yaxınlarda artıq Əfqanıstanın təbliğ etdiyi Lapis-Lazuli dəmir yolu və Şərq–Qərb dəhlizi ilə fiziki əlaqə əldə etdik. Biz artıq yeni mənbələrdən yüklər qəbul edirik. Bu təkcə iqtisadi mənfəət deyil, həm də ölkələr arasında əlaqə, qarşılıqlı bağlılıq və yaxın əməkdaşlıq deməkdir.

Beləliklə, nəqliyyat sahəsi beynəlxalq əlaqələrin mühüm sektorudur və o çox yaxşı tərəfdaşlıq ruhu yaradır.

Qlobal təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən daha bir sahə enerji sektorudur. Azərbaycan enerji təhlükəsizliyinə çox investisiya yatırır. Aparıcı enerji şirkətləri ilə bizim birgə layihələrimiz həm xalqımıza, ölkəmizə fayda verir, həm də Azərbaycanda, qonşu ölkələrdə on minlərlə iş yeri yaradır ki, onlar da beynəlxalq tərəfdaşlığa gətirib çıxarır. Azərbaycan neft kəmərləri ilə Qara və Xəzər dənizlərini, dünyada ilk dəfə olaraq Aralıq dənizilə Xəzər dənizini birləşdirdi. Hazırda, biz «Cənub Qaz Dəhlizi» adlanan böyük layihə üzərində işləyirik. O, Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliyanı birləşmiş kəmər sistemi vasitəsilə əlaqələndirir. Kəmərin uzunluğu 3500 kilometrdir və yekun mərhələdədir. Ötən ilin mayında biz «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışını etdik. Ötən ilin iyununda isə onun mühüm hissələrindən biri olan TANAP-ın, yəni Trans–Anadolu boru kəmərinin açılışı oldu. Azərbaycan qazı artıq bu kəmər vasitəsilə nəql olunur və ümidvaram ki, gələn il layihə tam yekunlaşacaqdır. Bu, regionda ən böyük infrastruktur layihələrindən biridir. Qaz istehsalı və nəqlinə yatırılmış investisiyaların ümumi həcmi 40 milyard dollara yaxındır. Beynəlxalq maliyyə institutları bizə güclü dəstək verir və əlbəttə ki, korporativ vəsaitdən də istifadə olunur. Bu, enerji təhlükəsizliyi, enerji əməkdaşlığı və ölkələr arasında əməkdaşlıq layihəsidir. Bizim planlarımız bugünkü formatın hüdudlarından kənara çıxır. Biz artıq Bosniya və Herseqovina,

Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə Anlaşma Memorandumu imzalamışıq. Ümidvaram ki, növbəti mərhələdə biz bu ölkələrlə həm də fəal əməkdaşlığa başlayacağıq. «Cənub Qaz Dəhlizi» layihəsinə bu və ya digər yolla qoşulmağı planlaşdıran ölkələrin coğrafiyası genişlənir. Bu, enerji və nəqliyyat təşəbbüslərinin geniş beynəlxalq əməkdaşlığa yol açdığını əyani şəkildə göstərir. Düşünürəm ki, biz enerji və nəqliyyat sektorlarında Asiya, Qafqaz, Avropa ölkələrini və Avropa İttifaqına üzv ölkələri əhatə edən beynəlxalq əməkdaşlığın yeni geniş formatını yaratmışıq. Bu həqiqətən də qiymətli töhfədir və biz hələ bu prosesin başlanğıcındayıq. Çünki biz hələ icra mərhələsindəyik. Bütün bu layihələr həyata keçiriləndən sonra iqtisadi stimul, iqtisadi fayda olacaq, bu ölkələrdə on minlərlə iş yeri açılacaq və bu, ölkələri yaxınlaşdıracaqdır.

Çıxışımın əvvəlində qeyd etdim ki, Azərbaycanın xarici siyasəti müstəqildir və milli maraqlara əsaslanır. Bunun əsasında təkcə bizim siyasi iradəmiz deyil, həm də iqtisadi inkişafımız dayanır. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb. Biz Azərbaycanın əsas infrastruktur layihələrini tamamlamağa, maliyyə vəziyyətimizi əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa müvəffəq olduq. Xarici borcumuzun səviyyəsi çox aşağıdır, ümumi daxili məhsulun təxminən 19 faizinə bərabərdir və ehtiyatlarımız borcumuzdan 4-5 dəfə çoxdur. Beləliklə, Azərbaycanın maliyyə sabitliyi, iqtisadi inkişafı ölkəmiz üçün imkanlar yaratmaqla

yanaşı, qonşu ölkələrə investisiya yatırmağa və daha çox körpü qurmağa imkan verir.

Düşünürəm ki, forumun gündəliyi çox məharətlə seçilib. Siz bu gün narahatlığa səbəb olan ən mühüm və aktual məsələlərə toxunacaqsınız. Əminəm ki, məhsuldar müzakirələriniz və tövsiyələriniz tərəfdaşlığın gücləndirilməsinə və gərginliklərin azaldılmasına yol açacaqdır. Foruma uğurlar arzulayıram.

* * *

*Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani bu mötəbər foruma dəvət olunduğuna görə Azərbaycan dövlətinin başçısı İlham Əliyevə minnətdarlığını bildirərək qeyd etdi ki, bu gün dünyada mühüm dəyişikliklər baş verməkdədir, təhlükəsizlik, ətraf mühit və digər problemlər öz həllini tapmalıdır, dünyada yeni xarici siyasət müəyyənləşdirilməlidir, dövlətlər və xalqlar arasında əməkdaşlıq genişləndirilməlidir.*

**Məhəmməd Əşrəf Qani** (*Əfqanıstan İslam Respublikasının Prezidenti*): Müəyyən tədbirlər görməliyik, yeni dünya quruluşu yaratmalıyıq. Eyni zamanda, bizim əsas ölkələrin baxışları yeni dünyanın əsasını təşkil etməlidir. Bilavasitə mənim qarşımda duran vəzifələrdən biri məhz budur. Biz Əl-Qaidənin və sovetlərin Əfqanıstana hücumundan sonra belə dekonstruktiv güclərin qarşısının alınması istiqamətində yeni bir şəbəkə yaratmışıq. Biz bu şəbəkə vasitəsilə transmilli terrorçu qruplara qarşı mü-

əyyən mühafizə tədbirləri görürük. Beləliklə, biz Əfqanıstanı məhz bu yolla dünyanın ən əmin-aman ölkəsinə çevirmək istəyirik. Biz bu sahədə bütün dünya ölkələri ilə əməkdaşlıq etməyə hazırıq. Biz dünya iqtisadiyyatına müstəqil şəkildə töhfə vermək istərdik. Düşünürük ki, biz xüsusilə yeni yanaşma yolu ilə qarşımızda duran əsas vəzifələrin azı 70 faizini yerinə yetirəcəyik. Beləliklə də bu müharibə və yoxsulluğun qarşısının alınması istiqamətində səylərimizi əsirgəməyəcəyik. Düşünürəm ki, bu forum dünya siyasətinə yeni elementlər gətirəcək və beynəlxalq əməkdaşlığı gücləndirəcəkdir. Əlamətdar haldır ki, bu Qlobal Forumun mövzusu mücərrəd deyil, bu, dünyanın gələcəyinin konturlarını cızacaqdır.

Mən bu kürsüdən möhtərəm cənab Prezident İlham Əliyevə öz dərin minnətdarlığımı bildirmək istərdim. Həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, yüksək qonaqpərvərliyə görə Azərbaycan xalqına və hökumətinə dərin minnətdarlığımı bildirirəm. Çox sağ olun.

*Albaniya Respublikasının Prezidenti İlir Meta forumun yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirdi. Diqqətə çatdırdı ki, dünya çox mühüm dəyişikliklərlə üzləşib. Xüsusilə Avropada təhlükəsizlik baxımından yaşanan çətinliklərə toxunan Albaniya Prezidenti həmin çətinliklərin ölkələrin birgə səyləri nəticəsində aradan qaldırılmasının mümkünlüyünü vurğuladı. İlir Meta Azərbaycan ilə əməkdaşlığın ölkəsi üçün faydalarından da danışdı.*

**İ l i r  M e t a** (*Albaniya Respublikasının Prezidenti*): Biz bilirik ki, dünyada eyni zamanda, enerji sahəsində də bir çox dəyişikliklər vardır. Albaniya strateji və tranzit bir ölkə rolunu oynamaqdadır. Misal üçün, Albaniya Azərbaycanın «Şahdəniz» yatağından Trans–Adriatik boru kəməri ilə gələn qazı digər Avropa ölkələrinə ötürməkdə çox böyük rola malikdir. Ümumiyyətlə, Albaniyanın Avropadakı rolu stratejidir. Digər qaz xətləri də ölkəmizdən keçməkdədir. Bu xətlər Monteneqro, Bosniya və Herseqovina və digər ölkələri birləşdirir. Bir sıra ölkələrin siyasi kursu İkinci dünya müharibəsindən sonra 180 dərəcə dəyişibdir. Albaniyanın məqsədi milli maraqlarını, regionumuzda stabilliyi təmin etməkdir.

Demokratiyaya gəldikdə deməliyəm ki, ölkəmiz sosial cəmiyyətin çiçəklənməsi istiqamətində səylər göstərməkdədir. Azərbaycan ilə qurulmuş tərəfdaşlığımız bu istiqamətdə göstərdiyimiz səylərə mühüm töhfə verməkdədir.

*Sonra Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviç çıxış etdi. Qonaq dünyada baş verən qlobal dəyişikliklərlə bağlı yaranmış çətinliklərin aradan qaldırılması yollarının müzakirəsi baxımından Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı.*

**Ş e f i k  C a f e r o v i ç** (*Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü*): Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, belə bir forum keçirir. Bu forum bir çox ölkədən iştirakçıları bir araya gətiribdir. Sizinlə birlikdə burada olmaq, hamımızı

narahat edən məsələləri müzakirə etmək mənim üçün çox xoşdur.

Həqiqətən də çox böyük dəyişikliklərin baş verdiyi bir dövrdə yaşayırıq. Qarşımızda bir çox mürəkkəb məsələ vardır. Bu məsələlərdən biri də qeyri-müəyyənlikləri aradan qaldırmaqdır. Dünyada qlobal və regional təhlükələr mövcuddur, bunların öhdəsindən gəlmək tələb olunur. İndiki çətinliklər sadəcə, yarandıqları yerlərlə bağlı deyil, fundamental dəyişikliklər tələb edir. Ümumiyyətlə, dünya nizamındakı dəyişikliklər vacib məsələlərdən biridir. Heç bir ölkə bu çətinliklərin və problemlərin öhdəsindən təkbaşına gələ bilməz. Ona görə inteqrasiyanın vacibliyi göz qabağındadır və siyasət məhz buna görə hazırlanmalıdır. Hər bir ölkə üçün əsas məsələlərdən biri öz təhlükəsizliyinin təmin edilməsidir. Bunu ancaq qonşu ölkələrlə birlikdə və qlobal platformada təmin etmək mümkündür. Məhz buna görə də bizim ortaq qərarlara ehtiyacımız vardır.

Bu problemlərin öhdəsindən ancaq öz qüvvələrimizi və potensiallarımızı birləşdirərək gələ bilərik. Bunu nəzərə alaraq demək lazımdır ki, müasir təhdidlərə və təhlükələrə qarşı ortaq həll yollarının tapılması tələb olunur. Bunun əsası  ölkələrin suverenliyinin təmin edilməsi şərti ilə qarşılıqlı birgə fəaliyyətlərin hazırlanması və həyata keçirilməsidir.

*Moldova Respublikasının Prezidenti İqor Dodon çıxışında bildirdi ki, dünyada yeni çağırışlar, yeni risklər artmaqdadır. O həmçinin istər qlobal, istərsə də regional səviyyələrdə təhlükəsizliyi təmin etmək üçün ölkələ-*

*rin birgə səylərinə və əməkdaşlığına ehtiyacın olduğunu vurğuladı.*

**İ q o r  D o d o n** (*Moldova Respublikasının Prezidenti*): Mən ilk növbədə, möhtərəm Prezident İlham Əliyevə VII Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürümü bildirmək istərdim.

Xüsusilə vurğulamaq istəyirəm ki, ötən illərdə istər qlobal, istərsə də regional səviyyələrdə təhlükəsizlik tam təmin olunmayıb. Ümumiyyətlə, biz bu gərginliyin azalmasını müşahidə edə bilmirik. Yeni çağırışlar, yeni risklər artmaqdadır. Moldova Respublikası istəyir ki, müxtəlif ölkələr arasındakı gərginlik aradan qalxsın. Biz bu gün və sabah burada yeni xarici siyasət məsələləri haqqında danışacağıq. Əminəm, bu zaldakı liderlərin əksəriyyəti düşünür ki, hər şeyin başında milli maraqlar dayanmalıdır. Əlbəttə, heç də asan dövrdə yaşamırıq və Moldovanın olduğu regionda da problemlər çoxdur. Bunların öhdəsindən necə gəlmək, onları necə həll etmək olar? Bilirsiniz ki, Moldova sovetlər dağıldıqdan sonra MDB-nin üzvü oldu. Daha sonra Avropa İttifaqı ilə assosiativ müqavilə bağladıq və vizasız gediş-gəliş imkanı əldə etdik. Bundan sonra biz Avropa İqtisadi Birliyin üzvü olduq. Bunlar Moldovaya Avropa İttifaqı ilə, eyni zamanda, MDB ölkələri ilə rahat ticarət aparmaq imkanı verir. Amma digər məsələ təhlükəsizliklə əlaqədardır. Biz özümüzü hər hansı bir hərbi təşkilatın üzvü kimi görürükmü – istər Qərbdə olsun, istər Şərqdə? Milli təhlükəsizliyin təmin edilməsi baxımından biz öz statusumuzu, neytral mövqemizi qoruyub saxlayacağıq və biz bunun sayəsində öz

məqsədlərimizə nail olmaq istəyirik. Bu məqsədlər isə ilk növbədə, sərhədlərimizin toxunulmazlığını və sosial-iqtisadi inkişafı təmin etməkdir. Bu neytral mövqemizin dünyada da qəbul olunmasını istəyirik.

**Milo Cukanoviç** (*Monteneqro Prezidenti*): Zati-aliləri! Xanımlar və cənablar!

Mən bu nüfuzlu forumda birinci dəfədir iştirak edirəm. Monteneqronu forumda bizim əvvəlki Prezident təmsil etmişdir ki, o da hazırda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvüdür. Azərbaycan xüsusilə son illər ərzində çox vacib beynəlxalq forumlar təşkil edir və bununla, əlbəttə ki, qlobal və regional sabitliyə öz töhfəsini verir. Monteneqro Azərbaycana dost ölkədir. Düşünürəm ki, biz burada çox vacib məsələləri müzakirə edirik.

Dünya siyasətinin böyük məqsədlərinə ancaq o halda çata bilərik ki, biz öz vətəndaşlarımız üçün sabitliyi və sülhü təmin edək. Bu, əlbəttə, dünyanın yeni siyasətinin başlıca məqsədi olmalıdır. İstər Monteneqroda, istərsə də hər hansı bir digər ölkədə. Hesab edirəm ki, xarici siyasətimiz həssas olmalı, bütün dəyişikliklərə reaksiya verməli, öz mexanizmlərini təkmilləşdirə bilməlidir.

*Bolqarıstan Respublikasının Baş Naziri Boyko Borisov dünyada hökm sürən münaqişələrdən danışdı və diqqətə çatdırdı ki, münaqişə edən ölkələrin əldə olunan razılaşmalara, imzalanan sənədlərə riayət etmələri vacibdir. Ölkəsinin qonşularla dostluq münasibətlərindən danışan Boyko Borisov Azərbaycan ilə əməkdaşlığa xüsusi önəm verdiklərini bildirdi.*

**B o y k o B o r i s o v** (*Bolqarıstan Respublikasının Prezidenti*): Bolqarıstan qonşuları olan ölkələrlə və ya Avropa İttifaqı ilə münaqişə yaşamamışdır. Bu gün biz çox təhlükəsiz şəraitdə yaşayırıq. Bütün qonşularımızla gözəl münasibətlər yaradılıb. Biz çox gözəl bir qonşuluq şəraitində, qarşılıqlı hörmət zəminində bütün etnik qruplara sülh içində yaşamaq imkanı yaratmışıq.

Azərbaycanla da çox gözəl münasibətlərimizin olduğunu bildirmək istərdim. Bu gözəl münasibətlərin əsasını qoyan möhtərəm Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm. Mehriban xanıma da xüsusi minnətdarlıq düşür, çünki Bolqarıstanda tarixi kilsə və abidələrin bərpasına onun bilavasitə töhfəsi olubdur. Biz bu töhfəni yüksək qiymətləndiririk.

Biz də artıq qaz dəhlizinə qoşulmaq barədə düşünürük. Bu dəhlizlə nəql olunan qazın bir hissəsinin məhz Bolqarıstanda qalmasında çox maraqlıyıq. Düşünürük ki, Azərbaycan qazı Bolqarıstanın iqtisadiyyatının çiçəklənməsinə töhfə verəcək. Bolqarıstan–Türkiyə–Bosniya və Herseqovina–Monteneqro arasında münasibətləri xüsusi qeyd etmək istərdim. Biz bunu «Balkan qovşağı» adlandırırıq. Beləliklə, bizim kifayət qədər müştərək planlarımız mövcuddur. İstəməzdim uzun-uzadı danışım.

Azərbaycan Respublikasının Prezidentinə, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə minnətdarlığımı bildirmək istərdim ki, belə bir gözəl tədbiri ərsəyə gətiriblər. Düşünürəm ki, gələcəkdə də biz belə bir forumda bərabər şəkildə iştirak edəcəyik. Hörmətli həmkarlarım, dostlarım, dəvətinizə görə təşəkkür edirəm.

**A u q u s t o   M a s s a r i** (*İtaliya Respublikasının Azərbaycandakı səfiri*): Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli forum iştirakçıları, hörmətli dostlar!

İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın müraciətini oxumaq mənim üçün çox böyük şərəfdir. Bu, VII Qlobal Bakı Forumu üçün xüsusi hazırlanmış müraciətdir.

**«Hörmətli həmsədrlər və forum iştirakçıları!**

Məni bu foruma dəvət etdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Təəssüflər olsun ki, mən forumda iştirak edə bilmədim. Amma buna baxmayaraq, mən sizin hamınıza çox düzgün seçim etdiyinizə və düzgün deviz seçdiyinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz görürük ki, hər il bu forumda mədəniyyətlərin dialoqu mövzusu və onun ətrafında müzakirələr aparılır. Hər dəfə bu forumda qarşılıqlı anlaşmanın vacibliyi vurğulanır. Biz bilirik ki, həm milli kimliyin, həm də digər ölkələr və ümumiyyətlə, xalqlar arasında münasibətlərin gücləndirilməsi ən vacib məsələlərdən biridir.

Bu möhtəşəm forum məhz Bakıda, çox gözəl şəhərdə təşkil olunub. Cənab Prezident İlham Əliyev öz nitqi ilə bu forumu daha da şərəfləndirir, forumda müxtəlif məsələlərdən – həm uğurlardan, həm də dünyanın qarşılaşdığı problemlərin həlli yollarından söhbət açılır. Eyni zamanda, müzakirələrdə dünyanın cavabdehliyi haqqında danışılır. Ən əsası da odur ki,

bu məsələlərin həllində həm hökumətlərin, həm də ictimaiyyətin iştirakının vacibliyi vurğulanır. Bu fürsətdən istifadə edərək, mən forumun işinə uğurlar arzu edirəm. Sizi ən xoş arzularımla salamlayıram. Sağ olun.

**SERCİO MATTARELLA**
**İtaliya Respublikasının Prezidenti»**

**K a r o l  K r o f t s** (*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Azərbaycandakı səfiri*):

Zati-aliləri cənab Prezident!

Xanımlar və cənablar!

Burada olmaq, bu forumda iştirak etmək, həmçinin Böyük Britaniyanın Baş Naziri xanım Tereza Meyin müraciətini sizin üçün oxumaq mənim üçün böyük şərəfdir.

**«Hörmətli həmsədrlər və forum iştirakçıları!**

Mən VII Qlobal Bakı Forumunun iştirakçılarını salamlayıram. Xüsusilə cənab Prezident İlham Əliyevə ev sahibliyi etdiyinə görə təşəkkürümü bildirmək istəyirəm. Bu forumda dünyanı maraqlandıran müxtəlif məsələlər müzakirə olunur. Böyük Britaniya ilə Azərbaycan çox güclü əlaqələr qurubdur. Hələ 1992-ci ildə diplomatik əlaqələr yaradılıbdır. Mən cənab Prezidentlə müzakirələrdə iştirak etmişəm. Strateji enerji əməkdaşlığına dair məsələləri müzakirə etmişik. Bunların məqsədi qarşılıqlı təhlükəsizliyi təmin

etməkdir. Sadəcə, məqsədimiz indiki dövr üçün deyil, gələcək onilliklər boyunca bunu etməkdir. Bir çox sahələrdə əməkdaşlığımızı daha da möhkəmləndirməyə davam edirik. Ən vacibi də odur ki, bunun təməli çox möhkəmdir. Bu bünövrə məhz qarşılıqlı hörmətə əsaslanır. Bu forum dünyada müxtəlif ölkələr arasında sülhün və əməkdaşlığın təşviqinə yönəlibdir. Mən bu istiqamətdəki bütün fəaliyyətləri dəstəkləyirəm. Forumun işinə uğurlar arzulayıram.

**TEREZA MEY**
**Böyük Britaniyanın Baş Naziri»**

**M i r y a n a E q q e r** (*BMT İnkişaf Proqramı rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Büronun direktoru*): Cənab Prezident!

Xanımlar və cənablar!

Hörmətli iştirakçılar!

Sizin qarşınızda çıxış etmək və Baş katib Antonio Quterreşin bu foruma müraciətini çatdırmaq mənim üçün çox böyük şərəfdir.

İlk növbədə, VII Bakı Qlobal Forumun yüksək səviyyədə təşkilinə görə cənab Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm.

**«Hörmətli həmsədrlər və forum iştirakçıları!**

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə VII Qlobal Bakı Forumunun təşkili üçün təşəkkür edirəm.

Dünyamız bir paradoksla qarşılaşır: çətinliklər bir-biri ilə əlaqəli olduğu halda, onların həllinə yönəlmiş səylər əlaqəsizdir. Ekoloji təhlükə və silahlı münaqişələrdən tutmuş, artan bərabərsizlik və dözümsüzlüyə qarşı çoxtərəfli əməkdaşlığa hər zamankından daha çox ehtiyac vardır. Lakin sadə dildə desək, bu, kifayət deyil. Biz insanların qorxu və narahatlıqlarına cavab verən həll yollarını səfərbər etdiyimizi və hamıya yararlı olan ədalətli qloballaşmanı yaratdığımızı göstərməliyik. Birləşmiş Millətlər Təşkilatı hər gün sülhməramlı fəaliyyət, humanitar yardım, insan hüquqlarının qorunması, dayanıqlı inkişafın təşviqi məsələləri ilə məşğul olur. Gördüyümüz bütün yaxşı işləri məhv edə biləcək bir potensial təhlükə mövcuddur – iqlimin korlanması. İqlim sürətlə dəyişir. Onu yavaşıtmaq üçün göstərdiyimiz səylər yetərli deyil. Bu qlobal problemin həlli məqsədilə səyləri artırmaq üçün sentyabr ayında Nyu Yorkda iqlim hərəkatı ilə bağlı sammit təşkil edəcəyəm. Həyəcan təbilini çalmaq və iqlim hərəkatı imkanlarını vurğulamaq işində sizin dəstəyinizə güvənirəm.

Digər qurumlar, regional təşkilatlar, vətəndaş cəmiyyəti, özəl sektor və başqa tərəfdaşlarla çoxtərəfli əməkdaşlıq olduqca zəruridir. Bu tərəfdaşlıq ruhunda dialoqa sadiqliyinizi alqışlayır və məhsuldar müzakirələr keçirməyinizi arzu edirəm.

**ANTONİO QUTERREŞ**
**BMT-nin Baş katibi»**

**Vayra Vike-Freyberqa** (*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri*): Zati-aliləri cənab Azərbaycan Respublikasının Prezidenti!

Hörmətli dövlət və hökumət başçıları, diplomatlar və qonaqlar!

Mən bilirəm ki, sizin müxtəlif titullarınız vardır. Hamınızı salamlayıram. İlk növbədə, cənab Prezidentə ev sahibliyi və himayədarlıq etdiyinə görə Beynəlxalq Şura adından təşəkkürümü bildirmək istəyirəm. İlbəil görürük ki, bu forumun çox böyük nəticələri vardır. Çox sağ olun, cənab Prezident, həqiqətən də Sizin dəstəyinizin rolu çox böyükdür. Buna görə Sizə minnətdarlığımı bildirirəm. Eyni zamanda, buraya gələnlərin hamısına təşəkkürümü bildirmək istəyirəm. Onlar da Azərbaycanın nailiyyətlərini müşahidə edə bilərlər.

Azərbaycan bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edir, dünyanın bir çox ölkəsindən gələn qonaqları qəbul edir. Bu forum yeni xarici siyasət mövzusuna həsr olunubdur. Burada biz müxtəlif məsələləri müzakirə edir, çox aktual məsələlərə toxunur, dünyanın indiki vəziyyətini nəzərdən keçiririk. Fransızca bir deyim var: «Bir çox şeyin dəyişməsinə baxmayaraq, yenə də bir çox şey eyni qalmaqdadır». Təəssüflə qeyd etmək lazımdır ki, dünya siyasətində də belə bir hal baş verməkdədir. Bəzən görürük ki, köhnə hallər yenə də dəyişməz olaraq qalır. Biz forumun əvvəlində bir çox problemlər haqqında məlumatlandıq. Azərbaycan Prezidenti bu problemlər haqqında danışdı. Azərbaycanın bir

sıra əraziləri işğal olunubdur. Biz bu səhər xarici siyasətin yeni balansa çatması və buna nail olunmağın vacibliyi haqqında, yeni siyasətin milli maraqlara uyğun olması tələbini də eşitdik. Vacib olan odur ki, biz dini və ya ideoloji fərqlərə əsaslanaraq, Tövratda da qeyd edildiyi kimi, ayrılmayaq. Yəni biz görürük ki, dünyada bir çox münaqişələr mövcuddur. Ölkələrin iqtisadi vəziyyətinə nəzər yetirir, iqlimin necə dəyişdiyini müşahidə edir və görürük ki, bu, bir ölkəyə deyil, bir çox ölkələrə və regionlara təsir edir.

Xanımlar və cənablar, çıxış edən dövlət başçıları da bunu qeyd etdilər ki, bütün yeni aspektlər və yeni mühit bizdən çox böyük iş, eyni zamanda, çox böyük intellekt tələb edir. Yeni və köhnə problemlər yenə də mövcuddur. Onları həll etmək üçün bir çox beynəlxalq qurumlar da işləyir. Məqsədimiz bunları həll etməkdir. Düşünürük ki, gələcəkdə biz bunları həll edə biləcəyik. Buna görə də Nizami Gəncəvi Beynəlxalq Mərkəzi həm qurumlara, həm də şəxslərə yeni mükafat təsis edib və onu təqdim edir. Bu il 2 nəfər bu mükafata layiq görülübdür.

*Sonra tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirildi.*

**Vayra Vike-Freyberqa:** Mən istərdim İsmail Serageldini dəvət edim ki, o da təqdimat mərasimində iştirak etsin. İlk mükafat Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə verilir. O, beynəlxalq sülhə verdiyi töhfəyə görə mükafatlandırılır.

*Mükafat Prezident Əşrəf Qaniyə təqdim olundu.*

**Məhəmməd Əşrəf Qani:** Mən uşaq ikən Nizami Gəncəvinin şeirlərini əzbər bilirdim. DeməK istəyirəm ki, mən bundan böyük mükafat gözləmirdim.

**Vayra Vike-Freyberqa:** İkinci namizədimiz Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennedidir. Bu mükafat Kerri Kennediyə onun rəhbərlik etdiyi fondun insan hüquqlarına, gənc liderlərin təhsilinə, həssas uşaqlara hörmətlə yanaşmasına görə verilir.

*Mükafat Kerri Kennediyə təqdim olundu.*

**Kerri Kennedi** (*Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti*): Təşəkkür edirəm. Sizin qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir. Mən Bakıya dünən gecə gəlmişəm. Nizami Gəncəvinin adını daşıyan bu mükafatı almaqdan çox məmnunam. Nizami deyirdi ki, hər bir yeni ölkəyə gedəndə o ölkənin mədəniyyətini öyrənin. Bu elə bir yanaşmadır ki, insanı nəticə etibarilə müdrikliyə gətirib çıxarır. Digər mədəniyyətlərlə tanış olmaq insanın müdrikliyinin rəmzidir. Burada müxtəlif ölkələrin, müxtəlif mədəniyyətlərin nümayəndələri iştirak edir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bizi bir araya gətirib. Bu təşkilat daha yaxşı gələcəyin qurulması üçün öz səylərini əsirgəmir. Bu fürsətdən faydalanaraq, özümü çox qürurlu hiss edirəm.

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VII Qlobal Bakı Forumunda iştirak edən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.*

*Əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev ilə Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani arasında təkbətək görüş oldu.*

*Təkbətək görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələri, o cümlədən iqtisadi əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam etdirildi.*

*Dövlətimizin başçısı Əfqanıstan Prezidentinə Azərbaycana səfərinə və VII Qlobal Bakı Forumunda iştirakına görə minnətdarlığını bildirərək, bu səfərin ölkələrimiz arasında iqtisadi, ticari, enerji və digər sahələrdə əməkdaşlıq üçün yeni fürsətlər yaradacağını qeyd etdi, həmçinin ölkələrimizin nəqliyyat sahəsində əməkdaşlığının ikitərəfli əlaqələrin inkişafı baxımından yeni imkanlar yaratdığını vurğuladı. Görüşdə dövlət başçı-*

*ları arasında mütəmadi qarşılıqlı görüşlərin keçirilməsinin əhəmiyyəti qeyd olundu, Azərbaycanın Əfqanıstanda sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunmasına verdiyi töhfələr yüksək qiymətləndirildi.*

*Prezident Məhəmməd Əşrəf Qani ilk növbədə, Lapis-Lazuli nəqliyyat layihəsinə verdiyi dəstəyə görə Azərbaycana təşəkkürünü ifadə etdi və nəqliyyat sahəsində ölkələrimizin əməkdaşlığını yüksək qiymətləndirdi.*

*Əfqanıstan Prezidenti əlaqələrin inkişafı baxımından enerji, nəqliyyat, tikinti, iqtisadiyyat, ticarət, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın vacibliyinə toxundu, bu sahələrdə əlaqələrin inkişafı üçün böyük perspektivlərin olduğunu bildirdi.*

*Sonra prezidentlər İlham Əliyevin və Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan–Əfqanıstan sənədləri imzalandı.*

*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti ilə Əfqanıstanın Dəmir Yolları İdarəsi arasında əməkdaşlıq haqqında Niyyət Memorandumu»nu «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov və Əfqanıstanın Maliyyə naziri vəzifəsini icra edən, Prezidentin infrastruktur və texnologiyalar üzrə müşaviri Məhəmməd Hamayun Qayumi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və Əfqanıstanın Maliyyə naziri vəzifəsini icra edən, Prezi-*

*dentin infrastruktur və texnologiyalar üzrə müşaviri Məhəmməd Hamayun Qayumi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev və Əfqanıstanın İnformasiya və Mədəniyyət nazirinin vəzifəsini icra edən Hasina Safi imzaladılar.*

## ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ İLİR META İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VII Qlobal Bakı Forumunda iştirak edən Albaniya Respublikasının Prezidenti İlir Meta ilə görüşmüşdür.*

*Görüşdə Prezident İlham Əliyev Albaniya Prezidenti İlir Metaya Azərbaycana səfərinə və VII Qlobal Bakı Forumunda iştirakına görə minnətdarlığını bildirərək, forumun beynəlxalq miqyasda iştirakçılarının sayının artdığını bu tədbirin nüfuzunun yüksəlməsinin göstəricisi kimi dəyərləndirdi və beynəlxalq məsələlərlə yanaşı, ikitərəfli münasibətlərin müzakirəsi üçün geniş imkanlar yaratdığını diqqətə çatdırdı.*

*Dövlətimizin başçısı TAP layihəsinə toxunaraq qeyd etdi ki, tikinti işləri uğurla gedir və son mərhələdədir. Bu layihənin ölkələrimizi və xalqlarımızı birləşdirdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın Albaniya ilə ikitərəfli münasibətlərə önəm verdiyini nəzərə çatdırdı.*

*VII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunan Albaniya Prezidenti İlir Meta bu tədbirin beynəlxalq*

*əməkdaşlığa töhfə verdiyini bildirdi və ikitərəfli münasibətlərin inkişafına verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi. O, ölkəmizdə böyük dəyişikliklərin şahidi olduğunu söylədi.*

*TAP layihəsinə toxunan Albaniya Prezidenti işlərin uğurla getdiyini təsdiq etdi. Prezident İlir Meta Azərbaycanla müxtəlif sahələrdə, xüsusilə turizm sahəsində əlaqələrin genişləndirilməsində, həmçinin Azərbaycanın Albaniyada daxili qazlaşdırılma sisteminin yaradılmasında ölkəsinin maraqlı olduğunu bildirdi.*

*Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdikləri, bir-birini dəstəklədikləri vurğulandı. Qarşılıqlı ticarətin genişləndirilməsi, ixrac-idxal imkanlarının araşdırılması, biznes qurumları arasında əməkdaşlığın qurulması və digər məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN ÜZVÜ ŞEFİK CAFEROVİÇ İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviç ilə görüşmüşdür. .*

*Görüşdə VII Qlobal Bakı Forumunda iştirak etdiyinə görə Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviçə təşəkkürünü bildirən Prezident İlham Əliyev bu səfərin ikitərəfli əlaqələrin müzakirə edilməsi baxımından çox yaxşı bir fürsət olduğunu qeyd etdi. Dövlət başçısı ölkələrimiz arasında siyasi əlaqələrin dinamik inkişaf etdiyini vurğuladı.*

*Foruma dəvətə görə minnətdarlığını ifadə edən Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Şefik Caferoviç dost ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu və qarşılıqlı maraq əsasında inkişaf etdiyini bildirdi. O, Azərbaycanın Bosniya və Herseqovinaya verdiyi dəstəyi və ikitərəfli əməkdaşlığı, eləcə də Azərbaycanın bu ölkədə həyata keçirdiyi humanitar layihələri yüksək qiymətləndirdi. Bosniya parlamentinin üzvü olan zaman Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi, Xocalı soyqırımının qınanması ilə əlaqədar sənədin qəbul olunmasında şəxsən*

*iştirak etdiyini vurğulayan Rəyasət Heyətinin üzvü Prezident İlham Əliyevi Bosniya və Herseqovinaya rəsmi səfərə dəvət etdi.*

*Dövlət başçısı dost ölkə olan Bosniya və Herseqovina parlamentində Xocalı soyqırımı ilə əlaqədar qətnamənin qəbul edilməsinə görə təşəkkürünü bildirdi. Hələ keçən əsrin 70-ci illərində Bakı və Sarayevonun qardaşlaşmış şəhərlər olduğunu qeyd edən Prezident İlham Əliyev şəhərlər arasında əməkdaşlığın, insanlararası təmasların və mədəni-humanitar əlaqələrin inkişafının vacibliyini diqqətə çatdırdı.*

## MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ İQOR DODON İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev VII Bakı Qlobal Forumunda iştirak etdiyinə görə Moldova Prezidenti İqor Dodona təşəkkürünü bildirdi. Dövlət başçısı qeyd etdi ki, VII Qlobal Bakı Forumu beynəlxalq və regional məsələlərin müzakirəsi baxımından çox mühüm və önəmli bir platformadır. Eyni zamanda, bu forum bizə ikitərəfli əlaqələrimizin inkişaf perspektivlərini müzakirə etmək üçün imkan yaradır. Prezident İlham Əliyev Moldova Prezidentini seçkilərdə əldə etdiyi qələbə münasibətilə təbrik etdi.*

*Moldova Prezidenti İqor Dodon VII Qlobal Bakı Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidentinə təşəkkürünü bildirdi.*

*Görüşdə müxtəlif sahələr üzrə ikitərəfli əlaqələrin inkişafına dair ətraflı fikir mübadiləsi aparıldı. Həmçinin hökumətlərarası birgə Komissiyanın ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin inkişafı baxımından vacib əhəmiyyəti vurğulandı. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi və bir-birinə dəstək göstərdiyi qeyd olundu.*

## MONTENEQRO PREZİDENTİ MİLO CUKANOVİÇ İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Monteneqro Prezidenti Milo Cukanoviçlə görüşmüşdür.*

*Monteneqro Prezidenti foruma dəvətə və tədbirin yüksək səviyyədə təşkilinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. O qeyd etdi ki, bu tədbir beynəlxalq müstəvidə duran məsələlərin müzakirəsi baxımından mühüm platformalardan biridir. Azərbaycanla əlaqələri yüksək qiymətləndirən Monteneqro Prezidenti birgə həyata keçirilən layihələrin ikitərəfli münasibətlərin inkişafından xəbər verdiyini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Monteneqro arasında çox sıx siyasi-iqtisadi əlaqələrin olduğunu və birgə uğurlu layihələrin həyata keçirildiyini vurğuladı. Dövlət başçısı «Cənub Qaz Dəhlizi» üzrə Məşvərət Şurasının iclasında Monteneqronun iştirakının da təqdirəlayiq olduğunu, bu layihənin həyata keçirilməsinin ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracağını bildirdi. Prezident İlham Əliyev eyni zamanda, Azərbaycanda müxtəlif nəqliyyat layihələrinin həyata keçirildiyini diqqətə çatdırdı. Qeyd olundu ki, Azərbaycanın nəqliyyat sisteminin Avropa ölkələri ilə əlaqələn-*

*dirilməsi və xüsusilə də Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyətə başlaması ölkələrimiz arasında nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar yaradır. Dövlət başçısı ölkələrimiz arasında turizm, qaz və nəqliyyat sahələrində əməkdaşlığın inkişaf etdirilməsi baxımından böyük imkanların və perspektivlərin olduğunu da nəzərə çatdırdı.*

*Monteneqro Prezidenti qeyd etdi ki, Azərbaycanı Monteneqroda dost ölkə hesab edirlər və Prezident İlham Əliyevin ölkələrimiz arasında münasibətlərin inkişafına verdiyi dəstək çox yüksək qiymətləndirilir.*

*Prezident İlham Əliyev Azərbaycanda da Monteneqroya böyük hörmətlə yanaşıldığını və Monteneqro ilə əlaqələrimizə mühüm əhəmiyyət verildiyini bildirdi.*

*Görüşdə, həmçinin ölkələrimiz arasında müqavilə-hüquq bazasının gücləndirilməsinə və digər sahələrin inkişafına dair geniş müzakirələr aparıldı.*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Bolqarıstan Respublikasının Baş Naziri Boyko Borisov ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovun VII Qlobal Bakı Forumunun işində iştirakını yüksək qiymətləndirdi. Dövlət başçısı Boyko Borisovun ötən il Azərbaycana səfərlərini xatırladaraq, bu səfərlərin ölkələrimiz arasındakı münasibətlərə yaxşı töhfə verdiyini, bu gün əlaqələrimizin dinamik inkişaf etdiyini vurğuladı. Bildirdi ki, bu gün bizim yaxşı siyasi əməkdaşlıq potensialımız mövcuddur. Prezident İlham Əliyev Bolqarıstanın və Azərbaycanın hər zaman bir-birini dəstəklədiyini diqqətə çatdırdı. Azərbaycan dövlətinin başçısı «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasında Bolqarıstanın da iştirak etdiyini və ümumi işə töhfəsini qeyd etdi. Prezident İlham Əliyev hər iki tərəfin yüksək səviyyəli nümayəndələrinin qarşılıqlı səfərlər həyata keçirdiyini və bu səfərlərin əlaqələrin inkişafına təkan olduğunu vurğuladı. İqtisadi sahədə də Azərbaycanla Bolqarıstan arasında yaxşı potensialın olduğunu qeyd edən dövlət başçısı Bolqarıstanın*

*Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinə dəstəyini yüksək qiymətləndirdi.*

*Bolqarıstanın Baş Naziri Boyko Borisov ölkələrimiz arasında dostluq münasibətlərindən danışaraq, dünyada sülhə, anlaşmaya istiqamətlənən VII Qlobal Bakı Forumunun əhəmiyyətini vurğuladı və tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirdi.*

*Görüşdə Azərbaycan ilə Bolqarıstan arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğu qeyd edildi, SOCAR-ın Bolqarıstandakı fəaliyyəti barədə məlumat verildi.*

## RUMINİYA BAŞ NAZİRİNİN MÜAVİNİ ANA BİRÇALL İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Rumıniya Baş Nazirinin müavini xanım Ana Birçalla görüşmüşdür.*

*Xanım Ana Birçall Rumıniya Prezidenti və Baş Nazirinin salamlarını dövlətimizin başçısına çatdıraraq bildirdi ki, bu görüş ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı üçün yeni imkan və fürsətlər yaradır. O qeyd etdi ki, bu il Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlığın qurulmasının 10 illiyi qeyd olunur.*

*Dövlət başçısı öz növbəsində, onun salamlarının Rumıniyanın Prezidentinə və Baş Nazirinə çatdırılmasını xahiş etdi. Prezident İlham Əliyev qeyd etdi ki, xanım Ana Birçalın Azərbaycan ilə Rumıniya arasında əlaqələrin inkişafına verdiyi şəxsi töhfələr və dəstək ölkəmizdə yüksək qiymətləndirilir. Dövlət başçısı söylədi ki, ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi, xüsusilə də iqtisadi-ticari əməkdaşlığın təşviqi üçün böyük imkanlar vardır.*

*Ana Birçal bildirdi ki, keçən il hökumətlərarası birgə Komissiyanın iclası çox məhsuldar olub və bu Komissiya ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı baxımından da mühüm rol oynayır.*

*Görüşdə, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq əlaqələrinə toxunuldu və ölkələrimizin bir-birini dəstəkləməsi yüksək qiymətləndirildi. Həmçinin bu günlərdə Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan Xarici İşlər nazirlərinin görüşünün keçirildiyi və burada da nəqliyyat sahəsinin inkişaf etdirilməsinin vacib məsələ olduğu qeyd edildi.*

*Dövlət başçısı «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasında Rumıniyanın iştirakı məsələsinə də toxundu. Ana Birçal Rumıniyanın Avropa İttifaqı Şurasına sədrlik etdiyi dövrdə Azərbaycan–Avropa İttifaqı əlaqələrinin genişləndirilməsini yaxından dəstəklədiyini bildirdi.*

## VII QLOBAL BAKI FORUMU İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ İŞTİRAK

*14 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VII Qlobal Bakı Forumu iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişdir.*

*Dövlət başçısı ziyafətdə iştirak edən yüksək səviyyəli qonaqlarla görüşdü.*

*Ziyafətdə bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də sabiq dövlət və hökumət başçıları, tanınmış siyasi və ictimai xadimlər iştirak etdilər.*

*Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən Qlobal Bakı Forumu artıq yeddinci dəfədir baş tutur. «Dünyanın yeni xarici siyasəti» mövzusunda keçirilən budəfəki forumda qlobal siyasətin dəyişməsində böyük güclərin rolu, davamlı inkişaf çağırışları, təhlükəsizlik naminə Orta Şərq əməkdaşlığı, müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu və digər mühüm məsələlər müzakirə edilir.*

*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa ziyafətdə çıxış etdi.*

**V a y r a  V i k e - F r e y b e r q a:** Zati-aliləri cənab Prezident!

Prezidentin qonaqları, xanımlar və cənablar!

Biz VII Bakı Qlobal Foruma yüksək notda başladıq. Bu forum cənab Prezidentin himayədarlığı ilə keçirilir. Bugünkü forumda cənab Prezidentin nitq söyləməsi bizə böyük şərəf verdi. Hesab edirəm ki, hamımız Azərbaycanda bizə göstərilən qonaqpərvərliyi yüksək qiymətləndiririk. Əminəm ki, Azərbaycanda əvvəllər heç vaxt olmayan sizlərin bir çoxu bunu böyük məmnunluqla kəşf etmisiniz. Lakin bu gün bu forumda yenidən iştirak etmək üçün Azərbaycana gələn çoxlu dostlarımız vardır. Prezident İlham Əliyevə cansağlığı, xoşbəxtlik, xalqının lideri kimi, davamlı uğurlar arzu edirik. Nizami Gəncəvi Beynəlxalq Mərkəzin komandası adından xüsusi minnətdarlıq əlaməti olaraq, biz Prezidentə çox xüsusi bir hədiyyəni təqdim etmək istəyirik. Ukraynalı rəssam Sizin də sevdiyiniz dahi şair Nizami Gəncəvinin «Xəmsə»sindən bir əsər yaradıb. İstərdik ki, bu hədiyyəni bizim bütün komandamız adından Sizə təqdim edək.

*Hədiyyə dövlət başçısına təqdim edildi.*

**İ l h a m  Ə l i y e v:** Belə dəyərli hədiyyəyə görə çox sağ olun, xanım Prezident, cənab Serageldin. Bir daha verdikləri töhfələrə görə bizim inanılmaz həmsədrlərə – xanım Prezident Vike-Freyberqaya və cənab İsmail Serageldinə təşəkkürümü bildirmək istəyirəm. Bu gün səhər bunun haqqında danışdım və hər gün bu haqda danışa bilərəm, çünki bu həqiqətdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzin bir çox marağa səbəb olan, bir çox

intellektualları cəlb edən aparıcı qlobal beynəlxalq təşkilata necə çevrilməsini görmək möhtəşəmdir. Bizim forumun intellektual səviyyəsi ildən-ilə artır. Bu tədbirdə lap əvvəldən iştirak edən insanlar kimi, biz bunu söyləyə bilərik. Bu gün bu forumun dünya xəritəsində çox mühüm yeri var və forum hələ də inkişaf prosesini yaşayır. Bir neçə gün bundan əvvəl İdarə Heyətinin üzvləri ilə müzakirə etdiyimiz kimi, bu forumun daha da genişlənmək potensialı, dinamizmi, enerjisi vardır. Bu gün bizim aramızda olan gənc liderlər bu foruma əlavə enerji verirlər. Bu zala daxil olmadan öncə dostlarımızla bu forumun xüsusi özəlliyinin nədən ibarət olduğunu müzakirə edirdik. Mən dedim ki, forumu həqiqətən, cəlbedici və məhsuldar edən panellərdə çox qızğın diskussiyaların aparılmasına, fikirlərin toqquşmasına, fikir ayrılıqlarına baxmayaraq, biz eyni zamanda, birliyi, kollektiv işi də görürük. Forumda müntəzəm iştirak edən insanlar, dövlət başçıları, sabiq dövlət başçıları vardır. Azərbaycana ilk dəfə səfər edən yeni dostlarımız da vardır. Hesab edirəm ki, bu birlik ruhu forumun ən əsas özəlliklərindən biridir. Əminəm ki, Azərbaycana ilk dəfə səfər edənlər ölkəmizə yenidən qayıtmağı qərarlaşdıracaqlar. Biz həmişə yeni dostları görməyə və köhnə dostlarımızı qarşılamağa şadıq. Beləliklə, hamınıza uğurlar arzulayıram. Bizimlə bir arada olduğunuz üçün çox sağ olun. Forum həmişə bizim hamımız üçün dinamik, intellektual bir platforma olacaqdır. Çox sağ olun.

* * *

*VII Qlobal Bakı Forumu iştirakçılarının şərəfinə verilən ziyafətdə Azərbaycanın incəsənət ustalarının ifasında konsert proqramı təqdim olundu.*

*Xatırladaq ki, Qlobal Bakı Forumu artıq ənənəvi mötəbər tədbirə çevrilib. Bir çox mühüm beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübə toplayan Azərbaycan Qlobal Bakı Forumuna da uğurla ev sahibliyi edir. Belə tədbirlər ölkəmizin beynəlxalq birliyə təqdim olunması baxımından vacib əhəmiyyət daşıyır.*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ XANIM CASİNDA ARDERNƏ**

Hörmətli xanım Baş Nazir!

Kraystçerç şəhərində məscidlərə silahlı hücum nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu amansız terror əməlindən son dərəcə hiddətlənir, terrorizmin bütün forma və təzahürlərinə qarşı beynəlxalq birliyin səylərini qətiyyətlə dəstəkləyirik.

Bu dəhşətli hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yeni Zelandiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 mart 2019-cu il*

## İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ İŞLƏR VƏ MALİYYƏ NAZİRİ FƏRHAD DEJPƏSƏNDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İran İslam Respublikasının İqtisadi İşlər və Maliyyə naziri, Azərbaycan–İran hökumətlərarası birgə Komissiyasının həmsədri Fərhad Dejpəsəndin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Söhbət zamanı Bakıda Azərbaycan–İran hökumətlərarası birgə Komissiyasının toplantısının səmərəli keçəcəyinə və müzakirə olunan məsələlərin öz həllini tapacağına əminlik ifadə olundu.*

*Görüşdə nəqliyyat, enerji, sənaye, ticarət, sərmayə qoyuluşu, kənd təsərrüfatı, səhiyyə və digər sahələrlə bağlı müzakirə olunan məsələlərin gözəl nəticələr verdiyi vurğulandı, eyni zamanda, ticarət dövriyyəsinin artırılması istiqamətində atılacaq addımlar haqqında danışıldı, Neftçalada müasir Avtomobil zavodunun işə düşməsindən məmnunluq ifadə olundu. Həmçinin Şimal–Cənub nəqliyyat dəhlizinin fəaliyyətə başlaması mühüm hadisə kimi dəyərləndirildi. Prezident İlham Əliyev bu*

*yaxınlarda Qəzvin–Rəşt dəmir yolunun açılışı münasibətilə təbriklərini çatdırdı.*

*Görüşdə elektroenergetika sahəsində görülmüş işlər yüksək qiymətləndirildi və bu sahədə əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatda inkişaf etdirilməsinin əhəmiyyəti vurğulandı.*

*Qəbula görə minnətdarlığını bildirən Fərhad Dejpəsənd İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını və Novruz bayramı münasibətilə təbriklərini dövlət başçısına çatdırdı. O, qeyd etdi ki, Həsən Ruhani və bütövlükdə İran Azərbaycana dost və qardaş ölkə kimi münasibət göstərir. Fərhad Dejpəsənd Prezident İlham Əliyevin ikitərəfli münasibətlər haqqında söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı.*

*Görüşdə qeyd olundu ki, Azərbaycan və İran prezidentlərinin iradəsi sayəsində iki ölkə arasında əməkdaşlıq bütün sahələrdə uğurla inkişaf edir.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına və Novruz bayramı münasibətilə təbriklərinə görə minnətdarlığını bildirdi, onun da salamlarını və bayram təbriklərini İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## KRAL FEYSAL ARAŞDIRMA VƏ İSLAMİ TƏDQİQATLAR MƏRKƏZİNİN İDARƏ ŞURASININ SƏDRİ TURKİ AL FEYSAL İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Səudiyyə Ərəbistanı Krallığının Kral Feysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Feysalı qəbul etmişdir.*

*Kral Feysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Feysal qəbula görə minnətdarlığını bildirdi. O, Bakıda keçirilən VII Qlobal Forumun əhəmiyyətinə toxunaraq, həmin tədbirdə çıxış etdiyini məmnunluqla qeyd etdi və eyni zamanda, bu tədbirin beynəlxalq əməkdaşlıq sahəsində özünəməxsus yer tutduğunu vurğuladı. Qonaq forumun Bakı şəhərində təşkil olunmasını düzgün bir seçim kimi dəyərləndirdi və bildirdi ki, Bakı qədim və müasir arxitekturanı özündə birləşdirən çox gözəl məkandır.*

*Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunun əhəmiyyətini qeyd edərək, bu forumun fəaliyyətinin genişlənməsinin və mühüm beynəlxalq tədbirə çevrilməsinin önəmini vurğuladı. Dövlət başçısı Turki Al Feysal ilə keçirdiyi görüşləri məmnunluqla xatır-*

*ladaraq, həmin görüşlər zamanı səmərəli müzakirələrin aparıldığını bildirdi.*

*Söhbət zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi və ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birinə dəstək verməsinin əhəmiyyəti qeyd olundu.*

# BMT BAŞ KATİBİNİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ ÜZRƏ XÜSUSİ MÜŞAVİRİ CEFRİ SAKS İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ABŞ-ın Kolumbiya Universitetinin Yer İnstitutunun direktoru, BMT Baş katibinin Dayanıqlı İnkişaf Məqsədləri üzrə xüsusi müşaviri Cefri Saksı qəbul etmişdir.*

*Dövlət başçısı Cefri Saksa VII Qlobal Bakı Forumunda iştirakına görə təşəkkürünü bildirdi.*

*Cefri Saks VII Qlobal Bakı Forumunun təşkilinə görə minnətdarlığını ifadə etdi və forumda məmnunluqla iştirak etdiyini vurğuladı. O, forumun əhəmiyyətinə toxunaraq, orada regional və digər məsələlərlə bağlı səmərəli müzakirələrin aparılmasının önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev VII Qlobal Bakı Forumunda təmsil olunan ölkələrin və iştirakçıların sayının artdığını və bu forumun mühüm beynəlxalq tədbirə çevrildiyini vurğuladı.*

*Görüşdə ölkəmizdə gedən iqtisadi inkişaf prosesləri, Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən irimiqyaslı qlobal layihələr, o cümlədən Şərq–Qərb nəqliyyat dəhlizi və enerji siyasəti barədə danışıldı.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ OSMAN BİN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri Azərbaycana gəlməsindən və VII Qlobal Bakı Forumunda iştirak etməsindən məmnunluq hissi keçirdiyini bildirdi. O bu tədbirin beynəlxalq əməkdaşlığa dəyərli töhfə verdiyini söylədi. Əbdüləziz Osman əl-Tüveycri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi və müdrik siyasəti ilə Azərbaycan uğurla inkişaf edir, çiçəklənir və ölkəmizin təkcə regionda deyil, bütün dünyada mövqeləri gündən-günə möhkəmlənir.*

*Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını ifadə edərək, Əbdüləziz Osman əl-Tüveycriyə VII Qlobal Bakı Forumunda iştirakına görə təşəkkürünü bildirdi. Dövlət başçısı VII Qlobal Bakı Forumunun qlobal məsələlərin səmərəli müzakirəsi üçün mühüm tədbirə çevrildiyini vurğuladı.*

*İSESKO ilə əməkdaşlığa toxunan Prezident İlham Əliyev bildirdi ki, bu təşkilatın Ermənistan–Azərbaycan,*

*Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi dövlətimiz və xalqımız tərəfindən yüksək dəyərləndirilir.*

*Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO İLƏ GÖRÜŞ

*16 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindonu qəbul etmişdir.*

*Dövlət başçısı Məhəmməd Barkindoya dəvəti qəbul etdiyinə və «OPEC+» ölkələrinin iclasında iştirakına görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Bakının dünyada neftin vətəni olduğunu vurğulayaraq, tədbirin paytaxtımızda keçirilməsinin rəmzi xarakter daşıdığını diqqətə çatdırdı. Dövlət başçısı Azərbaycan tərəfinin bu tədbirin Bakıda keçirilməsi ilə bağlı təklifinin şəxsən Məhəmməd Barkindo və təşkilatın üzv dövlətləri tərəfindən qəbul edilməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev «OPEC+»un yeni bir format olduğunu nəzərə alaraq, bu formatda ilk tədbirlərdən birinin ölkəmizdə keçirilməsinin əhəmiyyətini qeyd etdi və bunu Azərbaycana olan dostluq və etimadın göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı «OPEC+» ölkələrinin iclasının uğurla keçəcəyinə, bunun da öz növbəsində, neftin qiymətinin sabitləşdirilməsi işinə xidmət edəcəyinə və bu qiymətin neftin istehsalçıları,*

*istehlakçıları, şirkətlər və ölkələr üçün məqbul olacağına əminliyini ifadə etdi.*

*OPEC-in baş katibi Məhəmməd Barkindo ilk növbədə, dəvətə görə dövlət başçısına minnətdarlığını bildirdi. O hələ 1846-cı ildə dünyada ilk dəfə sənaye üsulu ilə neftin Bakıda hasil olunduğunu vurğulayaraq, tədbir iştirakçılarının Azərbaycana gəlişini bir ziyarət kimi dəyərləndirdi. Məhəmməd Barkindo qeyd etdi ki, Prezident İlham Əliyev «OPEC+» formatında iclasın keçirilməsi təşəbbüsü ilə çıxış edən ilk dövlət başçısıdır. O, Prezident İlham Əliyev tərəfindən bu təşəbbüsün 3 il bundan əvvəl Davosda irəli sürüldüyünü məmnunluqla xatırlatdı. Azərbaycan Prezidentinin bu təşəbbüsünün artıq reallığa çevrildiyini qeyd edən Məhəmməd Barkindo bu işdə Prezident İlham Əliyevin baxışlarını və liderliyini yüksək qiymətləndirdi. O, ümumiyyətlə, «OPEC+» formatında əməkdaşlığın başlandığı ilk gündən Azərbaycanın bu proseslərdə fəal iştirak etdiyini vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bir neçə il bundan əvvəl Davosda «OPEC+» əməkdaşlıq formatı ilə bağlı təşəbbüsünü xatırladaraq, həmin vaxtdan bu günə kimi həyata keçirilən əməkdaşlıqdan məmnunluğunu ifadə etdi.*

*Söhbət zamanı Azərbaycan ilə OPEC arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu, «Cənub Qaz Dəhlizi»nin müvəffəqiyyətlə reallaşmaqda olduğu bildirildi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏBDÜLƏZİZ ƏL-FALİH İLƏ GÖRÜŞ

*16 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Səudiyyə Ərəbistanı Krallığının Enerji, Sənaye və Təbii Sərvətlər naziri Xalid Əbdüləziz əl-Falihi qəbul etmişdir.*

*Dövlət başçısı Bakıda «OPEC+» ölkələrinin iclasında iştirak etdiyinə görə Xalid Əbdüləziz əl-Falihə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın neftin sənaye üsulu ilə istehsalının vətəni olduğunu vurğulayaraq, bu tədbirin Bakıda keçirilməsinin xüsusi məna daşıdığını qeyd etdi. Dövlət başçısı «OPEC+» formatında əməkdaşlığın dünyada neftin qiymətinin balanslaşdırılmasında mühüm rol oynadığını vurğuladı.*

*Nazir Xalid Əbdüləziz əl-Falih ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın «OPEC+» formatında fəal iştirak etdiyini bildirərək, ölkəmizdə tədbir iştirakçılarına göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Xalid Əbdüləziz əl-Falih Prezident İlham Əliyevin «OPEC+» formatının yaradılmasında lider-*

*lik rolunu yüksək dəyərləndirərək, bu formatda Azərbaycanın çox fəal iştirakçı olduğunu qeyd etdi. İkitərəfli münasibətlərə toxunan Xalid Əbdüləziz əl-Falih ölkəsinin Azərbaycanın ərazi bütövlüyünün və təcavüz nəticəsində pozulmuş suverenliyinin bərpası işinə tam sadiq olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycanın möhkəmlənməsi, iqtisadi inkişafı və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində gedən işlər Səudiyyə Ərəbistanında böyük maraqla izlənilir. Xalid Əbdüləziz əl-Falih bu həftə Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn nümayəndə heyətlərinin Azərbaycan hökumətinin və biznes qurumlarının nümayəndələri ilə məhsuldar görüşlər keçirdiyini vurğuladı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə Səudiyyə Ərəbistanı Krallığının göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi və bunu dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirdi. İki ölkə arasında siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev Azərbaycanda və Səudiyyə Ərəbistanında hazırda iqtisadiyyatın şaxələndirilməsi üzrə böyük işlərin həyata keçirildiyini*

*qeyd etdi və bunun iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların yaratdığını söylədi. Dövlət başçısı Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının artdığını qeyd edərək, bunun ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyini vurğuladı. Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn insanlar xalqımızın qonaqpərvərliyinin və dostluq münasibətinin şahidi olurlar.*

*Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi, Səudiyyə Ərəbistanı Krallığının «Saudi Aramko» şirkətinin Bakıda ofisinin açılması yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Tunis əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Tunis xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2019-cu il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Pakistanı möhkəm dostluq və tərəfdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin yüksək səviyyəsi qardaş xalqlarımızın iradəsini əks etdirir.

Əminəm ki, ikitərəfli münasibətlərimizin inkişafı, əməkdaşlığımızın bütün sahələrdə dərinləşməsi bundan sonra da xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Pakistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2019-cu il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2019-cu il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏBDÜL HƏMİDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Banqladeş arasındakı münasibətlər daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2019-cu il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər, mən sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Novruz bayramı xalqımızın sevimli bayramıdır. Əsrlərboyu Azərbaycan xalqı Novruz bayramını qeyd edir. Bu bayramı biz yaxşı nəticələrlə qarşılayırıq. Azərbaycan uğurla və hərtərəfli inkişaf edir. Qarşıda duran bütün vəzifələr icra edilir. Azərbaycan dövləti dərin milli-mənəvi köklər üzərində qurulubdur. Novruz bayramı bizim milli sərvətimizdir.

Keçən Novruz bayramından ötən dövr ərzində bir çox önəmli hadisələr baş veribdir. Aprel ayında Prezident seçkiləri keçirilib və Azərbaycan xalqı yenidən mənə böyük etimad, böyük dəstək göstəribdir. Bu dəstəyə və inama görə doğma xalqıma minnətdaram. Mən bu dəstəyi son illər ərzində görülmüş işlərə verilən qiymət kimi qəbul edirəm, eyni zamanda, Prezident seçkiləri ərəfəsində elan edilmiş islahatların yeni mərhələsinə göstərilən dəstək kimi qəbul edirəm. Prezident seçkilərindən sonra genişmiqyaslı islahatlar aparılmağa başlanıbdır. Bu islahatların nəticələrini Azərbaycan xalqı artıq görür və bundan sonra da görəcəkdir.

Novruz bayramından  iki ay sonra ölkəmizin həyatında çox önəmli hadisə baş verdi. May ayında «Cənub Qaz Dəhlizi»nin rəsmi açılışı oldu. Bu, tarixi layihədir. Bu layihənin icrası ölkəmizin uzunmüddətli, dayanıqlı

inkişafını təmin edəcək, bizim siyasi və iqtisadi maraqlarımızı qoruyacaqdır. May ayında digər böyük layihə də istifadəyə verildi, biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının açılışını qeyd etdik. Bu limanın və 2017-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyətə başlaması Azərbaycanı Avrasiya məkanında önəmli beynəlxalq nəqliyyat mərkəzinə çevirib. Biz bu gün uğurla Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin fəaliyyətinə təkan veririk. Azərbaycan hər iki layihədə uğurla fəaliyyət göstərir. Deyə bilərəm ki, bu layihələrdə 10-dan çox ölkə iştirak edir, ancaq yalnız bir ölkə – Azərbaycan həm Şimal–Cənub, həm də Şərq–Qərb nəqliyyat dəhlizlərində fəal iştirak edir və bir çox təşəbbüslərin müəllifi olubdur.

İyun ayında digər tarixi hadisə baş verdi – TANAP qaz kəmərinin açılışı mərasimi keçirildi. Bu layihənin həyata keçirilməsi bütövlükdə «Cənub Qaz Dəhlizi»nin fəaliyyətə başlaması üçün əsas şərtdir. Biz bu tarixi hadisəni uğurla qeyd etdik və bu gün Azərbaycan qazının əlavə həcmi TANAP xətti ilə dünya bazarlarına nəql edilir.

Biz keçən il üçüncü peyki orbitə buraxdıq və bir daha göstərdik ki, texnoloji baxımdan Azərbaycan çox uğurla, sürətlə inkişaf edir. Kosmik sənayenin inkişafı bizim prioritetlərimizdən biridir.

Keçən il biz regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramının icrasını təmin etdik. Proqram artıqlaması ilə icra edildi və 3 proqramın icrası böyük dəyişikliklərə gətirib çıxardı. Biz, demək olar ki, bütün infrastruktur layihələrimizi yenidən qurduq.

Azərbaycan infrastruktur baxımından çox sürətlə inkişaf edir. Təkcə onu demək kifayətdir ki, biz 3 proqram çərçivəsində elektrik enerjisini ixrac etməyə başladıq, ölkə daxilində təminat tam təşkil edilir, baxmayaraq ki, əvvəlki illərdə biz idxaldan asılı idik. Biz qazlaşdırılmanı 95 faizə çatdırmışıq və bu, dünya miqyasında ən böyük, ən yüksək göstəricilərdən biridir. Şəhərlərimizin əksəriyyətinə təmiz içməli su xətləri çəkildi və bu proses davam etdirilir. 15 min kilometr yeni yol çəkildi və Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə yol infrastrukturunun səviyyəsi, keyfiyyəti baxımından Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Sosial infrastruktur obyektləri inşa olundu, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikildi və ya yenidən quruldu. 2 milyondan çox yeni iş yeri yaradılıb, əhali isə 1,6 milyon artıbdır.

Bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan bu gün əksər ölkələrlə səmərəli, işgüzar, ikitərəfli münasibətlər qurub. Bir çox hallarda Azərbaycan çoxtərəfli əməkdaşlıq formatının təşəbbüskarıdır. Qonşu dövlətlərlə əlaqələrimiz yeni mərhələyə qədəm qoyub. Hər bir ölkə üçün qonşularla münasibətlərin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çox şadam ki, biz qonşu ölkələrlə səmərəli, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bilmişik. Müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir və İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın bu sahədəki fəaliyyətini, islam həmrəyliyinə verdiyimiz töhfəni yüksək qiymətləndirir.

Keçən ilin yay aylarında Avropa İttifaqı ilə «Tərəfdaşlıq prioritetləri» sənədi paraflandı. Bu çox önəmli sənəddir. Xüsusilə nəzərə alsaq ki, orada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı ilə bağlı xüsusi paraqraflar var, xüsusi fikirlər əks olunubdur. Bu çox önəmli məsələdir, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bunun çox böyük əhəmiyyəti vardır.

Münaqişənin həllinə gəldikdə, Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim tarixi diyarımızdır və münaqişənin tezliklə həlli yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında olmalıdır. Bilirsiniz ki, Ermənistan tərəfi danışıqların formatının dəyişdirilməsi ilə bağlı məsələ qaldırıb. Ancaq təbii ki, Azərbaycan bunu qəbul edə bilməz. Minsk qrupunun həmsədr ölkələrinin səfirləri – Amerika, Fransa, Rusiyanın nümayəndələri ciddi bəyanat verərək bildirdilər ki, format dəyişməz olaraq qalmalıdır. Həmçinin Avropa İttifaqının yüksəkvəzifəli şəxsləri oxşar bəyanatla çıxış etdilər. Yəni bu, Ermənistana birmənalı ciddi siqnaldır, eyni zamanda, Azərbaycanın mövqeyinin daha da böyük dəstək qazandığını göstərir.

Münaqişənin həlli regionda sülhün, sabitliyin təmin olunmasına gətirib çıxaracaq. Əlbəttə, Azərbaycan çalışır və çalışacaq ki, bu məsələ tezliklə ancaq beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapsın.

Biz bununla bərabər hərbi gücümüzü də artırırıq. Ötən il keçirilmiş 2 hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya nümayiş etdirdi. Bu il və bundan sonrakı illərdə biz ordu quruculuğu üçün nə lazımsa onu da edəcəyik. Bizim hərbi hissələrimizin, demək olar ki, mütləq əksəriyyəti yenidən qurulub. Azərbaycan Ordusu ən müasir texnika ilə təchiz edilir və döyüş qabiliyyətimiz gündən-günə artır. Bu gün Novruz bayramını Cocuq Mərcanlıda qeyd edirlər. Cocuq Mərcanlının qurulması, bərpası, yenidən oraya həyatın qayıtması bizim tarixi nailiyyətimizdir. Cocuq Mərcanlı bu gün Azərbaycan xalqının əyilməz ruhunun təzahürüdür.

Bu gün Azərbaycan islahatların yeni mərhələsinə qədəm qoyub. İslahatlar hərtərəflidir. İqtisadi islahatlar bizə imkan verir ki, əlavə gəlir əldə edilsin və büdcə gəlirlərimiz artıb. Bu ilin yanvar–fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıbdır. Bu bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il Prezident seçkilərindən sonra başlanıbdır. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminən 40 faiz, sosial müavinətlər təqribən orta hesabla 2 dəfə, köçkünlərə verilən müavinət 50 faiz artıbdır. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər də artıbdır. Çoxmənzilli binaların sənədləşdirilməsi və problemli

kreditlərin həlli ilə bağlı fərmanlar imzalanıb. Onu da deyə bilərəm ki, bu son fərmanın dünyada bənzəri yoxdur və 800 min insanı əhatə edir. Yəni Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır.

Bizim iqtisadi gücümüz artdıqca sosial məsələlər daha da geniş miqyasda öz həllini tapacaqdır. İqtisadi artım isə göz qabağındadır. Bu ilin iki ayında ümumi daxili məhsul 3 faiz artıbdır. Bu, son illər ərzində ən yüksək göstəricidir. Sənaye istehsalı 4,6 faiz artıbdır. Bu da yaxşı göstəricidir. Ancaq ən böyük artım qeyri-neft sektorunda sənaye istehsalına aiddir. Burada artım 15,5 faizdir. Hesab edirəm ki, bu, dünya rekordudur və son illər ərzində aparılan düşünülmüş ciddi iqtisadi islahatlar siyasətinin nəticəsidir.

İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi, iqtisadi, sosial sahələrdə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar – artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır – təhsil, səhiyyə sahələrində – hər bir sahədə Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir. Biz dərin milli-mənəvi köklər üzərində güclü dövlət qurmuşuq. Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Ancaq o demək deyil ki, əldə edilmiş bu nailiyyətlərlə kifayətlənməliyik. Əldə edilmiş nailiyyətlər bizi gələcəyə daha da nikbinliklə baxmağa həvəsləndirir, buna sövq edir.

Mən tam əminəm ki, bu ili biz uğurla başa vuracağıq. Bundan sonra Azərbaycan yalnız və yalnız inkişaf və tərəqqi yolu ilə gedəcək, vətəndaşların sosial vəziyyəti ildən-ilə yaxşılaşacaqdır.

Əziz həmvətənlər, sizi bu gözəl bahar bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Novruz bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 mart 2019-cu il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 19-da Bakıda Azərbaycan xalqının milli bayramı – Novruz münasibətilə keçirilən ümumxalq şənliyində iştirak etmişlər.*

*Xalqımız özünün milli və tarixi ənənəsinə çevrilən Novruzu həmişə olduğu kimi, bu il də böyük sevinclə qarşılayır. Yazın gəlişi, təbiətin, bütün canlıların oyanışı, gecə ilə gündüzün bərabərləşdiyi bir günlə bağlı olan bu bayram Azərbaycan xalqının milli düşüncəsi və milli ruhunu özündə əks etdirir. Novruz xalqın milli təfəkkür tərzini, onun həyat və məişətini, adət və ənənələrini özündə yaşadan əsl el mərasimidir. Ona görə də novruz adət-ənənələri, onun yaratdığı mədəni sərvətlər də həmişə bizimlə olacaqdır. Çünki Novruz bayramı dərin milli köklərə, zəngin adət-ənənələrə malik olmaqla, xalqımızın ictimai və mənəvi həyatında əhəmiyyətli hadisədir. Novruz həm də xalqımızın milli həmrəyliyinin rəmzidir. Ona görə də novruzun timsalında ölkəmizdə malik olduğumuz milli mədəniyyət nümunələrinin qorunub saxlanılması bir mədəniyyət və başər əhəmiyyətli hadisədir. Dünyanın yaranışını tarixən ilk*

*yaz günü ilə bağlayan xalqımız əsrlərboyu Novruz bayramını əziz tutub. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən siyasət digər milli-mənəvi dəyərlərimiz kimi, novruzu da Azərbaycan xalqının şüurundan silə bilmədi.*

*Hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunmasında və inkişafında tarixi şəxsiyyətlərin də üzərinə böyük vəzifələr düşür. Ulu öndər Heydər Əliyevin tariximiz qarşısındakı xidmətləri sırasında Novruz bayramının yenidən xalqımıza qaytarılması kimi milli məsələ də var idi. Çünki məhz ümummilli liderimiz Heydər Əliyevin sayəsində ümumi mədəni hərəkatın tərkib hissəsi kimi, milli bayramımız olan Novruz ötən əsrin 70–80-ci illərində əvvəlki dövrlərlə müqayisədə kütləvi şəkildə qeyd olunmağa başlandı. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə isə Novruz təntənələri xalqımızın həyatına birdəfəlik daxil oldu. Bu gün Prezident İlham Əliyev də mədəni və mənəvi irsimizə xüsusi diqqətlə yanaşır. Novruzun gəlişi ilə bağlı dövlət başçısının hər il xalqa ünvanladığı təbriklər onun milli-mənəvi dəyərlərimizə böyük ehtiramla yanaşdığını göstərir.*

*Dövlət başçısı və xanımı Bakının Fəvvarələr meydanına gəldilər. Bayram şənliyinin iştirakçıları onları hərarətlə qarşıladılar. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva sakinlərlə söhbət etdilər, novruz şənliyinin iştirakçıları ilə xatirə şəkilləri çəkdirildi.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva burada «Torpaq əlimdə, bahar ürəyimdə» xeyriyyə yarmarkası ilə tanış oldular.*

**Sakinlər:** Cənab Prezident, Mehriban xanım, bayramınız mübarək! Var olsun Prezidentimiz! Cənab Prezident, Sizin gördüyünüz işləri xatırlatmağa ehtiyac yoxdur. Hamısı göz qabağındadır. Məhz buna görə Mehriban xanımı da, Sizi də hamı sevir. Allah Sizi qorusun. Sizə və ailənizə cansağlığı diləyirik. Bayramınızı bir daha təbrik edirik.

**İlham Əliyev:** Çox sağ olun, sizin də bayramınız mübarək olsun!

*Dövlət başçısı və xanımı gənc rəssamların əsərlərinin sərgisinə baxdılar.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və şənliyin digər iştirakçıları aşıqların ifasını dinlədilər.*

**Aşıq Samirə:** Cənab Prezident, saza, sözə diqqətə görə çox sağ olun. Bütün Azərbaycan aşıqları adından təşəkkür edirəm. Bayramınız mübarək!

**İlham Əliyev:** Çox sağ olun.

*Sonra Prezident İlham Əliyev novruz şənliyində iştirak edən xarici ölkələrin vətəndaşları ilə görüşüb söhbət etdi.*

*Daha sonra dövlət başçısı və xanımı İçərişəhərə gələrək, burada «Bahar qalası» festivalı ilə tanış oldular. İçərişəhərin qala divarları üstündə qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanmışdılar.*

*Ulu Dədə Qorqud xeyir-dua verdi, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.*

**D ə d ə  Q o r q u d:** Xoş gəlmisiniz, gəlişiniz bərəkətdir, ruzidir. Elimizdən, obamızdan heç vaxt ruzi-bərəkət əskik olmasın. Uca dağlarımız yıxılmasın, kölgəli ağaclarımız kəsilməsin, gur-gur axan təmiz sularımız qurumasın, çapa-çapda ağ-boz atlarımız büdrəməsin, çarpışanda qılıncımız kütləşməsin, evimizdə çırağımız daim yansın. Qoy üçrəngli bayrağımız zirvələrdə dalğalansın, düşmənlərimiz xar, dostlarımız var olsun! Heç kəs düşmənə möhtac olmasın! Bayramınız mübarək olsun!

**İ l h a m  Ə l i y e v:** Bayramınız mübarək olsun!

*Bahar qızı dövlət başçısına bayram xonçası təqdim etdi. Novruz bayramının əsas personajları olan Kosa və Keçəl Prezidenti və xanımını bayram münasibətilə təbrik etdilər.*

**K o s a:** Cənab Prezident, Mehriban xanım, xoş gəlmisiniz! Cənab Prezidentin təkcə bu il qurub-yaratdıqlarını danışsan, gələn novruza qədər bitməz. İndi təkcə birini deyəcəyəm. Cənab Prezident, min illərdir mən xurcunumu, xonçalarımı doldura bilmirəm ki, bu Keçəlin toyunu edim. Sizin bayramqabağı verdiyiniz sərəncamlardan sonra xurcunlarımız da doldu, xonçalarımız da. Odur ki, bu Keçəlin toyunu rahat edə bilərəm.

**K e ç ə l:** Cənab Prezident, təşəkkür edirəm, gəlin adət-ənənələrimizə uyğun olaraq, bu il də yumurta döyüşdürək ki, elimiz-obamız daha da bərəkətli olsun. Qoy bu il də Azərbaycanımızın sorağı eldən-elə, dildən-dilə dolaşaraq, hey ucalsın. Bayramınız mübarək olsun!

**İ l h a m Ə l i y e v:** Təbrik edirəm, bayramınız mübarək olsun!

*Kosa və Keçəl dövlət başçısı ilə yumurta döyüşdürdülər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva «Bahar qalası» festivalı çərçivəsində İçərişəhərdə təşkil edilmiş yarmarka ilə tanış oldular.*

*Miniatür Kitab Muzeyinin yaradıcısı və təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova Prezident İlham Əliyevə miniatür kitablar hədiyyə etdi.*

*Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür etdilər:*

– Çox hörmətli cənab Prezident, əziz Mehriban xanım, səməni ətirli, torpaq təravətli, bahar sevincli bu gözəl bayramda Sizi ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, ölkəmizin ərazi bütövlüyü, inkişafı naminə gördüyünüz böyük və məsuliyyətli işlərdə uğurlar arzu edirik. Cənab Prezident, gələn il bizim teatrın 110 ili tamam olur. Xoşbəxtik ki, bu yubileyi Sizin imzaladığınız sərəncamla, Akademik Teatr statusu ilə qeyd edəcəyik. Biz bilirik ki, Azərbaycan Dövlət Akademik Musiqili Teatrına Sizin səmimi münasibətiniz illər öncədən başlayır. Bizim əzizlərimiz, Tanrı Sizi qorusun. Bayramınız mübarək olsun!

**İ l h a m Ə l i y e v:** Bayramınız mübarək olsun!

*Dövlət başçısı və xanımı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının əməkdaşları ilə xatirə şəkli çəkdirdilər.*

*Azərbaycan Prezidenti və xanımı Müasir İncəsənət Mərkəzində müasir Azərbaycan rəssamlarının rəsmlərinə baxdılar.*

*Sonra dövlət başçısı və xanımı Karvansarada İçərişəhər sənətkarlarının əl işlərindən ibarət sərgi ilə tanış oldular və sənətkarlarla söhbət etdilər.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya hədiyyələr təqdim olundu, xatirə şəkli çəkdirildi.*

*Daha sonra dövlət başçısı və xanımı İçərişəhərdə sakinlərlə çay süfrəsi arxasında söhbət etdilər.*

*İçərişəhərə göstərilən daimi diqqət və qayğı Prezident İlham Əliyevin ölkəmizin milli mədəni irsinin qorunması sahəsində uğurlu dövlət siyasətinin tərkib hissəsidir. Həmçinin Birinci vitse-prezident Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da ölkəmizin mədəni dəyərlərinin, o cümlədən zəngin tarixi memarlıq irsinin qorunması və dünyada təşviqində böyük rolu vardır. İçərişəhər sakinləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya minnətdarlıq etdilər.*

**İ l h a m Ə l i y e v:** İçərişəhər bizim tarixi yerimizdir. Bilirsiniz, bir neçə ildir ki, İçərişəhərin xüsusi statusu var, burada xüsusi idarəetmə yaradılıbdır. Bizim tariximiz qorunur, tarixi abidələr bərpa olunur və İçərişəhər öz gözəl simasını saxlayır. Dünyada belə şəhərlər o qədər də çox deyil. Bir neçə ölkədə belə qədim yaşayış yerləri bizdəki kimi dövlət tərəfindən qorunur. O cümlədən Avropa və Asiya ölkələrində belə şəhərlər vardır. Amma İçərişəhərin xüsusi aurası,

xüsusi cəlbedici gücü vardır. Adam buraya gələndə getmək istəmir. Çox şadam ki, son illər ərzində burada abadlıq işləri aparılır. Amma əsas odur ki, bu tarixi sima qorunur. Deмək olar ki, indi buraya hər gün turistlər gəlir.

**S a k i n:** Mən 70 ildir burada yaşayıram. Biz İçərişəhərin necə pis gündə olduğunu görmüşük. Küçələr daşlı idi, gəzmək olmurdu. İndi qısa müddətdə Sizin köməyinizlə İçərişəhər çox gözəl, çox rahat olubdur.

**İ l h a m  Ə l i y e v:** Burada həm yaşamaq üçün şərait yaradılıb, həm də ki, ictimai yerlər. Bu gözəl şərait turistləri cəlb edir. İçərişəhərdə tarixi binalar təmir olundu. Onların bir çoxu köhnəlmişdi, sıradan çıxmışdı. İçərişəhər dünya miqyasında nadir bir yerdir.

**S a k i n:** Bir vaxt deyirdilər ki, İçərişəhərdən sakinlərin hamısını köçürəcəklər. Amma Siz qoymadınız.

**İ l h a m  Ə l i y e v:** Düzdür, belə təkliflər var idi. Bu barədə mənə deyəndə qətiyyətlə bunun əleyhinə oldum. Çünki İçərişəhəri yaşadan burada yaşayan insanlardır. Yəni bura muzey deyil, yaşayış yeridir. İçərişəhərlilər, onlara xas olan həyat tərzi, mədəniyyət – bunlar bizim böyük sərvətimizdir. İçərişəhərin üstünlüyü ondadır ki, qədim dövrlərdən burada insanlar yaşayır, nəsillər gəlir, gedir. Eyni zamanda, bura açıq səma altında bir muzeydir. Bəzi ölkələrdə belə qədim yerlər sadəcə olaraq, görüntü naminə saxlanılır, turistlər gəlir, gəzir, çay, qəhvə içib gedirlər. Amma İçərişəhərdə insanlar yaşayır. Əlbəttə, burada yaşayan insanlar üçün yaxşı şərait yaradılıbdır.

**S a k i n l ə r:** Hara getsək bu yer bizi cəlb edir, hara getsək, birinci bura yadımıza düşür. Cənab Prezident, bizim muzeylərimiz də inkişaf edir. Keçən ilin dekabr ayında Nazirlər Kabinetinin qərarı ilə bir neçə muzey – Qız qalası, Şirvanşahlar sarayı, «Qala» Dövlət Etnoqrafik Qoruğu muzey birləşməsi oldu. İçərişəhər muzeylər mərkəzidir. Bildiyiniz kimi, Şirvanşahlar sarayı ən aparıcı muzeylərdən biridir. Bizə qədim Şirvanşahlar dövlətindən qalan yeganə saraydır ki, çox böyük marağa səbəb olur. Buraya çoxlu turistlər gəlirlər. Bu çox yüksək göstəricidir.

**İ l h a m Ə l i y e v:** Turistlər daha da çoxalacaq. 2016-cı ildən başlayaraq, turistlərin sayı hər il artır. Əsas artım 2016-cı ildən başlandı. Həmin il 22 faiz artım oldu. Ondan sonra daha 20 faiz artdı. Keçən il isə artım təqribən 5 faiz olubdur.

*Sonra «Səma» uşaq rəqs ansamblının çıxışını izləyən dövlət başçısı və xanımı ansamblın üzvləri ilə xatirə şəkli çəkdirdilər.*

*Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev Qız qalasının qarşısındakı meydanda Novruz tonqalını alovlandırdı.*

*Qeyd edək ki, 2010-cu ildə BMT-nin qərarı ilə martın 21-i Beynəlxalq Novruz Günü elan olunub. Bu, böyük bir arealda yaşayan 200 milyondan çox insanın milli-mənəvi yaddaşına dünyanın ən mötəbər qurumu səviyyəsində verilən dəyərin təzahürüdür. Qədim tarixə malik Novruz həm də əcdadlarımızın bizə töhfəsi, onlardan qalan dəyərli mirasdır. Tarixən milli düşüncə tərzinin və məfkurəsinin formalaşmasında, insanların*

*yüksək əxlaqi dəyər və normalar çərçivəsində yaşamasında böyük rol oynayan Novruz bayramı özündə paklığı, nəcib insani dəyərləri təcəssüm etdirir. Varlığın yenidən canlanmasını müjdələyən novruz əsrlərboyu həm də insanlarımızı işıqlı sabaha, xoşbəxt gələcəyə səsləyir. Bu bayram insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər yaradıbdır.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN ENERJİ VƏ SƏNAYE NAZİRİ SÜHEYL MƏHƏMMƏD ƏL-MƏZRUİ İLƏ GÖRÜŞ

*18 mart 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin Enerji və Sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul etmişdir.*

*Azərbaycana səfərindən məmnun olduğunu bildirən Süheyl Məhəmməd əl-Məzrui Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş Naziri və Dubay Əmiri əlahəzrət şeyx Məhəmməd bin Rəşid əl-Məktumun və Əbu-Dabinin vəliəhdi şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyanın salamlarını dövlət başçısına çatdırdı.*

*Dövlət başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək, əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını bildirən Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi və qonaqların xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu vurğuladı.*

*Azərbaycanla münasibətlərin ölkəsinin xarici siyasətinin gündəliyində duran ən önəmli istiqamətlərdən biri olduğunu diqqətə çatdıran Birləşmiş Ərəb Əmirliklərinin Enerji və Sənaye naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş investisiya imkanlarının yaradılmasını ölkəsində yüksək qiymətləndirildiyini bildirdi.*

*Söhbət zamanı «OPEC+» formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunuldu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş Naziri və Dubay Əmiri əlahəzrət şeyx Məhəmməd bin Rəşid əl-Məktumun və Əbu-Dabinin vəliəhdi şeyx Məhəmməd bin Zaid əl-Nəhəyyanın salamlarına görə minnətdarlığını bildirən dövlət başçısı onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, vitse-prezident, Baş Nazir və Dubay Əmirinə, eləcə də Əbu-Dabinin vəliəhdinə çatdırmağı xahiş etdi.*

**QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ**

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının Prezidenti vəzifəsində fəaliyyətə başlamanız münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan və Qazaxıstanı çoxəsrlik dostluq və əməkdaşlıq əlaqələri birləşdirir. Əminəm ki, xeyirxah ənənələrə söykənən bu dövlətlərarası münasibətlərimiz gələcəkdə də xalqlarımızın və ölkələrimizin mənafeyi naminə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə, hörmətli Kasım-Jomart Kemeleviç, möhkəm cansağlığı, xoşbəxtlik və dövlət başçısı vəzifəsində qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 mart 2019-cu il*

**İRAQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BƏRHAM SALEHƏ**

Hörmətli cənab Prezident!

Dəclə çayında bərənin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İraq xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 mart 2019-cu il*

## QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil

dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə

ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 13, 26, 29, 50, 137, 138, 144, 168, 170, 174, 305.

**2. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayırlar. – 14, 36, 81, 98, 99, 102, 122, 159, 188–190, 197, 198, 229, 286, 291, 300.

**3. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 47–48, 51–52, 59, 68.

**4. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri vardır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 81, 229, 241, 300.

**5. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və

mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 82, 88, 163, 230, 252.

**6. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı- z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin

Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 14, 15, 95, 97, 128, 135, 137, 142, 143, 144, 145, 150, 152, 156, 157, 159, 162, 163, 164, 165, 173, 211, 212, 213, 216, 217, 218, 222, 304, 305, 306, 307, 308, 309.

**7. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-polkovnik. 2003–2013-cü illərdə Azərbaycan Respublikasının Daxili İşlər nazirinin müavini – Daxili Qoşunların Komandanı vəzifəsində çalışmışdır. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı», «Rəşadət» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 20.

**8. Nəcməddin Sadıkov,** N ə c m ə d d i n H ü s e y n o ğ l u (d.1956) – general-polkovnik. Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargahının rəisi, Müdafiə nazirinin birinci müavinidir. Azərbaycan Respublikasının «Azərbaycan Baryağı» və «Rəşadət» ordenləri ilə təltif edilmişdir. – 20.

**9. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 25.

**10. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1993-cü ildə Ağdərə rayonunun mərkəzi və bir çox kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 25, 252.

**11. Füzuli rayonu** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 25.

**12. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 76,6 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 25.

**13. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvü. 2003–2005-ci illərdə Heydər Əliyev adına Bakı Neft Emalı zavodunun direktoru olmuşdur. 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 27.

**14. İtaliya,** İ t a l i y a  R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 27, 57–58, 246, 254–256.

**15. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27, 255–256.

**16. Türkiyə,** T ü r k i y ə  C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 28, 49–50, 53–54, 60, 114, 115, 196–197, 245–246.

**17. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 28, 81, 98, 104–105, 223, 300.

**18. Belarus,** Belarus Respublikası – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 28.

**19. «SOCAR Polymer»** – Azərbaycanın neft-kimya sənayesində dövlət və özəl sektor tərəfdaşlığı ilə yaradılmış ilk şirkət. – 27–34, 57.

**20. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 42–43, 60, 256–257.

**21. Baronessa Emma Nikolson** (d.1941) – Birləşmiş Krallığın ASPA-da nümayəndə heyətinin üzvü və Azərbaycan üzrə ticarət elçisidir. – 42–43.

**22. Tereza Mey** (d.1956) – Böyük Britaniya siyasətçisi. 2016–2019-cu illərdə Mühafizəkarlar Partiyasının lideri və Böyük Britaniyanın Baş Naziri olmuşdur. – 42, 43, 256–257.

**23. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə ərazisindən Qərb bazarlarına nəql edir. – 42, 51, 53, 57, 59–75, 76, 77, 78, 85, 114, 115, 121, 298.

**24. Küveyt,** K ü v e y t D ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı Əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 44, 45, 46.

**25. Əl-Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt Əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 44.

**26. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 48, 60, 69–75, 118, 122, 198–199, 241, 247.

**27. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 49, 50, 53, 54, 197.

**28. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 55– 56, 60, 81, 102, 187, 228–229, 300.

**29. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 55.

**30. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i -k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 60, 118, 246, 253–254, 272–273.

**31. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici

orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 60, 102, 106–125, 240.

**32.** ***bp,*** «B r i t i ş  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 61.

**33. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 62, 85, 191–193.

**34. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 62, 67, 78–79, 85, 192.

**35. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Mənzil-qərargahı Manilada yerləşir. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. – 62, 85.

**36.** «**Azəri–Çıraq–Günəşli**» **–** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 62.

**37. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan kəmər 2006-cı ildə istifadəyə verilmişdir. – 63, 114, 121.

**38. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 63, 114, 121.

**39. Bakı–Supsa** – neft kəməri. 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə im-

zaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsidir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan 4 terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılışı mərasimi olmuşdur. – 63, 114, 121.

**40.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 64, 121.

**41. «Şahdəniz» –** Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 64, 66.

**42. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 67, 115, 121.

**43. Pərviz Şahbazov,** P ə r v i z O q t a y o ğ l u (d. 1969) – mühəndis, diplomat. 2005–2016-cı illərdə Azərbaycanın Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Energetika naziridir. – 68–69.

**44. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 70, 117, 118, 124, 234.

**45. Bruney,** B r u n e y D a r ü s s a l a m D ö v -l ə t i – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 431 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 80.

**46. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 80.

**47. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 81, 122, 188–190, 194–195, 240.

**48. Ruslan Auşev** (d.1954) – Rusiyanın tanınmış siyasi və dövlət xadimi, general-leytenant. 1993–2002-ci illərdə İnquşetiya Respublikasının birinci Prezidenti olmuşdur. Hal-hazırda MDB Dövlət Başçıları Şurası yanında Beynəlmiləlçi Döyüşçülərin İşləri üzrə Komitənin və «Döyüş qardaşlığı» Beynəlxalq Veteranlar Təşkilatı Ali Şurasının üzvüdür. Sovet İttifaqı Qəhrəmanıdır. – 82.

**49. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati

ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 82, 229, 245.

**50. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u **–** İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 84.

**51. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 86.

**52. Estoniya,** E s t o n i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallinn şəhəridir. – 92.

**53. Kersti Kalyulayd** (d.1969) – Estoniya iqtisadçısı və siyasətçisi. 2016-cı ildən Estoniya Respublikasının Prezidentidir. – 92.

**54. Banqladeş,** B a n q l a d e ş  X a l q  R e s- p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 94, 296.

**55. Əbdül Həmid Məhəmməd** (d.1944) – Banqladeşin siyasi və dövlət xadimi. 2013-cü ildən Banqladeş Xalq Respublikasının Prezidentidir. – 94, 296.

**56. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış və itkin düşmüşdür. – 95–103, 104, 268.

**57. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq

edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 97, 101, 152, 159, 163, 167, 182.

**58. Arzu Əliyeva,** A r z u İ l h a m q ı z ı (d.1989) – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın kiçik qızı. Film prodüseri. – 97.

**59. Novruz Məmmədov**, N o v r u z İ s m a y ı l o ğ l u (d.1947) – Azərbaycanın siyasi və dövlət xadimi, filoloq. 1997–2017-ci illərdə Azərbaycan Respublikası Prezident Administrasiyasında Xarici Əlaqələr üzrə şöbə müdiri, 2017–2018-ci illərdə Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi – şöbə müdiri, 2018–2019-cu illərdə isə Azərbaycan Respublikasının Baş Naziri olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 97.

**60. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 97.

**61. İrina Rodnina** (d.1949) – Rusiyanın ictimai və siyasi xadimi, üçqat olimpiya və onqat dünya çempionu. «Vahid Rusiya» Partiyasından Rusiya Federasiyası Dövlət Dumasının Beynəlxalq Əlaqələr üzrə Komitəsinin sədr müavinidir. – 97.

**62. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 101, 102, 139, 151, 153, 170, 173, 212, 222.

**63. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əya-

lətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 101, 294.

**64. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t - l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1,97 milyon km$^2$, əhalisi 133,1 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 101.

**65. Ç e x R e s p u b l i k a s ı,** Ç e x i y a – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 101.

**66. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İsam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqa-

mətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 101, 122, 240, 242, 243, 299.

**67. Avropa İnsan Haqları Məhkəməsi** (AİHM) – insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiyanın reallaşdırılması məqsədilə Avropa Şurasının (1959) yaratdığı məhkəmə orqanı. İqamətgahı Strasburqda yerləşir. Məhkəmə dövlətlərin müraciətini və Konvensiyanın iştirakçı dövlətlərində onun müddəalarının ehtimalı pozulması ilə əlaqədar fərdi ərizələri nəzərdən keçirir. Məhkəmə qərarlarının yerinə yetirilməsinə nəzarəti Avropa Şurasının Nazirlər Komitəsi həyata keçirir.

Azərbaycan Respublikası Avropa Məhkəməsinin məcburi yurisdiksiyasını qəbul etmişdir. – 102.

**68. Almaniya,** Almaniya Federativ Respublikası (AFR) – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 102.

**69. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,9 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 102.

**70. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min $km^2$, əhalisi 11,4 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 102.

**71. Salome Zurabişvili** –Fransa və Gürcüstanın siyasi xadimi. 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. 2018-ci ildən Gürcüstanın Prezidentidir. – 106–125.

**72. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 119, 123, 141, 154, 173.

**73. Əli bəy Hüseynzadə,** Ə l i b ə y H ü s e y n o ğ l u (1864–1940) – yazıçı, jurnalist, filosof, tərcüməçi, ictimai xadim. Rusiyada 1905–07-ci illər inqilabının təsiri ilə çarizmi, feodal-patriarxal geriliyi, Şərq istibdadını, ətaləti və xurafatı tənqid etmiş, «Füyuzatçılar» ədəbi-fəlsəfi cərəyanının əsas nəzəriyyəçisi olmuşdur. Fəaliyyətində «türkləşmək, islamlaşmaq, müasirləşmək» ideologiyası əsas yer tuturdu. – 123.

**74. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 122.

**75. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 122, 189, 240, 242.

**76. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. Qərargahı Strasburqda yerləşir. – 122, 242, 243.

**77. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı** – Azərbaycanın ən qədim dram teatrı. Tarixi 1873-cü ildə Bakıda səhnəyə qoyulmuş M.F.Axundovun «Lənkəran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanıb.

Azərbaycan SSR XKS-nin 1920-ci il 1 iyul tarixli Qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradılmış və buraya bütün teatr truppaları daxil olmuşdur. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq, müstəqil fəaliyyət göstərməyə başlamışdır. – 132.

**78. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı –** Bakıda Səməd Vurğun adına rus dilində fəaliyyət göstərən teatr. 1923-cü ildən Bakı İşçi Teatrı adı ilə fəaliyyət göstərmiş, 1937-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrı adlanırdı. Teatrın repertuarı «Don Kar-

los» (F.Şiller), «Romeo və Cülyetta» (V.Şekspir), «Canlı meyit» (L.Tolstoy)» kimi əsərlərlə zəngindir. – 132.

**79. Milli Azərbaycan Tarix Muzeyi** – 1920-ci ildə yaradılmışdır. Muzeyin müxtəlif fondlarında Vətən tarixini yaşadan 300 minədək maddi mədəniyyət nümunəsi qorunur. Muzeyin kitabxanasında 80 mindən artıq XIX–XX əsrlərin əvvəllərində nəşr olunmuş nadir kitab, jurnal və qəzet toplanmışdır. Muzeyin 10 otağında Azərbaycan xalqının görkəmli oğlu Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətinə həsr olunmuş materiallar qorunub saxlanılır. – 132.

**80. Azərbaycan Ədəbiyyatı Muzeyi,** Azərbaycan Respublikası MEA Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi– 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi, Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4000-dən çox əlyazma, nadir kitablar, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nüma-yiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1919–20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları

və elmi fondları, bədii tərtibat, elmi-kütləvi şöbələri vardır. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. –132.

**81. Azərbaycan Milli Xalça Muzeyi** – Azərbaycanın xalça və xalq tətbiqi sənətinin nümayiş edildiyi ən zəngin ekspozisiya. 1967-ci ildə yaradılmışdır. Burada Azərbaycanın xalça və xalça məmulatlarının növləri, tarixi dövrləri, Quba, Şirvan, Bakı, Qazax, Qarabağ və Təbriz toxuculuq məktəblərinin fərdi ənənələri, 10000-dək xalça və xalq tətbiqi sənəti nümunələri mühafizə edilib saxlanılır. – 132.

**82. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–1914-cü illərdə tikilmişdir (memarı Zivər bəy Əhmədbəyov). Kvadrat planlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvan, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 133.

**83. Bibiheybət məscidi** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Həkimə xanım və onun Heybət adlı nökəri dəfn olunmuşlar. «Bibiheybət» adının da buradan

yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdir. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə yeksan edilmişdir. Respublikamız müstəqillik qazandıqdan sonra Prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 133.

**84. İmamzadə piri,** İmamzadə türbəsi – orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 metr, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir. «Göy imam» adı da bununla əlaqədardır. – 133.

**85. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856 və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım

bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə Prezident İlham Əliyevin sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 133.

**86. Qara Qarayev,** Q a r a Ə b ü l f ə s o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Musiqiyə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. – 133, 140.

**87. Fikrət Əmirov,** F i k r ə t M ə ş ə d i C ə m i l o ğ l u (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. Simfonik muğam janrının yaradıcısı, instrumental konsert janrında əsərlər yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur dirijorların repertuarlarında səslənmişdir. – 133, 140.

**88. Bülbül,** M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı, SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. Yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. – 133.

**89. Niyazi,** T a ğ ı z a d ə - H a c ı b ə y o v N i y a- z i Z ü l f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması və inkişafı onun adı ilə bağlıdır. – 133.

**90. Anar,** R z a y e v A n a r R ə s u l o ğ l u (d.1938) – görkəmli publisist, dramaturq, ictimai xadim, Azərbaycanın Xalq yazıçısı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. 1995–2005-ci illərdə Milli Məclisin üzvü və Mədəniyyət məsələləri Komitəsinin sədri, 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev mükafatı», «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 135–137.

**91. Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb və fars dillərində yazmışdır. – 135.

**92. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı və dramaturqu. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. Onun zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 135.

**93. İsmayıl Şıxlı,** İ s m a y ı l Q ə h r ə m a n o ğ- l u (1919–1995) – ədəbiyyatşünas, nasir, publisist, pedaqoq, ssenarist, filologiya elmləri namizədi, Azərbaycan Xalq yazıçısı. 1986–87-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 135.

**94. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ- l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poezi-

yasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 135.

**95. Mirzə Fətəli Axundzadə,** M i r z ə  F ə t ə l i  M ə h ə m m ə d t a ğ ı  o ğ l u (1812–1878) – böyük Azərbaycan yazıçısı, dramaturqu, materialist filosofu və ictimai xadimi. Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850–55-ci illərdə yazdığı 6 komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 135.

**96. Natəvan,** X u r ş i d b a n u  X a n  q ı z ı (1832–1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 135.

**97. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 km$^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində

olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edildəndən muxtar respublikanın paytaxtıdır. – 135.

**98. Firəngiz Əlizadə,** F i r ə n g i z Ə l i a ğ a q ı z ı (d.1947) – pianoçu, bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə «UNESKO-nun sülh naminə artisti» adına layiq görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 138–142.

**99. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü - s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, 1938–1948-ci illərdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri, 1928–1929, 1939–1948-ci illərdə isə Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuşdur. Azərbaycan SSR və Azərbaycan Respublikası himnlərinin

bəstəkarı, müsəlman şərqində ilk operanın müəllifidir. – 140.

**100. Arif Babayev,** A r i f  İ m r a n  o ğ l u (d.1938) – xanəndə, Xalq artisti, professor. Milli konservatoriyanın muğam kafedrasının müdiri. O, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov kimi sənətkarların ənənələrinə əsaslanaraq, özünəməxsus ifaçılıq üslubu yaratmışdır. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 142–143.

**101. Zeynəb Xanlarova,** Z e y n ə b  Y ə h y a  q ı z ı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ Xalq artisti. Repertuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (2000-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal», «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 143–145.

**102. Fərhad Bədəlbəyli,** F ə r h a d  Ş ə m s i  o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 1991-ci ildən rektoru, professor. Azərbaycan Dövlət

mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Beynəlxalq müsabiqələr laureatı. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoq, Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 150–152.

**103. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 152.

**104. Elbay Qasımzadə,** E l b a y Ə n v ə r o ğ l u (d.1948) – professor, Azərbaycanın Əməkdar memarı. 1989–2001-ci illərdə Bakı şəhərinin baş memarı olmuşdur. 150-dən artıq layihənin, 80-dən çox məqalənin və 8 kitabın müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 152–156.

**105. Zivər bəy Əhmədbəyov,** Z i v ə r b ə y G ə r a y b ə y o ğ l u (1873–1925) – ali təhsil almış ilk azərbaycanlı memar. 1918–22-ci illərdə Bakının baş memarı olmuşdur. Göyçayda məscid (1906), Şamaxıda «İmam məscidi» (1909), Bakıda Təzəpir məscidi, Göy məscid (1912–13), Bakı və Şamaxıda bir sıra yaşayış evlərinin layihələrini vermişdir. Azərbaycan xalq memarlığının mütərəqqi ənənələrini Şərq və Avropa memarlığı ilə üzvi surətdə əlaqələndirmişdir. – 156.

**106. Sadıq Dadaşov,** S a d ı q Ə l ə k b ə r o ğ l u (1905–1946) – Azərbaycan memarı, memarlıq tarixçisi, professor. XX əsr Azərbaycan memarlığının banilərindən biri. SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, Azərbaycan SSR EA-nın akademiki. SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan memarlıq irsinin ilk tədqiqatçısıdır. – 156.

**107. Mikayıl Hüseynov,** M i k a y ı l Ə l ə s g ə r o ğ l u (1905–1992) – Azərbaycan memarı və memarlıq tarixçisi. Müasir Azərbaycan memarlığının banilərindən biri. Memarlıq doktoru, professor, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı və Sosialist Əməyi Qəhrəmanı. Azərbaycan və SSRİ EA-nın həqiqi üzvü olmuşdur. Layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində, eləcə də Moskvada, Düşənbədə yaşayış, ictimai və mədəni-məişət binaları tikilmişdir. Bakıda M.F.Axundov adına Milli Kitabxana, Elmlər Akademiyasının şəhərcik kompleksi, Bakı Metropoliteninin «Nəriman Nərimanov», «Nizami», «Elmlər Akademiyası» stansiyaları onun ən görkəmli əsərlərindəndir. – 156.

**108. Afaq Bəşirqızı,** A f a q B ə ş i r q ı z ı S ə f ə r o v a (d.1955) – Azərbaycanın görkəmli teatr və kinoaktrisası. Xalq artisti, Azərbaycanın görkəmli gülüş ustası Bəşir Səfərovun qızı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 156–159.

**109. Şəfiqə Məmmədova,** Ş ə f i q ə H a ş ı m q ı z ı (d.1945) – teatr və kino aktrisası. Azərbaycanın Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. 1995–2005-ci illərdə Azərbaycan Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikası Kinematoqrafçıları İttifaqının sədridir. Azərbaycan Respublikasının

«Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 160–162.

**110. Aleksandr Şarovski,** A l e k s a n d r Y a k o v - l e v i ç (d.1948) – Azərbaycanın Xalq artisti. 1993-cü ildən Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissorudur. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 162–163.

**111. Hacı Zeynalabdin Tağıyev,** H a c ı Z e y n a - l a b d i n T a ğ ı o ğ l u (1838–1924) – məşhur mesenat, maarifpərvər Bakı milyonçusu. Əvvəllər bənna işləmiş Hacı 1872-ci ildən neftçıxarma işinə kapital qoymuş və sahibkarlıq fəaliyyətinə başlamışdır. Bakıda «Tağıyev H.Z. lifli maddələrin emalı üzrə Qafqaz Səhmdar Cəmiyyəti»ni, Toxuculuq fabrikini, «Xəzər manufaktura cəmiyyəti»ni, «Tağıyev balıq sənayesi səhmdar cəmiyyəti»ni, yerli sahibkarlarla birlikdə Bakı Ticarət Bankını yaratmış və Bank Şurasının sədri seçilmişdi.

Hacı savadsızlıqla mübarizə aparmış, Vətən övladlarının, xüsusilə kasıb oğlan və qızların təhsil almasına böyük qayğı göstərmişdi. O öz vəsaiti ilə Yaxın Şərqdə – Bakıda ilk qız gimnaziyası, qadınları işlə təmin etmək üçün Toxuculuq fabriki, Mərdəkanda sənət məktəbi, teatr binası tikdirir, qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan şair və

alimlərinin əsərlərini, həmçinin Azərbaycan dilinə tərcümələri çap etdirir, 1905–11-ci illər İran məşrutə hərəkatına silah və pulla yardım edirdi. İranda onlarla məktəbin açılmasına, məktəb ləvazimatı və zəruri kitablarla təmin edilməsinə, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanlara daim yardım edirdi. «Kaspi», «Həyat», «Füyuzat» kimi qəzet və jurnalların nəşri üçün vəsait ayırmışdı. Bakıya «Şollar suyu» kəmərini çəkdirmiş, Mərdəkanda dən üyüdən elektrik dəyirmanı tikdirmiş və qəsəbənin əhalisini ilk dəfə elektrik işığı ilə təmin etmişdir. – 166.

**112. Tahir Salahov,** T a h i r T e y m u r o ğ l u (d.1928) – böyük Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSRİ-nin Xalq rəssamı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin birinci katibi olmuşdur. Yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan müasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 166–169.

**113. Xuraman Qasımova,** X u r a m a n  Ə k r ə m  q ı z ı (d.1951) – Azərbaycanın Xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. 1976–2006-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Bir sıra kinofilmlərə çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 169–170.

**114. Əbülfəs Qarayev,** Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – fəlsəfə doktoru. 1994–2001-ci illərdə Azərbaycan Respublikası Gənclər, İdman naziri, 2001–2006-cı illərdə Azərbaycan Respublikası Gənclər, İdman və Turizim naziri, 2006–2018-ci illərdə Mədəniyyət və Turizm naziri, 2018-ci ildən Mədəniyyət naziridir. Gənclər, İdman və Turizm naziri işlədiyi dövrdə respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmiş, mədəniyyət, kitab nəşri və turizm sahəsində xeyli təqdirəlayiq işlər görülmüşdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 176, 177, 264.

**115. Əziz Əliyev,** Ə z i z  M ə m m ə d k ə r i m  o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan

Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 179.

**116. 8 Mart Beynəlxalq Qadınlar Günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəyliyi günü. Beynəlxalq Qadınlar Gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmiş, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 200–201.

**117. Efiopiya,** Həbəşistan Federativ Demokratik Respublikası – Şərqi Afrikada dövlət. Sahəsi 1,104 min km$^2$, əhalisi 102,4 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Əddis-Əbəbə şəhəridir. – 225.

**118. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 227.

**119. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 4,9 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 102, 235.

**120. Maykl Higgins** (d.1941) – İrlandiya siyasətçisi, şair, yazıçı, sosioloq. 2011-ci ildən İrlandiya Respublikasının Prezidentidir. – 235.

**121. Vayra Vike-Freyberqa** (d.1937) – Latviyanın dövlət xadimi, 1999–2007-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Psixologiya elmləri doktoru, professor. Kanadada emiqrant olmuş, 1997-ci ildə Latviyaya köçmüş və siyasi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 232–233, 238, 258–260, 276–277.

**122. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan

İslam Respublikasının Prezidentidir. – 248–249, 260, 262–264.

**123. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i -k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 246, 295.

**124. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 246, 249– 250, 265–266.

**125. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə baş komissar olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 257–258.

**126. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır.

Onu ölkədə General-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqton şəhəridir. – 280.

**127. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 286–287.

**128.** «**OPEC+**» (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Əlcəzair, Nigeriya, Ekvador, Qabon, Anqola, İraq, Konqo, Liviya, BƏƏ, Ekvatorial Qvineya daxildir. Mənzil-qərargahı Vyanada yerləşir. – 288–289.

**129. Tunis,** T u n i s   R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 163,6 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici hakimiyyət Nümayəndələr Palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 293.

**130. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 294.

**131. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mə-

dəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 306, 310, 311.

**132. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 9,7 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı

Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 313–314.

# Şəxsi adlar göstəricisi


**Abdullayev Rauf** – 151
**Abdullayev Rövnəq** – 27
**Al Feysal Turki** – 283
**Al Səud Məhəmməd** – 185, 186
**Al Səud Salman** – 185, 186, 291
**Axundzadə Mirzə Fətəli** – 135
**Alvi Arif** – 294
**Anar** – 135–138, 180
**Ayrım Şamil** – 49–50
**Ardern Casinda** – 280
**Auşev Ruslan** – 82
**Babayev Arif** – 142–143
**Bağırzadə Bəhram** – 164–166
**Barkindo Məhəmməd** – 288
**Berroteran Kristofer** – 181
**Bədəlbəyli Fərhad** – 150–152
**Bəşirqızı Afaq** – 156–159
**Bıçkov Aleksey** – 97
**Bolkiah Həssənal** – 80
**Borisov Boyko** – 253–254, 272–273
**Birçall Ana** – 274–275
**Bülbül** – 133
**Cabbarlı Cəfər** – 135
**Cəbrayılov Əhmədiyyə** – 163
**Caferoviç Şefik** – 250–251, 267–268

**Cioffi Andrea** – 57–58
**Cukanoviç Milo** – 253, 270–271
**Çakrabarti Suma** – 191–193
**Çavçavadze İlya** – 123
**Dadaşov Sadıq** – 156
**Dejpəsənd Fərhad** – 281–282
**Dodon İqor** – 251–252, 269
**Dönməz Fateh** – 53–54
**Ekarohit Phantipha** – 181
**Eqqer Miryana** – 230–231, 257
**Əbdül Həmid Məhəmməd**– 94, 296
**Əhmədbəyov Zivər bəy** – 156
**Əhmədov Vüqar** – 18
**Əl-Falih Xalid** – 290–292
**Əl-Məzrui Süheyl** – 313–314
**Əl-Tüveycri Əbdüləziz** – 286–387
**Ələsgərov Süleyman** – 164, 178
**Əliyev Heydər** – 13, 26, 29, 50, 137, 138, 144, 168, 170, 174, 305
**Əliyev Əziz** – 179
**Əliyeva Arzu** – 97
**Əliyeva Leyla** – 97, 101, 152, 159, 163, 167, 182
**Əliyeva Mehriban** – 14, 15, 95, 97, 128, 135, 137, 142, 143, 144, 145, 150, 152, 156, 157, 159, 162, 163, 164, 165, 173, 211, 212, 213, 216, 217, 218, 222, 304, 305, 306,

307, 308, 309
**Əlizadə Firəngiz** – 138–142
**Əmirov Fikrət** – 133, 140
**Ərdoğan Rəcəb Tayyib** – 49, 50, 53, 54, 197
**Əl-Ömər İbrahim** – 185–186
**Əs-Sabah əl-Cabir** – 44
**Əs-Sabah Nəvaf** – 45
**Əs-Sebsi Beji** – 293
**Əsədov Oqtay** – 97
**Əs-Sabah Cabir əl-Mübarək**– 46
**Fərəcov Zakir** – 26, 35
**Fərzəliyev Kamil** – 11
**Fransisk** *(Roma Papası)* – 227
**Füzuli** – 135
**Georgiyeva Kristalina** – 78, 79
**Hacıbəyli Üzeyir** – 140
**Haloley Henrik** – 47–48
**Heydərov Kəmaləddin** – 204, 205, 206, 207, 208, 213, 216
**Higgins Maykl** – 235
**Həsənov Zakir** – 20
**Hökmrəvan Tahir** – 204, 205
**Hudak Vazil** – 76–77
**Hüseynov Mikayıl** – 156
**Hüseynzadə Əli bəy** – 123
**Xanlarova Zeynəb** – 143–145
**İmanov Yaşar** – 171
**İmanov Tahir** – 163–164
**İsmayılov Hacı** – 145–150
**Kalyulayd Kersti** – 92

**Kanner Yuri** – 223
**Kasprşik Anji** – 82
**Kennedi Kerri** – 261
**Kenyatta Uhuru** – 226
**Klaar Toivo** – 198–199
**Krofts Karol** – 256
**Qani Məhəmməd** – 248–249, 260, 262–264
**Qarayev Əbülfəs** – 176, 177, 264
**Qarayev Qara** – 133
**Qarayeva Nigar** – 33–34
**Qasımzadə Elbay** – 152–156
**Qasımova Fidan** – 151
**Qasımova Xuraman** – 151, 169–170
**Qayumi Hamayun** – 263
**Qrimoldi Paolo** – 194–195
**Quluzadə Ramin** – 263
**Qurbanov Cavid** – 263
**Quterreş Antonio** – 257–258
**Layçak Miroslav** – 188–190
**Litzenberqer Örl** – 228–229
**Markov Serqey** – 98
**Massari Auqusto** – 254–256
**Mattarella Sercio** – 27, 255–256
**Meta İlir** – 93, 249–250, 265–266
**Mey Tereza** – 42, 43, 256–257
**Məmmədquluzadə Cəlil** – 135
**Məmmədov Novruz** – 97
**Məmmədova Şəfiqə** – 160–162
**Mirqasımov Mirələsgər** – 135
**Nəsibov Sahib** – 10–11

**Nəsimi** – 135
**Natəvan** – 135
**Nikolson Emma** – 42–43
**Niyazi** – 133
**Ottinger Günter** – 51–52, 59, 69–75
**Oudkirk Sandra** – 55–56
**Pastrana Andres** – 126–127
**Puşkina Oksana** – 97
**Pavlopulos Prokopis** – 295
**Popov İqor** – 81
**Rəhimov Azad** – 5
**Rodnina İrina** – 97
**Ruhani Həsən** – 282
**Rusnak Aleksandr** – 98
**Rosello Sezar** – 126–127
**Safi Hasina** – 264
**Saks Cefri** – 285
**Sadıkov Nəcməddin** – 20
**Sall Maki** – 202
**Salahov Tahir** – 166–169
**Salahova Zərifə** – 308
**Savelyev Dmitri** – 97
**Saleh Bəhram** – 316
**Sibizova Tatyana** – 98
**Serageldin İsmail** – 232–233, 237, 238
**Şahbazov Pərviz** – 68–69
**Şarovski Aleksandr** – 162–163
**Şatilov Aleksandr** – 98
**Şentop Mustafa** – 196–197
**Şnayer Mark** – 187

**Şıxlı İsmayıl** – 135
**Şofer Endrü** – 81
**Tağıyev Hacı Zeynalabdin**– 166, 178, 179
**Tembon Mersi** – 78–79
**Tokayev Kasım-Jomart** – 315
**Tramp Donald** – 55
**Vanlalvavna Bavitlunq** – 224
**Vike-Freyberqa Vayra** – 232–233, 238, 258–260, 276–277
**Viskonti Stefan** – 81
**Vu Haylonq** – 234
**Yemelyanov Mixail** – 98
**Yunker Jan** – 52
**Zamanova Həcər** – 207, 208, 209
**Zevde Sahle-Vork** – 225
**Zəki Mehriban** – 159–160
**Zurabişvili Salome** – 106–125

# Coğrafi adlar göstəricisi

**Ağdərə** – 25, 252
**Ağsu** – 203–210
**Albaniya** – 246, 249–250, 265–266
**Almaniya** – 102
**Amerika Birləşmiş Ştatları**–55–56, 60, 81, 102, 187, 228–229, 300
**Amsterdam** – 28
**Aralıq dənizi** – 246
**Asiya** – 117, 124, 245, 247
**Avropa** – 7, 60, 117, 124, 140, 230, 245, 247
**Avrasiya** – 66
**Avstriya** – 102
**Banqladeş** – 94, 296
**Batumi** – 118
**Belarus** – 28
**Belçika** – 102
**Beyləqan** – 5–25
**Bolqarıstan** – 60, 118, 246, 253–254, 272–273
**Bosniya və Herseqovina** – 60, 102, 246, 250–251, 267–268
**Bruney-Darüssalam** – 80
**Böyük Britaniya** – 42–43, 60, 256–257
**Birləşmiş Ərəb Əmirlikləri**– 313–314

**Cəbrayıl** – 25
**Cənubi Qafqaz** – 103, 198
**Cibuti** – 101
**Çexiya** – 101
**Çin** – 70, 117, 118, 124, 234
**Dağlıq Qarabağ** – 14, 36, 81, 98, 99, 102, 122, 159, 188–190, 197, 198, 229, 286, 291, 300
**Davos** – 84
**Dominikan** – 93
**Efiopiya** – 225
**Estoniya** – 92
**Əfqanıstan** – 82, 229, 245
**Fransa** – 81, 300
**Füzuli** – 25
**Gürcüstan** – 60, 102, 106–125, 246
**Günnüt** – 25
**Hindistan** – 224
**Honduras** – 101
**Xankəndi** – 17
**Xəzər dənizi** – 62, 63, 114, 124, 245, 246
**Xocalı** – 95–103, 104, 268
**Xorvatiya** – 61, 246
**İraq** – 316
**İran** – 281–282
**İrlandiya** – 102, 235
**İsmayıllı** – 203
**İtaliya** – 27, 57–58, 246, 254–256
**Keniya** – 226

**Kolumbiya** – 101
**Küveyt** – 44, 45, 46
**Qafqaz** – 119, 125, 247
**Qara dəniz** – 63, 114, 118, 124, 246
**Qazaxıstan** – 315
**Qəbələ** – 151
**Qvatemala** – 101
**Macarıstan** – 61
**Meksika** – 101
**Mərkəzi Asiya** – 72, 245
**Milan** – 28
**Moldova** – 250–251, 269
**Monteneqro** – 61, 246, 253, 270–271
**Mumbay** – 28
**Naxçıvan** – 103, 135
**Naxçıvan Muxtar Respublikası**– 25
**Niderland** – 28
**Pakistan** – 101, 294
**Panama** – 101
**Peru** – 101
**Ruanda** – 181
**Rumıniya** – 61, 102, 118, 274–275
**Rusiya** – 28, 81, 98, 104–105, 223, 300
**San-Marino** – 61
**Sankt-Peterburq** – 179
**Sarayevo** – 268
**Seneqal** – 202
**Serbiya** – 61, 102
**Səudiyyə Ərəbistanı** – 185–186, 283–284, 290–

292
**Sloveniya** – 102, 188–190
**Sumqayıt** – 26–44
**Şəki** – 151
**Şamaxı** – 203, 211–222
**Şərur** – 25
**Şuşa** – 152
**Tailand** – 181
**Tunis** – 293
**Türkiyə** – 28, 49–50, 53–54, 60, 102, 114, 115, 196–197, 245–246
**Türkmənistan** – 61
**Ukrayna** – 28, 277
**Venesuela-Bolivar** – 181
**Yeni Zelandiya** – 280
**Yunanıstan** – 246, 295

# MÜNDƏRİCAT

OLİMPİYA İDMAN KOMPLEKSİNİN
AÇILIŞINDA BEYLƏQAN RAYON
İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*13 fevral 2019-cu il ....................................................................5*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*18 fevral 2019-cu il ....................................................................26*

SUMQAYIT ŞƏHƏRİNDƏ «SOCAR POLYMER»in
YÜKSƏKSIXLIQLI POLİETİLEN ZAVODUNUN
AÇILIŞINDA
MÜƏSSİSƏNİN KOLLEKTİVİ İLƏ GÖRÜŞ

*18 fevral 2019-cu il ....................................................................27*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN
AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ
BARONESSA EMMA NİKOLSONUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 fevral 2019-cu il ....................................................................42*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR
ƏS-SABAHA

*19 fevral 2019-cu il .................................................................44*
KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLA-
HƏZRƏT ŞEYX NƏVAF ƏL-ƏHMƏD
ƏL-CABİR ƏS-SABAHA

*19 fevral 2019-cu il .................................................................45*

KÜVEYT DÖVLƏTİNİN BAŞ NAZİRİ ƏLA-
HƏZRƏT ŞEYX CABİR ƏL-MÜBARƏK ƏL-
HƏMƏD ƏS-SABAHA

*19 fevral 2019-cu il .................................................................46*

AVROPA KOMİSSİYASININ HƏRƏKƏTLİLİK
VƏ NƏQLİYYAT ÜZRƏ BAŞ DİREK-
TORLUĞUNUN RƏHBƏRİ HENRİK HOLOLEY
İLƏ GÖRÜŞ

*19 fevral 2019-cu il .................................................................47*

TÜRKİYƏ–AZƏRBAYCAN PARLAMENTLƏR-
ARASI DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ŞAMİL
AYRIMIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*19 fevral 2019-cu il .................................................................49*

AVROPA KOMİSSİYASININ BÜDCƏ
VƏ İNSAN RESURSLARI ÜZRƏ KOMİSSARI
GÜNTER OTTİNGER İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il .................................................................51*

TÜRKİYƏ RESPUBLİKASININ ENERJİ VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ FATİH DÖNMƏZ İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il ..................................................................53*

ABŞ DÖVLƏT KATİBİNİN ENERJİ DİPLOMATİYASI ÜZRƏ MÜAVİNİNİN MÜŞAVİRİ SANDRA OUDKİRK İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il ..................................................................55*

İTALİYA RESPUBLİKASI İQTİSADİ İNKİŞAF NAZİRİNİN MÜAVİNİ ANDREA CİOFFİ İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il ..................................................................57*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN BEŞİNCİ TOPLANTISINDA İŞTİRAK

*20 fevral 2019-cu il ..................................................................59*

AVROPA İNVESTİSİYA BANKININ VİTSE-PREZİDENTİ VAZİL HUDAK İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il ..................................................................76*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU MERSİ TEMBON İLƏ GÖRÜŞ

*20 fevral 2019-cu il ..................................................................78*

BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*20 fevral 2019-cu il* ........................................................................*80*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ
İLƏ GÖRÜŞ

*21 fevral 2019-cu il* ........................................................................*81*
SOVET İTTİFAQI QƏHRƏMANI, GENERAL-
LEYTENANT RUSLAN AUŞEV İLƏ GÖRÜŞ

*21 fevral 2019-cu il* ........................................................................*82*

İQTİSADİ VƏ SOSİAL MƏSƏLƏLƏRLƏ BAĞLI
RESPUBLİKA MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*25 fevral 2019-cu il* ........................................................................*83*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
XANIM KERSTİ KALYULAYDA

*21 fevral 2019-cu il* ........................................................................*92*

DOMİNİKAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DANİLO MEDİNAYA

*22 fevral 2019-cu il* ........................................................................*93*

BANQLADEŞ XALQ RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
MƏHƏMMƏD ƏBDÜL HƏMİDƏ

*23 fevral 2019-cu il* ........................................................................*94*

XOCALI SOYQIRIMININ 27-ci İLDÖNÜMÜ İLƏ
ƏLAQƏDAR BAKIDA ÜMUMXALQ
YÜRÜŞÜNDƏ İŞTİRAK

*26 fevral 2019-cu il* ...............................................................*95*

«ROSSİYA-24» TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*26 fevral 2019-cu il* ...............................................................*104*

GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİNİN RƏSMİ QARŞILANMA MƏRASİMİ

*27 fevral 2019-cu il* ...............................................................*106*

GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*27 fevral 2019-cu il* ...............................................................*108*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*27 fevral 2019-cu il* ...............................................................*110*

GÜRCÜSTAN PREZİDENTİ SALOME ZURABİŞVİLİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*27 fevral 2019-cu il* ...............................................................*113*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*27 fevral 2019-cu il* ...............................................................*120*

MƏRKƏZÇİ DEMOKRAT İNTERNASİONALININ PREZİDENTİ ANDRES PASTRANANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2019-cu il* ........................................................................ *126*

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞ

*1 mart 2019-cu il* ............................................................................ *128*

YEKUN NİTQİ

*1 mart 2019-cu il* ............................................................................ *170*

VENESUELA-BOLİVAR RESPUBLİKASININ, RUANDA RESPUBLİKASININ VƏ TAİLAND KRALLIĞININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*3 mart 2019-cu il* ............................................................................ *181*

«BAKI–2019: ULDUZLAR FİNALI» QARŞI-LAŞMASINA BAXIŞ

*3 mart 2019-cu il* ............................................................................ *182*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 mart 2019-cu il* ............................................................................ *185*

ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİ-DENTİ MARK ŞNAYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 mart 2019-cu il* ............................................................................ *187*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2019-cu il ..................................................................188*

AVROPA YENİDƏNQURMA VƏ İNKİŞAF
BANKININ PREZİDENTİ SUMA ÇAKRA-
BARTİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 mart 2019-cu il ..................................................................191*

ATƏT-in PARLAMENT ASSAMBLEYASI
YANINDA İTALİYA NÜMAYƏNDƏ HEYƏTİNİN
SƏDRİ PAOLO QRİMOLDİ
İLƏ GÖRÜŞ

*5 mart 2019-cu il ..................................................................194*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ
MUSTAFA ŞENTOPUN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2019-cu il ..................................................................196*

AVROPA İTTİFAQININ XÜSUSİ NÜMA-
YƏNDƏSİ TOİVO KLAARIN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 mart 2019-cu il ..................................................................198*

8 MART – BEYNƏLXALQ QADINLAR
GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
QADINLARINA TƏBRİK

*6 mart 2019-cu il ..................................................................200*

SENEQAL RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAKİ SALLA

*7 mart 2019-cu il ..................................................................202*

AĞSU RAYONUNDA ZƏLZƏLƏNİN NƏTİ-
CƏLƏRİNİN ARADAN QALDIRILMASI İLƏ
BAĞLI GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*7 mart 2019-cu il ....................................................................203*

ŞAMAXI RAYONUNA SƏFƏR

*7 mart 2019-cu il ....................................................................211*

RUSİYA YƏHUDİ KONQRESİNİN PREZİDENTİ
YURİ KANNERİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 mart 2019-cu il ....................................................................223*

HİNDİSTAN RESPUBLİKASININ ÖLKƏMİZDƏ
YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BAVİTLUNQ
VANLALVAVNA İLƏ GÖRÜŞ

*11 mart 2019-cu il ..................................................................224*

EFİOPİYA FEDERATİV DEMOKRATİK
RESPUBLİKASININ PREZİDENTİ
XANIM SAHLE-VORK ZEVDEYƏ

*11 mart 2019-cu il ..................................................................225*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB UHURU KENYATTAYA

*11 mart 2019-cu il ..................................................................226*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*11 mart 2019-cu il* ................................................................*227*

ABŞ-ın AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ÖRL LİTZENBERQER İLƏ GÖRÜŞ

*12 mart 2019-cu il* ................................................................*228*

BMT İNKİŞAF PROQRAMI RƏHBƏRİNİN MÜAVİNİ MİRYANA EQQERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 mart 2019-cu il* ................................................................*230*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRLƏRİ VƏ İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*13 mart 2019-cu il* ................................................................*232*

XARİCİ İŞLƏR ÜZRƏ ÇİN XALQ İNSTİTUTUNUN PREZİDENTİ VU HAYLONQ İLƏ GÖRÜŞ

*13 mart 2019-cu il* ................................................................*234*

İRLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAYKL HİGGİNSƏ

*14 mart 2019-cu il* ................................................................*235*

VII QLOBAL BAKI FORUMUNDA İŞTİRAK

*14 mart 2019-cu il* ................................................................*236*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ

İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*262*

ALBANİYA RESPUBLİKASININ PREZİ-
DENTİ İLİR META İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*265*
BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT
HEYƏTİNİN ÜZVÜ ŞEFİK CAFEROVİÇ İLƏ
GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*267*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ
İQOR DODON İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*269*

MONTENEQRO PREZİDENTİ MİLO
CUKANOVİÇ İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*270*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ
NAZİRİ BOYKO BORİSOV İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*272*

RUMINİYA BAŞ NAZİRİNİN MÜAVİNİ
ANA BİRÇALL İLƏ GÖRÜŞ

*14 mart 2019-cu il* ................................................................*274*

VII QLOBAL BAKI FORUMUNUN İŞTİRAK-
ÇILARININ ŞƏRƏFİNƏ ZİYAFƏTDƏ İŞTİRAK

*14 mart 2019-cu il* ..................................................................*276*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ
XANIM CASİNDA ARDERNƏ

*15 mart 2019-cu il* ..................................................................*280*

İRAN İSLAM RESPUBLİKASININ İQTİSADİ
İŞLƏR VƏ MALİYYƏ NAZİRİ FƏRHAD
DEJPƏSƏNDİN BAŞÇILIQ ETDİYİ NÜMA-
YƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il* ..................................................................*281*

KRAL FEYSAL ARAŞDIRMA VƏ İSLAMİ
TƏDQİQATLAR MƏRKƏZİNİN İDARƏ
ŞURASININ SƏDRİ TURKİ AL FEYSAL
İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il* ..................................................................*283*

BMT BAŞ KATİBİNİN DAYANIQLI İNKİŞAF
MƏQSƏDLƏRİ ÜZRƏ XÜSUSİ MÜŞAVİRİ CEFRİ
SAKS İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il* ..................................................................*285*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ
OSMAN BİN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*15 mart 2019-cu il* ..................................................................*286*

OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO
İLƏ GÖRÜŞ

*16 mart 2019-cu il ............................................ 288*

SƏUDİYYƏ ƏRƏBİSTANININ ENERJİ, SƏNAYE VƏ TƏBİİ SƏRVƏTLƏR NAZİRİ XALİD ƏBDÜLƏZİZ ƏL-FALİH İLƏ GÖRÜŞ

*16 mart 2019-cu il ............................................ 290*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BEJİ KAİD ƏS-SEBSİYƏ

*18 mart 2019-cu il ............................................ 293*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ARİF ALVİYƏ

*18 mart 2019-cu il ............................................ 294*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PROKOPİS PAVLOPULOSA

*18 mart 2019-cu il ............................................ 295*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ƏBDÜL HƏMİDƏ

*18 mart 2019-cu il ............................................ 296*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 mart 2019-cu il ............................................ 297*

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ ÜMUMXALQ ŞƏNLİYİNDƏ İŞTİRAK

*19 mart 2019-cu il ............................................ 304*

BİRLƏŞMİŞ ƏRƏB MİRLİKLƏRİNİN ENERJİ VƏ SƏNAYE NAZİRİ SÜHEYL MƏHƏMMƏD ƏL-MƏZRUİ İLƏ GÖRÜŞ

*18 mart 2019-cu il ............................................ 313*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KASIM-JOMART TOKAYEVƏ

*20 mart 2019-cu il* ............................................ *315*

İRAQ RESPUBLİKASININ
PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BƏRHAM
SALEHƏ

*23 mart 2019-cu il* ............................................ *316*

QEYDLƏR ........................................................ *319*

*Şəxsi adlar göstəricisi* ....................................... *368*

*Coğrafi adlar göstəricisi* ................................... *374*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.